# TASUA ƏSGƏRİ

## Hərəm müdafiəçisi Şəhid Mustafa Sədrzadənin həyat hekayəsi

**Qələmə alan: Nəvid Novruzi, Pərisa Vəzirlu**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:....................................Tasua əsgəri**
**Qələmə alan:.......Nəvid Novruzi, Pərisa Vəzirlu**
**Çap tarixi:....................................................2024**
**Çap növbəsi:............................................Birinci**
**Tiraj:............................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 55-18-77, 500-249,

ISBN 60-54-024518-59

# 1

# Səni əsgər edəcəyəm

## *Otağı yandıraram*

**Həkimə Əfqəh (anası)**

Mürtəza dünyaya gələndə Mustafa üç yaş yarımlıq idi. Bir dəfə uşağı qucağıma götürmüşdüm, hamama aparmaq istəyirdim. Mustafa yaxınlaşıb uşaq dili ilə dedi ki, qardaşımı mən yumaq istəyirəm. Dedim ki, oğlum, olmaz.

Hamamdan çıxanda birdən Mürtəzanın ayağından tutub qucağımdan dartdı. Acıqla dedim ki, niyə belə edirsən? Hirslə cavab verdi: "İndi ki vermirsən, mən də otağı yandıracağam!"

Fikir vermədim, düşündüm ki, uşaqdır, dəcəlliyindən bir söz deyir. Mürtəzanı geyindirib pilləkəndən enmək istəyəndə mətbəxdən tüstü çıxdığını gördüm. Ora çatanda gördüm ki, kovroliti yandırıb. Qapı tərəfi yandırmışdı ki, mən tez bilim. Özü də o boyu ilə bir ədyal götürüb dayanmışdı ki, yanğın böyüsə, üstünə atıb söndürsün. Onda başa düşdüm vəziyyətini.

Mustafa məhərrəm ayının 5-də, 10.09.85 tarixində Şüştərdə dünyaya göz açdı. Özüm Təbatəbai seyidəm, həyat yoldaşım da ana tərəfindən seyiddi. Mustafa bir qız, bir oğuldan sonra üçüncü övladımız idi.

Onun doqquz aylığında Şüştərdən Əhvaza köçdük. Evimiz ikinci mərtəbədə idi və mən buna görə həmişə narahat idim. Mustafa bacı və qardaşından daha dəcəl idi. Bəzən qapı açıq qalanda bilirdim ki, başına bir iş gələcək. Bir dəfə təsadüfən qapı açıq qalmışdı, çatıb onu saxlamayım deyə on dörd pilləni qaçıb özünü küçəyə atdı. Dörd-beş yaşında isə ikinci mərtəbənin pəncərəsindən sallanıb birtəhər küçəyə hoppanmışdı. Yoldan keçənlər onun o yaşda belə hərəkətini görəndə əlləri ağızlarında qalmışdı.

Düz divara dırmaşırdı! Ağaca dırmaşmaqda yaşıdlarıyla yarışa girirdi. Əyləncəsi bu idi.

Bir dəfə Şüştərə qohumlarımızı ziyarətə getmək üçün hamımız maşına mindik. Pəncərənin yanında oturmaq üçün bacı və qardaşı ilə dalaşırdı. Axırda da hirslənib dedi ki, maşını saxlayın, mən burada düşməliyəm.

- Burada düşüb hara gedəcəksən? – deyə atası soruşdu.

- Bibimgilin evini tanıyıram, - dedi.

Altı yaşı təzə tamam olmuşdu. Atası ilə bir-birimizə baxdıq. Bilirdik ki, tanımır, amma özünü o yerə qoymayıb israr edir. Atası yavaşca: "Qoy görək nə edəcək" – deyib maşını saxladı, Mustafa da dərhal yerə atıldı. Atası onu qorxutmaq üçün yola davam edib azca irəlidə saxladı.

- Belə eləmə, qorxuram. Doğrudan da gedər ha! – dedim.

- Yox, tanımır, - deyə atası bir qədər də gedib irəlidən dövrə vurdu.

Biz qayıdanda Mustafa yox idi. Nə qədər axtardıqsa, tapılmadı. Tez bibisigilə getdik, zənglərinə basdıq, amma

evdə deyildilər. Qapının önündə hirslə gəzişirdim, başım gicəllənirdi. "Biz ona nə isə başa salmaq istərkən o, bizə ağır bir dərs verdi" dediyim yerdə, Mustafa divarın üstündən dilləndi:

- İndi gördünüz ki, gedə bilərəm?

- Sən necə bizdən qabaq gəlib divarın başına çıxdın, bizi də bu qədər qorxutdun?! – atası bərkdən soruşdu.

- Siz gedəndən sonra bir motosikletçi gəldi. Ona dedim ki, ağa, bağışlayın, mexanik Əhmədi tanıyırsız? Dedi ki, hə. Dedim ki, onlara getmək istəyirəm, amma evlərini tanımıram. O da məni bura gətirdi.

Dəcəlliklərinin həddi-hüdudu yox idi. Mən artıq yorulmuşdum. Həqiqətən, qorxurdum ki, başına bir iş gələr. Odur ki, niyə bu qədər dəcəl olduğunu öyrənmək üçün onu psixoloq yanına apardım. Psixoloq xanım onunla bir saat danışandan sonra mənə dedi:

- Xanım Sədrzadə, Mustafanın yalnız bir problemi var, o da kiçik cüssəsinə sığmayıb fəvvarə vuran böyük ruhudur. Onu incitməyin və ona həkimə getməli olduğunu söyləməyin.

Böyüyəndən sonra bütün dəcəlliklərini yadına salıb deyirdi: "Ana, mən səni çox incitmişəm".

# *Daha narahat deyildim*

**Həkimə Əfqəh**

Tasua günü idi. Uşaqlarla birlikdə anamgilə rövzə məclisinə getdik. Oturduğumuz yerdə birdən qonşuların biri gəlib anama dedi:

- Bibi, motosikletçi uşağını öldürdü.

Mustafa kanalın yanında dayanıbmış, bir motosiklet onu böyründən vurub yıxıtmışdı. Başı bordürə dəymiş, bütün

alnı və üz-başı qana boyanmış, böyrü də əzilmişdi. Elə vəziyyətdəymiş ki, qonşular qorxu içində öldüyünü söyləyirmişlər.

Mən qorxudan quruyub qaldım, yerimdən tərpənə bilmədim. Oturduğum yerdə qarşımda həzrət Əbəlfəzin adı yazılmış bayrağı görüb dedim: "Ya Əbəlfəz! Bu, sənin əsgərindir. Söz verirəm ki, sənə yaxşı əsgər təhvil verəcəyəm".

Bu fikir ürəyimdən keçdi və Mustafanı həzrət Abbasa əsgər nəzir etdim. Bu hadisə məhz Tasua günü, yəni məhərrəmin 9-da günortadan öncə baş verdi.

O nəzirdən sonra başına nə gəlirdisə, onu itirəcəyimdən qorxmurdum; hətta Karun çayında çimmək kimi təhlükəli işlər zamanı da. Çünki Əhvazın Karun çayı çox dərindir, hətta o vaxt köpəkbalığı da vardı. İlk dəfə ora çimməyə gedəcəyini söyləyəndə inanmadım, düşündüm ki, uşaqdır, deyir. Amma, həqiqətən də, gedib çimdi. Bir işi görəcəyini desəydi, mütləq edərdi.

Dəfələrlə ağır yaralar aldı, amma sağ qaldı. Bəzən deyirdi: "Ana, əmin ol ki, vaxtım çatana qədər varam". Artıq özüm də buna inanırdım.

## *Ziyanlı çərşənbə axşamı*

**Zəhra Sədrzadə (bacısı)**

Mustafa bir yerdə qalmırdı. Anam bizimlə oynayır, başımızı telefonla qarışdırırdı ki, Mustafa evdə qalsın, küçəyə çıxmasın, amma olmurdu. Anam onu uzaqbaşı bir-iki saat oyunla evdə saxlaya bilirdi. Mən böyük uşaq idim, anamla bir qrup olurduq, Mustafa ilə Məhəmmədhüseyn də bir qrup. Lakin ev oyunları Mustafanın həyəcanını təmin edə bilmirdi.

Bir dəfə Məhəmmədhüseynlə birlikdə ilaxır çərşənbəsi üçün anamdan gizlicə əl qumbarası və dinamit almışdılar. Bayırda partlatmamışdılar; Mustafa demişdi ki, səsi çoxdur, küçədə partlatsaq, camaat söyər. Küçədə partlatmamaları yaxşı hal olsa da, Mustafanın təklifi ilə evimizin tualetində partladaraq yetərincə ziyan vurdular.

## Bayram axşamının sürprizi

**Məhəmməd Sədrzadə (atası)**

Çərşənbə axşamı idi. Əsla gözləmədiyimiz halda Mustafa tualetə bir qumbara atdı. Evimiz ikinci mərtəbədə yerləşirdi. Çuqun kanalizasiya boruları partladı, evdə dəhşətli gurultu qopdu, unitaz çilik-çilik oldu. Evimizdə cəmi bir tualet vardı. Ağır maddi şərait içində bir ayın maaşını verib tualeti təmir etdirdik.

## Luçu güləşi

**Həkimə Əfqəh**

Mustafanın on yaşına qədər Əhvazda qaldıq. O, dördüncü sinifdə oxuyanda şimala, Babulun Geloqah kəndinə köçdük. Ağciyərimdə problem yaranmış, həkim təkidlə tapşırmışdı ki, yaşayış yerimi dəyişim. Məndə Əhvazın havasına allergiya yaranmışdı, şimalda dağ havasında yaşamalı idim.

Şimalda yaşadığımız iki ildə Mustafa Mazandaran ləhcəsinə elə alışdı ki, babullular onun Babulun kəndindən olduğunu sanırdılar. Altı nəfərdik, heç birimiz yerli ləhcə ilə onun kimi danışa bilmirdik.

Düyü mövsümünün sonunda şimallıların yerli güləş növü olan luçu güləşinə tamaşa etməyə getdik. Mustafanın

bu güləşdən çox xoşu gəlirdi. Camaatın arasından siyrilib meydanın ortasına getdi və dedi: “Mən də güləşmək istəyirəm”. Güləşçi və tamaşaçılar məəttəl qaldılar.

## *Möhkəm sillə*

**Məhəmdhüseyn Sədrzadə (qardaşı)**

İdmançı olsa da, cüssəsi balacaydı. Bir gün özündən böyük biri ilə dalaşırdı. Atam onları ayırıb soruşdu ki, niyə dalaşırsız. Həmin uşaq dedi ki, mənə ana söyüşü söyüb. Halbuki tamamilə əksinə olmuşdu. Atam dedi ki, Mustafa ana söyüşü söyməz. O dedi ki, yox, namus söyüşü söyüb. Onun boyu hündür idi, Mustafanın isə qısa. Mustafa ona dedi: “Mənim gözlərimin içinə bax və de ki, doğru deyirəm”. O, başını aşağı salıb dedi ki, doğru deyirəm. Mustafa da qulağının dibindən möhkəm bir sillə vurdu.

## *Tüklü bala itlər*

**Zəhra Sədrzadə**

Məktəbdən çıxan kimi sıx ağacların rütubət qoxusu burnuma dolurdu. Şimalda yeni məktəbim düz meşənin ortasındaydı. Mustafanın oxuduğu məktəb də bir qədər aşağıda yerləşirdi və yaxşı həyəti vardı. Dərsdən çıxandan sonra meşədə və düyü sahələrində oynamağa başlayırdı. Heyvanları çox sevirdi, cücə, toyuq və ördək saxlayırdı. Hər səhər məktəbə gedəndə mənə tapşırırdı ki, su və dənlərinə baxım.

Sonralar Şəhriyarda qalanda bir gün evə bir neçə tüklü bala it gətirdi. Deyirdi ki, özlərini qoruya bilənə qədər saxlayacağam. Anam dedi ki, bunlar murdardır, harada saxlayacaqsan? O, narahat olmasın deyə dama apardı.

Onlara qulluq edir, süd alırdı. Həmişə damdan enəndə də birbaş hamama gedirdi. İtlər böyüyəndən sonra aparıb haradasa buraxdı.

## *Şimaldan köçmək*

**Məhəmməd Sədrzadə**

Şimalın havası gözəl idi, amma biz qəribdik, qohumlarımız üçün darıxırdıq. Nəhayət, Mustafa dayı Şəhriyar rayonunu təklif etdi. O vaxta qədər adını da eşitməmişdim. Dedi ki, oranın da ab-havası yaxşıdır, korpusa məxsus qəsəbəsi də var. Mən korpusun tibb bölməsində işlədiyimə görə sevindim ki, ən azı eyni geyimi bölüşdüyüm adamlarla bir yerdə olacağam.

2000-ci ildə Əhvazdakı evimizi satdıq, bir az da kredit və borc alıb Şəhriyarın Kohənz rayonunda bir bina evi aldıq. Orada korpusun bir qəsəbəsi vardı. Mustafa yeniyetməliyini orada keçirdi.

## *Aktyor olmaq istəyirəm*

**Həkimə Əfqəh**

Bir gün gəlib dedi ki, aktyor olmaq istəyirəm. Şəhriyarın Mədəniyyət sarayı yay tətilində məşhur bir rejissoru gətirib teatr və aktyorluq kursu təşkil etmişdi. İştirak haqqı yüksək idi, özü də üçaylıq ödənişi qabaqcadan alırdılar. Dedi ki, mütləq bu kursda iştirak etməliyəm.

Ona baxa-baxa qalmışdım. On üç yaşlı Mustafamın istəyi vardı.

- Etirazım yoxdur, amma sevdiyin bu sahə bizə görə deyil, - dedim.

- Mən gərək görüm aktyorluq nədir.

Çətin olsa da, üç ayın ödənişini düzəldib verdim.

Kursun başlamasından hələ bir həftə ötməmiş gəlib dedi:

- Ana, bir söz demək istəyirəm, amma üzüm gəlmir.

- Nə olub? – soruşdum.

- Mən daha kursa getmək istəmirəm.

- Niyə?

- Nəinki məni, heç məndən böyükləri də sayıb hicab bağlamırlar. Rollarını məşq edəndə oğlan-qız birlikdə olurlar, məhrəm-naməhrəm bilmirlər. Nə qədər deyirəm ki, mən naməhrəməm, gərək riayət edəsiniz, amma qulaq asmırlar.

Hələ həddi-büluğa çatmasa da, belə məsələlərə əhəmiyyətli yanaşırdı.

# 2

# Meydan tələbəsi

## *Xarici dil*

**Səccad İbrahimpur**

Mən niyə xarici dili öyrənməliyəm?! Onlar bizim dilimizi öyrənsinlər!

İnglis dili dərsindən kəsildiyi üçün bu cavabı verirdi. Əvvəldə bir sinifdə oxusaq da, mən liseyi bitirmişdim, o isə hələ attestatını almamışdı.

O qədər dedik, mən riyaziyyatda, bacısı da inglis dilində kömək etdi, nəhayət, imtahandan keçib attestatını aldı. Universitet dönəmində bildim ki, o, bir işi görmək istəsə, bütün iradəsini toplayır, amma görmək istəməsə, öldürsən də xeyri yoxdur. Həmin adam üç il ərzində Dəri və ya Əfqan farscasını və Ərəb dilini müxtəlif ləhcələrdə öyrəndi, amma təhsil boyu İnglis dilindən kəsilirdi.

# *Ləyaqətli 10 bal*

**Zəhra Sədrzadə**

Dəstəmaz alıb iki rükət namaz qıldı, sonra yanıma gəlib dedi:

- Bacı, sabah imtahanım var, gəl birlikdə hazırlaşaq.

Saata baxanda ağlım başımdan çıxdı; gecə saat 12 idi.

- Mustafa, kitabın mühüm yerlərini sənə iynəylə də vursam, 24 saat çəkər, - hirslə dedim. – 2-3 saata imtahana hazırlaşmaq istəyirsən?!

- Narahat olma, ləyaqətli 10 bal mənə kifayətdir.

Tez-tez saata baxır, hirslənirdim. Vaxtı az ola-ola dərsin ortasında oyun çıxarır, lətifə söyləyirdi. Qrammatikanı tez-tez izah edir, bu əsnada sözlərin mənasını da deyirdim.

İmtahandan sonra soruşdum ki, neçə aldın?

- Bacı, 18 aldım, 8 bal da əlavə!

İstedadını sevdiyi işlərə sərf edirdi.

# *Olduqca istedadlı*

**Həkimə Əfqəh**

Olduqca istedadlı idi. Sinifdə diqqətinin dərsdə olması kifayət edirdi, evdə oxumasına ehtiyac qalmırdı. Nəyisə sevsəydi, bir dəfə deyən kimi öyrənirdi.

# *Hövzə*

**Məhəmməd Sədrzadə**

Sinifdə nəyə qulaq asırdısa, onunla da imtahan verib qiymət alırdı. Əlbəttə, bir dəfə kəsildi, amma oxuyub yenə imtahan verdi və qəbul oldu. Attestatını alandan sonra

Tehranda yerləşən İmam Musa ibn Cəfər (ə) mədrəsəsinə girib üç il də orada təhsil aldı.

## *Sınıq qulaqlar və əmmamə*

**Əliəkbər Fərhəngian**

Arıq bir oğlan içəri girdi. Altıcibli şalvar və yaxasız köynək geymişdi. Bu görkəmdə mədrəsənin otağına girəndə öz-özümə dedim: "Bismillah! Qulaqları sınmış bu adam kimdir?!"

- Bizim qonşumuz Mustafa Sədrzadədir, - hələ beynimdəki suallar bitməmiş Mehdi Ziyayi dedi. – Birinci səviyyə tələbəsidir, bundan sonra bizim otağımızda qalacaq.

Həmişə əlləri cibində, boynu irəlidə olurdu. Onu görəndə zarafata deyirdim:

- Sən ananın canı, düzünü de, hövzəyə niyə gəlmisən?

- İtiyimi axtarıram, - deyirdi.

- Get, itirdiyini başqa yerdə axtar. Əminsən ki, hövzə tələbəsi olmaq istəyirsən? Təsəvvür elə ki, bu sınıq qulaqlarının üstündən əmmamə qoydun; kimsə yaxınlaşıb səndən şəriət hökmü soruşar?!

## *Hacı Mənsurun moizəsi*

**Məhəmməd Sədrzadə**

Sübh tezdən müəllimin aramsız qışqırıqlarından diksinib oyandılar. Onları dərsə oyatmasınlar deyə gecədən otağın qapısını kilidləmişdilər. Amma müəllim niyyətlərini anlamış, yandakı otağın qapısından onları yaxalamışdı.

Gecə heyətin əzadarlığından gec gəldiklərinə görə dərsdə yuxulu halda oturmağa məcbur idilər. Bunu mənə Mustafa danışmışdı.

- Müəllimimiz axşam məddah Hacı Mənsurun rövzədən qabaq oxuduğu bir hədisin mövzusu barədə danışdı, birdən mənə dedi ki, bununla bağlı bir hədis de. Mən də Hacı Mənsurdan eşitdiyim hədisi söylədim. Soruşdu ki, mənbəyi nədir? Dedim ki, Hacı Mənsur. Bunu eşidən kimi hirsləndi, dedi ki, sən gedib Hacı Mənsura dərs deməlisən, o, sənin moizəni dinləməlidir, sən onun yox!

Düşünürdü ki, tərbiyəvi işə yaramayan bir dərs heç bir işə yaramır. Buna görə dərslərdə iştirak etmir, onun yerinə əzadarlığa gedir, ya da Bəsicdən patrul çıxırdı. Hövzənin müdiriyyəti ondan çox şikayətçi idi.

## *Mədəni-tərbiyəvi iş*

**Meysəm Nuri**

Mustafa uzaqdan diqqət çəkənlərdən deyildi, amma tələbə ruhiyyəsi və davranışı vardı. Yaşda məndən kiçik idi, amma hər ikimiz birinci səviyyə tələbəsi idik. Mən onunla 2003-cü ildə həzrət Musa ibn Cəfər (ə) mədrəsəsində tanış oldum.

Bizi müxtəlif otaqlara böldülər. Tələbələrin özləri sonradan düşüncə və zövqlərinə müvafiq olaraq yerdəyişmə etdilər. Bizim otağımızda bəsici vardı. Mustafa da bəsici idi və bizimləydi. O, mədəni-tərbiyəvi işlə bağlı çox əndişəli idi.

Əllamə Təbatəbaidən belə nəql edirdi: "Tələbə İslam təlimlərini yaymaq istəyirsə, gərək dərsi öyrənsin və həmin gün də onu başqalarına izah etsin".

Mustafa birinci səviyyədən, hələ hövzə ixtisaslarına daxil olmadan bunu edirdi.

Bəzən otağımızın kitabxanasından uşaqlara aid kitablar tapır, dərsləri bitəndən sonra Bəsic mərkəzinə gedib kitabda yazılanları uşaqlara öyrədirdi. Bütün fikir-zikri uşaqlarla mədəni-tərbiyəvi işdən ibarət idi.

## Mədrəsə otağı, şahmat, Şəcərian

**Sübhan İbrahimpur**

Mustafa yeniyetmə mərkəzi yaradıb orada fəaliyyət göstərməklə yanaşı, hövzədə təhsil də alırdı. Onun mədrəsəsi Tehranın Lalə parkının yanında yerləşirdi. Mustafa ilə bir dostu çox vaxt o parka gedir, orada şeir oxuyurdular. Otaq yoldaşları çox da hövzə ab-havasında deyildilər. Özü deyirdi ki, bizi görən hər kəs "siz bəsicilərdən hövzə tələbəsi çıxmaz" deyir.

Dostu deyirdi ki, bir gün Mustafa ilə otaqda şahmat oynayırdıq. Otağın o tərəfindən də müğənni Şəcərianın səsi gəlirdi. Bir anın içində ağ əmmaməli biri "ya Allah" deyərək qapını döymədən içəri girdi. Nə etməli olduğumuzu düşündüyümüz yerdə gördük ki, Mehdi Kərrubidir, yoxlanışa gəlib. Baxıb dedi ki, ayıb olsun! Amma uşaqlar vəziyyəti birtəhər izah edib onu yola saldılar.

## Onun əvəzinə

**Meysəm Nuri**

Zarafatcıl idi. Qarlı bir gündə dərsdən sonra uşaqlarla Cəmşidiyyəyə getdik. Onda Reno-5 avtomobilim vardı. Bütün maşınlar yolda qalmışdı, bizsə rahat getdik.

Oraya çatanda Mustafa ilə Nadiri soyadlı bir dostumuzun zarafat damarı tutdu. Nadiri dedi ki, kim dağın başından qarın üstüylə aşağı diyirlənsə, qırx min tümən verəcəyəm. Mustafa dedi ki, hacı, verəcəksən? Dedi ki, hə. Mustafa da dərədən keçib qarşıdakı dağın başına qalxdı və oradan aşağı diyirləndi. Yanımıza gəlib "hacı, getdim" deyən kimi Nadiri qaçıb getdi.

Bir həftədən sonra yenə Cəmşidiyyəyə getdik. Bu dəfə Mustafa dedi:

- Kim suya hoppana bilər? Kim hoppansa, əlli min tümən verəcəyəm.

- Mən hoppanaram, - təsadüfən, bu dəfə Nadiri dilləndi və suya atıldı.

Bayıra çıxandan sonra Mustafa dedi:

- Yadındadır, keçən dəfə məni fırlatdın? Bu, onun əvəzinə!

## *Çəkələklə Bəmə doğru*

**Məhəmməd Sədrzadə**

Çəkələklə küçənin başına çörək almağa getmişdi. Evdə onu gözləyirdik. Birdən telefon zəng çaldı. Anası cavab verdi. Əlində dəstək gözlərini bir nöqtəyə dikdiyi halda təəccüblə soruşdu:

- Çəkələklə?

Danışıb qurtarandan sonra hələ də təəccüb dolu baxışla bizə dedi:

- Mustafa idi.

İndi də biz təəccüblənib açıqlama gözləməyə başladıq:

- Dedi ki, narahat olmayın, Bəmə yardıma gedirəm.[1]

---

[1] Onun yaşadığı Şəhriyar şəhəri ilə zəlzələ nəticəsində dağılmış Bəm şəhərinin 1160 km. fasiləsi var.

Hövzənin birinci kursunda oxuyanda Bəmdə zəlzələ baş vermişdi. Evə çörək almağa yollanmış, amma hava limanına gedib çıxmışdı. Şəhriyarda Qırmızı Aypara Cəmiyyətinin əməkdaşlarından birini hava limanında görmüş, onun köməyi ilə təyyarəyə minmişdi; özü də çəkələklə.

İşlərini heç vaxt proqnoz etmək olmurdu.

## *Bəm zəlzələsi*

**Əmirhüseyn Hacınəsiri**

Mehrabad hava limanına getmişdi ki, görsün Bəmə getmək olur, ya yox. Bizə də xəbər verməli idi, amma nə xəbəri gəldi, nə özü.

Bir müddətdən sonra qayıdanda dedim:

- Ay insafsız, əgər gedirdinsə, bizə də deyəydin, gələydik!

- Mümkün deyildi. Tələsik oldu, gərək gedəydim.

Ora yardıma getmişdi, amma o qədər cəsəd görmüşdü ki, halı pisləşmişdi.

## *Nəsrullahın bağından oğurluq*

**Mehrdad**

Altıncı sinifdə oxuyanda bir dostumla birlikdə Kohənzdə bir bağa girib meyvələrini dərdik. Bağdan çıxanda Mustafanın postunda yaxalandıq. Qarınlarımızı alça və əriklə doldurmuşduq. Əl və ciblərimiz də doluydu. Birdən yaxamdan yapışıb dedi:

- Bura gəl görüm, camaatın bağından oğurluq edirsən?

- Bağ Nəsrullahındır, sənə nə dəxli var?! – dedim.

- Hə, bağ Nəsrullahındır, sən də onun oğlu deyilsən, bəs sənə nə dəxli var?! Gəl gedək.

- Burax məni, - qışqırmağa başladım, - sənə dəxli yoxdur. Sən kimsən axı?

Çalışırdım ki, əlindən çıxıb qaçım. Qulağımın dibindən bir sillə vurub dedi:

- Səninlə işimiz yoxdur. Biz Kohənzin əl-Qədir mərkəzinin bəsiciləriyik.

- Ağa, qələt eləmişəm, - bunu eşidən kimi dedim, - bağışlayın. Alın, bütün əriklər sizin olsun.

- Bəs sən yemək istəmirsən? Gəl, birlikdə gedək.

Bağ sahibinin ünvanını söylədim, bizi zorla Nəsrullahın evinə apardı. Yoldaşım zirək tərpənib yolda qaçdı, mənsə o iki nəfərin əlində qaldım. Çox qorxurdum.

Mustafa bütün ərikləri sellofana tökdü, məni yoldaşına tapşırıb dedi ki, kənarda dayanın.

Qapını döydü. Nəsrullah qapını açanda ona dedi:

- Şahçahinin yanındakı bağ sizindir?

- Hə. Nə olub ki? – deyə Nəsrullah soruşdu.

- Bir zavallı oradan keçəndə könlü çəkib, bağınızdan bir neçə meyvə dərib. İndi peşmandır, deyir ki, pis iş görmüşəm və bu meyvələr haramdır. Onları sizə qaytarmaq istəyir.

- Eybi yoxdur, amma deyin ki, bir də bağa girməsin. Bu meyvələr də sizin olsun.

Mustafa gəlib dedi:

- Al, artıq halal oldu. Sahibindən razılıq aldım, indi yeyə bilərsən.

- Çox sağ ol. Meyvələrimi ver, gedim, - dedim.

- Yox. Hələ səninlə işim var.

- Yenə nə var?

- Hər cümə sübh çağı Kohənzin yarısı tikilmiş Əmirəlmömininin məscidində tədbirimiz olur; futbol oynayır,

güləşirik. Çox maraqlı işlər olur: silah və atıcılıq təlimi, stolüstü tennis, həndbol.

- Havayı?
- Havayı.

Bağ yoluyla getdik, məscidi mənə göstərdi, yolda mənimlə danışdı.

- Bağışla ha, səni vurdum! İstəyirdim ki, yediyin halal olsun.

Mənimlə çox danışıb könlümü aldı. Mənə dedi:

- İndi istəsən, mənə sillə vura bilərsən. Sən bunları götürüb haram yolla yemək istəyirdin, amma Allah məni sənin qarşına çıxardı.

"Yox bir, Allah göndərib! Allah sənə deyib ki, mənim meyvələrimi alasan?!" – deyə öz-özümə düşündüm.

## *Oğru qardaş*

**Mehrdad**

Bir müddətdən sonra dedim ki, o, cümə gününə məni dəvət edib; gedim, görüm nə edirlər.

Getdiyim gün məsciddə mərasim vardı, sıra ilə düzülmüşdülər. Məni görən kimi dedi:

- Bəh-bəh! Salam, oğru qardaş!
- Salam, ağa bəsici, - deyə cavab verdim.
- Mənim adım Mustafadır. Sənin adın nədir?
- Adım Mehrdaddır.
- Nə qəşəng adın var!
- Yalan demə. Adım heç də qəşəng deyil!
- Yox, çox qəşəngdir.

Uşaqlar bir neçə qrupa bölünmüşdülər: Sarəllah, Həzrət Əbəlfəz və Məhəmməd rəsulullah (s). Məni Məhəmməd rəsulullah (s) qrupuna saldı. İki cümə gedib-gəldim.

Üçüncü cümə məni danlayıb dedilər ki, sən Dinarabaddansan, Kohənzə niyə gəlmisən. İki-üç nəfər mənimlə dalaşıb vurdular.

- Burada hər günün belə olacaq; döyüləcəksən, - Mustafa dedi.

- Bəs nə edim?

- Get, dostlarını topla, bura gətir, siz də bir qrup yaradın. Əgər dostların çox olsa və qrup olsanız, daha heç kim sizə bir söz deməyə cəsarət etməz.

Ertəsi gün məktəbə getdim, nə qədər sinif yoldaşım, dostum, yoldaşım vardısa, hamısını toplayıb dedim:

- Mən Bəsicə gedirəm. Orada səhər yeməyi də verirlər.

Növbəti cümə üçü mənimlə gəldi. Onlar da maraqlı keçdiyini, futbol və digər oyunlar oynadığımızı görüb gələn həftə hərəsi iki dostunu gətirdi. Piramida şirkətləri kimi hər həftə sayımız çoxalırdı. Dinarabadlılar hər həftə çoxalırdı, kohənzlilər isə eyni sayda qalırdı. İki cərgəyə düzülürdük, Mustafa bizim aramızda futbol yarışı keçirirdi.

## *Dinarabadlılar*

**Xudayar Bəhrami**

Bəzən Əmirəlmömininin məscidi Mustafanın cəlb elədiyi o qədər adama dar gəlirdi. O, yeniyetmələrlə danışır, onları cəlb edirdi, onlar da gedib dostlarıyla birgə gəlirdilər.

Mustafa Dinarabaddan Mehrdad adlı bir yeniyetmə cəlb eləmişdi. O deyirdi ki, Dinarabaddan əl-Qədir mərkəzinə kim gəlirsə, Mehrdad gətirir.

# *Taekvondo ödənişi*

**Mehrdad**

Bir gün atama dedim:

- Uşaqlar Əmirəlmöminin məscidinin aşağısında yerləşən Taekvondo klubuna gedirlər. Qoy mən də gedim.

- Məgər mən Taekvondoya getməmişəm, böyüyə bilməmişəm?! Aylığı neçədir?

- 1500 tümən.

- Mən 1500 tüməni haradan gətirim?!

Mustafanı görəndə dedim:

- Taekvondo klubuna getmək istəyirəm, - onda uşaqların məsciddə güləş öyrəndiklərini bilib əlavə etdim: - Güləşi sevmirəm.

- Niyə?

- Sarəllah qrupunun uşaqları birdən tökülüşüb məni vururlar.

- Yaxşı.

Gedib klubun rəhbəri ilə görüşdük. Ona dedi:

- Bu, öz Bəsic mərkəzimizin uşaqlarındandır. Sizin kluba gəlmək istəyir.

- Bizimçün fərqi yoxdur, - ustad Səfayi dedi, - biz hamıdan 1500 tümən alırıq.

- Axı bu, bəsicidir, - Mustafa dedi.

- Bəsicidirsə, 1400 tümən verər.

Atama dedim ki, klubun aylıq ödənişi 700 tüməndir. Qalan 700-ü də Mustafadan aldım. Bir il bu minvalla məşqə getdim, sonra isə özüm işləyib verdim.

Yalnız bu deyil. Mənimçün və digər uşaqlar üçün əlindən nə gəlirdisə, edirdi.

## *Azançı, mükəbbir, məddah*

**Mehrdad**

Məsciddəydim. Uşaqların biri azan verdi. Hacı ağa Bəhrami dedi:

- Azançının salamatlığı üçün salavat!

Paxıllığım tutdu, dedim ki, gör onu necə istəyir. Ondan sonra azan vaxtı gələn kimi tez evə gedib televizoru açır, ağa Müəzzinzadənin azanını məşq edirdim. Öyrənəndən sonra məscidə gedib hacıya dedim. O və Mustafa çox sevindilər.

Ondan sonra hər dəfə ekskursiyaya gedəndə Mustafa deyirdi ki, Mehrdad, azan ver. Məni həvəsləndirirdi. Eynilə Müəzzinzadə kimi azan verir, özüm də çox həzz alırdım. Düşünürdüm ki, bu qədər adamın içində yalnız mənə deyir ki, qalx, azan ver.

Bir gün bəsicilər üçün toplantı keçiriləndə Hacı Bəhrami uşaqların birinə dedi ki, qalx, Quran oxu. Quran tilavətindən sonra isə onun başını öpdü və dedi:

- Qiraətçimizin salamatlığı üçün salavat!

"Vay-vay! Quran oxumağı da öyrənməliyəm ki! – deyə öz-özümə düşündüm. – Azanı bilməyəndə deyirdilər azan, indi də Quran oxumağı bilmirəm, deyirlər Quran!"

Əmirhüseyn Hacınəsiri ilə görüşüb dedim:

- Aağ Əmirhüseyn, sən Allah, mənə bir az Quran öyrət.

Axırda Mustafa Hacı Bəhramini dəvət edib Quran kursu təşkil etdi. Uşaqların çoxu ondan Quran öyrəndilər və quranoxuyan çoxaldı. Azançı isə hələ də az idi.

Bir müddət ötdü. Bir cümə günü əl-Qədir yeniyetmə mərkəzində keçirilən səhər mərasimində Mustafa mənə dedi ki, Mehrdad, Aşura ziyarətnaməsi oxu. Dedim ki, bacarmıram. Dedi ki, oxu. Xülasə, başlayıb necə gəldi

oxudum. Aşura ziyarətnaməsindən heç nə bilmirdim. Mustafa üç-dörd gün mənimlə işlədi, düzgün oxunuşunu öyrəndim. Bunu öyrənəndən sonra dedi ki, evdə Təvəssül duasını da məşq edərsən. Bu duanı düzgün oxumaq üçün də mənimlə çox işlədi.

- Səsin yaxşıdır, heyifdir, - deyirdi, - gərək öyrənib məddahlıq edəsən. Məddahlıq kursuna get.

Məni Kohənzin əl-Məhdi məscidinə məddahlıq müəlliminin yanına aparıb dedi:

- Bu, məscidimizin bəsicisidir, məddahlıq öyrənmək istəyir.

- Problem yoxdur, adını yazdırsın, - o dedi. – Ödənişi də aya iki min tüməndir.

- Atam iki min tümən verməyəcək, - mən dilləndim.

- Mən verərəm, - Mustafa dedi.

Bir il məddahlıq kursumun pulunu verdi. İndi məddahlıq barədə uşaqlara öyrətdiyim dərslərin hamısını orada öyrənmişəm.

# *Atadan mehriban*

**Mehrdad**

"Mərmi!" – deyə qışqıranda hamı bir nəfər kimi uzanır, bir-birinin üstünə düşürdü. Ayağa qalxandan sonra Kalaşnikov avtomatı ilə başımızın üstə dayanıb dərs keçirdi. Sonra da silahı söküb-yığmaq yarışı başlayırdı. Bunlar sıraya düzüləndən, düzlən-farağatdan və çoxlu oturub-durandan sonra baş tuturdu.

Məscidin ilk günləri mənimçün daha çox, əyləncə xarakterli idi, qəsəbə uşaqları üçün isə belə deyildi. Onlara otur-qalx komandası və hərbi tapşırıqlar verirdi. İyirmi nəfər olandan sonra bizə də ağır təlimlər verməyə başladı.

Qrupumuzun adını Əmirəlmöminin qoydu və bizə narıncı rəngini seçdi. Bizimlə hərbçi kimi davranırdı.

Sübh saat 7-də məscidə gəlirdik. Aşura ziyarətnaməsindən sonra iki rükət müstəhəb namaz qılırdı. Uşaqlar da ona baxıb qılırdılar. Sonra da hamı öz qrup başçısı ilə yerinə keçirdi.

Sıraya düzülürdük, sonra sürünmək, otur-qalx, silahla məşq... Və növbə Hacı Bəhramiyə çatırdı. Hacı bizə qısa şəkildə etiqadi dərslər keçirdi. Qısa danışdığına görə ürəyimizcə olur və yadımızda qalırdı.

Bəzən də başqa bir ruhani dəvət edirdi; bizə şəriət hökmlərindən danışır, suallarımıza cavab verirdi. Əvvəllərdə Həmzəşahi Aşura ziyarətnaməsi, bəzən həm də mərsiyə oxuyurdu və biz sinə vururduq.

Bəzən Mustafa sual verir, cavab verənə mükafat təyin edirdi. Mükafatı elə oradaca verirdi. Bütün bunlardan sonra növbə Əmirəlmöminin məscidinin zirzəmisindəki klubda oynamağa gəlirdi.

Öz məhəlləmizin uşaqları məni görən kimi ağızlarını büzüb deyirdilər ki, sən bəsicisən, bizə qoşulma. Mən əhəmiyyət vermirdim. Bu məşğuliyyətləri çox sevirdim, cümə gününün səhər mərasimində iştirak etmək üçün əlimdən gələni edirdim. Hətta əvvəllərdə atam qoymayanda anamın icazəsi ilə gedirdim.

Bu, məsələnin bir tərəfi idi. Digər tərəfi bu idi ki, Dinarabad bəsiciləri başımın bədənimdən ayrılmasını istəyirdilər. Öz Bəsicimiz fəal deyildi, buna baxmayaraq, deyirdilər: “Niyə öz məhəllənizi buraxıb oraya gedirsiniz? Məhəllənizi satmayın! Kohənzə gedənlər vətənini satanlardır!”

Mənsə yenə gedirdim. Çünki Mustafanı ürəkdən sevirdik. O, həqiqətən, bizə atadan da mehriban idi.

## *Yuvasını tanıyan göyərçin*

**Məhəmməd Əliməhəmmədi**

Məscidin eyvanında oturub hönkür-hönkür ağlayırdı.

- Vəhid, nə olub? – yaxınlaşıb soruşdum. – Niyə ağlayırsan?

- Bu gün niyə heç kim gəlməyib? – yarımçıq şəkildə cavab verdi.

- Bu gün cümə axşamıdır! – deyə güldüm.

Başını qaldırdı, köynəyinin qoluyla gözlərini silib təəccüblə dedi:

- Elə bilirdim cümədir, uşaqların heç birinin gəlmədiyini görüb kövrəldim.

Bu bala pişiklər Mustafanın yuvasını tanıyan göyərçinlərinə dönmüşdülər, cümə səhərini o qədər sevirdilər ki, günlər yadlarından çıxırdı.

## *Əliaçıq valideyn*

**Əmirhüseyn Hacınəsiri**

Mustafanın uşaqlar üçün gördüyü işlərdə xüsusi gözəllik vardı. Misal üçün, ilaxır çərşənbəsi barədə deyirdi: "Uşaqların partlayıcı partlatmaq həvəsi normaldır, ancaq bunun üçün təhlükəsiz bir yerə getməliyik".

Onları Şahçahiyə aparır, alov yandırırdı. Mustafa onlar üçün əliaçıq valideyn idi. Onlarla dost idi, arxalarında da dururdu. Məsələn, birinin dərsi zəif olsaydı, ona müəllim tapırdı. Uşaqları qanadları altına alırdı. Yeniyetmələrin ata-analarıyla da əlaqə yaradır, hər cür qayğılarına qalırdı. Onlar üçün elə işlər görürdü ki, bizə qəribə gəlirdi. Məsələn, bir gün dördyolda dilənçilik edən uşaqlardan beş-

altısını kluba gətirib mənə dedi ki, onlara güləş məşqi keçim.

- Mustafa, bunları hardan tapmısan? – dedim.

- Nəyinə lazımdır? Hamısına triko və güləş ayaqqabısı alıb gətirmişəm ki, onlara güləş öyrədəsən.

Mustafa yalnız Əmirəlmöminin məscidinə gələn yeniyetmələrlə işləmirdi, kasıb məjəllələrdə də gəzir, əlindən gələn işi görürdü. Mənim oxuduğum ilk rövsə həzrət Qasim rövzəsi olub, əfqanıstanlı qardaşlardan birinin palçıqdan tikilmiş kasıb evində oxumuşam. Mustafa o məclisə ruhani aparmış, rövzə oxumağı da mənə tapşırmışdı.

Hətta bundan da irəli gedib cinayətkarlara yaxınlaşırdı. Bizim məhəlləmizdə belə birisi vardı, bütün üz-başında bıçaq izi görünürdü. Ona demişdi:

- Sən Kərbəlaya getmisən?

- Yox, - deyə cavab vermişdi.

- Sənə bilet alaram, Kərbəlaya gedərsən.

Rəftarını düzəldəcəyinə ümidlə onu öz hesabına Kərbəlaya göndərdi. Nəticə də əldə edirdi. Biz quldur adamları və namusa sataşanları tutub xəbərdarlıq edirdik, Mustafa isə öz “ov”unu axtarır, onlarla söhbət edirdi.

## *Yarılmış baş*

**Vəhid Məhdəvi**

Mustafa işlərlə çox ciddi şəkildə maraqlanırdı. Məsciddə hamı güləş öyrənmək üçün Xəlilinin yanına gedirdi. Mustafa da heç vaxt məşqdən qalmırdı.

Mustafa casus yuvasında[2] peşəkar güləşlə məşğul olurdu, buna görə başı yarılmışdı. Həqiqətən, arıq olsa da, idman fəndlərini yaxşı bilir, bizi də idmana həvəsləndirirdi. Uşaqları kluba aparıb qarşı-qarşıya dayandırır, iki-iki güləşdirirdi.

## *Saxta müqavilə*

**Mehrdad**

Səkkizinci sinifdə altı imtahandan kəsildim. Payızda imtahan verdim, yenə qəbul olmadım. Düşündüm ki, daha bədbəxt oldum. Atam hirslənib demişdi ki, qəbul olmasan, daha məktəbə getməyəcəksən. Ondan çox qorxurdum. Cümə günləri ondan gizlicə Bəsicə gedirdim; çünki bilsəydi, icazə verməyəcəkdi.

Nə edəcəyimi bilmirdim. Anam məsələdən xəbərdar idi. Çox çətinliklə anamla birlikdə şəxsi işlərimi məktəbdən aldım.

Qovluğu evə qoyub atama dedim ki, qəbul olmuşam. O vaxt kim qəbul olurdusa, ya Rzakənddə təhsilini davam etdirirdi, ya da Kohənzin İmam Rza (ə) liseyində. Mən atama dedim ki, Kohənzdə oxuyacağam. Hər gün səhər saat 7-də Kohənzə gedib məscidin qabağında oturur, 12-yə qədər ətrafda gəzişir, sonra evə gedirdim. Səkkiz gün işim bundan ibarət oldu.

Bir gün Mustafa məni görüb dedi:

- Burda nə edirsən? Sən indi məktəbdə olmalısan.

- Ağa Mustafa, mən qəbul ola bilmədim. Əgər atam bilsə, çox pis olar, daha məktəbə də qoymaz. Özün tanıyırsan da!

---

[2] ABŞ-nın keçmiş səfirliyi, indi isə mədəniyyət mərkəzi olan bina

- Onda Kohənzdə yenidən səkkizinci sinfə adını yazdır, o da bilməz.

- Ora da getdim, buraxmadılar.

- Niyə buraxmırlar?

- Direktor dedi ki, eviniz Dinarabaddadır, səni bu məktəbə götürə bilmərik.

- Necə yəni götürə bilmərik?! Gəl gedək.

Məktəbə getdik. Direktor Mustafaya dedi:

- Mümkün deyil! O, Dinarabaddandır, Kohənzdə dərs oxuya bilər?!

- Yaxşı, mən gedib bunların evlərini götürüb Kohənzə gətirərəm, - Mustafa hirslənib dedi.

Kohənzdə bir əmlak ofisinə getdik.

- Formal bir kirayə müqaviləsi lazımdır. Neçəyə yazarsan? – Mustafa alqı-satqı ilə məşğul olan işçiyə dedi.

- Hara üçün istəyirsən?

- Bu uşağı məktəbə götürmürlər. Mən demək istəyirəm ki, bu, bizim Kövsər-1-dəki evimizin zirzəmisində yaşayır. Bunun üçün sənədimiz olmalıdır.

- İyirmi min tümən, - dedi.

İyirmi min tümən o zaman böyük pul idi. Mustafa onu öz cibindən verib mənimçün sənəd aldı. Onu məktəbə aparanda direktor dedi:

- Evinizi nə tez gətirdiniz!

- Biz indi müqavilə imzaladıq, bir-iki günə əşyaları gətirəcəyik, - Mustafa dedi.

Xülasə, o sənədlə adımı məktəbə yazdırıb dedi ki, indi otur, dərsini oxu. Dərslərimlə maraqlanırdı. Dərs ilinin sonunda qəbul olub Rzakənd liseyinə getdim. Atam elə bilirdi ki, mən onuncu sinifdə oxuyuram, halbuki doqquzuncu sinifdəydim. Həmin il də sinifdə qaldım, yenə

atama demədim və o, mənim on birinci sinifdə oxuduğumu zənn etdi.

Mustafanı görüb dedim:

- Ağa Mustafa, bədbəxt oldum.

- Yenə nə olub?

- Doqquz imtahandan kəsilmişəm.

- Kül başına! Doqquz niyə? Dedim axı dərsini oxu, Bəsicə də gəlmən lazım deyil, amma dərsini oxu.

- Nə edim axı; dərs başıma girmir! Mən indi nə edəcəyəm?

- Düzəldərəm.

- Necə? Atam elə bilir ki, on birinci sinifdə oxuyuram.

Mustafa Hacı Bəhrami ilə danışdı, o da ərazi komandirinə zəng edib dedi ki, Mehrdad adlı oğlan İsargəran məktəbində[3] oxumaq istəyir. Onun adını yazın. Orada təhsil almaq üçün qovluğumdakı balım 50-yə çatmalı idi. Digər məktəblər də məni qəbul etmirdilər. Ərazi komandirinin köməyi ilə orada oxuyub attestatımı aldım. Mustafa mənim imtahanlardan qəbul olmağıma çox kömək edirdi; məsələn, səkkizinci sinifdəki müəllimimi məktəbdən gətirirdi və o, Bəsicin otağında mənə dərs öyrədirdi.

[3] İranda müharibə iştirakçıları, şəhid və əlil övladları, habelə fəal bəsicilər üçün nəzərdə tutulmuş orta məktəblər belə adlanır. (müt.)

# 3

# Səngər yoldaşı

## *Evlənmək istəyirəm*

**Məhəmməd Sədrzadə**

- Niyə bu qədər istixarə edirsən? – tez-tez istixarə etdiyini görüb soruşdum.

- Evlənmək istəyirəm.

- Mübarəkdir! Kimlərdəndir?

- Qonşudur.

Bir qədər öncə çox çalışırdıq ki, evlənsin, amma kimin adını çəkirdiksə, məhəl qoymur, deyirdi:

- Siz Allah, əl çəkin; evlənəndə nə olur ki?

Artıq özü bu fikrə düşdüyünə görə təəccüb etdim. Hələ kim olduğunu bilmirdim. Bizdə çoxu qohumla ailə qururdu.

- Özüylə danışmısan? – deyə soruşdum.

- Yox, vallah, - dedi, - heç vaxt!

Deyəsən, belə bir təklif etmişdilər, öz istixarəsi də yaxşı çıxmışdı.

Bir həftə üz vurmayıb məsələni ağartmadım. Sonra gördüm ki, niyyəti ciddidir.

# *Sənə nə?!*

**Sübhan İbrahimpur**

Məsciddə böyüklər mikrofonu bizə vermirdilər. Bu zaman Mustafa yeniyetmələrin konteynerində məddahlıq etmək və Aşura ziyarətnaməsi oxumaq üçün bizə imkan yaradırdı. Özü də bizim məddah olmamızla maraqlanırdı.

Bir dəfə konteynerdə olanda mənə dedi:

- Adını məddahlıq kursuna yazıram. Məddah olmaq istəyirsən?

- Hə, ağa Mustafa, amma pulum yoxdur.

- Puluyla işin olmasın.

Bir dəfə də soruşdu:

- Niyə məddahlığa qulaq asmaq üçün mp3 cihazı almırsan?

- Atam almır, deyir ki, gərək dərslərini oxuyasan. Özümdə də pul yoxdur.

- Atanla danışıb razı salaram. Pulunu da sənə borc verərəm.

Sevindiyimdəm mp3 məsələsini evdə danışanda bacım dedi:

- Lazım deyil sənə mp3 almağı!

Mustafa məni məddahlıq dərsinə aparıb-gətirir, yolda da sual-cavab edib dilimdən söz alırdı. Məsələn, soruşurdu: "Ailədə neçə nəfərsiz? Ata-anan necədirlər? Evdə kim hamıdan çox hirslidir? Bacının davranışı necədir?" Mən də məqsədini anlamadan bütün suallarına dübbədüz cavab verirdim.

Bir gün anamın xalçanın altında bir şey gizlətdiyini gördüm. Gedib məsələni öyrəndim, bildim ki, elçinin nömrəsidir. Elçi də kim olsa, yaxşıdır? Bizim Mustafa! Görünür bu məsələ çoxdan evimizdə müzakirə olunurmuş.

Mən hamıdan balaca olduğuma görə yanımda bu haqda danışmırdılar.

Mustafanın anası və bacısı bizə gəlib-gedəndən sonra cürətlənib bacıma dedim:

- Mən ağa Mustafanı çox istəyirəm, ona "yox" demə.

Bacım məni qabağına qatıb dedi:

- Sənə nə?! Mənim nə deyəcəyim sənə qalmayıb!

Birinci gündən əl-Qədir Bəsic mərkəzində Mustafa ilə zarafatlaşırdıq. Öz-özümə düşünürdüm ki, kaş onu hər gün görə biləydim! Bacıma elçi düşəndə çox sevindim. Bununla fəxr edirdim. Çox da yaraşıqlı və səliqəli deyildi; çox da özəl deyildi, amma həmişə istəyirdim ki, gözümün önündə olsun; dua edirdim ki, qohum da olmasaq, onu görə bilim.

Elçi gələndə Mustafanın nəinki heç nəyi yoxdu, hətta bir dəstə bala pişik də ondan əl çəkmirdi. Bu bala pişiklərin əlindən bizim ailəmizin də rahatlığı yox idi. Onlar məsciddə məni ələ salıb deyirdilər ki, axı buna da qız verərlər?!

## *Bəqərə surəsini oxuyun*

**Əli İbrahimpur**

Novruz bayramından təxminən iki həftə sonra evə gələndə hacı xanım dedi:

- Bir xanım zəng etmişdi, dedi ki, evinizə elçi gəlmək istəyirəm.

Dedi ki, təkcə anası gəlib qızımızı görmək istəyir.

- Eybi yoxdur, - deyə cavab verdim.

Bir neçə gündən sonra zəng edib dedilər ki, Mustafa və ata-anası gəlib danışmaq istəyirlər. Mustafa oğullarımın dostu idi. Buna görə əvvəl onlardan soruşdum.

- Mən təsdiq edirəm, - yaşı az olsa da, Sübhan dedi.

- Necə təsdiq edirsən?

- Mən yüz faiz təsdiq edirəm, - dəlil söyləmədən təkrarlayırdı.

- Mən də razıyam – deyə Səccad dilləndi. – Çox yaxşı uşaqdır: dindardır, bəsicidir.

Mustafanın atası özünü təqdim etmək istəyəndə dedim:

- Ağa Sədrzadə, mən sizin ailənizi tanıyıram. Mustafanı da məsciddə görmüşəm. Səccadla Sübhan da tərifləyirlər. Ancaq hələlik mənim fikrim meyar deyil. Əsas məsələ oğlanla qızın razılığıdır.

- İcazə verirsinizsə, danışsınlar, - dedi.

Mən də icazə verib dedim ki, danışanda Bəqərə surəsini oxuyun, Kövsər surəsini yox. Demək istəyirdim ki, bütün sözlərini danışsınlar.

Söhbətləri qurtarandan sonra qızımın fikrini soruşdum.

- Sonra deyərəm, - deyə başını aşağı saldı.

- Mən hövzə tələbəsiyəm, maddi vəziyyətim də tələbə kimidir, - Mustafa dedi.

- O da tələbədir, buna heç bir etirazımız yoxdur, - deyə cavab verdim.

Səccadla Mustafanın arasında dostluq münasibəti olduğuna görə elçilikdən sonra ona tapşırdım ki, Mustafanın xarakterlərini, vilayət məsələsinə baxışını, ailə davranışlarını, habelə bir sıra dini və düşüncə məsələləri barədə fikirlərini öyrənsin. Danışıb gələndən sonra dedi ki, Mustafa bütün sözlərimi qəbul edir. Qızım da bir neçə gündən sonra razılığını bildirdi.

Razı olduğumuzu söyləyəndən sonra qərara alındı ki, qohumlarına xəbər verib sadə bir nişan keçirsinlər. Bizim imkanımız çatan həddə cehiz vermək adətimiz vardı. Onlar dedilər ki, biz sizə kömək edib bəzi əşyaları özümüz alarıq. Ailə həyatlarına başlamaq üçün nə biz ağır şərt qoyduq, nə

onlar. İş, ev və maddi vəziyyət barədə heç bir söhbət getmədi.

## *İki qızıl pul*

**Xanım İbrahimpur**

Atam mehr barədə danışmaq istəyəndə Mustafanın atası dedi:

- Mənim qızımın və böyük gəlinimin mehri 313 ədəd qızıl puldur. Bu gəlinimiz üçün də bu qədər təyin etmək istəyirik.

Mustafa dizi üstə yerdə oturmuşdu. Birdən ayağa qalxıb dedi:

- Mənim o qədər qızılım yoxdur axı. Mən uzaqbaşı iki, ya da üç qızıl ala bilərəm.

Atam dinmədi. Onun atası dedi:

- Ayıbdır, Mustafa! Yaxşı!

- Mən indi hamının yanında deyirəm: İki qızıl verə biləcəyəm, qalanını atam verəcək.

- Yaxşı, sənin işin olmasın, - ağa Sədrzadə dedi.

Mən böyük mehrə qarşı idim, istəyirdim ki, 14 qızıl olsun, gedib ağanın yanında əqd oxutduraq. Onlar razılaşmayanda nəzərimdə olan 114 idi, ancaq 313 dedilər, mən də sakit qaldım, heç nə demədim.

## *İlk çay*

**Sübhan İbrahimpur**

Səccad podnosu gətirib çay paylayanda Mustafanın qaşları düyünləndi. Mustafanı nə qədər sevsək də, bacımızın çay gətirməsini əsla qəbul edə bilmirdik.

Ondan sonra həftəlik yığıncaqlarımızda bacım çay gətirəndə Mustafa deyirdi:

- Sən o vaxt mənə çay gətirmədin, indi çayı neyləyirəm?! Mənə gətirmə!

## *Göydən gəlir*

**Məhəmməd Əliməhəmmədi**

Mustafanın elçi getmək xəbəri çox tezliklə bala pişiklər arasında yayıldı. Bir-birinə deyirdilər: "Mustafa kostyumla İbrahimpurgilə gedib. Mütləq elçilik məsələsidir, çünki o, heç vaxt kostyum geymir!"

Uşaqların biri ağa İbrahimpurun evinin zəngini vurub dedi: "Ağa Mustafaya deyin, aşağı gəlsin". Digər uşaqlar da şeir oxuyur, hay-küy salırdılar:

Göydən gəlir bir dəstə huri,
Hamısı kəkilli, ququli-məquli!

Qayınatası həyətə çıxıb dedi:

- Uşaqlar, bəsdirin, məni biabır elədiniz!

Mustafa buna görə bizdən incidi və bir müddət bizimlə soyuq davrandı.

Sonralar özü bu haqda deyirdi:

- Biz söhbət edirdik. Səccad çay gətirib mənə təklif eləyəndə qapının zəngi çalındı. Uşaqlar küçədə əl çalırdılar. Biz də ortalıq sakitləşənə qədər evdə qalmağa məcbur olduq.

Bu hadisədən sonra da əl çəkmir, onun yenə kostyumla İbrahimpurgilə getməsini gözləyirdik. Sübhanla Məhəmmədmehdi Mustafanın qayınları olacaqdılar. Biz Mustafanı hirsləndirmək üçün onları incidirdik, o əsəbiləşir, bizi hədələyirdi.

# *Səngər yoldaşı*

**Xanım İbrahimpur**

2007-ci il idi, təxminən iyirmi yaşım vardı. O zaman Kohənz əl-Qədir Qadın Bəsicinin komandiri və Tehran vilayətinin Qüds rayonunun Baqir əl-ülum adına mədrəsəsinin tələbəsi idim. Mən Əmirəlmömininin məscidinin qadın Bəsicinin komandiri olanda Mustafa da yeniyetmə Bəsicinin komandiri idi. İkimiz də bir məsciddə olsaq da, mən onu tanımırdım.

Bir-birimizi gördüyümüz yeganə yer Bəsic mərkəzinin qapısının önüydü. Fatimiyyə günlərinin işləri ilə məşğul idim. Ağır bir qapını Vanet yük maşınına qoymaq istəyirdik. Ətrafa baxdım. Qapının yanında bir oğlan dayanmışdı. Yaxınlaşıb dedim:

- Bu qapını maşına qoya bilərsiniz?

Dostlarım demişdilər ki, o, yeniyetmə Bəsicinin komandiri ağa Sədrzadədir, ondan kömək ala bilərsiniz. O da kömək etdi. Mustafanı yalnız bircə dəfə onda görmüşdüm.

Bəsicin işləri ağa Bəhraminin nəzarəti altındaydı. O və həyat yoldaşı həm də məscidin idarə heyətinin üzvü idilər. Mənimlə ailə qurmağı onlar Mustafaya təklif etmişdilər.

2007-ci ilin apreli idi. Mustafanın anası zəng edib bizə gəlmək istədiyini bildirdi. Gəldilər. Öncədən Mustafanın vilayətə bağlı olduğunu qardaşlarımdan soruşmuş və əmin olmuşdum. O gün qadınların təhsil almasına və işləməsinə dair fikrini soruşdum. Bəsicdəki işlərimi davam etdirmək istəyirdim. O, nəinki razıydı, hətta bu barədə məsuliyyət hissi məndən də çox idi. O zaman müəllim olub məktəbdə işləmək istəyirdim. Mustafa da razılaşdı. Söhbət etdik, amma qısa oldu.

Həmin qısa ünsiyyətdə bir məsələ üzərində çox dayandı. O, səngər yoldaşı axtarır, bu sözü tez-tez təkrarlayırdı. Bəlkə də, elçi gedən həmdəm və həyat yoldaşı istəyər, o isə səngər yoldaşı istəyirdi.

- Axı biz müharibə dövründə deyilik. Səngər yoldaşı istəmənin səbəbi nədir? – deyə soruşdum.

- İndiki müharibəmiz hərbi müharibə deyil, mədəni müharibədir. Səngər yoldaşını da mədəni-tərbiyəvi işlərə görə istəyirəm. Yəni mən mədəni işlər gördükdə həyat yoldaşım da yanımda belə işlər görsün.

## *İrfan qapılarını təpiklə açmaq*

**Xanım İbrahimpur**

Hələ nişanımızdan qabaq tibbi laboratoriyanın həyətində Mustafaya dedim:

- Elə adamla ailə qurmaq istəyirəm ki, iman və inancı çox-çox olsun, məni də özü kimi yuxarı çəkə bilsin; hətta gündəlik həyatda da. İstəyirəm ki, evimizdə birinci sözü iman və inanc söyləsin.

- Hə, irfan qapılarını bir-bir təpiklə açıb birlikdə irəliləyərik! – deyə Mustafa güldü.

Mən çox narahat olub öz-özümə dedim: “Bu, necə də üzlüdür; hələ məhrəm olmamış belə zarafatlar edir!”

## *Çənin dəliyi*

**Sübhan və Səccad İbrahimpurlar**

Bir bədxəbər xəbər gətirdi ki, sabah qəsəbənin suyu kəsiləcək. Sabah da Mustafanın nişanı idi.

- Nə edək? Əhvazdan çoxlu qohumumuz gələcək, - Mustafa dedi.

Məscidə gedib Hacı Bəhrami ilə danışdıq. Uşaqların biri ilə birgə bənnalıq üçün istifadə olunan bir su çənini evə apardıq. Mustafa ilə birlikdə zarafatlaşa-zarafatlaşa çəni yuyurduq. Mustafanı çənin içinə saldıq:

- Mustafa, sən təzə bəysən, gərək özün yuyasan.

Səccad "zirəklik" edib işdən qaçır, yalnız kamera ilə video çəkirdi. Çənin yerinə yuyucu tozu töküb şotkalamağa başladıq. Camaat o çəndən su içəcəkdi.

Yaxşıca sürtəndən sonra doldurmağa başlayanda gördük ki, çənin yan tərəfində dəlik var. Mustafa mənə sataşıb deyirdi:

- Sübhan, gəl Petros kimi barmağını bu dəliyə qoy və səhərəcən gözlə, dolsun.

Nəhayət, çox çətinliklə sellofanla və tez quruyan yapışdırıcı ilə dəliyi bağlayıb çəni doldurduq.

Ertəsi gün səhər çağı bildik ki, çənin altında da dəlik varmış. Həmin gün qəsəbənin suyu kəsilmədi. Məncə, bu xəbər də bala pişiklərin zarafat və dəcəlliklərindən idi.

## *Nişandan sonra camaat namazı*

**Xanım İbrahimpur**

Nikah şöbəsinə qədər yolumuz çox deyildi. Qardaşının PK avtomobili ilə getmişdik. Mustafa sürücülük vəsiqəsini yenicə aldığına görə çox həyəcanlanırdı. Bu səbəbdən biz çox danışmadıq.

Təzə qara kostyum geymişdi.

- Məgər kostyumun yox idi?- deyə soruşdum.

- Yox. Ata-anam paltar üçün nə qədər pul verirdilərsə, Bəsicə xərcləyirdim.

Həmişə altıcib şalvarla köynək geyirdi.

- Sənə bir söz deyim, amma gülmə, - dedi. - Sənə elçi gəldiyimiz axşam küçəmizin başındakı dükana anam üçün alış-verişə getdim. Gördüm ki, qardaşın Səccad orada dayanıb nəsə alır. İstədim ona deyəm ki, Səccad, yaxşı bir kostyumun varsa, ver, bu axşam geyib elçiliyə gedim. Sonra gördüm ki, onun özü çəkələklə gəlib. Heç olmasa, yaxşı bir ayaqqabı geyməmişdi ki, ondan alıb geyəm.

İndi hamı çalışır ki, qarşı tərəfin sevgisi ürəyinə dolsun, ondan çox xoşu gəlsin və onunla rahat olsun. Bu hiss məndə toyumuzdan təxminən 4-5 ay sonra yarandı. Düzdür, ondan çox uzaqlaşmırdım və acığım gəlmirdi, amma bağlılıq yaranmamışdı.

Nikah şöbəsində əqdimiz oxunanda hacı ağa üçüncü dəfə məndən soruşdu:

- Gəlin xanım, məni vəkil edirsiniz?

- İmam Mehdinin (ə), əziz rəhbərimin və buradakı böyüklərin icazəsi ilə: bəli.

Bu, bir müddət qardaşlarımla Mustafanın gülüş mövzusuna çevrildi. Onlar deyirdilər:

- İmamın, onun iki övladının, bütün şəhidlərin, bütün ölənlərin icazəsi ilə: bəli.

Əqd mərasimi axşam azanına yaxın bitdi. Anası dedi:

- Mustafa, sən heç yerə getmə, burada qal, işimiz bitsin, birlikdə qayıdaq.

- Yox, mən namaza getməliyəm,- dedi.

- Əşi, bir axşam da namazını evdə qılarsan.

- Yox, gərək məscidə gedim. Mən Allaha deyə bilmərəm ki, İlahi, mən nişanıma görə məscidə gələ bilmədim. Çox ayıbdır!

Məscidə də getdi. Məsciddə onunla çox zarafatlaşıb gülmüşdülər.

# *Mövlud Bayramı*

**Əli İbrahimpur**

2007-ci ilin may ayında Hacı ağa Məhdəvi Mustafanın nikah əqdini oxudu. O, Əmirəlmöminin məscidinin imamı idi. Həmin gün İmam Həsən Əsgərinin (ə) mövlud bayramına görə küçəni işıqlarla bəzəmişdilər. Mustafanın bala pişikləri də küçədə gəzişirdilər. Onlar Mustafanın əlində gül buketi görən kimi evimizin önünə qaçıb gəlin maşınını prospektin ortasına itələdilər və üstündə atılıb-düşməyə başladılar.

# *Salam, əzizim*

**Xanım İbrahimpur**

Şam yeməyimizi otağa gətirdilər. Nişandan sonra ilk şamımızı yediyimiz yerdə birdən yerimdən sıçrayıb şkafa yaxınlaşdım və ona aldığım hədiyyəni gətirib Mustafaya uzatdım. Çəhrayi güllü qabda balaca Quranı görən kimi gülüb:

- Vay! Gərək əvvəl mən hədiyyə verəydim,- dedi.

Mavi ətrin hədiyyə kağızını açıb boğazının altına püskürdəndə hər yerə gözəl ətir yayıldı. Yenə dedi:

- Yadındaymış ha! Hər şeyi düşünübmüşsən.

Bu, bir dostumun tövsiyəsi idi. Nişandan bir-iki gün qabaq mənə demişdi: “Çalış ilk hədiyyəni sən ver. Bu, onun yadında qalacaq”.

Şam yeməyindən sonra qonaqlar bir-bir sağollaşıb getdilər. Yolları uzaq olan qohumlardan bir-iki ailə və Mustafa qaldı.

“Bu, nə qədər üzlüdür, - öz-özümə düşünürdüm. - Niyə qalxıb getmir? Hamı getdi, sən də durub getsənə!"

- Ağa Mustafa, bu gecə buradasan da, - beynimdə öz-özümə danışdığım yerdə əmim ondan soruşdu.

- Yox, getmək istəyirəm, - Mustafa dedi və bir neçə dəqiqədən sonra sağollaşdı.

Qapının yanında mobil telefonunu mənə verib getdi. Onda mənim telefonum yox idi. Gecə belə bir mesaj yazdı: "Salam, əzizim!"

Bir-birinin ardınca mesaj gəlməyə başladı. Mən yenə hirslənir, öz-özümə deyirdim: "Bu, necə də üzlüdür! Mən nə qələt elədim axı! Heç utanmaq bilmir".

Mən onda çox utancaq idim. Gecə saat 2-3-ə qədər anasının telefonu ilə mesaj yazdı. Telefonunu mənə verdiyini bütün qohumlarına söyləmişdi, xalaları və əmidostuları da təbrik mesajları yazırdılar və mən eyni zamanda onlara da cavab verirdim.

Səhər çağı digər qonaqları da yola salıb anamla tək qaldıq. Ev yaman gündəydi; bütün yorğan-döşəklər şkaflardan çıxmış, mətbəx mebeli boşalmış, qablar evə səpələnmişdi. Anama kömək etməyə başlayan kimi qapının zəngi çalındı. Mustafa idi.

- Salam. Necəsən? – dedi. – Cümə namazına gedək?

- Evimizdə sanki bomba partlayıb, anam da təkdir, - dedim.

- Beşdəqiqəlik gedək, tez gələrik.

Razılaşdım. Kohənzdən Şəhriyara qədər piyada getdik. Yanımızdan keçən maşınlar siqnal verib mindirmək istəyirdilər, bizsə piyada getməyi sevirdik. May ayı idi, ağacların yarpaqları təzə açılırdı. Xiyabanın iki tərəfi də ağaclıq idi. Ağacların budaqları yuxarıda bir-birinə keçib eyvan formasına düşmüşdü. Yanında su arxı da vardı. Biz də aşiqanə tərzdə addımlayırdıq. Amma mən nə

soruşacağımı və nə deyəcəyimi nə qədər fikirləşirdimsə, beynimə heç nə gəlmirdi.

Televiziyadan öyrəndiyim sualları verməyə başladım: Hansı rəngi sevirsən? Hansı xörəkdən xoşun gəlir?

Bir qədər söhbətləşəndən sonra dedi:

- Elə bir xörək varmı onu məndən çox istəyəsən?

“Vay, nə qədər üzlüdür!” – ürəyimdə dedim.

Zavallı Mustafa bu sözlərlə mənə sevgisini bildirmək istəyirmiş, mənimsə acığım gəlirdi və bunu utanmazlıq kimi başa düşürdüm.

Cümə namazına gedib-qayıtdıq. Həmin nişanlılıq dönəmindən həmişə Mustafa ilə yol yeriyəndə qürur hissi keçirirdim; hətta qısa məsafədə yerləşən məscidə gedəndə də.

## *Bir ruh, üç bədən*

**Əli İbrahimpur**

Sübhan evə gələndə saatlarla lal-dinməz otururdu. Bir dəfə hirslənib dedim:

- Bura gəlib sakit oturursan. Heç olmasa, bir kəlmə söz danış, de ki, hara gedirsən, nə iş görürsən...

Ancaq həmin adam Mustafanı görən kimi birlikdə evin altını üstünə çevirirdilər. O qədər zarafatlaşır, danışırdılar ki, qızıma vaxt qalmırdı, anasıyla mən də etiraz edirdik.

Hər bir ailədə siyasi, dini, iqtisadi və ya başqa cəhətdən fikir ayrılıqları ola bilər. Bizim evimizdə isə Mustafa, Səccad və Sübhan sanki üç bədəndə bir ruh idilər. Mustafa bizə gələn gün burada sakitlik olmurdu; bir-birinin belinə dırmaşır, güləşir, vuruşurdular. Əgər qardaşımla mən belə etsəydik, aramızda inciklik yaranardı. Onların arasında isə zərrə qədər də kin yaranmırdı.

# *Yemək oğrusu*

**Xanım İbrahimpur**

Bir müddətdən sonra Mustafa və ailəsi ilə birlikdə İmam Rzanın (ə) ziyarətinə getdik. Bizə ayrı otaq tutmuşdular. Bir dəfə biz hərəmdən qayıdanda anasıgil getməyə hazırlaşırdılar. Onlar gedəndən sonra Mustafa dedi:

- İstəyirsən oğurluğa gedək?

- Nə?! – təəccüblə soruşdum.

- Gedək, anamgilin soyuducusunda nə varsa, oğurlayıb gətirək.

- Yox, ağa Mustafa, ayıbdır.

Onda hələ onu "ağa Mustafa" çağırırdım.

- Yox, gəl gedək, - dedi.

Çox da yeyimcil olmasa da, zarafat damarı tutanda çox yeyirdi. Böyük bir torba aparıb soyuducuda nə vardısa, hamısını boşaltdı, gətirib öz soyuducumuza yığdı. Artıq qalmış yeməkləri yediyimiz yerdə qapı döyüldü. Qayınanam idi.

- Mustafa, sənin işindir, - dedi. – Niyə belə edirsən, bala, ayıbdır!

Səhər yeməyində restoranda bir neçə yumurtanı götürüb göyə atır, onlarla oynayırdı. Bir anın içində şıltaqlığı tuturdu, açıq bufet masasından nə gəldi ovuc-ovuc götürürdü.

- Mustafa, ayıbdır, - anası hirslənib deyirdi, - indi bizə güləcəklər!

Sonra gəlib götürdüklərini hamıya paylayırdı.

Mustafanın xarakteri beləydi; harada olsaydı, tanış və ya səmimi olub-olmamalarından asılı olmayaraq, hamını güldürməklə məşğul olurdu.

Qayınanam təklif etdi ki, toy alış-verişinin bir qismini Məşhəddə edək. Çanta və ayaqqabı almaq qərarına gəldik. Ayağımın ölçüsü o qədər balacaydı ki, toy ayaqqabısı tapmadıq. Qayınatam dedi ki, daha girmədiyimiz mağaza qalmadı.

- Sindrella almışıq da; gərək axtarıb ona ayaqqabı da tapaq, - Mustafa dedi.

O səfər mənim qırışımı bir qədər açdı, Mustafanın sözüylə desəm, sərtliyim azaldı.

## *Tələbə həyatı*

**Xanım İbrahimpur**

Evimizin təkcə zalına bir cüt onikimetrlik xalça gedirdi, bizimsə cəmi bir onikimetrlik və bir də altımetrlik xalçamız vardı. Toy alış-verişi zamanı çox şeyin üstündən xətt çəkməli olurduq.

Bununla yanaşı, ya xalça və bellik almalıydıq, ya da divan-kreslo. Mustafa divan-kreslonu sevməyib hövzə tələbəsinə uyğun həyatı bəyənsə də, xalça və belliyə pulumuz çatmadığına görə divan-kreslo aldıq, özü də ən ucuzunu. Təzə gəlin idim, get-gəlimiz çox idi.

Mustafa nişan hədiyyələrimizlə divan-kreslo almağı təklif etdi. Ancaq o hədiyyələrin hamısı bir dəst divan-kreslo pulunun yarısı qədərdi. Nəhayət, Mustafanın yaxşı ünsiyyət qabiliyyətinə və satıcıdan endirim aldığına görə bazarın ən ucuz divan-kreslosunu ala bildik.

Mustafanın ünsiyyət qabiliyyəti yaxşı idi, kiminləsə ünsiyyət qura bilməməsi mümkün deyildi. Məndə isə bu qabiliyyət zəif idi və o, bu cəhətdən məni tamamlayırdı.

## *Oturmağa yer yox idi*

**Əli İbrahimpur**

Kişi məclisində məddah İmam Əli (ə) və İmam Rzadan (ə) oxuyurdu. Bugünkü çal-çağırlardan uzaq, sadə bir toy idi. O qədər qonaq gəlmişdi ki, kişi və qadın məclisində oturmağa yer yox idi. Mustafanın valideynləri onlara bir ev kirayə etmişdilər. Biz əşyalarını toydan qabaq o evə aparmışdıq.

## *Toyda gözbağlayıcı*

**Həkimə Əfqəh**

Mustafa deyirdi ki, toyumda musiqi istəmirəm. O, Əhli-beytdən oxumaq üçün məddah gətirmişdi. Atası da fokusçu bir dostunu dəvət etmişdi. Mustafanın bala pişikləri onun fokuslarının sirrini tapmaq üçün o ki var dəcəllik etdilər. Şən toy keçsə də, heç bir hörmətsizlik baş tutmadı.

Mustafanın toyu elçiliyindən altı ay sonra oldu.

# 4

# Ruhullah yolunda

## *Cizgi filmi, dondurma və Quran*

**Əli Yari**

Yeddi-səkkiz yaşlı uşaqlar uzanıb bellikləri başlarının altına qoyur, uşaq proqramlarına baxırdılar. Mustafa onlara dondurma da alırdı. Televizor və DVD aparatı alandan sonra balaca Bəsic üzvlərinin günü belə keçirdi. Bu mərkəzi Həzrət Əbəlfəz heyətinin məhəlləsində yaratmışdı və təkbaşına bütün işlərini görürdü. O, heyət uşaqlarını Bəsicə üzv olmağa həvəsləndirirdi.

- Əli, nə vaxt mümkün olsa, mərkəzin qapısını açıq qoy, - mənə deyirdi. – Mərkəzin qapısı həmişə açıq olmalıdır ki, uşaqlar istədikləri vaxt gələ bilsinlər.

Uşaqlar televizora baxandan və dondurmalarını yeyəndən sonra növbə Quran oxumağa çatırdı. Onları yavaş-yavaş Quran qiraətinə həvəsləndirmişdi. Özü otururdu, biz də başına toplaşıb Quran oxuyurduq. Cümə günü səhər çağı Aşura ziyarətnaməsi oxunur və səhər yeməyi yeyilirdi. Sonra isə uşaqlar oynamağa başlayırdılar.

# Burada vaxt keçirin

**Rəhman Salmani**

Mustafa mərkəzi və hüseyniyyəni uşaqların asudə vaxt yerinə çevirmişdi. Deyirdi ki, gəlin, burada vaxt keçirin. Oraya televizor qoyur, oyun konsolu alıb deyirdi ki, oynayın, güləşin, zarafatlaşın, amma bayıra getməyin. O, uşaqların önündə hansı yanlış yolların olduğunu bilir və buna görə hüseyniyyənin qapısının həmişə açıq olduğunu bildirirdi.

# Digər bayraqlar

**Seyid Əlirza Miri**

Deyirdi ki, Millət-1 məhəlləsindən bura gələnlər problemlə üzləşirlər, gərək onlara qarşı diqqətli olaq. Buna baxmayaraq, razılaşmayan çox idi.

Nəhayət, bu düşüncə və baxış fərqi digər amillərlə əl-ələ verdi və o, 2008-ci ildə İmam Ruhullah Bəsic mərkəzini açdı.

Mən də onunla razı deyildim, düşünürdüm ki, tez-tez bayraq əlavə etməməliyik. O gedəndən sonra çalışırdıq ki, İmam Ruhullah mərkəzi üçün nə edirsə, biz də əl-Qədir yeniyetmə mərkəzimizdə edək. Onlar yeniyetmələri cəlb etmək üçün havalı tüfəng alırdılarsa, biz də uşaqları peyntbola sövq edirdik. Bu kimi işlərə görə əlaqəmiz kəsilmir və bir-birimizin işlərindən xəbər tuturduq.

## *Mustafanın əziyyəti*

**Məhəmməd Əliməhəmmədi**

Mustafa əl-Qədir yeniyetmə klubunda bizimlə çox işləmişdi. Buna görə biz onun Dinarabad və Millət-1 kimi məhəllələrdə fəaliyyət göstərməsinə həssas olmuşduq, oralara gedib-gəlməsi bizi, həqiqətən, narahat edirdi. Bir dəfə Dinarabad, Millət-1 və Kohənz məhəllələrindən məscidə təxminən 150 yeniyetmə toplaşmışdı. Biz sözləşib onları döymək üçün məscidin önünə yığıldıq.

Bir-birimizi elə vururduq ki, bəzilərinin başı yarıldı. O davadan sonra çoxu məscidə gəlmədi. Mustafa da çox narahat olub dedi:

- Mən onları toplamaq üçün çox əziyyət çəkmişdim. Niyə belə etdiniz?

Bir müddətdən sonra Dinarabad uşaqları özləri heyət yaratdılar. Mustafa oraya dini söhbət etməyə gedirdi. Millət-1 məhəlləsinin uşaqları da Həzrət Əbəlfəz heyətinə toplaşırdılar.

## *Ucadan ağlayırdı*

**Əli Yari**

Otaqda elə bərkdən ağlayırdı ki, səsini eşidirdim. Bir dəfə soruşdum ki, ağa Mustafa, nə olub?

- Bir şey deyil, düzələr, - deyə cavab verdi.

Bir-iki həftə hər gün belə edirdi: heyətin otağının açarını məndən alır, içəri girib ağlamağa başlayırdı. O, Bəsic mərkəzi yaratmaq üçün çox əziyyət çəkdi.

Əvvəllər demişdi ki, Millət-1 məhəlləsində Bəsic mərkəzi açmaq istəyir. Orada çoxlu gənclər vardı, Mustafa olmasaydı, çoxu narkoman olacaqdı.

Bir müddətdən sonra, 2009-cu ilin iyulunda, həzrət Abbasın doğum günündə İmam Ruhullah mərkəzini açdı.

- Əli, sən heyətə çay verirsən, qardaşın Mustafaya da əl tutursan; mərkəzi birlikdə idarə etməmizə hazırsanmı? – deyə məndən soruşdu.

- Ağa Mustafa, mən bacarmaram.

- Vəhid o boyda əl-Qədir mərkəzini idarə edir, məgər sən ondan əskiksən?! – deyə mənə motivasiya verməyə çalışdı.

- Yaxşı, ağa Mustafa, - dedim.

- Onda mərkəzə nə alsam, yaz və üzərinə kod vur.

Beləliklə, o mərkəzdə fəaliyyətə başladım.

## *Praktik ideyalar*

**Vəhid Məhdəvi**

Mustafa əl-Qədirdən getmişdi, amma bala pişiklərin ürəyi onun yanında qalmışdı. Bəzən ortaq tədbirlər olanda Mustafadan əl çəkmirdilər.

Beynində böyük fikirlər vardı, əl-Qədirdə bəzi etirazlara görə bacarmasa da, İmam Ruhullah mərkəzində çoxunu həyata keçirdi. Əməliyyat-patrul layihələri və patrul yetişdirmək bu işlərdən idi. İmam Ruhullah mərkəzi Mustafanın ideyaları ilə o qədər gücləndi ki, hərdən paxıllıq hissi bizi qıdıqlayırdı. Orada da işlərinə reaksiya verir, Millət-1 məhəlləsindən kənarda patrul çıxmağa qoymurdular.

# *Mustafanın görünən yeri*

**Mehrdad**

Hamımız əl-Qədirə toplaşmışdıq, hərə bir söz deyirdi. Dinarabadlı uşaqların hamısı şəxsi işlərini alıb getmək istəyirdilər. Əl-Qədir Mustafasız miskin görünürdü.

Seyid Miri gəlib qoymadı. Mustafa da biləndə bizim İmam Ruhullah mərkəzinə keçməyimizə icazə verməyib dedi:

- Siz bu səngəri boş qoymamalısınız. Mən ora ezamiyyətə getmişəm, bir müddətdən sonra qayıdacağam.

Bir müddətdən sonra mən də mərkəzə getmədim.

# *Aşura ziyarətnaməsi*

**Vəhid Məhdəvi**

Mustafa gedəndən sonra cümə səhərləri oxunan Aşura ziyarətnaməsi də yavaş-yavaş tətil oldu. O, bunu biləndə çox narahat olub dedi:

- Vəhid, niyə cümə proqramları ilə məşğul olmursunuz?

O zaman əl-Qədir yeniyetmə mərkəzində "Salehlər" layihəsinin icrasına başlanırdı. Hacı ağa Bəhrami tapşırmışdı ki, Mustafadan sonra işlərlə daha ciddi məşğul olum. Mustafa bizə o qədər məsuliyyət tapşırmış, bizi elə müstəqil yetişdirmişdi ki, yaşım nə qədər az olsa da, yeniyetmə Bəsicini idarə edir, hətta uşaqları ekskursiyaya aparırdım.

# *Ov tüfəngi*

**Əli Yari**

Əlimizdə blank küçələrə düşür, hansı uşağı görürdüksə, birini verib deyirdik:

- Ağa Mustafa Bəsic mərkəzi yaradıb; gəlin bəsici olun.

Mustafa da tez üzvlük kartlarını hazırlayıb verirdi əllərinə. Bununla davamlı şəkildə gəlməyə həvəslənirdilər. Çox çəkmədən Əbəlfəz heyətinin üzvləri olan iyirmi-otuz nəfərdən altmış nəfərə çatdıq.

"Salehlər" layihəsində iştirak edənlərin mükafatı Mustafanın ov tüfəngindən atəş açmaq idi. Uşaqlar gəlir, sevincək gedir, ertəsi gün atəş açmaq həvəsi ilə hərə bir neçə dostu ilə gəlirdi.

Get-gedə sayımız o qədər çoxaldı ki, Mustafa heyət üçün bir tikili[4] tapdı. Tikilinin bir tərəfini qızlara ayırdıq. Bir müddətdən sonra tikilinin divarları uçdu və biz hər həftə uşaqların birinin evində məclis keçirməyə məcbur olduq.

Mustafanın bütün istəyi heyətə və Bəsicə xoş münasibət bəsləməyənləri cəlb etmək idi.

- Ağa Mustafa, mən niyə statistika və dəstək qüvvəsi olmalıyam, çox az gələn birini isə kadrlar şöbəsinin sədri qoymusan? – deyə bir dəfə ondan soruşdum.

- Sən onsuz da gəlirsən, mən gəlməyənləri cəlb eləmək istəyirəm, - dedi. – Sən heyət uşağısan, bura da gəlməsən, başqa bir yerdə heyət məclisinə gedəcəksən. Biz gərək küçələrdə oturanları da cəlb edək.

---

[4] İstifadəsiz bir tikili idi, Mustafa sahibindən icazə alıb heyətin məclislərini bir neçə həftə orada keçirdi.

# *Mütaliə*

**Əli Yari**

Mustafa İmam Ruhullah mərkəzində tərbiyəvi işlərə başlayanda əvvəlcə oraya təxminən 200-300 kitab alıb gətirdi. Hamısı imamların həyatı barədəydi. Onları növbəylə uşaqlara verirdi.

Kitab oxumaq üçün 5-25 ballıq kartlar da verirdi.

- Kitab oxuyan uşaqlara mükafat verəcəyik, - deyirdi. – Kim oxusa, gəlib burada hamıya danışsın.

Havalı tüfəng və dörddə bir qızıl pul ən yüksək bal toplayanın mükafatı idi. Quran əzbərləyənlərə də yarım qızıl pul hədiyyəsi verirdi. Uşaqları mütaliəyə alışdırandan sonra "Kuşkun yumşaq torpağı" kitabını verib deyirdi:

- Bu kitabı mütləq oxu; çox yaxşı kitabdır!

Uşaqlar da oxuyur, gəlib dərsdə danışırdılar.

# *Ata kimi*

**Əli Yari**

Mustafa şəxsi heyətinin çox qayğısına qalır, vəziyyətlərinə həssas yanaşırdı. Buna görə cəzb etdiyi uşaqlar daha ondan əl çəkmirdilər.

Bir dəfə uşaqlar məclisdən gedəndən sonra mənə dedi:

- Əli, gözlə, səninlə işim var.

Hirsli idi, otaqda dayanmadan var-gəl edirdi.

- Nə etmək istəyirsən? – deyə soruşdu.

- Ağa Mustafa, nəyi nə etmək istəyirəm?

- Deyirəm ki, nə qələt etmək istəyirsən? – çox hirslə dedi. – Heyif deyil ki, heyətə gələn, bəsici olan biri dərs oxumasın?! Niyə təhsildən uzaqlaşmısan?

- Bundan sonra oxuyaram, ağa Mustafa, - dedim. – İndi nə etməliyəm?

- Sabah sənədləri götür, gəl.

Səhər tezdən özü gəldi, ailə-uşağı ilə. Şəhriyara getdik. Məktəbə adımı yazdırıb dedi:

- Sabahdan bura gəlib dərs oxumalısan!

Atamın telefon nömrəsinin yerinə öz nömrəsini yazdı. Məktəbdən işləri olanda ona zəng edirdilər. O qədər ciddi maraqlandı ki, axırda attestatımı aldım. Ondan sonra da korpusa işə qəbul olmağımla məşğul oldu. Əgər Mustafa olmasaydı, heç şübhəsiz, taleyim başqa cür olardı.

# 5

# İqtisadi fəaliyyətlər

## *Düyüsatan*

**Xanım İbrahimpur**

Toy hədiyyələrimizdən iki milyon tümən toplamışdıq. Mustafa da işsiz idi. Bir dost dedi ki, o pulla köhnə avtomobil alın, sonra da onu təhvil verib Nissan yük avtomobili alın. Elə 2007-ci ildə pulun hamısını verdik, amma heç vaxt maşın almadıq.

- Yəqin, bu işdə bir xeyir varmış, - dedi.

- Bütün pulumuz getdi, deyirsən ki, xeyir var?!

- Hə, mən istixarə ilə irəliləmişəm.

Təxminən yeddi ildən sonra pulunu geri ala bildi. Bir gün evə gəlib dedi:

- İndi bildim ki, məsələnin xeyri nəymiş. Çoxları maşının sahibinə pul vermişdi; yəni bir maşını neçə nəfərə satmışdı. Onların hamısı dilsiz-ağızsız idilər, pullarını ala bilmirdilər. Mən şikayət edəndən sonra hamısı arxamda peyda oldu və pulunu aldı.

Maraqlıydı ki, bu bir neçə ildə çoxlarının pulunu vermişdi, bizimki isə hələ qalırdı.

- Xeyir bunun harasındadır? – deyə soruşdum.
- Onların pulu geri qayıtdı.
- Biz hər şeyimizi itirdik, sən deyirsən ki, onların pulu qayıtdı?!
- Hə, bizim işimizin xeyri kiməsə xeyir çatmasına səbəb olmamızdır.

Ondan sonra atam işə girişdi. O, düyü satmaqla məşğul idi. Mustafaya dedi ki, mən düyü gətirim, sən də müştəri tapıb sat.

## *Böyük gəlir*

**Əli İbrahimpur**

Düyünü mən şimaldan gətirirdim, o da satırdı. Əvvəl kiçik Vanet avtomobili ilə gətirirdim, sonra daha böyük, sonra isə ondan da böyük yük avtomobili ilə. Bir-iki dəfədən sonra böyük qazanc əldə etdik. 2007-ci ildə işə "Bismillah" dedik və həmin il çoxlu düyü satdıq. Əksər rəqiblərimiz daha çox qazanmaq üçün düyünün qiymətini qaldırıb-endirirdilər, Mustafa isə halal-harama fikir verir, qiyməti dəyişmirdi. Bəzən düyü almaq üçün mənimlə şimala da gedirdi, amma düyünü tanımadığına görə mənə etibar edirdi. Get-gedə işi genişləndirdik və altı ay ərzində on beş milyon qazandıq. Beləliklə, düyü satmağa davam etdik.

# İmam kimi

**Səccad İbrahimpur**

Gedib Azad İslam Universitetinin Dinlər və irfan fakültəsinə adını yazdırdı. Şəhriyarlı uşaqların bir neçəsi məsihi olmuşdu, zərdüştilər də çox təbliğat aparırdılar. Hacı ağa Bəhrami uşaqların suallarına cavab vermək üçün Avesta kimi digər dinlərə aid kitabları oxumağa başlamışdı. Mustafa da həm dinləri öyrənmək, həm də mədəni-tərbiyəvi işlər görmək üçün universitetə girdi.

Düyü satmaq və böyük qazanc onu nəinki mədəni işlərdən saxlamır, hətta işlərini artırırdı da. O, adi həyat yaşayan bir adam idi, amma məqsədi vardı, bütün işləri Bəsiclə bitirdi.

Düyüyə müştəri tapmaq üçün Bəsic uşaqlarından kömək alırdı ki, onlara da xeyir çatsın. Universitet ixtisası da Bəsicdəki fəaliyyəti ilə eyni istiqamətdə idi: İrfan və dinlər.

# Ruzi vasitəsi

**Əli İsfəndiyari**

- Əli, hərbi xidmətin bitsin, səni bekar qalmağa qoymayacağam, - Mustafa mənə demişdi.

Hərbi xidmətdən sonra dedim ki, bu da mən.

- Başlayaqmı? – deyə soruşdu.

- Nə edəcəyik?

- Əndişədə bir mağaza görmüşəm, orada düyü satmaq istəyirəm. Sən də satıcı işləyəcəksən.

Beləliklə düyü satmaq işimiz başlandı. Qayınatası birbaş şimaldan düyü gətirirdi, Mustafa da mağazanı doldururdu. Bir həftədən sonra dostlardan birini də gətirib işləri böldü.

Mustafa bir dəqiqə boş durmurdu. Bir gün dedi:

- Uşaqlar, belə olmaz ki, hər dəfə maşın pulu verək, Tehrandan, ya da başqa yerdən bizə düyü gəlsin. Şükür Allaha, sürücülük vəsiqəniz var. Bir maşın alacağam, bundan sonra düyülərimizi özümüz gətirəcəyik.

Bir qədər sonra bizə Nissan kiçik yük maşını aldı, Tehrandan və Vəramindən özümüz düyü gətirməyə başladıq. Ora-bura qaçır, qazandığı ruziyə hamını şərik edirdi.

## *Ürəkli və cəsarətli tacir*

**Əli İbrahimpur**

Öncədən düyünün topdan satışını etsək də, mağaza kirayə etmək istədiyini deyəndə mənə ağır gəldi, həm mən, həm atası etiraz edib dedik ki, buna maya lazımdır. Lakin Mustafa bir işi görmək istəyəndə mütləq görürdü.

Qarşısını aldıq, amma bir də özümüzə gəlincə gördük ki, mağaza kirələyib. İşsiz bəsicilərdən ikisini gətirdi, mağazaya da çoxlu düyü boşaltdı. Düyünün topdan satıcısı ona inanırdı, əlli və ya yüz ton da istəsəydi, verirdi. Sonradan mən də şimaldan İran düyüsü sifariş verib onun mağazasına qoydum. Yavaş-yavaş başqa yerlərdən də sifariş aldı, düyü ilə birgə, sellofan, qənd və şəkər də satmağa başladı.

## *Çörək verən idi*

**Həkimə Əfqəh**

Başqalarının çörək qazanmasına vasitə olması onun üçün əhəmiyyətli idi, hətta bəzən özü zərər etsə də. Düyü mağazası açanda iki-üç nəfər orada işləməyə başladı.

- Bala, mağazanın nə qədər gəliri var ki, neçə nəfəri də işə götürmüsən? – deyə bir dəfə soruşdum.

- Qoy bunlar da çörək qazansınlar, - dedi.

- Gərək çörək çıxsın ki, sən də, digərləri də yeyəsiniz.

- İnşallah çıxacaq; imamlar da kömək edəcəklər.

## *Boşuna yatır*

**Əli İsfəndiyari**

- Uşaqlar, mağazaya dənli bitkilər də gətirim? – deyə soruşdu.

- Ağa Mustafa, qoy düyümüzü sataq, dənli bitki nədir?! – dedik.

- Yoxlayaq, görək nə olur.

Vedrələr aldı, mağazaya düzdük, yavaş-yavaş noxud, ləpə, mərci və soya gətirdi. Dənli bitkilər tamamlanandan sonra dedi:

- Uşaqlar, yaxşı olar ki, çay da gətirək.

- Ağa Mustafa, düyü mağazasını marketə çevirmək istəyirsən?

- Biz onsuz da mağazadayıq, qoyun başqa məhsullar da sataq.

Punəkdə yük maşınını çayla doldurub mağazaya gətirirdim. Bununla da qane olmayıb bir müddətdən sonra dedi:

- Əli, maşın boşuna mağazanın önündə yatır. İştihardda bir qohumumuz çörək, meyvə və zibil torbaları istehsal edir. Mən danışım, gedib onlardan da gətirərsən.

Yavaş-yavaş satış yaxşılaşdı, sellofandan yaxşı qazanc əldə etdik və bu fikirlərlə mağaza təkməhsulluluq kasadından çıxdı.

# Dağ kimi

**Əli İsfəndiyari**

Bir gün nişanlımgilə gedəndə Mustafa bilib məni mağazadan bayıra çıxardı. Mehdinin yanında danışmaq istəmirdi.

- Pulun var? – deyə soruşdu.

- Hə, ağa Mustafa, - dedim.

- Belə yox, - deyə kassadan təxminən iki yüz min tümən pul gətirdi.

Bu, maaşımın təxminən yarısı idi, amma maaşı verəndə heç nə deməmişdi. Piyada getdiyimi biləndə də atasının Pejo avtomobilinin açarını verib dedi ki, bununla get.

Mustafaya elə arxalanmışdım ki, sanki bir dağdı.

# Dəyirmanın yanında namaz

**Əbülfəz Hacımahmudlu**

Bir gün mənə dedi:

- Yuxuda gördüm ki, üzümə su vurmaq istəyirəm, amma düyü vururam. Araşdırıb bildim ki, mən düyü alarkən namaz qılmağa gedəndə satıcı düyüləri qarışdırıbmış. Ondan sonra düyü alanda dəyirmanın yanında namaz qılırdım ki, düyüləri qarışdırmasınlar və mən müştərilərimə pis düyü satmış olmayım.

# 6

# Abbas yolunda

**Birinci səfər (10.08.13 - 20.09.13)**

## *Ezam yoxdur*

**Mustafa Sədrzadə**

Televiziyada və müxtəlif proqramlarda çox göstərirdilər ki, təkfirçilər müsəlmanların başlarını kəsir, onları öldürürlər. Nübl və əl-Zəhra mövzuları da vardı, bu iki kənddə çoxlu şiə mühasirəyə düşmüşdü. Onların əhalisinin çoxu Musa ibn Cəfərin (ə) nəslindən olan seyidlər idi, sayları təkfirçilərdən çox az olduğuna görə onlara kömək etməli olduğumuzu düşünürdük. Döyüşə getmək üçün hansı qapını döyürdüksə, haraya gedirdiksə, deyirdilər ki, ezam yoxdur. Suriyaya uçuşlar da ləğv olunmuşdu, nə edirdiksə, yol tapılmırdı.

## İşimizi düzəltmirlər

**Məhəmməd Əliməhəmmədi**

2013-cü il, aprelin sonları idi. Xəbərlərdə təkfirçilərin Hücr ibn Ədinin məzarını dağıtdıqları göstərilirdi. Mustafa Suriyaya getmək qərarına gəldi.

Korpusa getdi, dedilər ki, bakalavr diplomu və hərbi bilet olmalıdır. Mustafada isə heç biri yox idi. Hara getdisə, alınmadı. Məyus halda başını naməlum şəhidlərin məzarına qoyub deyirdi: "Siz Allah, mənim işimi düzəldin, mən getməliyəm". Yalvarışlarının faydasız olduğunu görəndə isə qışqırmağa və şəhidləri hədələməyə başlayırdı: "İndiyədək nə etmişəmsə, sizinçün etmişəm, şəhidləri ucaltmaq istəmişəm. Əgər mənə əl tutmasanız, kömək etməsəniz, gəlib burda qışqıracam ki, bunlar heç nə vermirlər, boşuna bura gəlməyin!"

- Məsləhətin nədirsə, o da olacaq, inşallah, narahat olma, - dedim.

- Artıq Allahdan məsləhət yox, silah istəyirəm. Dua elə, Allah mənə silah versin!

Sonra Hacı Bəhramiyə zəng edib dedi: "Hacı, bu şəhid dostların mərifətsizdirlər, əlimizi tutmurlar. Həzrət Zeynəbin eşqi ilə döyüşə getmək istəyirik, nə üçün dua etmirlər, niyə işimizi düzəltmirlər?!"

## Aşpazlıq həvəsi

**Həsən Əkbəri**

Suriyaya gedəndə əvvəllərdə kəşfiyyat mühafizəsi çox tələbkarlıq edirdi. Gedənlərin çoxu rəsmi pasdar idi, bəsici çox az qəbul edirdilər. Mustafanın korpusa üzv olma məsələsi də nəticəsiz qalmışdı. Buna görə gümanı gələn hər

kəsə tapşırmışdı ki, getməsi üçün bir yol tapsınlar. Mənə də tapşırdı ki, yenilik olsa, onu xəbərsiz qoymayım.

2013-cü ildə ramazan ayına bir az qalmış dostların biri mənə zəng edib dedi:

- Həsən, Suriyaya gedirsən?

- Allahu əkbər! Əlirza, birdən-birə zəng edib deyirsən ki, Suriyaya gedirsən? Hə, gedirəm. Məsələ nədir?

- Bir neçə dəqiqəyə sənə zəng edəcəyəm.

On dəqiqədən sonra zəng edib dedi:

- Bu axşam Çehltən məzarlığının Xorasan meydanı tərəfində, naməlum şəhidlərin məzarı başında görüşək.

Şam azanına təxminən iki saat qalırdı. Beynimə gəldi ki, bu işə həvəsli uşaqların üç-dördünə xəbər verim. Onlara belə bir mesaj yazdım: “Salam, qardaşlar! Kimdə varsa, Kərbəla həvəsi, Bismillah!”

Mesajı göndərən kimi Mustafa Sədrzadə zəng edib tövşüyə-tövşüyə dedi:

- Həsən, bu mesaj nə məsələdir? Hara gedirsən?

- Niyə belə ləhləyirsən? – deyə soruşdum.

- Əl-Aləm kanalına baxırdım, bir İŞİD döyüşçüsünün suriyalı əsgərin ciyərini dişləri ilə qopardığını göstərirdilər. Bir anlığa qəlbim qırıldı, dedim ki, Xudaya, Sən həzrət Zeynəbin canı, işimi düzəlt, mən ora gedim. Həsən, bilirsən nə qədər sevindim?! Dadaş, harada olsa, necə olsa, mən gəlirəm!

- Yaxşı. Kohənzə çatanda mənə zəng elə.

Mustafa zəng etdi. Onunla və başqa bir neçə nəfərlə birlikdə Tehranın Xorasan meydanına doğru yola düşdük.

Uşaqlar yolda çox sevinirdilər, Mustafa isə yerə-göyə sığmırdı. Yolda rövzə kasetini qoydum. Mahmud Kərimi həzrət Rüqəyyədən oxuyurdu. Uşaqlar ağladılar.

Şəban ayının son üç günü idi, hamımız müstəhəb oruc tutmuşduq. Şam azanı veriləndə Xorasan meydanına çatdıq.

- Gedək bir şey yeyək, acından öldük. Sonra dostuma zəng edərəm, - dedim.

Həlim yedik, sonra yaxınlıqdakı məsciddə namazımızı qıldıq. Uşaqlar çox sevinirdilər. O anlar unudulmaz xatirəyə çevrildi.

Nəhayət, Əlirza ilə vədələşib Bəsic mərkəzlərindən birinə doğru yola düzəldik. Bir neçə küçədən keçəndən sonra oraya çatdıq. Qəribə mənzərə idi. Səksəninci illərdə olduğu kimi Bəsic mərkəzində ad yazdırırdılar, hizbullahçı uşaqlar bir yerə toplaşırdılar, döyüşçülər gəlirdilər və sevimli bir ab-hava yaranırdı.

Döyüşçülərin bir-ikisi yeni qayıtmışdı. Beş dəqiqə oturduq. Bir nəfər sarıqlı qolla gəldi. Onda onu tanımırdım. Çox lotucasına danışırdı. Sonra bildim ki, adı Söhrabdır.

O dedi:

- Uşaqlar, ora aşpazxanada işləməyə gedirik. Hələb və Zeynəbiyyədə iki-üç aşpazxana bizim əlimizdədir. İş ağırdır. Əldə olan az imkanlarla yemək bişirib döyüşçülərə göndərməlisiniz.

İşin çətinliyini izah etdi, yaxşılığından da danışdı, sonra könüllülərin adlarını yazmağa başladı və iclas bitdi. Axırda dedi:

- Hərbçilər ağa Cavadiyə adlarını yazdırsınlar və birləşmələrinə məktub göndərsinlər.

Əvvəlcə Əmirhüseyn Hacınəsiri yaxınlaşıb dedi:

- Hacı, əvvəl məni yaz.

- Nə qədər qalmaq istəyirsən? – Cavadi soruşdu.

- Hacı, nə qədər istəyirsən, yaz, amma bir ildən az olmasın.

Biz də şirə döndük. Məndən də nə qədər qalmaq istədiyimi soruşanda dedim:

- Bir il.

- Bir neçə günə birləşmənizə məktub göndərəcəyik ki, ezamiyyətə gedəsən.

Onunla sağollaşıb Mustafanın yanına getdik. Gördüm ki, sevindiyindən bir yerdə dayana bilmir, atılıb-düşür.

- Mustafa, nə olub? – deyə soruşdum.

- Adımı yazdırdım, bir neçə günə gedirik.

Aşpazxanada işləmək yoluyla Suriyaya getmək bəsicilərə daha rahat idi. Bizsə hərbçi idik və nizamnamədə pasdarlar üçün belə bir iş nəzərdə tutulmamışdı.

## *Yalnız pasport*

**Rəhman Salmani**

- Suriyaya gedəkmi? – deyə Mustafa məndən soruşdu.

- Məni ələ salırsan? – dedim.

- Yox, məsələ ciddidir, gəl gedək. Günorta cümə namazına gəl, görüşüb danışaq.

Namaza getdim, görüşdük. Mənə dedi:

- Yalnız pasport lazımdır, başqa heç nə.

- Mən pasportumu təzə almışam.

Onu Mustafaya verdim. Ertəsi gün zəng etdim. Dedi:

- Bir neçə günə Tehrana gedəcəyik, səfər hazırlığı iclasıdır.

## *Qədr gecəsi*

**Əmirhüseyn Hacınəsiri**

Çehltənin yaxınlığındakı məsciddə adımızı yazdırandan sonra oraya gedib-gəlməyə başladıq. Təxminən əksər axşamlar işimizlə maraqlanmaq üçün ora gedirdik. Hətta qədr gecələri kimi məscidimizdə çox adam olan və işimizin başımızdan axdığı zamanlarda da gedirdik ki, birdən gedərlər, biz qalarıq.

## *Höccət tamamlamaq*

**Həsən Əkbəri**

Gecə saat 12-də bir nəfər zəng edib dedi:

- Əgər Suriyaya getmək istəyirsinizsə, tez özünüzü Çehltənə yetirin.

- Atan yaxşı, anan yaxşı; gecə saat 12-dir, maşınım yoxdur, camaatın ailə-uşağı yatıb, necə oyadım?

- Bilmirəm. Getmək istəyirsinizsə, bu gecə gəlməlisiniz. Bir nəfər gəlib, sizinlə işi var.

Mustafa, Əmirhüseyn və Mehdi Rzayiyə zəng edib dedim ki, yenə Çehltənə getməliyik.

Əmirhüseyn yeznələrinin Səmənd avtomobilini aldı, sevindiyindən 45 dəqiqəlik yolu 25 dəqiqəyə getdi. Kərəcli uşaqlardan iki-üç nəfər də yarım saata özlərini Xorasan meydanına yetirdilər. Mustafanın gözləri sevincdən işıldayırdı.

Əbülfəz adlı biri qarşıya çıxıb özünü təqdim etdi. İki-üç dəfə Suriyada olmuşdu.

- Biz Zeynəbiyyənin aşpazxanasında olanda, - o deyirdi, - təkfirçilər bizim yanımızdakı binalara çatdılar. Biz də silah götürüb vuruşmağa başladıq. O qədər inamla “Allahu

əkbər" və "la ilahə illəllah" deyirdilər ki, səsləri Zeynəbiyyədə dolaşırdı və biz qorxurduq.

Bizə terrorçuların əməliyyatlarından birindən klip də göstərdi. O əməliyyatda əlli-altmış nəfər şəhid edilmişdi. Əbülfəzsə deyirdi ki, onlar terrorçuların cəsədləridir.

- Mustafa, terrorçuları vurub partladıblar, - dedim.

- Yox, əşi, bunlar bizimkilərdir, - dedi. – Mən ərəbcəni başa düşürəm. Danışan deyir ki, bu filan-filan olmuşa baxın, filan ordudandır, vurub partlatmışıq, Allah əzabını artıq eləsin!

Biz bu səhnələri görəndə qorxurduq, Mustafa isə sanki getməyə daha da qərarlı oldu. O dedi: "Xudaya! Məni tez o tərəfə yetir!"

Qorxmadığına görə Mustafanın ilk və son sözü bu idi ki, haçan gedirik.

- Sizi buraya höccəti tamamlamaq üçün gətirmişəm, - deyə Əbülfəz höccəti tamamladı və biz evlərimizə qayıtdıq.

## *Təkcə çantası keçdi*

**Həsən Əkbəri**

Əbülfəzlə axırıncı iclasdan bir neçə gün sonra Əlirza Mustafaya zəng edib dedi:

- Mustafa, özünün və adlarını yazdırmış bir neçə nəfərin sənədlərini axşama qədər mənə çatdır.

Mustafa ilə getdim. Sənədləri Əlirzaya verdi. Biz qayıdanda Əlirza mənə zəng edib soruşdu:

- İndi getməyə hazır adamınız var? Sabah ezamdır.

- İndi deyərlər?! – dedim.

Bunu Mustafaya deyəndə onu saxlamaq olmurdu.

- Hacı, mən gedirəm, - dedi və tez-tez təkrarlamağa başladı: - Xudaya! Sənə şükür! Ey həzrət Zeynəb, çox sağ ol! Onlara de ki, Mustafa gedir.

- Hə, bir nəfərimiz var, - Əlirzaya dedim.

- Sabah günorta İmam Xomeyni adına hava limanında olsun.

Mustafa çantasını yığıb getməyə hazırlaşdı, amma ailəsinə bu barədə heç nə demədi.

Mustafa gecənin yarısı yoxa çıxanda həyat yoldaşı ondan ötrü narahat olmuşdu. Artıq dillərə düşmüşdü, bütün məscid məsələni bilirdi. Deyirdilər ki, Həsən, Mustafa, Əmirhüseyn və Mehdi Rzayi bu gecə Suriyaya gedəcəklər.

Elə birinci gecə işimizin üstü açıldı. Mustafaya demişdim ki, sübh namazına Xorasan meydanına gəl, oradan birlikdə hava limanına gedək. O, gecənin yarısı hava limanına getmişdi, bizsə sübhə vədələşmişdik və saat 11-də hava limanına getmək istəyirdik. Həmin vaxt Mustafanın xanımı yolu keçəndə bizi gördü.

- Mustafanın xanımı səni gördü, - Mehdi Rzayi mənə dedi, - bildi ki, harasa getmək istəyirik. Artıq əmindir ki, Mustafa Suriyaya gedir. Bir iş gör, yoxsa hava limanına gedib narahatlıq yaradar.

- Yox, əşi, heç nə olmaz, gəl gedək.

Hava limanına gedib Mustafanı gördük. Əbülfəz də oradaydı.

Çox gözəl çevrə idi. Hamı Suriyaya getmək istəyirdi, müharibə vaxtı olduğu kimi, şəhadətdən, Kərbəladan danışırdılar.

Uçuş zamanı yaxınlaşırdı. Mustafa deyirdi ki, yüz faiz gedəcəyəm. Onun təyyarə biletini verdilər. Hələ çıxış qapısından keçməmiş Əbülfəz bizə yaxınlaşıb dedi:

- Çox azıq. Zəng edin, kimin pasportu varsa, tez gəlsin.

Əmirhüseyn evlərinə zəng edib dedi:

- Ata, Suriyaya gedirsən?

- Hə.

- Tez gəl.

Əbülfəz Əmirhüseyndən soruşdu:

- Neçə nəfərə zəng etdin?

- Bir nəfərə. Zəng edim, qardaşım da gəlsin?

- Zəng elə, gəlsin.

Qardaşı on birinci sinifdə oxuyurdu. Əmirhüseyn yenə atasına zəng edib dedi:

- Anamla danış, əgər razı olsa, Məhəmmədhüseyni də gətir.

Anası demişdi: "Razı olmaq nə deməkdir?! Apar. Burada qalıb nə edəcək ki?!"

Beləliklə, Hacınəsiri ilə Məhəmmədhüseyn bir çanta götürüb hava limanına gəldilər. Biz uzun müddət çalışdıqdan sonra və bu qədər iddia ilə həzrət Zeynəbin hərəminə baxmağın həsrətindəydik, Məhəmmədhüseyni isə yatdığı yerdə atası çağırıb demişdi: "Qalx, gedək Suriyaya".

Hacınəsiri gələndə sanki Mustafaya elektrik doldurucu qoşdular. O, bir vaxtlar əl-Qədir mərkəzinin komandiri, Mustafa da onun işçisi olmuşdu. Onunla bağlı xatirələrini böyük həvəslə danışırdı, əhvali-ruhiyyəsi qat-qat yüksəlmişdi. Daha onu saxlamaq mümkün deyildi. Uşaqlar keçdilər, növbə Mustafaya çatdı. Pasportu verəndə polis ona dedi:

- Sizin ölkədən çıxış icazəniz yoxdur. Siz hövzə tələbəsi olmusunuz, hələ də tələbə kodunuz var.

Onu buraxmadılar. Mənə baxıb gözüyaşlı halda dedi:

- Həsən!

- Nə olub? – deyə soruşdum.

- Pasdar vəsiqəni gətirmisən?

- Yox.

O kövrəlir, mən gülürdüm. Əzab çəkdiyini bilirdim, amma kövrələndə o qədər gülməli olurdu ki, özümü saxlaya bilmirdim.

- Bunlarla danış, keçməyə qoymurlar, - mənə dedi və ağlamağa başladı.

Oyan-buyana qaçırdı, amma nəticəsi olmurdu. Ondan başqa hamı getdi. Hətta çantası da getdi, amma özü qaldı. Ailə-uşağı hava limanının önünə gəlmişdi, xanımı çox narahat idi. Mustafanı görəndə sanki yenidən cana gəlmişdi, qızı da qucağına hoppanmışdı və birlikdə getmişdilər.

## *Tilsim sındı*

**Həsən Əkbəri**

Mustafaya zəng edib soruşdum:

- Hardasan?

- Şəhriyarda naməlum şəhidlərin məzarında.

Oraya getdim. Bəsic uşaqları orada sərgi təşkil etmişdilər. Camaat oturmuşdu, aparıcı danışırdı.

Xanımı və uşağıyla getmişdi. Pijamadaydı.

- Mustafa, niyə belə gəlmisən? – deyə soruşdum.

- Həsən, hövsələm yoxdur.

Həqiqətən, dilxor idi, daim fikirləşirdi ki, niyə gedə bilmir. Od tutub yanırdı.

Məzarlığın yanındakı hüseyniyyədə oturduq.

- Ya məni aparacaqlar, ya da onlara ağzıma gələni deyəcəyəm və bir də qəbirlərini ziyarət etməyəcəyəm.

Əvvəllər ora çox gedir, rövzə oxuyurduq. İndi isə şəhidlərə deyirdi: “Mən sizin yanınıza çox gəldim, amma siz məni atdınız!”

Mustafanın tələbə kodu vardı və hələ hərbi xidmətə getməmişdi. Axırda sənəd qoydu və ölkədən çıxışına qoyulmuş məhdudiyyət götürüldü.

Yeddi-səkkiz gündən sonra yenə ona zəng edib dedilər ki, filan yerə gəl, Suriyaya gedirik. Sağollaşdıq və o, hava limanına getdi. Sübh zəng edib dedim:

- Dadaş, xudahafiz! Bizim üçün də dua edərsən!

Axşamüstü gördüm ki, zəng edir:

- Mustafa, hardasan? – deyə soruşdum.

- Həsən, ezamiyyət təxirə düşdü. Nə vaxt gedəcəyimiz bəlli deyil. Mən özümlə pul da götürməmişəm. İndi acından ölürəm, iftar da açmamışam. Sübhdən namazxanada yatmışam. Kiməsə zəng eləməyə də utandım. Ehtimalı var ki, sabah bizi göndərsinlər, ona görə evə getmədim.

- Maşallah! Səndə nə ürək var!

- Məni aparmağa gəlirsən?

- Əlbəttə gəlirəm.

Uşaqların birinə zəng edib dedim:

- Mustafa gedə bilməyib. Gedək hava limanına, onu gətirək.

- Heç bəxti yoxdur, - dedi. – Axırda intihar edəcək.

Maşını işə salıb hava limanına getdik. Qəlbi sınmışdı, sabah gedəcəkləri barədə dəqiq bir söz deməmişdilər. Evə getməyib:

- Mən ya Suriyaya gedəcəyəm, ya da başqa yerdə qalacağam, evə getməyəcəyəm, - dedi.

- Bu nə sözdür?! Get ailənin yanına, - dedik.

- Əgər getsəm, bir də gəlməyə qoymayacaqlar.

Qədr gecəsi idi. Xorasan meydanına getdik. O, yaxınlıqdakı bir hüseyniyyədə qaldı, bizsə qayıtdıq. Ertəsi gün hava limanına getmiş və nəhayət, Suriyaya uça bilmişdi.

## *Yatıb qaldım*

**Əli İsfəndiyari**

Suriyaya getmək istəyirdi. Mənə zəng edib dedi:

- Əli, hardasan?

- Evdə, - dedim.

- Suriyaya gedəkmi?

- Suriyaya?! Hansı işə?

- Yemək bişirməyə. Əvvəl yemək bişirərik, sonra da döyüşə gedərik.

- Gedək!

Səfər günü gəlib çatdı. Mustafa dedi:

- Əli, yatıb qalmayasan ha! İstəyirsənsə, gedib hüseyniyyədə yataq, evdəkilər də bilməsinlər.

- Yox, ağa Mustafa, heç olmasa, son gecəni evdə qalsaq, yaxşıdır.

Axşam bir işdən ötrü Çalus yoluna getdim, qayıdanda qəza keçirdim və o reysə çatmadım. Onlar getdilər, mənsə sonradan nə etdimsə, gedə bilmədim.

## *Ürəkdə qalan həsrət*

**Sübhan İbrahimpur**

- Sübhan, gəl birlikdə Suriyaya gedək, - deyə bir gün bildirdi.

Pasportumu cibimə qoydum ki, yaddan çıxmayım.

Biz gedənə qədər nəticələri verdilər və mən universitetə ad yazdırmalı oldum.

Suriyadan mənə zəng edib dedi:

- Sübhan, Suriyaya gəlmək istəmirsən?

Səsindən bildim ki, getməyimi istəyir.

- Ağa Mustafa, mən universitetə qəbul oldum, - dedim.

- Təbrik edirəm, dadaş, sən get universitetə.

Çox narahat oldum, həsrət ürəyimdə qaldı.

## *Təyyarəyə zəng*

**Xanım İbrahimpur**

"Getmə" deyəndə o qədər dəlil sayırdı ki, deyirdim:

- Əgər, həqiqətən, elədirsə, bəs bizim televiziyamız niyə bir söz demir?

- Bizim televiziyamız bu məsələlərə toxunmur, - deyirdi. – Adətən bir qisim xəbərləri efirə vermirlər.

Həmişə tənqid edirdi ki, bizim kanallarımız bütün xəbərləri vermədiyinə görə camaat peyk kanallarına üz tuturlar, onlar da düz xəbərlərlə yanaşı bir neçə yalan xəbəri də efirə buraxırlar.

Fitr bayramından sonra anamgil şimala getmək istəyirdilər. Ona dedim:

- Biz də onlarla gedəkmi?

- Mənim işim var, gedə bilməyəcəyəm, sən get.

O gəlmədi və mən anamgillə şimala getdim. Telefonla əlaqə saxlayırdıq. Ondan öncə Mustafa ilə iki saat telefonda danışan deyildim. Gündə, bəlkə də, yüz dəfə ona zəng edirdim. Bir gün yenə səhərdən axşamüstüyə qədər tez-tez ona zəng etdim. Hiss edirdim ki, getmək istəyir. Mənim bu xasiyyətimi çox görmüşdü. Bəzən zənglərimə görə hirslənirdi də, amma mən qulaq asmayıb öz işimi görür,

zəng etməyəndə də mesaj yazırdım. Başı çox qarışıq olurdu, daha çox, axşamlar cavab yazırdı. Həmin səfərdə otuz min tümən telefon pulu verdim.

Mesajlara gec cavab yazsa da, zənglərə o anda cavab verməli idi. Bilirdi ki, cavab verməsə, hirslənib onu peşman edəcəyəm. Cavab verməyəndə dərhal həyəcanlanırdım. Dostları da bunu bilirdilər. Başım ağrıyırdı, əsəbiləşirdim, Fatimə ilə məşğul olmağa da hövsələm qalmırdı. Buna görə hər bir şəraitdə zəngimə cavab verirdi. Moizədə, tədbirdə və ya Bəsicdə olanda da telefonu açırdı, mən səsi eşidib harada olduğunu bilir və özüm kəsirdim.

Yoldan ona zəng edib dedim:

- Biz İmamzadə Haşimdəyik, Tehrana tərəf gəlirik.

- Mən evdə olmasam, narahat olma.

- Hara gedəcəksən?

- Hardan biləydim gələcəksən?! Mən Suriyaya gedirəm.

- Mustafa, sən Allah, getmə, - deyə ağlamağa başladım.

- Mən təyyarədəyəm, telefonu söndürməliyəm, - dedi.

Bu həddə dərin sarsıntı keçirəcəyim ağlıma gəlməzdi. Danışıq kəsilən kimi özümdən gedəcəyimi hiss etdim, o qədər qollarımı tərpədib yeridim ki, yoruldum.

Əvvəllər əzab çəkirdim. Dost-tanışlar halımı görüb deyirdilər ki, getmək istəyəndə öncədən sənə desin, bir qədər hazırlasın. Dedim ki, yenə bacarmaram, dəli olaram, bəlkə də, belə getməsi daha yaxşıdır. Bir neçə dəfə də getmək istəyəndə məndən xəbərsiz getdi.

Xülasə, şimaldan gələndə ev boş idi, Mustafa getmişdi.

# Aşpazxana məsələsi

**Rəhman Salmani**

İlk gündən dedilər ki, iranlı geyimi geyməyin, ayağınızda "Milli ayaqqabı" və üstünüzdə İran pulu olmasın.

Həzrət Rüqəyyənin məqbərəsinə[5] çatdıq. Mustafa "mən tualetə gedirəm" deyib getdi və bir neçə dəqiqədən sonra gəldi. Bizə demişdilər ki, iranlı görkəmində olmayın, təhlükəlidir, Mustafa isə nəinki iranlı, hətta bəsici görkəmində idi. Xaki bəsici forması geymiş, boynuna çəfiyə şalı atmış, sinəsinə imamın şəklini vurmuşdu. Bayıra çıxmaq istəyəndə uşaqlar tökülüşüb onu saxladılar və dedilər:

- Hacı, hara gedirsən?! Bizim hamımızı ölümə verəcəksən! Bu nə görkəmdir?!

- Qardaş, biz şəhadət üçün gəlmişik, - Mustafa dedi.

- Nə danışırsan, Mustafa?! Şəhadət hardaydı, dadaş?! Şəhid olmaq istəyirsənsə, get, amma bununla bizi ölümə verirsən.

Mustafadan fərqli olaraq, mən həzrət Zeynəbə dedim:

- Xanım, mənim şəhid olmaq niyyətim yoxdur. Gəlmişəm ki, əlimdən bir iş gəlsə, sizə xidmət edim. Xahiş edirəm, mənim üzümə bir cızıq da düşməsin!

Mustafa gülüb tənə ilə dedi:

- Şəhadət! Şəhadət! Axı nə şəhadəti?! Hamı şəhid olsa, bəs kim vuruşacaq?!

Ziyarətdən sonra aşpazxanaya getdik. Bəziləri bizdən öncə oradaydılar. Biz gedib aşpazxananı təhvil alanda otuz nəfər getdi. Biz içəri girəndə oxumağa başladıq:

---

[5] O zaman məqbərə çox təhlükəli yerdi, süqut etmək üzrəydi, 200 metr aralıdakı ərazi terrorçular tərəfindən vurulurdu.

Sənə minnətdaram ki,
Məni rədd etmədin.
Əməllərim yaxşı olmasa da,
Əlaçanların arasından
Məni də sayıb-seçdin.

Oxuyur, ağlayırdıq. Mustafa hönkür-hönkür ağlayırdı.

Orada təxminən iki-üç min nəfərə xörək bişirirdik. Bir aşpazxana da Hələbdəydi, Məhəmmədhüseyn Hacınəsirini və ilk səfərdə gedən digər uşaqları ora göndərmişdilər.

Mən çox işləmir, bayıra çıxıb əhali ilə ünsiyyət qurmağa çalışırdım. Mustafa isə əksinə, çox həvəslə işləyirdi. Şəhadət eşqi bütün vücudunu bürümüşdü, uşaqların döyüşdə olduğunu düşünüb deyirdi:

- Tez-tez işləyin, uşaqlar təmas xəttində gözləyirlər. İşləyin! İşləyin! Gətirin! Gətirin! Onları götürün! Qaç! Qaç!

- Mustafa, nə olub, - deyirdim, - hara tələsirsən? Niyə həyəcanlısan?

- Uşaqlar döyüş yerində gözləyirlər!

- Hansı döyüş yeri? Bizi ələ salıblar, xəbərin yoxdur!

- Yox, - deyə üzünü uşaqlara tutub əlavə edirdi: - Uşaqlar, Rəhmanı boykot edin, onunla danışmayın, adamı ruhdan salır!

Və hamı gülüşürdü.

Aşpazxananın rəhbəri Davud idi, amma çox vaxt, Hacı Bəhrami işləri idarə edirdi. Arabir hacıya yazığım gəlirdi, xörəkləri bükməyə kömək etmək istəyirdim, amma könülsüz işlədiyimə görə bir qədər sonra gedirdim. Mustafa ardımca gəlib deyirdi:

- Gəl, ağzına gələndən danış, bunlar gülsünlər, sakitlik pozulsun.

Bir gecə aşpazxanada qalmayıb hərəmə getdim. Sübh saat 8-də hərəmdən çıxıb zirzəmiyə baxmaq üçün aşağı endim. Mustafa orada plitələrin üstünə uzanıb yatmışdı. Saat 3-4-ə qədər oyaq qalır, işləyirdi.

Mustafanın bu işləri hərdən məni hirsləndirirdi, deyirdim ki, niyə özünü həlak edirsən? Onunsa vecinə də deyildi.

## *Sənə minnətdaram*

**Rəhman Salmani**

Bir aya yaxındı Suriyadaydıq. Hərəmdə oturduğum yerdə Mustafanın səsini eşitdim. Aşura ziyarətnaməsi oxuyurdu. Birdən şeirə keçdi: "Sənə minnətdaram, seçdin məni, etdin aram..."

O qaranlıq gecədə hamı evində yatmışdı. Bir neçə il idi həzrət Rüqəyyənin hərəminə gedən küçədə ziyarətçi görünmürdü. O oxuyandan sonra Məsud Neməti və təxminən iyirmi nəfər nəqəratı təkrarlamağa başladılar. Bir-bir bütün işıqlar yandı, başlar pəncərələrdən bayıra çıxdı. Camaat təəccüblə bizə baxırdı. Həyətə girdik. Hamı ağlayır, oxuyurdu. Sanki hamı məddah olmuşdu. Hərə bir şey oxuyurdu, sinə vururduq. Bir də gördüm ki, mühafizəçilər gəldilər, silahlarını kənara qoyub patron kəmərlərini açdılar və bizə qoşuldular. Onlar livanlı ərəblər idilər, nə oxuduğumuzu bilmirdilər, amma sinə vurub ağlayırdılar.

Oranın xidmətçiləri arasında əfqanıstanlı bir qoca vardı, o qədər namaz qılmışdı ki, alnı qabar olmuşdu. Orada ürəyimi kabab edən bir söz dedi:

- Ürəyim yanır!

- Niyə? – deyə soruşdum.

- Müharibədən qabaq günortalar burda dörd dəfə camaat namazı qılınırdı.

## *Ehtiyat qapı*

**Rəhman Salmani**

Bir müddət ötdü. Bir gün aşpazxanadaydıq. Birdən Mustafa gözlərini tikiliyə dikdi.

- Mustafa, nə edirsən? Tikilini süzürsən? – deyə soruşdum.

- Rəhman, burda cəmi bir qapı və bir pilləkən var, - dedi.

- Nə olsun?

- Bu pilləkəndən iki nəfər birlikdə qalxa bilmir, çünki ensizdir. Terrorçular hücum etsələr, haradan qaçarıq? Bunun üçün bir ehtiyat qapı axtarıram.

- Mustafa, sənin işin-gücün yoxdur?!

Onun bu sözü mənim orada son günə qədər ehtiyat qapı axtarmama səbəb oldu. Beynimə elə salmışdı ki, çıxmaq bilmirdi. Zirzəmiyə düşəndə fikirləşirdim ki, birdən indi bura hücum edərlər. Axırda qazanları düşünürdüm. Aşpazxananın bir hissəsi qazanla doluydu. Mən iki qazanı elə qoydum ki, təhlükə yaransa, birinin içinə girib o birini də üstündən qoya bilim. Lakin buna ehtiyac qalmadı; biz hücuma məruz qalmadan dedilər ki, aşpazxananı boşaldın.

Aşpazxana rəhbərliyi dedi ki, Amerika Suriyanı bombalamaq istəyir, iranlı qüvvələri öldürmək üçün hərəmi də vurma ehtimalı var. Bir-iki günlüyə oranı boşaldıb İrana getməli idik.

# *Qocaların təyyarəsi*

**Xudayar Bəhrami**

Biz Suriyadan qayıdan gün kimyəvi bombardmandan danışırdılar. Biz dörd qocaydıq, cavanlarla getmişdik. Bizə dedilər ki, gərək qayıdasınız. Soruşduq ki, niyə? Dedilər ki, qocalar qayıtmalıdırlar. Qayıtdığımız təyyarədə hamı qocaydı. Mustafa mənimlə hava limanına qədər getdi. Xüsusi görkəmlə dedi:

- Qayıdırsınız?!

- Qayıtmırıq, qaytarırlar, - dedim. – Başqa yolumuz yoxdur.

# *Mustafadan xəbərsizlik*

**Rəhman Salmani**

Mustafa da daxil olmaqla təyyarəyə yerləşməyən uşaqlar növbəti uçuşla gələcəkdilər. Biz İrana qayıtdıq, amma nə qədər gözlədiksə, Mustafadan xəbər gəlmədi.

# *Qaçış əhvalatı*

**Mustafa Sədrzadə**

Birdən-birə nə oldusa, dedilər ki, əmr var, bütün iranlılar qayıtmalıdır. Nə edəcəyimi bilmirdim. Onda Amerika Suriyaya hücum etmək istəyirdi.

Məsud Neməti müqəddəs müdafiə uşaqlarındandı, döyüş dəlisi və çox mərifətli idi. Müharibə vaxtı müsəlman olmuş lotulardan, həm də Kumeyl batalyonunun yadigarlarından idi.

Hamını göndərdik, getdilər. Biz bir neçə nəfər ertəsi gün İrana uçacaqdıq. Məsuda yaxınlaşıb dedim:

- Hacı, sənə bir söz demək istəyirəm. Etibarlı olduğun üçün təkcə sənə deyirəm. Düzü, mən qaçmaq istəyirəm, burda qalmaq istəmirəm.

- Necə yəni qaçmaq istəyirəm?

- Sən bil, onlara deyərsən ki, Mustafa qaçdı. De ki, özü gedib, qoy məni axtarmasınlar.

Bir məktub yazıb bildirdim ki, öz razılığımla gedirəm və kimsə arxamca gəlməsin. Beləliklə, Suriyada korpusdan ayrıldım. Çünki aşpazxana korpusun nəzarəti altındaydı.

## *Kumeyl batalyonunun döyüşçüsü*

**Məsud Neməti**

Cəbhə uşağı və Kumeyl döyüşçüsü olduğuma görə Mustafa yanıma çox gəlirdi. Axşamlar əl çəkmədən deyirdi ki, cəbhədən və dostlarından xatirə söylə. Birlikdə rövzə oxuyub ağlayırdıq. Get-gedə münasibətimiz daha da möhkəmləndi.

Bir müddətdən sonra dedilər ki, İrana qayıtmalısınız. Mən aşpazxana ilə hava limanının yolunu araşdırıb qərara gəldim ki, hava limanına çatanda qaçıb döyüşçülərin yanına gedim. Ora asanlıqla getməmişdim ki, Amerikanın bombardman hədəsi ilə geri qayıdım.

Mustafanın da çox fikirli olduğunu, daim vurnuxduğunu görürdüm.

- Nə olub? – deyə bir dəfə soruşdum.

- Qaçıb döyüşlərə qatılmaq istəyirəm, - dedi.

- Belə eləmə, düzgün deyil!

Ona nəsihət verdim. Amma çox qərarlı idi. Tək getməyə qoysaydım, ona problem yaranardı. Gəncdi, qərib ölkədəydi. Buna görə planımı dəyişdirdim və qərara gəldik ki, birlikdə qaçaq.

# *Komaya düşdüm*

Mustafa Sədrzadə

- Mən də qaçmaq istəyirəm, - Məsud mənə dedi. – Pasportumu da oğurlamışam. Budur!

Pasportunu çıxarıb mənə göstərdi. Mənimki isə onlardaydı.

- Sənin pasportun yoxdur, necə qaçacaqsan? – deyə soruşdu. – Ordu sənə terrorçu damğası vurub tutar. Dilini də bilmədiyin bir ölkədə çox problem yaşayarsan!

Bu sözdən sonra bədənim boşaldı, sanki komaya düşdüm.

# *Açar*

**Məsud Neməti**

Bir gün qabaq pasportların arasından özümünkünü götürüb cibimə qoymuşdum. Digər pasportları qapısı həmişə kilidli olan bir otağa qoymuşdular. Bir dəfə gedib açarı götürdüm ki, özləri gedəndən sonra qapını açaq. Amma Mustafa dedi:

- Cəmi bircə açarları var; otağa girmək istəsələr, işlər korlanacaq.

Açarı aparıb yerinə qoydum.

- Mustafa, get iki rükət həzrət Zəhra namazı qıl, - dedim, özüm də gedib qıldım.

Onlar qapını kilidləyib şam yeməyinə getdilər. Nə edəcəyimi düşündüyüm yerdə Mustafa bir açarla gəldi.

# Ey qapıları açan

**Mustafa Sədrzadə**

Tualetdən çıxanda çox narahat idim. "Ya Zeynəb, indi mən nə edim?" – dedim. Təkcə bu bir cümləni söylədim. Birdən gözlərim qızılı bir açara sataşdı. Onu götürüb Məsudun yanına getdim. Yatmışdı.

- Hacı Məsud, - deyə onu səslədim.

- Bəli, - bir gözünü açıb dedi.

- Dadaş, ürəyimə damıb ki, bu açar qapını açacaq. Sən döyüşçüsən, müharibə əlilisən, gəl, sən aç. Komandir otağında heç kim yoxdur. Gəl, bəlkə, sənin əlinlə açıldı.

Açarı qapıya salıb "ey qapıları açan Allah" dedi və bir çıqqıltı ilə qapı açıldı. Bilmirəm açar o qapının idi, yoxsa yox; hər nəydisə, qapı açıldı.

# Cəmi min lirə

**Məsud Neməti**

Qapını açıb pasportu götürdük. Mustafaya dedim:

- Pulumuz yoxdur; gəl yüz dollar pul da götürək.

- Yox-yox, sabah söz çıxararlar.

Orada bizə maaş olaraq heç bir pul vermirdilər.

- Mustafa, bizə maaş verməlidirlər, - dedim. – Heç olmasa, yüz dollar götürək.

- Yox, götürməsək, yaxşıdır.

Allaha şükür ki, əlimiz təmiz qaldı. Yaxşı ki, götürmədik. Sonradan qulağımıza çatdı ki, bizim pul oğurladığımızı deyirmişlər.

- Mustafa, bir məktub yaz ki, biz özümüz bu qrupdan ayrılırıq, sabah bundan ötrü komandirimizi təqsirkar bilməsinlər.

Pulumuz olmadığına görə uşaqları gözlədik ki, onlardan pul alıb gedək. Amma heç birində pul yox idi. Orada qalmaq üçün cəmi min Suriya lirəsi varımızdı.

# *Damda yatmaq*

**Mustafa Sədrzadə**

Xülasə, qaçdıq. Dedik ki, hara gedək? Nə ərəbcə danışa bilirdik, nə də pulumuz vardı. Məsud çox zirək idi.

- Hara getsək, bizi tapacaqlar, - dedi. – Görkəmimiz də uzaqdan çağırır. Odur ki, ən yaxşı yer öz yerləridir.

- Necə yəni?

- Dama çıxaq.

Dama qalxdıq. Bir-iki dam aralıda üstübağlı girişdə ədyal sərib yatdıq. Bu zirək Məsud çoxdan açarları oğurlayıb dublikatını çıxartdırmışdı. Maşınları gedəndən sonra cəld aşağı enib xörək yeyir, soyuducudan yeməyə nəsə götürür, yenə yuxarı qalxırdıq. Ortalıq sakitləşənə qədər iki-üç gün orada qaldıq.

Qaçanda yatmış bir rəisin yanından bir mobil telefon götürmüşdük. O, mühafizədən zəng edib deyirdi: "Hara getmək istəyirsiniz? Hizbullahın və ordunun bütün postlarına tapşırmışıq. Heç bir yerə qaça bilməyəcəksiniz. Hər yerdə sizi saxlayacaqlar".

Həzrət Rüqəyyənin hərəminə getdik. Oranın xidmətçiləri ilə dostlaşmışdıq. Pulumuz, bəlkə də, cəmi üç dəfə yeməyə çatardı, vəssalam. Xidmətçilərdən olan Seyid Məhəmməddən bir az borc aldıq. O, bizə bir açar verib dedi: "Bacımın evinə gedin. O, müharibə başlayandan İrana gedib. Gedin Zeynəbiyyəyə".

Zeynəbiyyəyə getdik. Uzaqdan əlimizi sinəmizə qoyub salam verirdik, bilirdik ki, ayağımız hərəmə dəysə, bizi tutacaqlar.

Sonra nə edək, hansı qrupa qoşulaq deyə düşünürdük. İki gün keçməmiş iranlı uşaqlardan ikisini gördük. Biri Nəcəfdə Seyid Bəthayinin dostu idi.

- Burda nə edirsiz? – deyə soruşdum.

- Vuruşmağa gəlmişik. İraqdan Müqtəda Sədrin təşkilatı ilə danışmışıq, onlara qoşulacağıq.

- Bizi də ora üzv edə bilərsiniz?

- Hə; gəlin gedək, - deyə bizi İmam Hüseyn bayrağı batalyonuna apardı.

Pasportlarımızın surətini çıxardılar, iki gündən sonra isə döyüş mövqeyində, Türkmən şəhərinin Hüteytə bölgəsindəydik. Orada xaki rəngli Bəsic formasını geydim.

## *Ağıl və eşq*

**Məsud Nemətİ**

Səhər adımızı yazdılar, axşamüstü döyüş mövqeyinə getdik. Bizə tapşırdılar ki, suriyalılar, xüsusən də ordu qüvvələri ilə əlaqəmiz olmasın, çünki xain və təhlükəlidirlər. İranlıları valyuta fondu adlandırırdılar, deyirdilər ki, bir iranlı tutanda azadlığı üçün bir milyon dollar istəyirlər.

İraqlıların qarşı tərəfində əl-Nüsrə cəbhəsi və Ceyş əl-Hürr qruplaşmaları dururdu. Elə birinci axşam güclü döyüş getdi. Sağdan bizi atəşə tuturdular. Bir villaya yerləşmişdik, sonunda xadimə otağı vardı, biz və başqa iki-üç nəfər oradaydıq. Uşaqların on-on beş nəfəri ikinci mərtəbəyə yerləşmişdi. Hərəmizdə bir Kalaşnikov avtomatı və yeddi-səkkiz döyüş patronu vardı. Həzrət Zeynəbin hərəminin

yaxınlığındaydıq. Qarşı cəbhənin villası ilə məsafəmiz 60 metr idi, aramızda təkcə dəmiryol xətti vardı. Sol tərəfdən 500 metr aralıda isə Dəməşq hava limanına gedən yol görünürdü.

Yetərincə silah-sursatımız yox idi. Avtomatlardan əlavə, bircə RPG qumbaraatanı, bir mərmi və cəmi iyirmi beş ədəd patronu olan bir pulemyotumuz vardı. Hücum etsəydilər, bir dəqiqə də müqavimət göstərə bilməzdik.

Komandirə dedim:

- Əgər müharibə deyilsə, biz burda nə gəzirik?! Yox, müharibədirsə, sursat ver!

Dedi ki, Suriya ordusundan sursat alınacaq, yeni gəldiyimizə görə hələ almamışıq. Hətta bizə yemək də vermirdilər, uşaqlar şəhərdən ucuz sendviç alırdılar. O günlərdə vəziyyət həm silah-sursat, həm də yemək cəhətindən acınacaqlı idi.

Mustafa, iranlı hövzə tələbəsi və onun Səccad adlı yoldaşı ilə birlikdə birinci gecəni xadimə otağında qaldıq. Sübh namazını qılandan sonra tələbə dedi:

- Ağa Məsud, bura təhlükəlidir. Burda qalmaq aqilanə fikir deyil!

- Hə, vallah, burda qalmaq aqilanə deyil, aşiqanə fikirdir.

- Axı nə sursat var, nə başqa bir şey.

- Hə, qardaş, həqiqətən, eşşəklikdir; kim burda qalsa, eşşəkdir!

Səhər yuxudan oyanıb dedi:

- Mən həzrət Zeynəbin hərəminə gedirəm. Ora hücum olunsa, vuruşub müdafiə edəcəyəm.

Hərəm oradan təxminən 3 kilometr uzaqdaydı. O getdi, amma sonra peşman olub qayıtdı. Dostu Səccad isə yanımızda qaldı. O, 1991-ci ildən idi, ürəkli və bacarıqlı oğlandı.

Mustafa Bəsic üzvü kimi təlimlər görmüş olsa da, o təlimlər Suriyaya kifayət etmirdi.

Düşmənə baxan divarda iki dəlik açmışdılar, gecələr orada keşik çəkirdik. Düşmənə doğru bir projektor da yandırmışdılar. Mustafa birinci dəfə növbədə dayananda çox həyəcanı vardı, güclü stres altındaydı.

Mustafa postda dayananda birdən ərəbcə "dayan, dayan" deyə qışqırdı.

- Nə olub? – yanına qaçıb soruşdum.

- Bir nəfər buradan keçdi.

- Mustafa, bura projektor qoyublar, heç kim onun qabağından keçməz. Düşmən qaranlıq tərəfdən gələr. Əgər kəşfiyyatçı gəlsə, elə gələr ki, sən bilməzsən, - dedim, razılaşdı.

Bir qədər söhbət edəndən sonra birdən beyninə bir fikir gəldi:

- Bu iraqlılar indiyədək villadan bayıra çıxmayıblar, - dedi. – Bunları bayıra çıxarmasan, Tehran uşağı deyilsən!

- Yaxşı. Onda mən nə dedim, odur.

Bir neçə dəqiqə oturduq, birdən "dayan" deyə-deyə atəş açdım. Yanımıza qaçıb dedilər:

- Nə olub?

- Bir neçə nəfər gəlir, - deyə qollarından tutub onları zorla bayıra dartdım.

- Termoqrafik durbinləri var, snayperlə vururlar, - dedilər.

- Qorxmayın, - deyə onları birtəhər bayıra çıxardım.

Mən, Mustafa, Səccad və onlardan iki nəfər bayıra çıxdıq. Yanımızda buz zavodunun binası vardı. Onun arxasından keçib İŞİD-in divarı ilə 20 metr məsafəsi olan qatar yoluna çatdıq. Onlar qorxurdular, inana bilmirdilər.

İndiyədək villadan çıxmamış, yalnız düşmən gəlməsin deyə göz qoymuşdular.

- Bu, dəmir yolunun relsidir – deyə əlimi relsə vurdum.

Villadakı komandirimiz Hüseyn Bəlva cəsur oğlan idi. Bizdən çox xoşu gəldi, ertəsi gündən hər axşam bayıra çıxıb özümüz üçün gəzməyə başladıq.

## *Snayperin baxış bucağı*

**Məsud Neməti**

Düşmən mövqeyi bizim otağımızın düz qabağındaydı və snayper villamızı görürdü. Mən güzgüdən baxış bucağına baxıb səngərlərini gördüm.

- Mustafa, gəl çuvalla snayperin önünü bağlayaq, - dedim.

Bizdən öncə altı çuvalla divarın üstündəki dəliyi doldurmuş, qalan çuvalları kənara atmışdılar. Nə qədər dediksə, bizə kömək etmədilər. Ayağımda güllə olsa da, Mustafa ilə birlikdə bütün çuvalları divarın üstünə düzdük və snayperlərinin önü bağlandı.

Mustafa çox diqqətli idi, orada hər hərəkətimə diqqətlə baxırdı. Güzgüdən düşmən mövqeyinə baxdığımı, atəşin gəldiyi bucağı hesablayaraq səngərlərinin yerini tapdığımı görürdü. O da bunu öyrənib edirdi. Bir snayper hər gün səhərdən axşama qədər qarşımızdakı villadan atəş açırdı. Bizi dəli etmişdi, amma bizim tərəfdən heç kim ona atəş açmırdı. Bir gecə keşik çəkib çox yorulmuşdum. Sübh çağı yatmaq istəyirdim, amma snayper tez-tez atəş açırdı. Mustafaya dedim:

- Gərək ona ondan da betərini edək.

Villanın divarının arxasına keçdik, bir dəlik açıb üstünə su səpdik ki, atəş açanda toz-torpaq qalxıb yerimizi

bildirməsin. Səngərdə iki nəfər oturmuş, onlara heç kim atəş açmadığına görə çox həyasız olmuşdular.

- Mustafa, o, atəş açmağa hazırlaşanda de, vurum, - dedim.

- Vur, - Mustafa dedi.

Sinəsinin ortasından vurdum. Ertəsi gün gördük ki, səngərlərinin dəliyini kiçildiblər. Mən o dəliyin də içini vurmağa başladım, onlar da tam bağladılar və bizə doğru atəşləri azaldı.

## *Birdən qorxu*

**Mustafa Sədrzadə və Məsud Neməti**

Türkmən şəhərinin Hüteytə bölgəsində silahlılarla[6] bizim aramızda yeganə sərhəd bir qatar yolu idi, 50-60 metr məsafəmiz vardı. Hamı snayperdən qorxurdu. Biz onun önünü bağladıq və daha vura bilmədi. Bir axşam Məsudun bıçağını itilədiyini gördüm. Onu Zeynəbiyyədən almışdı.

- Nə olub? Niyə itiləyirsən? – deyə soruşdum.

- Gecə o tərəfə keçib snayperin başını üzəcəyəm.

- Yox, Məsud, lazım deyil!

- Yox, gərək gedim.

Suriyalı və iraqlılar deyirdilər:

- Siz dəlisiniz! O tərəfdə nə olduğunu, neçə nəfər olduqlarını bilmirsiz.

- Gərək gedək, - deyə cavab verdik.

---

[6] Suriyada daxili münaqişələrdən sonra müxtəlif qruplar silahlı mübarizəyə başladılar. Onları dörd qrupda ümumiləşdirirlər: 1. Kürdlər, aşuri-suryanilər və Həsəkə əşirətləri; 2. ASO-ya tabe qruplaşmalar; 3. Daxili islamçı qruplaşmalar; 4. Xarici cihad qruplaşmaları.

Hər axşam silahlıların villasına getmək üçün komandirimizlə mübahisə edirdik. Bizi getməyə qoymurdu. Axırda qərara gəldik ki, mən qarşı tərəfdə dayanım, bir hadisə baş versə, silahla ona dəstək verim. Məsud da gedib arxadan snayperə yaxınlaşsın.

Birdən qorxdum. Tez istixarə etdim, yaxşı gəldi.

Məsudun ondan yapışmasına azca qalmış yaxınlaşıb qumbaraatanla səngəri vurdum və güclü döyüş başlandı: taq-taq-taq. Kim-kimə idi. Onların da "Allahu əkbər" səsləri ucaldı. Ayağımın altına güllə dəydi, amma heç kim yaralanmadı. Sonra qayıtdıq.

Məsud mənə ağzına gələni söyləyir, deyirdi ki, niyə qoymadın gedəm?

- Cəhənnəm ol, - dedim. – Sənin ora getmənə icazə verəydim?! Ürəyimə damdı ki, pis olacaq, başına nəsə gələcək. Bax, əvəzində səngərlərini vurduq!

Bu hadisədən sonra şiə və sünnilər gəlib bizim qrupumuza qoşulmaq istədiklərini bildirirdilər. Halbuki əvvəllər ələ salır, bizə dəli deyirdilər.

## *Sınaq*

**Xanım İbrahimpur**

Mustafa deyirdi:

"Bir gecə yuxudan durub tualetə getdim. Qayıdanda səngərin yanında bir nəfər qışqırdı: "Min! Min!"[7] İki addım geri çəkilib dedim ki, Xudaya, mən indi burdan keçmişəm, beş dəqiqənin içində kim bura mina basdıra bilər ki? İrəliləyəndə yenə qışqırdı: "Min! Min!" Yenə fikirləşdim ki, axı burda mina nə gəzir. Daha məhəl qoymadım, düşündüm

---

[7] Bir çox dillərdə mina deməkdir. (müt.)

ki, uzaqbaşı minaya düşüb havaya uçacağam. İrəliləyəndə mənə doğru atəş açmağa başladı. İşığın altında dayandım, atəş də kəsildi. Məni görüb tanımışdı. Sonra bildim ki, "min" sözü "kimsən" demək imiş. Yavaş-yavaş dillərini öyrənirəm".

Bir dəfə də deyirdi:

"Axşam olan kimi müharibə tətil olurdu; nə bu tərəfdən atəş açırdılar, nə o tərəfdən. Axşamlar paltarlarımızı dəyişib yüngül paltar geyirdik, iraqlı uşaqlar qəlyan yandırıb çəkməyə başlayırdılar. Bir axşam yaxşıca qəlyanlarını çəkdilər, deyib-güldülər və başlarını yerə qoyub yatdılar. Gecənin yarısı, hamı yatan vaxt düşmən səngərlərinə yaxınlaşıb iki əl qumbarası atdım, iki dəfə də atəş açıb öz səngərimizə qaçdım. Birdən-birə hamı bir-birinə hücum çəkdi; onlar atəş açırlar, bunlar atəş açırlar. Sonradan iraqlı uşaqlar dedilər ki, biz bilirik, bu, siz dəli iranlı uşaqların işidir. Siz istirahət etmirsiniz?! Yatıb dincəlmirsiniz?! Yatın, qoyun biz də yataq.

Həmin gecə beləcə bütün mövqeyi bir-birinə vurduq, ondan sonra gecə hücum etmək də dəb düşdü.

## *Mühafizə mikroskopu*

**Mustafa Sədrzadə**

İki gündən sonra Təhlükəsizliyi mühafizə xidmətindən bir nəfər zəng edib dedi:

- Gördünüz ki, heç bir yerə gedə bilmədiniz! Sizə demişdim. İndi də yaxşı uşaqlar kimi gəlin, təyyarəyə minib gedin.

- Yaxşı görək, - dedik. – Biz indi döyüş yerindəyik, pulemyot səsi gəlir: du-du-du!

- Hardasınız?

- İndi döyüş gedir, cavab verə bilmirik.

Mat-məəttəl qalmışdı.

Təhlükəsizliyi mühafizə bütün diqqətini bizə yönəltmişdi. Bizsə təhlükəsizlik kartı, ezamiyyət sərəncamı, silah sərəncamı – hər şey almışdıq. Arxayın olandan sonra ziyarətə getdim. Şəklimi hərəmin mühafizə xidmətinə vermişdilər. Məni saxlayıb Hizbullahın qərargahına apardılar.

Mən çığır-bağır salıb onlara dedim:

- Ay kişi! Mən dedim ki, Hizbullahdan olan qardaşlarım burada təkdirlər. Biz sizə görə vuruşmağa gəlmişik, sizsə bizi tutub təhvil vermək istəyirsiniz?

- İranlı komandir əmr edib ki, gərək qayıdasan.

- Qələt edib əmr edib!

Qısası, haray-həşir saldım. Özü də bir az fikrə getdi, amma qorxurdu, iranlılara gücü çatmırdı.

## *Sözəbaxan*

**Məsud Neməti**

İki-üç saatdan sonra gəlmədiyini görüb iki nəfəri ondan xəbər öyrənməyə göndərdim. Bir qədər sonra gəlib dedilər ki, Mustafanı tutublar. İraqlı ruhani olan komandirimizə dedim ki, Mustafanı tutublar, get gətir. Gedib onlarla dalaşdı, dedi ki, mənim döyüşçümü niyə tutmusunuz?

Korpus uşaqları gəlmədən onu buraxdılar. Mövqeyimizə gələndə ona dedim: “Dadaş, əl ver, yaşıma və təcrübəmə görə dediklərimə də qulaq as ki, əməliyyatın ortasında “otur” deyəndə oturmağa, “qalx” deyəndə qalxmağa adət edəsən. Əgər sözə qulaq asmamağa adət etsən, işlər korlanar!”

Razılaşdı. Ondan sonra görmək istədiyimiz hər bir işi bir-birimizlə razılaşdırdıq.

## *Sursat dolu bir villa*

**Məsud Neməti**

Bir gün dedilər ki, İŞİD dörd yüz döyüşçü ilə hücum etmək istəyir. Bizimlə birgə qalanlar çantalarını hazırlayıb qaçmağa hazırlaşdılar.

Mustafaya dedim:

- Bizim cəmi yeddi-səkkiz patronumuz var, barmağımızı tətiyə qoyan kimi bitəcək. Bura vuruşmaq yeri deyil. Həyəcanlanıb qalmayasan ha! Bunların hamısı qaçmağa hazırlaşıb. Sən də Səccadın əlindən tutub Hizbullahın villasına gedərsən.

Villaları dəlib bir-birinə yol açmışdılar və biz Livan Hizbullahının villasına gedə bilirdik. Ora sursatla doluydu.

- Oraya gedib silahını onların silah üzrə məsul şəxsinin başına dirəyirsən, - deyə əlavə etdim, - nə lazımdırsa, götürüb vuruşursan. Mən düşməni bir-iki dəqiqə saxlayacağam ki, siz uzaqlaşasınız. Sonra özümü yetirəcəyəm.

Bir-iki saat dayandıq. Mustafaya dedim:

- Əgər, həqiqətən, dörd yüz nəfər gələsidirsə, artıq bizi mühasirəyə alıblar.

Ancaq onlar gəlmədilər. Xəbər şayiə imiş.

# *Ruh düşkünlüyü*

**Məsud Neməti**

Məni Dəməşq xəstəxanasında əməliyyat edib gülləni çıxarandan sonra bədənim çox zəiflədi. Mustafanın da xanımı tez-tez zəng edib deyirdi ki, məzuniyyətə gəl, hamı narahatdır. Bir ay yarım idi Suriyadaydıq. Ailə-uşaq zəng edəndə döyüşçü çox ruhdan düşür. Mustafa da əziyyət çəkirdi. Buna görə qərara gəldik ki, on-on beş günlüyə məzuniyyətə gedək.

# *Yaralı Məsud*

**Mustafa Sədrzadə**

Məsudun belinin aşağı hissəsində əzələsinə güllə dəydi və biz xəstəxanaya getdik. Çox əziyyət çəkdik. Yenə mövqeyimizə qayıtdıq, amma bir neçə gündən sonra Məsudun vəziyyəti pisləşdi, sidiyindən qan və irin gəlməyə başladı. Dedik ki, təhlükəlidir, müalicə olunmalıdır. Buna görə iraqlılarla danışıb İrana qayıtdıq.

# *İranlı iyi*

**Fərhad Abbasi**

Təhlükəsizliyi mühafizədən iranlı iyi duyan kimi maraqlanır, tutub qaytarmaq istəyirdilər. Bir səbəbi ərəb və Qərb ölkələrinin iranlıların müharibədə iştirakı barədə media fəaliyyəti idi. Başqa bir səbəb də əsir düşmələrinin qarşısını almaq idi. Çünki bir iranlı əsiri azad etmək üçün çoxlu düşmən əsiri azad edilir, üstəlik, böyük məbləğdə pul verilirdi.

Mən Suriyaya media işi və sənədli film hazırlamaq üçün getmişdim, deportasiya olunmuş iranlıların taleyini yaşamamaq üçün həssaslıq yaratmamağa çalışır və Rəhbər nümayəndəliyi ilə əlaqə saxlayaraq orada olmamı adi göstərmək istəyirdim.

Həmin səfərdə Mustafa və Məsudla tanış oldum. Onlar aşpazxanada işləməyə gəlmişdilər, səfərlərinin sonları idi. Mustafada döyüş və cihada çox qəribə həddə həvəs vardı. Buna görə aşpazxanadan qaçdı. Qaçmazdan qabaq hərəmdə görüşürdük. Onlar elə bilirdilər ki, mən Mühafizə xidmətindənəm, fotoqraf və operator kimi Suriyada qalıram. Buna görə yanımda oturur, mənimlə tanış olmağa çalışırdılar. Qaçandan sonra isə hər dəfə məni görəndə gizlənirdilər. Bu siçan-pişik oyunu onların İrana qayıtmaq istədikləri günə qədər davam etdi.

## *Döyüş və barıt qoxusu*

**Fərhad Abbasi**

Bir gün həzrət Zeynəbin hərəmində oturmuşdum. Mustafa ilə Məsud ziyarətə gəldilər. Mənə yaxınlaşmağa tərəddüd edirdilər, amma, nəhayət, yanıma gəldilər.

- Bizi qaytarırlar, - Mustafa dedi. – Sən Allah, de görək sən mühafizədənsən, ya yox?

- Yox, əşi, mən də sizin kimiyəm.

Əmin olandan sonra birlikdə qəhvəxanaya gedib söhbətləşdik.

Mustafa dedi:

- Hacı, biz Şeyx Əmcədlə razılaşdıq ki, İraq yoluyla gələk, özümüzlə 200 nəfər də gətirək.

Həvəslə danışırdı ki, bir batalyon yaradıb adını Kumeyl qoyacağıq.

Təxminən səksən gündü oradaydım, o qədər az xörək yemişdim ki, çöpə dönmüşdüm.

- Mühafizə uşaqlarına deyin ki, biz üç nəfərik. Qoy üçümüzü də birlikdə göndərsinlər.

Qəhvəxanadan çıxıb Şeyx Əmcədin yanına getdik. Zeynəbiyyədə qalan əfqanıstanlılardan biri tərcüməçilik etdi, şeyxin söhbətlərini lentə aldıq. O deyirdi: "Mən iranlı gəncləri bura dəvət edirəm; gəlsinlər, birlikdə vuruşaq!"

Ertəsi gün pasportumu verdim və hava limanına getdik.

Təyyarəyə minməyə az qalmış bir nəfər yaxınlaşıb dedi:

- Məsud sizsiniz? Məni tanıyırsız?

Adı Heydər[8] idi, ona "Əməliyyat Heydəri" deyirdilər, 2009-cu il fitnəsi zamanı Məsudla tanış olmuşdu.

- Bura niyə gəlmişdiz? – deyə soruşdu.

- Biz cihad üçün gəlmişik, - Mustafa cavab verdi. – Burada qalmamıza kömək edə bilərsən?

Mustafa üstündən döyüş və barıt qoxusu gələn hər kəsə yapışır, əl çəkmirdi.

## *Hansı birləşmədənsiniz?*

**Rəhman Salmani və Mustafa Sədrzadə**

Mustafa aşpazxanadan qaçıb Suriyada qalandan təxminən bir ay sonra İrana gəldi. Bir gün görüşdüyümüz zaman iraqlılara qoşulduğu günlərin xatirələrini danışmağa başladı:

"Məsudun vəziyyəti ağır olmasaydı, heç vaxt İrana qayıtmazdım. Çünki məlum deyil bir də gedə biləcəyəm, ya

---

[8] Zeynəbiyyun briqadasının komandiri, Heydər ləqəbli Şəhid Məhəmməd Cənnəti 2017-ci ildə Suriyada şəhadətə qovuşdu və pak cəsədi təkfirçilərin əlinə keçdi. Cəsəd 2019-cu ildə tapılıb İrana göndərildi.

yox. Qayıtmaq üçün hava limanına gedəndə oranın rəisi dedi ki, siz qaçmış iki iranlısız. Mobil telefonunda şəkillərimizə baxıb dedi:

- İndi deyəcəyəm, ikinizi də tutacaqlar.

- Rəhmətliyin oğlu, bizi tutub İrana göndərmək istəyirdilər; elə özümüz gedirik də!

Bizi çox incitdi, hətta dedi ki, ya gərək bilet pulunu verəsiniz, ya da gəldiyiniz yerə qayıdasınız.

Hava limanında bir nəfər bu səhnəni görüb bizə bir telefon nömrəsi verdi, dedi ki, Rəhbərin nümayəndəsinin nömrəsidir; zəng edin, deyin ki, iranlıyıq və birimiz yaralıdır.

Zəng edib vəziyyətimizi deyən kimi bir nəfəri göndərdi, həmin adam rəislə sərt tonla danışıb dedi: "Məgər görmürsən ki, bu yaralanıb?!" Rəis dedi ki, yerimiz yoxdur, cəmi bircə yer qalıb. O adam dedi: "Bəs yer olanda niyə bunlara vermirdiniz? Nə olur-olsun bu iki nəfəri bu reyslə göndərməlisiniz!" Biz minib uçana qədər özü orada gözlədi.

Pilot deyirdi: "Avtobus deyil ki, bir nəfər də ayaq üstə getsin!" Amma axırda ikimizin bir oturacaqda oturmamıza icazə verdi. Mən oturacaqda oturdum, Məsud da dizlərimin üstündə. Kəməri də ikimizə birlikdə bağlamışdıq. Camaat gülməkdən ölürdü. Təyyarə qalxandan sonra kəməri açdıq, Məsud təyyarənin yerində uzandı. Enmək istəyəndə yenə dizlərim üstə oturdu. Yarasında tikiş olduğuna görə çox otura bilmirdi.

Məsudu başqa bir yaralıyla birlikdə Bəqiyyətullah hospitalına apardılar. Bir neçə gün orada yatandan sonra soruşmuşdular ki, hansı birləşmədənsiniz, rütbəniz nədir? "Bəsiciyəm" deyə cavab vermişdi, onlar da onu hospitaldan çıxarmışdılar.

Məsud yenə qaçaq yolla İraqa getdi, boğazına güllə dəydi və yenə İrana gətirdilər. Hospitala onu ziyarət etməyə getdim. Avtomat gülləsi bir tərəfdən girib o tərəfdən çıxmışdı, danışa bilmirdi. İki həftədən sonra boğazından səsi çıxanda soruşmuşdular ki, korpusun hansı birləşməsindənsiniz? "Bəsiciyəm" demişdi və onu yenə hospitaldan çıxarmışdılar.

## *Paltarların arasında hədiyyə*

**Xanım İbrahimpur**

Mustafa əlində qara çanta zaldan çıxdı. Fatimə atasının qucağına atılıb dərhal soruşdu:

- Mənə hədiyyə aldın?

- Bəli, almışam, amma indi verə bilmərəm, - dedi.

- Çantanın zəncirbəndini aç, baxım.

- Yox, burda qızıma hədiyyə verə bilmərəm, gedərik, evdə verərəm.

Atam, anam və qardaşımla birlikdə onu qarşılamağa getmişdik. Birlikdə atamgilə getdik. Anam şam hazırlamışdı. Danışmışdıq ki, şamdan sonra öz evimizə gedək.

- Ata, mənə nə almısan? – çatar-çatmaz soruşdu.

Mustafa gözləri ilə mənə işarə verdi. Yavaşca dedim:

- Bir tikiş maşını və bir gəlincik; otaqdadır.

Fatiməni anamın yanına göndərdim. İkimiz tez otağa keçib hədiyyələri Mustafanın əşyalarının arasına yerləşdirdik. Mustafa Fatiməni çağırdı, çantasındakı paltarların arasından hədiyyələri çıxarıb ona verdi.

# 7

# İkinci səfər

**(12.10.13-25.01.14)**

## *Səfər krediti*

Mustafa Ağaməhəmmədlu

2013-cü il idi. Analitik informasiya portallarından birində Mədəni-tərbiyəvi şöbənin sədri idim. Bir il idi Suriya və müqavimət məsələsi üzərində işləyirdim. Bir gün bir mesaj məni Suriyaya getmək fikrinə saldı. Əlim çatan bütün yerlərə müraciət etdim, amma bütün yollar bağlı idi. Bir gün müqavimət cəbhəsinə aid hadisələr barədə reportaj hazırlayanda yadıma düşdü ki, bəlkə, qrup yoldaşım Mustafa Sədrzadə mənə kömək edə bilər.

Ona zəng etdim. Həyat yoldaşı cavab verib onun Suriyada olduğunu bildirdi və mənə bir telefon nömrəsi verdi.

Mustafaya zəng edib dedim:

- Suriyaya getmək istəyirəm.
- Qorxmursan?

- Yox.
- Əminsən?

Bir neçə sual da verdi, sonra dedi ki, filan qədər pul lazımdır. Pasportumu və əşyalarımı hazırladım, amma o qədər pulum yox idi. Mustafanın gəlişini gözlədim. Demişdi ki, bir neçə günə İrana gələcəyəm və birlikdə gedərik.

Mustafa gələndə vəziyyəti dəyişmişdi. Suriyaya getməzdən öncə onu heç vaxt elə görməmişdim. Onun halı mənə də təsir etdi. Nəhayət, intizar sona çatdı, bir gün Mustafa zəng edib dedi: "Hacı, pulun hazır olsun. İnşallah, sabah-birigün gedirik İraqa, oradan da Suriyaya".

Hesabımda pul yox idi. Dəstəmaz alıb həzrət Zeynəbə hədiyyə olaraq iki rükət namaz qıldım. Təşəhhüd və salama çatanda yoldaşım mesaj yazıb izdivac kreditimizin hesaba köçürüldüyünü bildirdi. "Beş yüz tümənini mənim hesabıma köçür, səfər pulum düzəldi," – dedim.

## *Hərə bir bəhanə ilə*

**Fərhad Abbasi**

Bir-iki dəfə Mustafa ilə vədələşib hovuzda görüşdük. Danışırdıq ki, kimləri aparaq, necə aparaq, kim pulemyotçu olsun, kim snayper olsun, yol və viza xərclərini necə təmin edək. Bu görüşlərin birində suda Ağaməhəmmədlunu gördük. Mustafa onu da Suriyaya aparmaq istəyirdi.

- Sən əminsən ki, bu adam Suriyaya gedə biləcək? Axı çox arıqdır. Birdən başına bir iş gəlsə, buna görə hamımızı qaytararlar ha! – dedim.
- Çox aşiqdir! Pak uşaqdır, ixlasla cihada gedir.

Məsud da Məşhədə adam toplamağa getmişdi. Bu müddətdə kimə zəng edib dəvət edirdiksə, bir dəlillə boyun

qaçırırdı. Halbuki ondan öncə hamısı Suriyaya getmək istədiyini bildirirdi. Vəziyyəti belə görəndə qərara gəldik ki, əvvəlcə on-on beş nəfəri aparıb yerləşdirək, sonra yavaş-yavaş artırarıq.

## *Mən və borcum*

**Xanım İbrahimpur**

Mustafa birinci dəfə Suriyaya getmək istəyəndə Fatimə Quranı üzündən oxumağı öyrənirdi. İndi isə müəlliməsi demişdi ki, rəqəmsal Quran alın, uşaqlar oxuyub əzbərləyə bilsinlər.

Mustafaya dedim ki, Fatiməyə rəqəmsal Quran almaq istəyirəm. Dedi ki, al. Dedim ki, gərək kreditlə alım. Dedi ki, yaxşı, üç hissə ilə ödəyərik. Dedim ki, gərək əvvəldə əlli min tümən verək.

Rəqəmsal Quranı aldığım gün Mustafa Suriyaya getdi, mənsə ertəsi gün müəssisəyə əlli min tümən verməli idim. O gedəndə evdə cəmi on-iyirmi min tümən pulumuz vardı. Düşündüm ki, nə edim? Mustafaya zəng edib dedim:

- Əgər gedəcəkdinsə, niyə mənə deyirdin ki, rəqəmsal Quran al?

- Danıaşacağam, bir neçə günə pulu çatdıracaqlar.

- Mən söz vermişəm ki, sabah pulu verəcəm.

Özümün və ya Mustafanın ata-anasına bir söz deməyə üzüm gəlmədi. Səhər Fatiməni dərsə aparanda ancaq bunu düşünürdüm ki, haradan pul tapacağam. Bu fikirlə taksinin pulunu verəndə barmağımdakı üzük gözlərimə sataşdı. Gördüm ki, ən yaxşı yol budur: bunu satıb həm rəqəmsal Quranın pulunu verərəm, həm də Mustafanın dediyi pul gələnə qədər əlim boş olmaz. Səhv etməsəm, onu iki yüz

min tümənə satdım, yetmiş beş minini Quran üçün verdim, qalanı da xərclik kimi qaldı.

## *Qərb avtovağzalı*

**Xeybər**

Səfər xərclərini azaltmaq üçün yerlə getdik. 22 Oktyabr 2013-cü ildə Qərb avtovağzalında görüşdük. Ağaməhəmmədlunu, Fərhad Abbasini və Ruhullah Rəfiini ilk dəfə orada gördüm. Avtobusla sərhədə doğru yola düzəldik.

## *Birdən söyləmək*

**Mustafa Ağaməhəmmədlu**

Mehrana çatandan sonra Mustafa xanımına zəng edib dedi: "Sənin qəlbin pakdır, mənim üçün dua elə. Mən Mehrandayam!"

Bu işi mənə qəddarcasına gəldi. Ona dedim:

- Düz eləmirsən.

- Olmur, başqa yol yoxdur, - dedi, - gərək qaçasan.

Həmin gün sərhəddə yeddi-səkkiz saat gözləməli olduq.

Sonralar düşündüm ki, mən gedəcəyimi bir ay yarım öncədən xanımıma deyirəm, o da hər gecə təşviş içində yatır. Bəlkə də, Mustafanın işi düz idi, gərək birdən ürəyimizdən çıxaraydıq. Bununla ailəsi daha az əziyyət çəkirdi.

## *Nəcəf-əşrəf, Seyidin evi*

**Mustafa Sədrzadə**

Nəcəfə çatıb Seyid Bəthayinin evinə getdik. Hövzədə müəllim olmuş, evi öncəkinə nisbətən böyümüşdü. Avtomobil almış, qonaqlar üçün də bir otaq tikdirmişdi. Otağa giriş küçədən idi, içində hamam və tualet də vardı. Tez-tez qonağı gəlirdi. Biz də beş-altı nəfərdik. Dedi ki, biz cümə axşamları Kufə və Səhlə məscidlərinə gedirik, gəlirsizsə, üç yerimiz var; xanımla özüm gedirəm, arxada üç nəfər otura bilərsiniz. Xanımı ilə getdiyini görüb getmədik, təşəkkür edib evdə qaldıq. Gecə bir də gördük ki, qayıtdı, yanımızda yataq düzəldib yatdı. Öncəki gecələrdə öz yerində yatardı. Təəccüb etdik, amma bir söz demədik.

Səhər dedik ki, hacı ağa, niyə bura gəldin? Dedi:

- Səhlə məscidinə gedib gördük ki, iki xanım var, qalmağa yerləri yoxdur. Xanımım onlarla danışdı, gətirdik evimizə.

Xanımları o tərəfə aparmış, özü bu tərəfə gəlmişdi.

- Seyid, evinə bu qədər qonaq gəlib-gedir, xanımına əziyyət olmur? – deyə soruşdum.

- Yox-yox, qonaq rəhmətdir. Bir dəfə beş gün su kəsildi, məhəllədə su olmadı. Vəziyyət çox pis idi, nə edirdiksə, su gəlmirdi. Axırda problemin nədə olduğunu bildim. Bayıra çıxıb bir nəfərin əlindən tutdum, dedim ki, bizim qonağımızsan, gedək evə. Ayağını evə qoyan kimi su gəldi.

# Əl-Rəsul küçəsində süpürgəçilik

**Mustafa Ağaməhəmmədlu**

Çox həyəcanlı idim. Hər gün deyirdilər ki, bu axşam gedirik, amma olmurdu. Bu olar-olmazlar bizi çox incidirdi.

Birinci səfərim olduğuna görə Mustafa hara getsəydi, mən də onunla getmək istəyirdim. Qrupun üzvlərini tanımırdım, səmimi münasibətimiz yox idi. Məsud öz uşaqları ilə gəlmişdi, Fərhadla Ruhullah çəkilişlə məşğul idilər, Mustafa da çox ora-bura qaçır, hər yerə də tək gedirdi.

Mən onunla gedəndə çox sevinirdim. Bir dəfə ona dedim:

- Yuxuda gördüm ki, birlikdə şəhid oluruq.

Mustafa səfərin sonuna qədər məndən soruşurdu:

- Yuxuda tam olaraq nə görmüşdün?

- Deyə bilmərəm, - deyirdim.

Əslində isə yuxu görməmişdim, Mustafanı həvəsləndirmək istəyirdim ki, birlikdə olaq. Planım baş tutdu da; harada uşaqları bölmək istəyirdilərsə, Mustafa deyirdi: “Mən Mustafa Ağaməhəmmədlu iləyəm”.

Səfərdə həmişə Aşura ziyarətnaməsi oxuyurdu. Bir neçə dəfə onu ağlayan halda görüb mən də qoşuldum və ziyarətnamə oxudum. Aşura ziyarətnaməsi həmişə Şəhid İbrahim Hadiyə təqdim olunurdu. Mən onun kim olduğunu bilmirdim, Mustafadan eşitmişdim.

Bir axşam Məsud dedi: “Bir tanış tapmışıq, Suriyaya getmək işimizi həll edəcək. Onun evinə gedirik”. Mustafa ilə mən hərəmdəydim; onlar getdilər, biz qaldıq. Gecə saat 11-də Mustafaya dedim:

- İndi seyidgilə gedə bilərik?

- Çox gecdir, yazığı istirahətindən eləməyək.

- Bəs nə edək?

- Bu çadıra girək, - deyə qalmağa yeri olmayan ziyarətçilər üçün qurulmuş çadırı göstərdi.

İçəri girib gördük ki, hamı yatıb, yer də yoxdur. Əl-Rəsul küçəsində bir qədər piyada gəzişdik. Mustafa dedi:

- Bu küçə çox çirklidir. Gəl bir süpürgə tapıb buranı yaxşıca süpürək, yoxsa sabaha qədər burada donarıq.

Mağazalardan süpürgə alıb işə başladıq. Gecə saat 4-ün yarısına qədər küçəni süpürdük, sonra hərəmə gedib namaz qıldıq, uşaqlar da yavaş-yavaş gəldilər.

Ertəsi gün İraqda əlaqələndiricini tapdıq. Dedi ki, gecə 12-nin yarısında təyyarə uçacaq. Axşam saat 8-ə qədər hərəyə 250 dollar bilet pulu verməlisiniz. Biz səkkiz nəfər idik, ümumilikdə 500 dollarımız vardı. Xülasə, uşaqlar məşğul oldular, iraqlı komandirin köməyi ilə həmin gecə Dəməşqə uçduq.

## *Okeanın ortasında ada*

**Fərhad Abbasi**

Sübhə yaxın ziyarətə getdik. Hərəmin işıqları hələ yanmırdı. Həmin günlərə qədər hərəmin ətraf küçələrinə və həyətinə də mərmi düşürdü, amma həyat davam edir, əhali gəlib-gedirdi. Mərmi düşəndə yarım saatdan bir saata qədər sakitlik olurdu, camaat şəhidləri toplayırdı, sonra yenə adi şərait başlayırdı. Mərmi partlayışı əhalinin həyatının bir hissəsi olmuşdu.

Bir dəfə hərəmin həyətinə bir mərmi düşdü, amma partlamadı. Yaşlı bir qadın onu aparıb Mühafizə şöbəsinə təhvil verdi.

Mağaza çox az idi. Bəhmən prospekti hərəmlə qarşı-qarşıya yerləşirdi və oraya gedən əsas prospekt sayılırdı.

Lakin orada da mağazaların yarısı bağlı idi. İraqlılar küçəsi Rəhbərin ofisinə və Hüceyrə meydanına gedirdi. İlk əlli metrində mağazalar vardı, sonrasını isə hamı ehtiyatla gedib-gəlirdi. Hüceyrə meydanı ilə hərəmin hava məsafəsi təxminən 500 metr olardı. Meydanın o tərəfində silahlılar, bu tərəfində isə bizimkilər mövqe seçib bir-birinə mərmi atırdı. Bizim qüvvələrimiz maşınla çox sürətlə meydana tərəf gedib iki-üç mərmi atır, yenə küçəyə girirdi.

Elektrik enerjisi gün ərzində cəmi bir-iki saat verilirdi. Ərzaq məhsulları zərurət həddində idi; pendir və qatıq kimi. Bütün bu problemlərə baxmayaraq, əhali dözür, Zeynəbiyyəni boş qoymurdu. Bunun səbəbi şiə müqəddəslərinə qarşı milli-məzhəbi şüarlar idi. Həzrət Zeynəbin hərəminin divarlarına yazmışdılar: "Dövlətlə birlikdə gedəcəksən!" Bəlkə də, belə sərt şüarlar yazmasaydılar, şiə əhali belə mövqe seçməzdi. Bu sözlər şiələri hərəmin qorunmasına qarşı çox həssas edirdi.

Orada qalanlardan, o mərəkəni tərk etməyənlərdən biri də Ayətullah Xameneinin nümayəndəsi idi. Birinci səfərimdə ağanın ofisinin önünə iki-üç mərmi düşmüşdü. Biri də qarşıdakı binanın damına düşüb ofisə xəsarət yetirmişdi. Düşmən snayperi də ofis üzərinə mərkəzləşmişdi, güllələri pəncərədən içəri girirdi. Buna görə ofisin ətrafını pərdə ilə örtmüşdülər. Zeynəbiyyə okeanın ortasında bir adaya dönmüşdü, hərəmi hətta avtomatla da vura bilirdilər.

# *Yağ və badımcan*

**Mustafa Ağaməhəmmədlu**

Ziyarətdən sonra İmam Hüseyn (ə) bayrağı batalyonuna qayıtdıq, soyuq bir duş qəbul edəndən sonra otağı səliqəyə saldıq, bir-iki günə də silahlanıb mövqeyə getdik.

Mən hərbi xidmətdə olmamış, heç bir təlimdə iştirak etməmişdim. Mustafa silahla işləməyi mənə öyrətdi. İlk təcrübələrim idi. Posta çıxanda yeddi-səkkiz patron verib deyirdilər ki, çalışın, istifadə etməyin. Hər növbə iki-üç saat çəkirdi. Bizim keşik yerimiz qarşısında sıx ağaclar olan bir villaydı.

Məsud bizimlə olduğuna görə yaxşı bacarıqlar öyrənirdik. O, həmişə deyirdi: "Mücahidin corabında həmişə bıçaq olmalıdır. Bu bıçaq onu əsirlikdən xilas edə bilər!" Mustafa da təkidlə tapşırırdı ki, bizim əsir düşməyə heç bir haqqımız yoxdur; bizim əsir düşməyimiz düşmənə 1 milyard tümən pulun verilməsi və təxminən 70-80 silahlının azad edilməsi deməkdir və biz dövlətimizə bu bədəli ödətdirməməliyik.

Uşaqların forması yox idi. Şeyx Əmcədlə danışdıq, forma təşkil etdi. Səhər çağı onları geyib çox kiçik bir yük maşını ilə mövqeyə doğru yola düzəldik.

Uşaqlar deyirdilər ki, üzlərinizi bağlayın, sizi tanımasınlar, iranlıların buraya gəldiyini söyləməsinlər. Maraqlı idi ki, snayper bizi vurmasın deyə yerləşdiyimiz küçənin başından böyük bir pərdə asmışdılar. O tərəfdə düşmən idi, bu tərəfdə biz; camaat da adi həyatını yaşayırdı.

Biz on nəfərə yaxın idik. Ümumilikdə bizə səkkiz silah, iyirmi patron verdilər; hətta bir darağımız da dolmadı. Patron qatarı, daraq cibi və əl qumbarası isə bizim üçün lüks əşyalar idi.

Mövqeyimiz düşməndən alınmış bir tikili idi. Orada səngər və keşikçi postu hazırladıq. Bir qədər sonra istirahətə çıxdıq və Məsud bizə xatirələrindən danışmağa başladı.

Mən o vaxta qədər döyüş mövqeyi görməmişdim. Birinci gecə birdən güllə, ya da mərmi səsi gəldi. Bir-iki dəfə diksinib yuxudan oyandım. İkinci gecə isə artıq adiləşdi. Gecələr soyuq olurdu. İrandan apardığımız gödəkcələrdən istifadə edirdik. Bizə yemək də vermirdilər, uşaqlar yaxındakı tarladan badımcan dərib yemək bişirirdilər. Bir dəfə Mustafa bir ruhanidən soruşdu:

- Camaatın bu badımcan və yağından istifadə etməyin hökmü nədir?

- Pulunu sahibi tərəfindən yoxsula sədəqə ver.

## *Dünyanın mərkəzi*

**Fərhad Abbasi**

İmam Hüseyn (ə) bayrağı batalyonu bizi düşmənlə 500 metr məsafəsi olan bir evə yerləşdirdi. Düşmənlə aramızda bağlar, yaşıllıqlar vardı. Bölgəni araşdırandan sonra tikilinin iki tərəfində və damda postlar qurduq. Çox çirkli tikili idi, Məsud da təmizliyə həssasdı. O, hər şeyi bayıra çıxarıb çırpır, yuyur, sonra yerinə qaytarırdı. Hər dəfə yerimizi dəyişəndə bu müsibəti yaşayırdıq.

O bölgənin suriyalı bir komandiri vardı. HHQ-nin rabitəçi zabiti idi, cəmi 25 yaşı vardı. Arıq, uzun adam idi, o istiqamətdə bir neçə tikilini ona tapşırmışdılar. İraqlı qüvvələr də ona tabe idilər.

Tikililərin vəziyyəti müdafiə üçün əsla əlverişli deyildi. Bizim tikilinin damının kənarına dörd-beş ədəd daş düzmüşdülər, əgər güllə və ya mərmi dəysəydi, daşların özü

qəlpəyə çevrilərdi. Dərhal bir neçə çəllək tapıb daş və torpaqla doldurduq. Üstlərinə tavan düzəltdik, yerə də bir parça kovrolit atdıq, əsl səngərə çevrildi. Dedik ki, bura dünyanın mərkəzidir, buranı yaxşı qorumalıyıq.

## *Hizbullah mövqeyi*

**Məsud Neməti**

Məhərrəmin sonlarına qədər iraqlılarla qaldıq. Korpus uşaqları onlarla olduğumuzu bilirdilər. Əvvəldə onlar və Xarici İşlər Nazirliyinin uşaqları bizi iraqlıların mövqeyindən çıxarmağa çalışırdılar. Çünki on-on bir nəfər olmuşduq və hamı bilirdi. Yoldaşlarımızdan ikisi də fotoqraf və operator idi. Bir müddətdən sonra bizimlə işləri olmadı, amma yer, yemək və silah-sursat məsələlərində kömək də etmirdilər.

Mustafa ilə danışdıq ki, bir neçə gün Hizbullahın mövqeyinə getsin. Onlar bir evə yerləşmişdilər; o tərəfində silahlılar idi, bu tərəfində Hizbullah qüvvələri. Mustafa uşaqlardan dörd-beşini özüylə apardı ki, görsünlər orada qalmaq olurmu. İstəyirdik ki, bir ayaq yeri açılsın, gedək və qalmağımız qanuni olsun.

## *Müdafiəçilərin Feysbuk hesabı*

**Xeybər**

Orada bir nəfərlə tanış olduq. Bizə dedi: “Mənim Hizbullahda tanışım var. Danışaram, gedərsiniz ora”.

Bizi Hizbullahın Zeynəbiyyədəki Könüllü cəlbetmə mərkəzlərindən birinə təqdim etdi. Vədələşib getdik. Fərhad, yarımçıq da olsa, ərəbcə danışırdı. Qərara alındı ki,

sənədlərimizi verək və Hizbullaha qoşulaq. Dedilər ki, səfirlikdən cavab gələnə qədər bizə qonaq olacaqsınız.

Məsudla dostları iraqlıların batalyonunda qalmışdılar, danışmışdıq ki, orada əməliyyat olsa, bizə xəbər versinlər. Bizim işimiz düzəlsəydi də, burada əməliyyat olanda onlara xəbər verəcəkdik. O zaman əməliyyat üçün sinov gedirdik.

Əhmədnejad soyadlı biri vardı, ona Əhmədinejad deyirdilər. Bəlkə də, atası iranlı idi. İran pasportu vardı, amma əslən livanlı idi. Onun Pejo-405 avtomobilinə minib yola düşdük. Mən, Ağaməhəmmədlu, Mustafa, Fərhad və Ruhullah onunla Andalos qəsəbəsinə getdik, orada blank doldurduq. İxtisasımızı soruşanda Mustafaya dedim ki, məni snayper yaz. "Arzularınızı yox, nəyi bacarırsınızsa, onu deyin," – dedi. Öhdəliyə oxşar suallar da verdilər.

Hərəmizə bir Kalaşnikov, iki daraq və daraq cibi verdilər, Abis adlı bir nəfər mövqeyimizi bizə göstərdi. O, livanlı idi, farsca tək-tük söz bilirdi. Mövqe şəhər mövqeyi idi, bu evdən o evə gedirdik. Abis evlərin birində pul boyda bir dəliyə dəsmal salındığını görüb: "Kənara çəkilin! Kənara çəkilin! – dedi, dəsmalı çıxarıb əlavə etdi: - Bura düşmənlə üz-üzədir, snayper vurur". Dəsmalı yenə yerinə saldı. O bölgəni daha çox, durbinlə müşahidə edirdilər, get-gəl çox təhlükəli idi.

Bizə bir otaq verdilər. Fərhad Abbasi ilə Ruhullah Rəfii çəkilişə getdilər. Mustafa, Ağaməhəmmədlu və mən orada qaldıq. Yaxınlıqdakı məsciddə vayfay cihazı vardı. Mustafa ilə Ağaməhəmmədlu oraya getdilər. Feysbukda hərəm müdafiəçiləri üçün səhifə açmışdılar, orada post paylaşırdılar.

# *Meydan izni*

**Mustafa Ağaməhəmmədlu**

Qoşulduğumuz iraqlıların mövqeyi müdafiə mövqeyi idi, Mustafa isə əməliyyata getmək istəyirdi. Uşaqlar etiraz edib deyirdilər:

- Sən ora-bura gedə-gedə bizi yandıracaqsan. İmam Hüseyn (ə) bayrağı batalyonunda heç kim bizi görmür. Burada qalsaq, yaxşıdır.

- Yox, bura müdafiə mövqeyidir, - Mustafa deyirdi. – Biz bura meydan izni almağa gəlmişik.

Mən onun meydan izni almaq üçün gecədən sübhə qədər uzun-uzadı ağlamalarını görürdüm. Hər axşam Aşura ziyarətnaməsi oxuyurduq. Mustafa ucadan bir neçə beyt mərsiyə də oxuyurdu, ağlayıb həzrət Zeynəbdən meydan izni istəyirdik. Buna görə Mustafa hər yerə gedir, bütün qruplara baş çəkirdi.

Biz də Mustafa ilə Hizbullah uşaqlarının yanına getdik. O, mən və Xeybər bir həftə Hizbullahın qərargahında qaldıq, uşaqların heç biri bizimlə getmədi. Fərhadla Ruhullah sənədli filmləri ilə məşğul olub "Xalid və Müctəba" filmini çəkdilər. Çox gözəl film alındı. Məsudla dostları da iraqlıların yanında qaldılar.

# *Şəhid olmaq istəmirəm*

**Mustafa Ağaməhəmmədlu**

Suriyada şəhadət barədə danışanda Mustafa deyirdi: "Mən hələ şəhid olmaq istəmirəm. Mən İsraillə mübarizəyə hazırlaşmalıyam!"

# *Mədəni-ideoloji problem*

**Mustafa Ağaməhəmmədlu**

Seyyidi Miqdad bölgəsinin yaxınlığında, Dəməşq hava limanından 5 km aralıda yerləşən Andalos qəsəbəsində idik. Səfirlikdən cavab gələnə qədər bizi bir evə yerləşdirdilər. Küçənin əvvəlində biz qalırdıq, sonunda əl-Nüsrə cəbhəsinin qüvvələri. Onlar da, Hizbullah qüvvələri də gizli kameralar quraşdırmışdılar və bir-birinə nəzarət edirdilər.

Axşamlar müzakirələrimizi davam etdirirdik. Bir dəfə Mustafa ilə aramızda mübahisə yarandı. Mustafa deyirdi ki, Suriyanın problemi mədəni-ideoloji problemdir. Hələ bu münaqişələr yaranmazdan öncə millətçilik hissinin ifrat şəkildə təbliği Suriya xalqını dini müqavimətdən uzaqlaşdırıb. İndinin özündə də orada hər şeyin üzərində Suriya bayrağı var; stəkandan tutmuş saata, paltara qədər hər şeyə bu bayraq həkk olub. Mustafa bunu İran üçün də təhlükəli amil hesab edirdi, mənsə onunla razılaşmırdım.

Bir gecə Mustafa sübhə qədər mənə İbrahim Hadinin xatirələrindən danışdı. Hər dəfə birlikdə Aşura ziyarətnaməsi oxuyanda savabını İbrahim Hadiyə hədiyyə etsək də, o vaxta qədər bu şəhid barədə çox da danışmamışdıq.

Mustafa dedi:

- İbrahim Hadini yuxuda gördüm. Dedi ki, siz də bizim yanımıza gələcəksiniz. Mənimlə başqa bir nəfəri dedi, amma kim olduğunu anlamadım.

- Bu, elə mənim yuxumdur da. O bir nəfər mənəm, yüz faiz! – dedim.

Yuxusu bizim birlikdə şəhid olacağımıza dair gümanını gücləndirdi.

# Hazır göz yaşları

**Mustafa Ağaməhəmmədlu**

Bir həftə orada qaldıq. Bizə demişdilər ki, müdafiə mövqeyində qala bilərsiniz, amma əməliyyatda iştirak etməyə icazəniz yoxdur. Livan Hizbullahının nəzarətində olan istiqamətin komandiri bizim əməliyyatda iştirak etməyimizi istəyirdi, amma rəisi buna icazə vermirdi. Mustafa da hər gün yalvarır, nəyin bahasına olursa-olsun, əməliyyata qatılmaq istəyirdi.

Bir dəfə komandirin otağında oturmuşduq. Farsca az-maz bilən Abis dostuna dedi ki, bunları göndər, getsinlər döyüşə, yazıqdırlar. Komandiri dedi: "Olmaz! Sən niyə onlara düzünü demirsən? Onlar üçün icazə gəlməyib!" Mustafa bunu eşidib ağladı, yenə yalvarmağa başladı ki, biz gərək döyüşə gedək.

Mustafanın göz yaşları həmişə hazır idi. Kövrəlir və bu kövrəlmə ağlamaya çevrilirdi. Qəlbi çox həssas idi.

Xülasə, Hizbullah bizi döyüşə göndərmədi, biz də iraqlıların mövqeyinə qayıtdıq. Kaş elə orada qalaydıq! Biz gedəndən sonra silahlılar tunel qazıb bizimkilərin arxa tərəfindən çıxmış, iki-üç yerə bomba qoyub geri çəkilmişdilər. Həmin gün Hizbullah uşaqlarından da bir bölgəni ala bilmişdilər.

# Şəriət hökmü

**Mustafa Ağaməhəmmədlu**

Ağanın fətvasını öyrənmək üçün İmam Hüseyn (ə) bayrağı batalyonundan təxminən 300 metr aralıda yerləşən ofisinə getdik. Suriyadakı nümayəndəsi ağa Müctəba Hüseynidən soruşduq ki, həzrət ağanın İraq və Suriya

cəbhələrində vuruşmaq barədə fətvası nədir? Dedi ki, ağa icazə vermir. Mən dedim ki, yazılı mətni hanı? Mətni aldıq. Mustafa oxuyub güldü. İstədiyi oradaydı.

Həzrət ağanın fətvası beləydi ki, məzlumu müdafiə etmək vacibdir, hətta məsum imamın həyatı dövründə də bunun üçün heç bir fətvaya ehtiyac yoxdur. Suriyada müdafiə isə İran korpusunun nəzarəti altında olmalıdır.

Mən Tehranda Mustafaya demişdim ki, birdən Suriyaya getməyimiz şəriət baxımından düz olmaz. Ruhani dostlarımdan biri demişdi ki, fətvasız getsən və başına bir iş gəlsə, cəhənnəmdə əbədi qalacaqsan. Mustafa da hövzə tələbəsi olmuşdu, bu fətva onun üçün də əhəmiyyətli idi. Bu məsələ hamının yanında müzakirə olunduğuna görə artıq bütün uşaqlar üçün önəmli mövzuya çevrilmişdi.

Biz onda Şeyx Əbu Əmcədin tabeliyində idik. Onun kimə tabe olduğunu soruşanda dedilər ki, qovluğu yaxşı deyil və korpus nəzarətindən kənardır.

Ağa Müctəbanın və ofis əməkdaşlarından olan Hacı Davudun qəti fikri buydu ki, İrana qayıdaq. Ofisdən çıxandan sonra bu nəticəyə gəldik ki, Şeyx Əmcədin qüvvələrinin yanında qalmağımız şəriətə uyğun deyil. Buna görə də aldığımız xaki formaları təhvil verib yenə Hizbullahın mövqeyinə getdik. Livan Hizbullahı korpusun nəzarəti altındaydı.

## *Məhərrəmə yaxın*

**Xeybər**

Hizbullah bizi əməliyyata aparmaq istəmirdi. Bir dəfə Mustafanın qəlbi sındı, ağlayıb Abisə dedi: “Axı bu nə deməkdir?! Niyə bizi əməliyyata buraxmırlar?!”

Orada əməliyyata gedə bilməyəcəyimizi görüb Zeynəbiyyəyə qayıtdıq. Məhərrəmə az qalırdı.

## İrani la mövcud

**Seyid Səccad Alimi**

2013-cü ildə məhərrəmlikdən üç-dörd gün qabaq Mustafa Sədrzadəni dostlarından yeddi-səkkiz nəfərlə birgə Hüceyrədə iraqlı qüvvələrin qərargahına yaxın bir tikilidə gördüm. Səhər saat 10 idi. Çay dəmləmişdilər, səhər yeməyi yeyirdilər. Gördüm ki, üzdən ərəblərə oxşamırlar.

- Siz iranlısınız? – deyə soruşdum.

- La, irani la mövcud, - deyə ərəbcə danışmağa başladılar.

Təəccübləndim, düşündüm ki, bunlar ərəbdirlərsə, niyə "la-la" edirlər, düz-əməlli danışmırlar.

- Haralısınız? – deyə soruşdum.

- La məfhum... la təkəllüm farsi, - deməyə başladılar.

Ərəb olmadıqlarını bilib dedim:

- Siz iranlısınız; ərəb olsaydınız, belə danışmazdınız.

Əvvəldə bizim Zeynəbiyyədə yaşayan əfqanıstanlı olduğumuzu düşünüb danışmırdılar, İrandan gəldiyimizi biləndə isə maraqlandılar və nəhayət, danışmağa məcbur oldular.

Atam onları Fatimiyyunun[9] binasına dəvət etdi, bu birləşmənin təxminən yarıdan çoxu ilə tanış oldular. Get-gedə Mustafa Sədrzadə və dostları ilə tanış olandan sonra əməkdaşlığımız oldu. Özümüz on-iyirmi nəfər toplaşanda

---

[9] Əfqanıstanlı şiələrdən ibarət Fatimiyyun diviziyası hərəm müdafiəsində və təkfirçi terrorçulara qarşı mübarizədə xüsusi rol oynamış könüllü birləşmələrdəndir. Bu diviziyanın şəxsi heyəti hazırda 7-10 min nəfər təxmin edilir.

otaqda məddahlıq edirdi. Özündən fərqli olaraq, dostlarının yaxşı səsləri vardı və gözəl oxuyurdular.

İranlıların və bizim əsas komandirlərimizin onların iraqlı qüvvələrlə Suriyaya gəldiklərini bilmələrini istəmir, buna görə ehtiyat edir, heç kimlə danışmırdılar. Səkkiz nəfər idilər. Adi şəkildə gəlmişdilər, bir qədər kağız, qələm, fotoaparat və kameraları vardı.

Bir neçə gün bizim yanımızda qalmaq üçün iraqlı komandirlərindən icazə aldılar. Sənədli film hazırladıqlarını söyləyirdilər. Bizi də çəkdilər. Ətrafımızda kamera olmadığına görə biz də sevinirdik, işlərindən çox xoşumuz gəlirdi. Danışdıq ki, şəkilləri İranda təhvil alaq. Onlar da yavaş-yavaş əhvalatı söylədilər: Ümumilikdə təxminən 15 milyon xərcləyib çox çətinliklə İraqdan Suriyaya gəlmişdilər.

Suriyada və həzrət Zeynəbin hərəminin ətrafında yaşayan əfqanıstanlılar, hər il olduğu kimi, yenə məhərrəmlikdə əzadarlıq məclisləri keçirirdilər. Mustafa və dostları da belə məclislər axtarırdılar. Beləliklə, bizim mərsiyə məclislərimizdə iştirak etdilər. Fatimiyyun uşaqları da hər axşam bir-iki avtobusla, bəzən də pikapla məclisə gedirdilər. Bu isə Mustafanın Fatimiyyuna daha da yaxınlaşmasına və özü barədə danışmasına səbəb oldu.

Mustafa dedi:

- Çox çətinliklə Suriyaya gəlirəm, burada da gizlənməli oluram ki, Mühafizə xidmətinin uşaqları məni görüb İrana göndərməsinlər.

- Əgər Fatimiyyun uşaqlarıyla gələ bilsən, bu problemlərin olmayacaq, - atam dedi, - iranlılar da səni daha az görəcəklər. Təkcə İrandan gəldiyin gün görəcəklər; əgər onda ələ keçməsən, daha problem qalmayacaq.

Bundan sonra atam onların Fatimiyyuna qoşulması barədə Əbu Hamidlə[10] danışdı.

## *İranlı olmaz*

**Mustafa Sədrzadə**

Məhərrəmin 7-ə qədər heç bir məclisə getməmişdik. Dedik ki, farsdilli bir məclis tapıb gedək. Soraqlaşdıq; dedilər ki, Kövsəriyyədə əfqanıstanlı uşaqların məclisi olur, oaraya gedin.

---

[10] Fatimiyyunun Əbu Hamid ləqəbli komandiri Əlirza Təvəssüli 1962-ci ildə Əfqanıstanda doğulmuş, uşaq ikən ata və anasını itirmişdi. Qardaşı 1979-cu ildə Əfqanıstanda xalq qiyamı zamanı həbs olunan beş minə yaxın inqilabçıdan biri olmuşdur. Sonradan bəlli oldu ki, onları ümumi məzarlarda diri-diri basdırmışlar.
Əlirza Təvəssüli 1984-cü ildə İrana mühacirət edib İsfahan, sonra isə Qum Elm Hövzəsində təhsil aldı, eyni zamanda tikinti sektorunda işlədi. O, İraq-İran müharibəsi zamanı 25 yaşında ikən Kürdüstana gedib bir ildən çox orada qaldı, ondan sonra da müharibə bitənə qədər müxtəlif əməliyyatlarda iştirak etdi.
Müharibədən sonra Sovet ordusuna qarşı vuruşmaq üçün Əfqanıstana qayıdan Təvəssüli Əbdüləli Məzarinin qüvvələrinə qoşuldu, sonra Məşhədə gedib Gülşəhr məhəlləsində yaşadı. 1995-ci ildə Taliban müharibəsi zamanı yenə Əfqanıstana gedən Təvəssüli 2000-ci ildə ailə qurdu, 2001-2013-cü illərdə Məşhəddə tikinti işləri ilə məşğul oldu.
2013-cü ilin mayında Zeynəbiyyə və Dəməşqin işğalı və həzrət Zeynəbin hərəminin dağıdılması məsələsi gündəmə gələndə Zeynəbiyyədə yaşayan əfqanıstanlılar könüllü şəkildə hərəmi müdafiə etməyə başladılar.
Əlirza Təvəssüli bu xəbərləri izləyirdi. O, əvvəlcə 23 nəfərlik bir qrupla özünü Suriyaya yetirdi. Önəmli rollarına görə Dəməşqin azadlığı üzrə əməliyyat komandiri onlara saylarını artırıb batalyona çevrilməyi təklif etdi. Bu birləşmə sonralar Fatimiyyun briqadasına çevrildi və Əbu Hamid onun komandiri oldu. O, 28.02.15 tarixində Dəra bölgəsində, İsraillə sərhədin yaxınlığında şəhadətə qovuşdu.

İcazə alıb yeddinci axşam oraya getdik. Məclisin ortaları idi. Hərbi geyimli bir qrup içəri girib əzadarlıq etdi. Öyrəndik ki, bu əfqanıstanlı dostlar, bəzi Zeynəbiyyə uşaqları və digər ölkələrdən gələnlərlə birlikdə Fatimiyyun adlı güclü bir birləşmə yaratmışlar.

Biz əfqanıstanlı şiələrin bir qrupunun çox ciddi şəkildə cihadda iştirak etdiklərini eşitmiş, amma özlərini görməmişdik; tapa da bilmirdik. Nəhayət, komandirləri Əbu Hamidlə görüşüb dedik ki, biz Fatimiyyuna qoşulmaq istəyirik. Dedi ki, iranlı qardaşlara olmaz.

Çox isrardan sonra onu qane etdik, dedik ki, əfqanıstanlı-iranlı fərqi yoxdur, məqsəd həzrət Zeynəbin hərəmini qorumaqdır. Məgər qəbirdə adamdan iranlı, yoxsa əfqanıstanlı olduğunu soruşacaqlar?! Hamımız müsəlman və Əli (ə) şiəsiyik. Razılaşdı və biz ilk dəfə Fatimiyyunun düşərgəsinə getdik.

## *Ey, ağa bəsici*

**Mustafa Ağaməhəmmədlu**

Məclisdə əfqanıstanlı və farsdilli uşaqları görüb sevindik, maraqlandıq ki, kimlərdir və Fatimiyyun nə deməkdir. Həmin pıçhapıç əsnasında Mustafa Fatimiyyunun Mühafizə rəisi olan Fazillə tanış oldu. O zaman Fatimiyyunun 25 sıravi üzvü vardı, Əbu Hamid də komandirləri idi. Fazilin bizdən xoşu gəldi, dedi ki, mən Mühafizə rəisi olsam da, gəlsəniz, sizi qəbul edərəm.

Mustafa sevinib deyirdi ki, axır ki ayağımız bir mövqeyə çatdı. Düşərgələrinə yerləşib silah aldıq. Orada yaxşı dostlar da tapdıq. Təminat rəisi olan Əbu Səccad[11] rahat

[11] Əbu Səccad ləqəbli Şəhid Seyid Əli Alimi 1963-cü ildə doğulmuşdu, Fatimiyyunun ilk qüvvələrindən idi. O, terrorçulara qarşı vuruşmaq

olaq deyə Mustafa və Xeybərlə məni öz otağına apardı. Əbu Səccadın öz oğlu Seyid Səccadla münasibəti mənimçün yeni idi, ata-oğul söhbətləri məndə maraq doğururdu. Əbu Səccadla bir otaqda qalmaq gözəl hadisəydi. O, çox sevimli insandı.

Seyid Səccad da yaraşıqlı oğlan idi. Hərbi əşyalar kolleksiyası vardı. Otağı həmişə təmiz və səliqəli olurdu, sanki evi idi. Səhər düzülüşündən sonra deyirdilər ki, tikilini təmizləyin. Əbu Səccad bizi sıradan çıxarıb zarafata deyirdi: "Siz gedin otağı təmizləyin". Fatimiyyun uşaqlarının zarafatları və deyib-gülmələri çox şirin idi.

Bu 25 nəfərlik qrupda səmimi ab-hava vardı. Sübh saat 5-də hamını oyadırdılar. Aşura ziyarətnaməsi oxuyurduq, səhər düzülüşü və mərsiyə məclisi keçirilirdi. Fəsihinin qəhrəmanlıq səpkində məddahlığı çox gözəldi. O, həqiqətən də, Fatimiyyunun bülbülü idi. Sanki Ahəngəranla Küveytipurun üslublarının arasında oxuyurdu. Onun Hüceyrə əməliyyatından öncə oxuduğu növhə heç zaman yadımdan çıxmaz:

Fatimiyyun, gəlin qanad çalaq,
Kafirdən dinin haqqını alaq.
Şəhidlərin bizə mesajı budu:
Haqq yolu imamın qırmızı yolu!

Tez-tez deyirdilər ki, bu günlərdə əməliyyat olacaq. Buna görə Mustafanın vəziyyəti çox dəyişmişdi. Şəhidlikdən o qədər gözəl danışırdı ki, adam deyirdi, sabaha çıxmayıb şəhid olum.

Nəhayət, bir gecə əməliyyat planı elan olundu. Ertəsi gün Fazil bizi çağırdı. O, bizə inanmış, bizi qəbul etmişdi.

---

üçün oğlu, bacıoğlusu və qardaşoğlusu ilə birlikdə könüllü şəkildə Suriyaya getmişdi. O, 2015-ci ildə şəhadətə qovuşub həzrət Zeynəbin hərəminin müdafiəsi uğrunda ailənin dördüncü şəhidi oldu.

- İranlılar bura çox gəlib-gedirlər, - o dedi. – Ehtiyatlı olun, iranlı görsəniz, gizlənin. Siz əfqanıstanlılara oxşamırsınız, diqqət çəkərsiniz.

Ondan sonra iranlı olduğumuzu bilməsinlər deyə ayrı-ayrı gəzməyə başladıq. Mustafa ilə Xeybər əfqanıstanlılara oxşayırdılar, mənim görkəmim isə uzaqdan diqqət çəkirdi.

Fərhadla Ruhullah Mustafanın Fatimiyyunda yaxşı etimad qazanmasına kömək etdilər. Fərhad ünsiyyət qurmaqda bacarıqlı və ağıllı idi. Leksikonu yaxşıydı, ərəbcə danışa da bilirdi. Fatimiyyuna demişdi ki, siz özünüzü dirçəltməlisiniz. Hətta bir iclas təşkil etdi və biz onlar üçün təşkilat diaqramı çəkdik.

Tərbiyəvi işlər rəisi olan Fəsihi dedi: "Burada mədəni-tərbiyəvi fəaliyyətlər nizamsızdır, gəlin kömək edin. Başlanğıc olaraq bir loqo istəyirik".

Mustafa bizə dedi ki, sizin mədəni-tərbiyəvi beyniniz var, ideya verin. Hərə bir təklif irəli sürdü, kağız üzərinə bir eskiz çəkdi. Kiçik bir təşkilat həddində mədəni-tərbiyəvi iş diaqramı hazırlandı. Çünki Fatimiyyun o zaman diviziya olmamışdı.

Fatimiyyun uşaqları ilə söhbət etdiyimiz ilk gecələrdə İranda ayrıseçkilikdən danışdılar. Mən onda bildim ki, biz əfqanıstanlılara nə qədər haqsızlıq etmişik. Xüsusən də Fəsihinin sözləri İranda əfqanıstanlılara edilən zülmlər üçün tam bir sənədli film materialı idi. Ürəkləri doluydu, amma şiə olduqlarına görə İrana və İslam inqilabına bağlı idilər. Onların ürək sözlərini ilk dəfəydi eşidirdim.

Əməliyyatın başlanma saatı yaxınlaşırdı. Mustafa "Allahın şəhərləri arasında yalnız Kərbəla, Kərbəla" və "Sənə minnətdaram ki, məni rədd etmədin" kimi məşhur mərsiyələri oxuyurdu. Yanımızdakı uşaqların biri onun bu

mərsiyəsi ilə zarafat edir, Kərbəla yerinə Dəməşq söyləyirdi.

Hüceyrə əməliyyatı Tasua günü baş tutdu. Ağanın ofisinə getdik, şəxsi heyət gecəni orada yatdı. Hüceyrə düz ofisə yapışmış olsa da, işçilər heç vaxt oranı tərk etmədilər. Hətta ora mühasirə olunanda da əfqanıstanlı uşaqlar mühasirəni yarana qədər Hacı Davud yeddi-səkkiz saat müqavimət göstərdi. Onun bir tapançası vardı, əynində pijama vuruşurdu. Ailəsi də orada qalırdı.

Ağanın ofisində söhbətləşdiyimiz yerdə Hacı Davudun mühafizəçisi birdən bizə yaxınlaşıb hamının yanında Mustafaya dedi: "Ey, ağa bəsici, gəl görüm!" Pasportuna baxandan sonra isə əlavə etdi: "Sən iranlısan, burda nə edirsən?!" Mustafa bir az nalayiq sözlər eşidəndən sonra Ruhullahla Fərhad gedib məsələni həll etdilər.

O deyirdi ki, siz macəraçılıq üçün gəlmisiniz və quruluşun hörmətini tapdayırsınız. Mustafa həmişə susurdu. Bir-iki dəfə onun yerinə mən cavab verdim. Əlbəttə, bu, son olmadı, Mustafa sonralar da mühafizə qüvvələri tərəfindən çox incidildi.

## *Hərbçilik lovğalığı*

**Fərhad Abbasi**

Əməliyyat komandirlərindən olan Seyid Mehdi planı açıb nə etməli olduğumuzu izah etdi. Rəhbər ofisi kvadratı deyilən bir ərazi idi. Əməliyyat bu kvadratın sonundan iki istiqamətdə başlayacaqdı: Qürbə və Hüceyrə.

Mustafanın hərbçilik lovğalığı coşdu:

- Hacı, biz hücum edəndən sonra təminat necə olacaq? – dedi. – Yəni mən əlimi uzatsam, patron darağını götürə biləcəyəm?

- Problem yoxdur. Bura bizim idarəçiliyimiz altındadır və hər şeyimiz var, - Seyid Mehdi dedi.

Deyildi ki, düşmən arxa tərəfimizə keçib bizi mühasirəyə almasın; Seyid Mehdi də bizi qane etdi ki, heç bir hadisə baş verməyəcək.

## *Ayparanın üzü*

**Mustafa Ağaməhəmmədlu**

Hüceyrə əməliyyatı gecəsi Mustafa ilə birlikdəydik. O, sabah əməliyyat olacağına görə sevinib ağlayırdı. Mən yalnız bunu fikirləşirdim ki, məndən sonra ailəmin taleyi necə olacaq. Beynimə gəldi ki, erkən İslam çağından indiyədək cihadın ən ağır hissələrindən biri ailənin vəziyyəti barədə narahatlıq olmuşdur.

İyirmi gün idi ailə qurmuşdum. Həmin gecə düşündüm ki, əgər evli olmasaydım, heç vaxt İrana qayıtmazdım; ya müharibə bitərdi, ya da mən şəhid olardım. Bu fikirlər bütün mücahidlər üçün çox böyük məsələydi. Çünki hər bir mücahidin düşündüyü və bağlandığı yeganə məsələ ailəsi idi. Mustafa isə, belə nəzərə çarpırdı ki, bu barədə düşünmür.

Mustafa ağlaya-ağlaya iki-üç vəsiyyət etdi. Biri buydu ki, şəhid olsa, internetə şəhidlər barədə məlumat yerləşdirim. Zeynəbiyyədə bir internet-klub vardı, boş vaxtlarımızda Mustafa ilə oraya gedirdik. Feysbukda "Ayparanın üzü" adlı bir səhifə açmışdıq. Mustafa idarə edirdi, hərəm müdafiəçilərinin şəkillərini və Suriya xəbərlərini paylaşırdıq. Şəhidlik və şəhadət barədə çox

danışırdı. Hətta bir-birimizə söz vermişdik ki, şəhadət barədə düşünmədiyimiz gün oruc tutaq.

Hüceyrə əməliyyatında döyüş çox olmadı. Fələstinli qüvvələr bizim önümüzdəydilər. Həzrət Zeynəbin hərəminin ön hissəsinin 80 metrə qədər məsafəsi bir il yarım müqavimət hərəkatına xəyanət etmiş ərəb hərbi birləşmələrinin nəzarətində oldu. Suriya müharibəsində həmin hərbi birləşmələrin bir qismi Suriya hakimiyyətinə qarşı vuruşdular. Bizim və Hizbullahın bildiklərini onlarda bilirdi. Buna görə müharibənin əvvəlində ərəb hərbi birləşmələrin hərəkəti bizi çox yandırırdı.

Suriya müharibəsində əsas rolu yerqazanlarla snayperlər oynayır, ən çox onlar can alırdı. Deyilənə görə, İran müqavimət qüvvələrinə elə bir sistem vermişdi ki, qazıntı zamanı nə səs-küy yaranır, nə də bayıra torpaq tökülürdü. Bu sistemi Hizbullaha, Hizbullah da İsrailə qarşı istifadə etsin deyə xəyanətkar hərbi birləşmələrə vermişdi. Suriyada müharibə başlayanda isə xəyanətkar birləşmə bu hərbi taktikanı təkfirçilərə öyrətmişdi.

Deyilənə görə, təkfirçilər hərəmin yaxınlığına qədər tunel qazaraq Zeynəbiyyədəki evlərin birindən çıxmış və gizlicə hərəmin arxasına yazmışdılar ki, Əsəd gedəndə sən də Suriyadan gedəcəksən!

Hərəm müdafiəçiləri bilib həmin tuneli dağıtmışdılar. Qısa müddətdə 8 km qazmışdılar; halbuki insan qüvvəsi ilə qazılsaydı, uzun zamana başa gələrdi.

Hüceyrə ərəb hərbi birləşməsinin əlindəydi. Hizbullah bir il yarım onu geri ala bilməmişdi. Suriya dövlətinə qarşı vuruşan bu xəyanətkar birləşmələr demişdilər ki, əgər Hüceyrədə 15 metr irəliləyə bilsəniz, biz ərazini boşaldacağıq. Elə də oldu. İranlılar bir taktika icra edib

onları geri qovdular. Biz girəndən sonra onlar da sözlərini tutub Hüceyrəni boşaltdılar.

Bu əməliyyatda canlı qüvvə bir tərəfdə Fatimiyyun, bir tərəfdə də, yanılmasam, Qüds korpusunun uşaqları olmaqla U şəklində irəliləyib onları geri itələdi. Qarşı tərəfdən də çox ağır dəstək atəşi yağdırdılar. Nəhayət, geri çəkildilər və Hüceyrə azad oldu. Həmin gecə bir il yarımdan sonra ilk dəfə olaraq həzrət Zeynəbin məqbərəsinin günbəz və minarələrinin işıqları yandırıldı.

Hüceyrə azad ediləndə onların mediası bunu taktiki geriçəkilmə adlandırdı. Şəhərə girəndə gördük ki, bölgənin zirzəmisi böyük bir siçan yuvası kimidir. Bütün tikililərin bir-birinə yeraltı yolu vardı. Binaların istehkamları olduqca mürəkkəb idi. Hüceyrəni o qədər vurmuşdular ki, indinin özündə də Suriyada bir xarabalığın şəklini çəkmək istəyəndə ora gedirəm. Heç bir yer Hüceyrə qədər dağıdılmayıb.

Hüceyrə əməliyyatından sonra Fatimiyyun mövqeyindəydik. İki iranlı bizə snayper təlimi keçməyə gəldi. Niyavərandakı atıcılıq klublarından idilər, Qüds korpusu gətirmişdi.

## Yalnız iki-üç iranlı

**Fərhad Abbasi**

Hüceyrə azad ediləndən sonra orada yaşayan bir fələstinli ailə ilə tanış olduq. Ailənin böyük qızı Roşanın təxminən otuz yaşı vardı, atası və kiçik bacıları ilə birgə Hüceyrənin silahlıların işğalında olan hissəsində yaşayırdı. Döyüş vaxtı da bölgəni tərk etməmiş, çoxlu çətinliklər çəkmişdilər. Hətta özünün və ailə üzvlərinin başlarını kəsmək üçün yerdə oturtduqları zaman da oradan

köçməmişdilər. Ataları demişdi ki, biz bir dəfə evimizdən çıxdıq, həyatımız bu oldu; daha buradan gedən deyilik!

Roşa deyirdi ki, əl-Nüsrə cəbhəsində ən yeni rabitə cihazları vardı, əl-Cəzirə telekanalı ilə birbaşa danışır, digərlərinin danışıqlarını dinləyirdilər. Danışıqlarda farsca sözlər eşidəndə bütün qüvvələrini hazırlıq vəziyyətinə gətirirdilər.

İranlıların varlığı digər hərəm müdafiəçilərini ruhlandırırdı. Bizim binamızın komandiri olan suriyalı zabit deyirdi: “Əgər burada iki-üç iranlı döyüşçü olsa, digərlərini göndərərəm getsinlər”.

## *Hüceyrə Tasuası*

**Mustafa Ağaməhəmmədlu**

Hüceyrə əməliyyatı Tasua günü baş tutdu və bütün bölgə həzrət Zeynəbin kəramətinə şahid oldu. Əməliyyatdan sonra Şəhidlər meydanında əzadarlığa başladıq. Mustafa Sədrzadə bu əməliyyatda iraqlı uşaqlarla iştirak edirdi. Onda bizimlə təzə tanış olmuşdu; bizdən məlumat alırdı, özü barədə isə çox danışmırdı. Əsl adını da deməmişdi. Döyüşdə iştirak etmək istəyirdi, düşünürdü ki, adını bilsək, mühafizə xidməti onu İrana qaytaracaq.

## *Mustafa kulliş muşkil*

**Fərhad Abbasi**

Əzadarlıqdan sonra sıraya düzülüb Dəməşqlə Zeynəbiyyənin arasındakı Yəlda istiqamətindən əməliyyata hazırlaşdıq. Düşünürdük ki, indicə hücum edəcəyik, amma xəbər çıxmadı, biz bir güllə belə atmadan əməliyyat bitdi.

Çox dilxor olduq. Uşaqların biri dedi ki, gedək Hüceyrəyə bir dövrə vuraq.

Pikapın arxasına mindik. Mustafa dizlərini qucaqlayıb qəmli halda oturmuşdu, əlində də silah vardı. Şəklini çəkdim. Azad olunmuş yerlərə çatanda bildim ki, müharibə xarabalığı nə deməkdir.

Fatimiyyuna qayıtdıq. Bir-iki gün sonra dedilər ki, daha burada qala bilməzsiniz; hacı deyib ki, gərək qayıtsınlar.

Fatimiyyunun iranlı rəhbəri ilə hərəmdə görüş təyin etdik. Yolda Mustafa ilə çox söhbət etdik.

- Mustafa, sən Allah, diqqətli ol, - dedim, - tez-tez demə ki, biz döyüşə getmək istəyirik. De ki, hacı, biz xidmət etməyə gəlmişik, aşpazxana da olsa, gedərik.

O adamla görüşüb üzühərəmə oturduq. Mustafa dedi:

- Hacı, biz təlim görmüş adamlarıq, siz Allah, bizi Fatimiyyuna göndərin.

Söz verdi ki, məsələ ilə məşğul olacaq, amma nəticəsi olmadı və biz yenə İmam Hüseyn (ə) bayrağı batalyonuna Şeyx Əmcədin yanına qayıtdıq; yorğun və taqətsiz halda.

- İmkanlar gəlib, gəlin aşağı, iclasımız var, - Şeyx Əmcəd dedi.

O deyirdi: “Mustafa, kulliş muşkil!”[12] O qədər oyan-buyana gedib “biz vuruşmaq istəyirik” deyirdi ki, bizə problem yaranırdı.

Şeyx Əmcəd masanın arxasında oturdu, hər iki əlini masaya möhkəm çırpıb dedi:

- Mustafa! Mustafa! Şi turid? Kulşey movcud! Mustafa, nə istəyirsən?! Hər şey var!

---

[12] Mustafa başdan-ayağa problemdir.

## *Zərihin yanındakı gecə*

**Xeybər**

Şeyx Əmcədlə danışıb dedik:

- Bizi əməliyyata aparmırsınızsa, qoyun gedək!

- Yox; nə istəyirsinizsə, var, əməliyyata da gedəcəyik.

Pasportlarımızı alıb bizə Kalaşnikov və Draqunov silahları verdi. Bütün silahlar yepyeni idi, işlənməmişdi.

Silah və əşyaları alıb həzrət Rüqəyyənin hərəminə getdik. Şeyx Əmcəd bizə silah daşımaq üçün icazə vərəqi verdi ki, bununla bağlı problem yaşamayaq. Gecəni zərihin yanında yatdıq. Səhər çağı Şeyx Əmcəd dedi:

- Səfirlikdən gəlmişdilər sizdən ötrü... pasportlarınızı da aldılar. Gərək Rəhbər ofisinə gedəsiniz.

Ofisə getdik və bizə dedilər ki, gərək qayıdasınız.

## *Hacı Qasim Mustafanı axtarır*

**Fərhad Abbasi**

Mühafizə xidməti demişdi: "Neməti ilə Sədrzadəni tutun! Hacı Qasim bunları axtarır". Aşpazxanadan qaçandan adları vardı. Şeyx Əmcəd də dedi: "Daha qala bilməzsiniz. Mənə təzyiq göstərirlər ki, sizi uzaqlaşdırım. Gedin Rəhbər ofisinə, görün nə deyirlər".

Ağanın ofisinə getdik. Biz israr edirdik ki, qalmalıyıq. Mühafizə işçisi dedi:

- Siz İslam Respublikası üçün xərcsiniz. Bilirsiniz ki, birinizi tutsalar, mən azad etməkdən ötrü neçə milyard tümən verməliyəm?!

- Hacı, məni heç kim tuta bilməz, - Mustafa yumor hissi ilə dedi. – Mənim qumbaram var; düşməni qucaqlayaram, birlikdə ölərik.

Çox israr etdik ki, Fatimiyyunda qalaq, amma xeyri olmadı, axırda üzünü Seyid Mehdiyə tutub dedi:

- Seyid Mehdi, bunları qaytar.

Mustafa Seyid Mehdiyə dedi:

- Hacı, siz bu işinizlə şəhid olmayacaqsız ha!

Seyid Mehdi bir söz deməyib sakit qaldı. Mustafanın bu sözünə görə biz də düşünürdük ki, bizə qarşı çıxanlar şəhid olmayacaqlar. Sonralar Seyid Mehdinin şəhid olduğunu eşidən kimi bu hadisəni və Mustafanın sözünün bizim fikirlərimizə nə qədər təsir etdiyini xatırladım.

## *Yenə gələcəyəm*

**Mustafa Ağaməhəmmədlu**

Ofisin məsul şəxslərindən olan və o vaxta qədər orada qalmağımıza mane olmamış Hacı Davud dedi:

- Artıq İrana getməlisiniz!

- İrana gedək, yoxsa qaçaq? – dedik.

Ümumilikdə bu nəticəyə gəldik ki, qayıdaq. Qırx beş günə yaxın idi Suriyadaydıq. Mustafanın maddi problemi vardı, İrana getməli idi. Amma dedi ki, yenə gələcəyəm. Mən də Mustafasız orada qalacağımı təsəvvür edə bilmirdim. Bu, məsləhət deyildi və mən ərəbcə də yaxşı bilmirdim.

## *27-ci xütbə*

**Mustafa Ağaməhəmmədlu**

Hacı Davud çox danışdı, Məsud da dedi ki, sizin sözünüzə görə gedirik.

“Mən danışaram, bir həftə sonra yenə gələrsiniz”, - Hacı Davudun bu sözünü bütün müdafiəçi uşaqlar eşitmişdilər. O, həmin axşam da bizə eyni sözü verdi.

Təyyarəni gözləyəndə Ruhullah Nəhcül-bəlağənin 27-ci xütbəsini[13] oxudu.

## *Dövləti rüsvay edirsiniz*

**Mustafa Ağaməhəmmədlu**

Hava limanında bir iranlı uzaqdan bizə göz qoyurdu. Müharibə dövrünün döyüşçülərindən olduğu bəlli idi. Pasportlarımızı yoxlanışa verəndə yaxınlaşdı, söhbət etdik. Onda bildim ki, bizim vəziyyətimiz çoxlarından yaxşıdır. O, Beyrut hava limanında demişdi ki, döyüşə getmək istəyirəm. Demişdilər ki, gəl, aparaq. Onu Suriyada səfirliyimizə təhvil vermiş, həmin gün də geri göndərmişdilər.

Mustafanın görkəmi bəsici olduğunu uzaqdan car çəkirdi. Bundan ötrü dəfələrlə söz eşitmişdi. Hətta qayıdanda Dəməşq hava limanında bir pasdar sərt və

---

[13] “Cihad Allahın xüsusi dostlarının üzünə açdığı cənnət qapılarından biri, təqva geyimidir. Haqq-taalanın möhkəm zirehi və güclü qalxanıdır. Hər kəs ondan uzaqlaşıb, onu tərk edərsə, Allah ona zillət və xarlıq paltarı, bəla və çətinlik xalatı geydirər. Bunun təsirindən isə həmin adam rəzil, alçaq, zəlil və biçarə olar. Allah Öz rəhmətini onun qəlbindən götürdüyünə görə ağılsızlığa mübtəla olar. Cihada getmədiyinə və bu mühüm işə əhəmiyyət vermədiyinə görə haqqın yolundan uzaqlaşaraq batil yola qədəm qoyar. Müsibətə və biçarəliyə düçar olaraq ədalət və insafdan məhrum qalar. Agah olun, mən sizləri gecə və gündüz, gizlində və aşkarda döyüşə dəvət edərək dedim ki, onlar sizinlə döyüşə gəlməmiş, siz onlarla döyüşə çıxın. Allaha and olsun, hər hansı qövmün öz evində elə bir müharibə olmayıb ki, orada onlar zəlil və məğlub olmasınlar!”

təhqiramiz tonla dedi ki, siz dövlətimizi rüsvay edirsiniz. Mustafa həmişəki kimi heç nə demədi, amma mən dilləndim:

- Sizi əlli-əlli əsir tuturlar,[14] amma indiyədək hansı bəsici uşağı əsir tutublar və siz əvəz vermisiniz ki, belə danışırsan?! Gördüyün bu bəsicinin intihar silahı[15] həmişə yanındadır.

## *Bir neçə səhifə əfqanca*

**Seyid Səccad Alimi**

Mustafa Sədrzadə və dostlarından biri İrana qayıdandan sonra atamın tövsiyəsi ilə sənədlərini hazırladılar və Məşhəddə Fatimiyyuna üzv olmaq üçün adlarını yazdırdılar. Ağa Sədrzadə bizə gəlib atama dedi:

- Əbu Səccad, düşərgədə iranlı olmağımızın üstü açılmazmı?

Atam düşərgədə əfqanıstanlı olduğuna inansınlar deyə ona bəzi məlumatlar verdi; məsələn, dedi ki, Əfqanıstanın hansı şəhərindən olduğunu soruşsalar, de ki, filan şəhərdənəm. Atam ona iki-üç səhifə əfqanca söz yazıb tapşırdı ki, məşq eləsin. Yadımdadır, yazıq küçəyə çıxan kimi yeriyə-yeriyə kağıza baxır, dodaqlarını tərpədirdi.

## *Başına dönüm, ana*

**Həkimə Əfqəh**

---

[14] Suriya münaqişəsinin əvvəlində ASO korpus qüvvələrindən bir avtobus adamı əsir tutmuşdu.

[15] Məsud Nemətinin tövsiyəsi ilə aldığı bıçaq

Onunla danışanda mümkün deyildi ki, sözlərimin arasında ona "qurban olum" deməyim. O da məni gündə on dəfə də görsəydi, mümkün deyildi ki, əlimi öpməsin; istər küçədə olsun, istər bazarda, istər evdə. Mən etiraz edəndə deyirdi: "Ana, bu, mənə nəsib olan ilahi səadətdir, məni bundan məhrum eləmə!"

## *"Salehlər" konteyneri*

**Seyid Əlirza Miri**

Bəsic Müqavimət Mərkəzi ilə danışdıq, narkomanların yuvasına çevrilmiş qədim hövzə binasını bizə verdilər. Üz-başına əl çəkib yerinə kovrolit döşədik, bir qədər təmizlənəndən sonra oraya yerləşdik. Lakin yolu pis olduğuna, uşaqlar gedib-gələndə çətinliyə düşdüyünə görə "Salehlər" layihəsinin məclislərini Peyğəmbər-əzəm (s) parkında keçirirdik. Bir qədər kartonu yerə sancıb üstünə yazırdıq: "İmam Ruhullah Bəsic mərkəzinin "Salehlər" məclisi".

Mərkəz məhəllənin içində yerləşmədiyinə görə məhəllə sakinləri ilə əlaqə qurmaq çətin olurdu. Mustafa da Suriyaya gedib-gəlirdi. O getməzdən öncə bizə dedi: "Bələdiyyədən icazə alın, parka bir konteyner qoyaq; əməliyyat işləri mərkəzdə görülsün, məclislər parkda keçirilsin".

## *Biz kimik ki?!*

**Xanım İbrahimpur**

Heç vaxt düşünmürdü ki, məsələn, filan məhəllədə mədəni-tərbiyəvi fəaliyyətin yaxşı effekti olmayacaq. Mən ona etiraz edəndə, məsələn, parkın uyğun olmadığını

söyləyəndə əminliklə bildirirdi ki, gördüyü işin nəticəsi Allahın əlindədir, özü və digərləri kimdirlər ki?! Deyirdi ki, Allah istəsə, özü düzələcək, mənim vəzifəm üzərimə düşəni etməkdir; ondan sonra Allah nə istəsə, o da olacaq.

## *Hüseyniyyə açaq*

**Seyid Əlirza Miri**

Peyğəmbər-əzəm (s) parkı oğru və quldurların yuvasına çevrilmiş, bütün dəlik-deşikləri araqiçənlərlə və narkotik satanlarla dolmuşdu. Ətrafdakı qonşuların heç biri ailə-uşaqla parka gedə bilmirdi. Parkda "Salehlər" məclislərinin keçirilməsi və Bəsic ab-havasının yaradılması cinayətkarların yavaş-yavaş oradan getməsinə səbəb oldu.

Mustafa Suriyada olanda bələdiyyənin Xidmətlər şöbəsi ilə danışıb icazə aldıq. Yer müəyyən edildi və parka iki konteyner qoyduq. Mustafa məzuniyyətə gələndə onları görüb dedi:

- Çox da ürəyimə yatmır. Uşaqlar, istəyirsiniz hüseyniyyə açaq? Həm heyət götürərik, həm də sizin yeriniz böyük olar.

- Mömin, biz bələdiyyədən konteyner qoymağa icazə almışıq, - dedim. – İndi onlara nə deyək?

- Elə onlara dediyimizi düzəldirik də. Onlar gəlib konteynerimizi görməyiblər ki. Deyərik ki, konteynerimiz 70 metrlikdir.

Uşaqlar konteynerləri bir-birinə birləşdirib hüseyniyyə tikməyə başladılar. Məhərrəm ayına az qalırdı, ilk beş günə çatdıra bilmədik. Tikinti təxminən bir ay çəkdi və iyirmi milyona yaxın xərci çıxdı.

Tikinti pulunu Mustafa cibindən verdi, bir qədər də digərlərindən yardım aldı. Naməlum şəhidlər adına

hüseyniyyənin bənnalıqdan başlayaraq bütün işləri uşaqların köməyi ilə görüldü.

Hüseyniyyə məhərrəmin altıncı axşamında həzrət Qasim rövzəsi ilə açıldı. Sonralar bildim ki, hüseyniyyəni tamamlamaq üçün hovuz alış-verişinin qazancı olan evi satmışdı.

## *Mustafanın qazancı*

**Məhəmməd Sədrzadə**

Mustafanın kirayə etdiyi hovuzun sahibi banka borclu olduğuna görə hovuzu satışa çıxarmışdı. Mustafa 2014-cü ilin fevralında boş ciblə 3 milyard 500 milyonluq hovuzu aldı. Eyni zamanda Suriyaya getmək işləri ilə də məşğul olurdu. Buna görə çox tezliklə hovuzu başqa birinə satdı. Nağd pul yerinə iki-üç evi Mustafanın adına keçirdilər. O, iki evi sataraq çoxalmış borclarını ödədi. Bu alış-verişdə təxminən 300 milyon tümən qazana bilərdi, amma deyirdi ki, hüseyniyyəni tikməliyik, bir nəfərin də pula ehtiyacı var. Buna görə tez və az qazancla alış-veriş etdi və nəticədə özünə bir ev qaldı.

## *Avtomat sürət qutusu*

**Pərviz Razi**

Mustafa atasını çox sevir və daim düşünürdü. Ona avtomat sürət qutulu maşın almaq istəyirdi. Bir gün mənə dedi:

- Eşitmişəm ki, maşınının sürət qutusu avtomatdır. Gərək onu mənə satasan.

- Mustafa, satlıq deyil.

O qədər gəlib-getdi ki, axırda razılaşdım. O, məni razı salmaq üçün dedi:

- Elə edək ki, həm mənim xeyrimə olsun, həm sənin.

- Nə edək?

- Sənə bir ev verim, sən də bu maşını mənə ver; həm atama xidmət etmiş olum, həm də səndən alacağım əlavə pulla hüseyniyyəni tikək. O, həmişə qalan saleh əməldir, sənin pulun da oraya sərf olunacaq.

Maşını və əlavə 15 milyon tümən pulu verib evi aldım.

# *Saxtakarlıq*

**Əli İbrahimpur**

2013-cü ilin dekabrı idi. Mustafa hüseyniyyə işləri ilə məşğul olur, amma Suriyaya getmək fikrindən də dönmürdü. Qərara gəldik ki, daha Suriyaya getməsin deyə onu bir yerə ilişdirək. Korpusun Vakansiya şöbəsinə gedib dedim:

- Mustafanın qovluğuna kim baxır?

Uşaqlar tanıyırdılar; dedilər ki, filankəsdədir.

- Sizdən narazıyam, - həmin adama dedim. – Siz bəzən yaxşı keçmişi olmayan adamları qəbul edirsiniz, amma parlaq keçmişi ola-ola Mustafanın qovluğunu saxlamısınız.

- Hacı, komissiyaya apardıq, sənəd saxtakarlığına görə dedilər ki, daha çox araşdırın. Biz də yazdıq ki, səbəbi şəhadətsevərlik olmuşdur.

Mustafanın yanına gedib dedim: “Mustafa, sənədin hazırdır. Gərək təlimə gedə, sonra da korpusda işə başlayasan”.

Bizə bir söz demirdi; ancaq deyirdi ki, baş üstə, ağa can! Amma xanımına demişdi ki, mən daha yolumu tapmışam. Bir qədər ondan incidim. Mən onun işə başlayıb Suriyaya getməməsini istəyirdim, o isə xanımı ilə Məşhədə getmişdi. Məşhəddən gələndə görkəmi çox dəyişmiş, saqqalı yoxa çıxmışdı.

# 8

# Üçüncü səfər

**(03.03.14-15.05.14)**

## *Həzrət Zeynəbə görə*

**Xanım İbrahimpur**

Mustafanın zahiri görkəminə çox həssas yanaşırdım, saqqalının olması mənimçün önəmli idi. Hətta toyumuzda saqqalını qısaltmaq istəyəndə dedim ki, yox, mənim saqqaldan xoşum gəlir, kişinin saqqalı uzun olmalıdır. Hər bir şey üçün ona hədis də söyləyirdim.

Biz Məşhəddə olanda səhər çağı harasa getdi. Günorta qayıdanda gördüm ki, saqqalını qırxıb və yeni görkəmdə şəklini də gətirib.

- Bu nə görkəmdir?! – dedim.
- Qəşəngdir?
- Əsla! Niyə belə etmisən, Mustafa?
- Sonra bilərsən.
- Onda get, bığını da qırx. Elə daha yaxşı olar.

- Məni tanımasınlar deyə belə etmişəm, - şəkli mənə verib dedi.

- Belə edəndə tanınmırsan?

Orada da tanınmasın deyə Fatimiyyuna özünü Əhmədi kimi təqdim etmişdi.

Yenə bayıra çıxdı. Gələndə gördüm ki, saçını qısaldıb, bığını da qırxdırıb.

O Məşhəd səfərində pasport işlərini düzəldirdilər. Dedi ki, gəl, səni dostlarımla tanış edim; Əfqanıstandan, Fatimiyyun uşaqlarındandırlar. Gedib gördük ki, biri xanımı ilə İmam hüseyniyyəsində oturub. Mən xanımının yanında oturdum, o da kişi ilə oturub söhbətə başladı. Xanım dedi ki, mənim yoldaşım da Suriyaya gedib-gəlir. Soruşdum ki, əziyyət çəkmirsən?

- Yox, həzrət Zeynəbə görədir, - dedi.

- Düzdür, həzrət Zeynəbə görədir, amma başlarına bir iş gəlsə, necə? – narahat halda dedim.

- Deməli, Allah belə istəyib.

Evə qayıdanda özümü danlayıb deyirdim ki, onların inancları səndən güclüdür. Həzrət Zeynəbə görə bütün həyatlarının məhv olmasına razıydılar.

## *Dəri dili*

**Xeybər**

Tələbəydim, diplomumu almağa bircə semestr qalırdı. Mustafa ilə Suriyadan qayıdanda semestrin ortası idi; dərslərimin əl-ayağını yığmağa başladım və məzunluq sənədimi aldım.

Bu müddətdə Mustafa Məşhədə gedib Şəhid Rza İsmaili və Şəhid Qulamrza Məhəmmədinin ailəsinə baş çəkmişdi.

Fatimiyyun şəhidlərinin ailələri ilə əlaqəsi həmin birinci səfərdən başlandı.

Dedim ki, yenə Suriyaya getmək istəyirəm, amma İraq yolu ilə getməyin xərci çoxdur, həm də çox tez tanınırıq. Mustafa dedi ki, Məşhəddəki Fatimiyyun vasitəsilə getmək daha asandır. Qərara gəldik ki, özümüzü əfqanıstanlı kimi göstərmək üçün dəri dili üzərində işləyək. Deyəsən bir dəfə Qumdakı Fatimiyyun vasitəsilə getmək istəmiş, amma ləhcəsinə və görkəminə görə şübhələnmişdilər. Bu dəfə səhv etmək istəmədiyinə görə maldarlıq fermasında qarovulçusu olmuş əfqanıstanlı fəhlə ilə görüşdük, ləhcəsini və əfqan terminlərini öyrəndik.

## *Sən dua elə*

**Sübhan İbrahimpur**

Universitet bizi Məşhədə aparanda bacımla Mustafa da oraya getmişdilər. Mustafa bir neçə dəfə mənə zəng edib dedi ki, gəl, görüşək. Fikirləşdim ki, görəsən nə işi var. Hərəmdə görüş təyin etdik. Bir mesaj yazdı: "Gəl bir-birimizə bir söz verək". Razılaşdım. Pilləkəndən qalxanda bir mesaj da gəldi: "Dadaş, istəyirəm ki, mənimçün şəhidlik arzulayasan". Belə cavab yazdım: "Deməzsən aldatdım?! Mənim dua etməmi istəyirsənsə, gərək sən də dua edəsən".

Mən Məşhəddən Mustafadan qabaq qayıtdım. O gələndə siması dəyişmişdi, amma səbəbini heç kim bilmirdi.

Bir gün bacım yatmışdı. Mən getmək üçün ayağa qalxanda Mustafanın geyindiyini və mənə nəsə demək istədiyini gördüm. Üz vurmayıb özünün deməsini gözlədim. İstixarə etdiyi yerdə birdən dedi:

- Can qardaş, sənə bir söz deyirəm, "yox" demə.

- Hacı, de, mümkün olsa, edərəm.

- “Yox” demə. Mən Suriyaya gedirəm, bu məktubu bacına verərsən.

- Ağa Mustafa, - pilləkəndən enib dedim, - bu, düzgün deyil. Heç olmasa, onu oyadım, sonra birlikdə səni yola salarıq.

- Yox, özün deyərsən, - deyə hovuz çantası və çəkələklə Suriyaya getdi.

Mən evə qalxıb məktubu xalçanın altına qoydum. Axşam gəlib dedim:

- Bacı, Mustafadan xəbərin yoxdur?

- Yox, Sübhan can, sən bilirsən hara gedib?

- Xanımı sənsən, məndən soruşursan?!

İki saat birtəhər dözdüm, sonra gördüm ki, bacım çox əziyyət çəkir. Yavaşca məktubu xalçanın altından çıxarıb televizorun üstünə qoydum.

- Aa, bacı, bunu görməmisiz? – dedim. – Bəlkə, Mustafa qoyub.

Oturub ağladı. Mənsə gülürdüm. Sonralar özü də məsələni öyrənəndə gülürdü.

O gedəndən sonra Məşhəddə məndən istədiyi dua həmişə beynimdəydi. Nəhayət, ürəklənib düşündüm ki, söz vermişəm, gərək şəhid olması üçün dua edim. Buna görə bacım hər dəfə: “Sübhan, dua elə, Mustafa salamat qayıtsın” deyəndə lal-dinməz ona baxırdım. Həssas idi, deyə bilmirdim ki, şəhadət duası edəcəyimi söz vermişəm. Deyirdim ki, dua edəcəyəm, aqibəti xeyirli olsun. Anama da eyni cavabı verirdim. Buna görə anamla bacım məndən Mustafa üçün dua etməmi istəmir, həmişə deyirdilər ki, sən dua etməsən yaxşıdır!

# *Bizim verdiyimiz icazə*

**Mustafa Sədrzadə**

Döyüşə getməzdən qabaq fikirləşirdim ki, bu döyüşçülər güllə qabağında necə dayana bilirlər. Döyüşlərdə bizim də yan-böyrümüzdən güllə keçəndə öz-özümə dedim ki, biz də qədim döyüşçülər kimi güllə önündə dayanıb irəliləyə bilirik. Məndə bir qədər qürur yarandı.

Bu fikir beynimdəydi. Bir dəfə evdən çantamı götürüb ailəmdən xəbərsiz döyüşə gedirdim. Qalxıb şkafın qapısını açmaq istədim, amma cürətim çatmadı. Sanki ürəyim döş qəfəsimi təpikləyirdi. O qədər həyəcanlı idim, pilləkəndən enəndə sanki bir səs dedi ki, evindən ayrılanda stresdən ölürsənsə, ürəyin dayanırsa, amma döyüşdə nəsə edə bilirsənsə, əlin silah tutursa, vuruşmağa cəsarətin çatırsa, bunu biz sənə vermişik, sən heç nəsən. Həqiqətən də, elədir. Əgər vuruşmağa cürət varsa, izin varsa, meydan iznini özləri veriblər və bütün bu mübarizələr həzrət Zeynəbin lütfündəndir.

# *Səkkizaylıq*

**Məsud Neməti**

Qərara gəldik ki, əfqanıstanlılarla Suriyaya gedək. Əbu Hamid və Fatehlə[16] məsləhətləşmişdik, demişdilər ki, bir

---

[16] Fateh ləqəbli Rza Bəxşi 1986-cı ilin sentyabrında müqəddəs Məşhəd şəhərinin ətraf bölgələrinin birində dünyaya gəlmiş, Quran və hədis elmləri ixtisasında bakalavr, İslam fiqhi və maarifi ixtisasında magistratura təhsili almışdı. Fars dilindən əlavə, ərəb və ingilis dillərinə də tam yiyələnmişdi. Futbola böyük marağı vardı və mahir üzgüçü idi. O, hədsiz istedadına görə Moskvada təhsil bursu ilə təmin olunsa da,

neçə nəfərimizi qəbul edəcəklər. Mustafa Şəhriyardakı əfqanıstanlıların bir neçəsi ilə də tanış olub Əfqanıstan ləhcəsini öyrəndi və sonra təlimə getdi.

Mən də əfanıstanlılarla Suriyaya getmək istəyirdim, amma iranlı olduğumu bilib məni düşərgədən çıxardılar. Əfqanıstanlıların üç-dörd aylıq gediş-gəliş vərəqələri olur. Mustafa isə mənimçün səkkizaylıq vərəqə düzəltmişdi. Bu məsələ mənə problem yaratdı, amma Mustafa gedə bildi.

## *Şolgərə*

**Xeybər**

Fatimiyyun qüvvələrindən olan Seyid Cavadla öncəki səfərdə tanış olmuşduq. O, bizə bir Əfqanıstan pasportu aldı. Mustafa onun üzündən 20-30 pasport düzəldib saxta möhürlə möhürlədi.

İşlərimiz bir-bir düzəlirdi. Təkcə təqdimatçı qalırdı, onu da Seyid Cavadın özü üzərinə götürdü, yaşayış yerimiz və ailə üzvlərimiz barədə nə deməli olduğumuzu bizə öyrətdi. Mustafa Əfqanıstanın Şolgərə rayonundan Seyid İbrahim

---

həzrət Zeynəbin hərəminin təhlükə altında olduğunu eşidib ata-anasına bildirmədən Fatimiyyunun V qrup uşaqları ilə Suriyaya yollandı.
Əbu Hamid Fatimiyyunun atası kimi məşhur olan müavini Hüseyninin şəhadətinə görə çox narahat oldu. Ondan sonra Rza Bəxşi Əbu Hamidin birinci müavini təyin edildi. Onun təkfirçilərlə üz-üzə döyüşləri, Üteybə, Məlihə, Dəra, Şərqi Dəməşq və Hələbdəki qəhrəmanlıqları hələ də müqavimət döyüşçülərinin dillərinin əzbəridir. Onlar bilirdilər ki, Fateh hansı əməliyyatda iştirak etsə, qələbə qaçılmaz olacaq.
Təll-Qərin Əbu Hamidlə Fatehin birlikdə iştirak etdiyi əməliyyatlardan idi. Bu bölgə işğal olunmuş Fələstin torpaqlarından 15 km aralıda olduğuna görə həssas və strateji bölgə sayılırdı. O, Fatimiyyə günlərində, 28.02.15 tarixində Dərada Təll-Qərin təpəsini azad edərkən komandiri Əbu Hamidlə birlikdə Haqqın dəvətinə ləbbeyk deyib şəhadətə qovuşdu.

Məhəmməd oğlu Əhmədi oldu. Seyid Cavad deyirdi ki, Mustafanın görkəmi həmin bölgənin əhalisinə oxşayır.

## *Seyid İbrahimin adı*

**Seyid Səccad Alimi**

Seyid İbrahim Suriyada şəhid oldu, cəsədi də orada qaldı. Biz Məşhədə qayıdandan sonra Mustafa öz adı ilə Suriyaya gedə bilmədiyinə görə Seyid İbrahim adını götürdü.

Sonralar Hələbdə bunun səbəbini soruşanda dedi: "Düzü, Seyid İbrahimi çox istəyirdim, buna görə adımı Seyid İbrahim qoydum".

Seyid İbrahim[17] əmim oğlu idi. Göyçək adam idi, ürəkaçan və zərif siması vardı. Mustafa deyirdi ki, bir gecə ona həyat xatirələrindən danışırmış. Həyatını lətifə şəklində çox gözəl təsvir edirmiş. Bu, onların dostluğuna səbəb olmuşdu.

---

[17] Seyid İbrahim ailənin ilk övladı olaraq 1992-ci ildə Məşhəddə doğulmuşdu. Ailəsi uzun müddət öncə Əfqanıstandan İrana mühacirət etmişdi. O, Əbu Səccad ləqəbli Şəhid Seyid Əli Aliminin qardaşı oğlu idi. Fatimiyyun briqadasına ilk qoşulanlardan olan Əbu Səccad Suriyada qarşıdurmalar başlayanda Seyid İbrahimə xəbər vermiş, o da özünü silahlılara qarşı döyüş cəbhəsinə yetirmişdi. Özünə Cabbar ləqəbini götürmüş, çox zarafatcıl olduğuna görə Fatimiyyun döyüşçüləri ilə yaxşı münasibət qurmuşdu. Onun Mustafa Sədrzadə ilə səmimi dostluğu nümunəvi idi. Seyid İbrahim 2013-cü ilin noyabrında Dəməşq vilayətində əməliyyat zamanı Qulamrza Məhəmmədi və digər yoldaşları ilə silahlıların pusqusuna düşdü. Ondan sonra onların heç birinin cəsədi tapılmadı. Seyid İbrahim Alimi və Qulamrza Məhəmmədi üçün Məşhədin Behişti-Rza məzarlığında simvolik məzarlar düzəldilmişdir.

# *Mustafanın döyüşçü nişanı*

**Xeybər**

Fatimiyyunun tərkibində ezam məqsədilə razılaşdırmalar baş tutdu və gedib ad yazdırmamız üçün bizə bir ünvan verdilər. Oraya getdik. Mustafa ilə birgə qərara gəldik ki, bizdən şübhələnməsinlər deyə onun doğum şəhadətnaməsi olsun, mənsə deyim ki, sənədim yoxdur. Elə də etdik və suallarına cavab verdik. Gecəni orada qaldıq. Ertəsi gün yola düşəcəkdik.

Mən saqqalımı qırxmışdım, təkcə bığım qalmışdı. Mustafanın saqqalı isə hələ uzundu. Ona dedim ki, saqqalını qırx, bığını saxla. Razılaşmırdı. Nəhayət, israrla razı salıb ona ülgüc verdim.

Səhər çağı maşın tutub imamın məqbərəsinə getdik. Orada siyahıdan adlarımızı oxuyub bir-iki sual verdilər, sonra da mobil telefonlarımızı aldılar. Mən telefonumun simkartını çıxardım, Mustafada isə iki telefon vardı, onları söndürüb təhvil verdi. Bundan sonra avtobusa minib hərbi hissəyə təlimə getdik. Mustafanın telefonları isə onun kimliyini ifşa edəcəkdi.

Qatıldığımız qrup Fatimiyyunun 14-cü qrupu idi. İstiqanlı və mehriban uşaqlar idilər. Bizim təqdimatçımız olan Seyid Cavadın əmisi oğlu da qrupdaydı, Seyid Cavad ona tapşırmışdı ki, bizdən şübhələnən olsa, məsələni həll etsin. Biz iranlı olduğumuzu bildirmək istəmirdik, amma ləhcəmiz Əfqanıstan, özləri kimi desək, "əvğan" sünnilərinin ləhcəsinə bənzəyirdi.

- Sənin ləhcən niyə belədir? – bir gün kazarmamızın rəisi mənə dedi.

- Nə bilim! Uşaqlıqdan belədir də! – deyə cavab verdim.

Daha bir söz demədi, amma əlimizi oxuduqlarını təxmin edirdik. Buna görə Mustafaya dedim: “Hərdən özümüzü o yola qoyaq ki, bizdən şübhələnməsinlər. Avtomat təlimi zamanı arabir oyan-buyanı da vur”.

Təlim müddəti bitdi və uçuş gecəsi gəldi. Ən gözəl anlardan biri döyüşçü nişanını aldığımız zaman idi. Hiss edirdik ki, artıq döyüşçüyük və cihada gedirik. Mustafanın nişan nömrəsi indi də yadımdadır: 3138355. Nişan və forma alandan sonra İmam Xomeyni adına hava limanından Dəməşqə doğru uçduq.

Telefonumuzu alan adam sonralar bizə dedi: “Təlim mərkəzində sizdən şübhələndilər, elə bildilər ki, düşmən adamısınız. Bizə zəng edib dedilər ki, siz qəbul etdiyiniz bu adamları tanıyırsınız? Mən də telefonlarınızı açıb baxdım, düşmən qüvvəsi olmadığınıza əmin olandan sonra getməyinizə icazə verdim”.

## *Tələyə yaxın getmirdi*

**Seyid Məhəmməd-Haşim İbrahimi**

Təlim müddətində bir gün Seyid İbrahimə yaxınlaşıb dedim:

- Seyid İbrahim, Suriyaya gəlməzdən qabaq nə işlə məşğul idin?

- Bənnalıq edirdim, - dedi.

- Sənin əllərin bənna əlləri deyil.

- Əllərim necədir ki?! - əllərinə baxıb dedi.

- Əllərin tələbə əllərinə oxşayır, bənna əllərinə əsla bənzəmir.

- Sən mənim üzərimə çox fokuslanmısan!

- Yox, nə fokuslanması?! Biz səmimi söhbət edirik. Sən də səmimi danış; tələbə olubsansa, de ki, tələbə olmuşam.

Daha bir söz deməyib davam etmədi.

Təlim günlərində sübh saat 5-də yuxudan oyanırdıq. Axşam da saat 10-da bitirdi və biz paltar dəyişməyimizi saat 11-ə qədər uzadırdıq. Yuxu saatımız az idi. Hər iki-üç gündən bir həmin yuxunun ortasında da qarovul naryadımız olurdu.

Bir gün qarovul dayanmışdım. Gecə saat 2 idi. Hövsələsiz halda oyan-buyana baxdığım yerdə Seyid İbrahim bayıra çıxıb tualetə, sonra da namazxanaya getdi. Öz-özümə düşündüm ki, bu nə qədər sadəlövh adamdır; indi yatmaq vaxtıdır. Yavaşca namazxanaya gedib gördüm ki, gecə namazı qılır.

- Gecə namazı qılırsan? – səhər ona dedim.

- Yox, - deyə boyun qaçırdı.

- Bu gecə səni gördüm.

- Yox, gecə namazı qılmıram.

Onda başa düşdüm ki, bu adamın fazası bizdən çox yüksəkdir. Buna görə çalışırdım ki, yanında çox olum.

Təlimdə bizdən atıcılıq imtahanı alanda Seyid İbrahim çox peşəkar atəş açır, iki gülləni də qəsdən oyan-buyana atırdı ki, əvvəllər atıcılıq təlimində olduğu bilinməsin. Komandir atıcılığı yaxşı olanları snayper seçirdi.

Seyid İbrahimin dostu Xeybərin çaxmaq çəkməsi Hizbullah uşaqları kimi idi: tək əllə qoruyucunu endirib çaxmağı çəkirdi. Bizim birinci dəfəmiz olduğuna görə bir əllə qoruyucunu salır, o biri əllə çaxmağı çəkirdik.

- Sən Əfqanıstanda vuruşmusan? – Seyid İbrahimə dedim.

- Yox, indiyə qədər Əfqanıstan döyüşlərində olmamışam.

- Belə silah tutmağı və açıb-bağlamağı harada öyrənmisən?

- Əfqanıstanda atamın tüfəngi vardı, ondan öyrənmişəm.

Bizim suallarımıza bir cavab düzüb-qoşurdu ki, ondan şübhələnməyək. Tələyə yaxın getmirdi.

Bəzən söhbətləşəndə Nəhcül-bəlağədən və Səhifeyi-Səccadiyyədən bəzi məqamları söyləyirdi, mən düşünürdüm ki, o, Suriyaya gəlməzdən qabaq hövzə tələbəsi olub. Özü isə heç nə demirdi. Buna görə başqaları da onun kimliyinə şübhə ilə yanaşırdılar, düşərgədə uzaqdan bir-birinə göstərib deyirdilər ki, bu Seyid İbrahimin əfqanıstanlı olmama ehtimalı var. Bu dəstənin başçısı Salehi idi. Mən soruşurdum ki, bəs haralıdır? Deyirdilər ki, ola bilsin, əhli-sünnədir, bəlkə də, casusdur.

- Sən onunla çox danışırsan. Casusdur, yoxsa yox? – deyə bir dəfə məndən soruşdular.

- Yox, əşi! Yazıq gecə oyanıb gecə namazı qılır; ixlaslı adamdır.

Təxmin edirdim ki, iranlıdırlar, amma heç kimə bir söz demir, ört-basdır etməyə çalışırdım. Nəhayət, xəbər Seyid İbrahimin qulağına çatdı. O, çox narahat oldu və bir təlim məşqində buna cavab verdi.

Bizə yoxlama təlimi keçirdilər. Bir dəstə oğru, ya da təkfirçi olurdu, bir dəstə də hərəm müdafiəçisi rolunu oynayırdı. Beş-beş bölünüb bu təlimi məşq edirdik. Biri gedib maşınla dövrə vurub gəlir, bəzən də maşında silah gizlədirdilər. Silahlarımızda da təlim patronu olurdu.

Növbə Seyid İbrahimə çatdı. Uşaqlarla danışmışdı ki, mən bu cümləni deyəndə siz də belə deyərsiniz. Seyid İbrahim yoxlanış postunun komandiri idi. Maşın gələndə dedi ki, hamınız düşün. Bir nəfər silahını maşına doğru tutmuşdu. Seyid dedi ki, axtarın. İki nəfər maşını, iki nəfər də adamların üstünü axtarmağa başladı. Bir silah tapdılar.

Dedi ki, diz çökün. Dizləri üstə oturub əllərini başlarının üstünə qoydular.

- Şiəsiniz, yoxsa vəhhabi? - Seyid İbrahim soruşdu.

- Vəhhabiyik.

Seyid İbrahim də protokoldan çıxıb çaxmağı çəkdi: taq-taq-taq!

Çox maraqlı səhnə idi. İranlı komandirlər bundan ötrü çox deyindilər ki, siz niyə atəş açdınız. Hərbdə deyirlər ki, mükafat bir nəfərə, cəza hamıya! Həmin gün hamımızı yaxşıca süründürdülər.

## *Kimsə əlimi tutdu*

**Mustafa Sədrzadə**

Əbu Səccadın yanında ləhcəmi düzəltdim, sonra da qəşəng bir Əfqanıstan pasportu hazırladım. Əfqanıstanda ona "təzkirə" deyirlər. Sənədlərin hamısı səliqəli idi, diqqətlə baxan da başa düşmək olmurdu.

Sonra təlimə getdik. Orada əfqanca danışırdıq, amma sözləri düzgün tələffüz etmirdik. Məsələn, farsca Baqer deyirik, onlarsa Baqir deyirlər. Heç demə kimlər sözləri belə tələffüz edirlər? Həzarə ləhcəsi ilə danışmaq istəyən sünnilər.

Beləliklə, mənim casus olmağımdan şübhələndilər. Ayağımda da yara vardı, namaz qılanda əyri dayanırdım, sağlam ayağımı yerə daha bərk basırdım. Deyirdilər ki, baxın, dayanması da şiələr kimi deyil, yamsılamağa çalışır".

Tez-tez deyirdilər ki, gedək Mühafizə xidmətinə. Mən Əfqanıstan tarixini yaxşı oxumuşdum. Axırda xidmətin işçisinə dedim ki, sizin bizim vətənimizdən xəbəriniz yoxdur. Biz seyidik, həzarələrlə seyidlər də bir-birini çox

öldürüblər. Bizimlə düşmən olduqlarına görə belə danışırlar. Aralarında seyid olmasını istəmirlər. O da nələrsə eşitmişdi. “Aha! Aha!” dedi və ondan sonra kim nə deyirdisə, qulaq asmırdı.

Mühafizə xidmətindən verdiyim ünvana gedib araşdırmış, görmüşdülər ki, ata-anam əfqanıstanlıdır və hər şey düzgündür. Hər şeyi düzüb-qoşmuşdum: ata əfqanıstanlı, ana əfqanıstanlı, xalaoğlu əfqanıstanlı, dayıoğlu əfqanıstanlı. Hər şey qaydasındaydı, yalnız bir yerdə özümü ələ vermişdim: telefonda.

Smartfonumu məndən aldılar. Düşünürdüm ki, kamerası olmayan köhnə telefonu almazlar, ancaq onu da alıb yoxladılar. Onda “Ata” adlı bir telefon əlaqəsi qeyd olunmuşdu. Axırıncı gün uçuşa yaxın ona zəng etmişdilər. Zəng edən adam sonradan mənə dedi:

“Atan zəngə cavab verdi. Soruşdum ki, ağa Əhmədidir? Dedi ki, yox. Soruşdum ki, Seyid İbrahimin atası deyilsiniz? Dedi ki, elə birini tanımıram. Dedim ki, bu telefonun sahibi Suriyaya getmək istəyir, siz narazı deyilsiniz ki? Dedi ki, bu telefonun sahibi mənim oğlumdur. Soruşdum ki, oğlunuzun getməsinə razısınız? Dedi ki, əlbəttə, mən özüm təqaüdə çıxmış pasdaram, o da hərəmi müdafiə etməyə gedir, nə olar?! Allah qorusun! Danışığı kəsib bu barədə əlaqədar şöbəyə xəbər vermək istədim, amma birdən ürəyim əsdi, sanki kimsə əlimi tutdu, dedi ki, pasdar ailəsindən olduğuna və münafiq olmadığına əmin oldun; mən də məruzə etməyə çəkindim, həzrət Zeynəbdən qorxdum”.

# 56 nəfər

**Seyid Məhəmməd-Haşim İbrahimi**

Bir dəfə gecə qəzəbi üçün getmişdik. Biz bir qol qədər məsafə ilə bir-birimizin ardınca getməli idik. 56 nəfər idik. İranlı komandir dedi ki, say. Mən arxamdakının çiyninə vurub 1 saymalı idim, o, arxasındakının çiyninə vurub 2 saymalı və 56-a qədər beləcə davam etməli idik.

İranlı komandir növbəti sıraya gedib qayıdanda sayı soruşurdu, 56 nəfərlik bir kolonda isə 380 sayılırdı. Bizi gecələr saat 2-ə qədər saxlayıb deyirdi ki, gərək yaxşı sayasınız.

Fatimiyyun uşaqlarının bəzisinin savadı yox idi. Məsələn, 13-cü adam savadsız olanda növbəti adama 14 yox, 23 deyirdi. Aramızda bir qədər qoca da vardı. Səhər düzülüşündə birinci qocaya qədər 36 sayırdılar, o, arxasındakına, arxasındakı da öz arxasındakına “36” deyirdi və sair. 36-dan irəli keçə bilmirdilər. Lakin bütün bunlara baxmayaraq, bizə hərtərəfli bir təlim keçdilər.

Təlim bitəndən sonra Suriyaya getdik. Gecə saat 2-də Dəməşq hava limanına çatdıq. Gördük ki, vay-vay, şəhər necə də xaraba qalıb! Əsla belə bir şey təsəvvür etmirdik. Fatimiyyun uşaqları bizi aparmağa gəldilər. Seyid İbrahim onları tanıyırdı; salamlaşıb hal-əhval tutdu. Tehranda yaşamış Seyid İbrahimin Məşhəddə qonşumuz olmuş və çoxdan tanıdığım Məhəmməd Fazili tanıdığına təəccüb etdim.

# *İki sünni*

**Mustafa Sədrzadə**

Suriyaya çatmışdıq, amma mənim casus olduğumu düşünənlər hələ də əmin deyildilər. Başqa biri də Əbu Hamidə məktub yazmışdı ki, iki sünni oraya gəlir: mən və Xeybər.

Biz çatanda Əbu Hamid həyətdəydi. Qollarını açıb bizi qucaqladı:

- Necəsiniz? Haradaydınız? Niyə gec gəldiniz? – dedi.

Məktubu yazan adam dayanıb mat-məəttəl baxırdı. Məktub da Əbu Hamiddəydi. O, sonradan mənə dedi: “Ondan soruşdum ki, yazdığın iki sünni hanı? Dedi ki, qucaqlaşıb-öpüşdüyün adamlardı”. Əbu Hamid bunu deyib güldü və o vaxtdan bizi sünni çağırmağa başladı.

# *Seyidin sirri*

**Seyid Məhəmməd-Haşim İbrahimi**

Dəməşqə çatdığımız günün səhərisi bizdən öncə getmiş döyüşçülərlə həyətə çıxıb söhbətləşməyə başladıq.

Seyid İbrahim mənə yaxınlaşıb dedi:

- Haşim, Xeybərin sənə sözü var.

Xeybərə yaxınlaşdım. Dedi:

- Haşim, sənə bir söz demək istəyirəm ki, özün bilsəydin, narahat olardın: Biz iranlıyıq.

- Nə olsun ki? – mən çox adi şəkildə dedim.

- Bilirdin?

- Məlum məsələydi. Siz əfqanıstanlı uşaqlardan çox seçilirsiniz.

- Doğrudan?! Biz bu qədər kamuflyaj olmuşduq.

- Yaxşı olmamısınız. Mən ki, bilirdim. O birilər bilməyiblərsə, başqa məsələ, - dedim və ardınca əlavə etdim: - Əsl adınız nədir?

- Mənim adım Möhsündür, Seyid İbrahim də Mustafa Sədrzadə.

Günorta namazı üçün dəstəmaz almağa getdim. Seyid İbrahim məni görüb dedi:

- Xeybər sənə dedi?

- Hə.

- Təəccüb etmədin?

- Yox, mən bilirdim ki, iranlısınız.

Mənə yalan söylədiyinə görə özünü yaxşı hiss etmirdi.

- Bağışlayın, seyid, - dedi, - əgər Tehranda desəydim, geri qaytarılmaq ehtimalı yüksək idi. Biz sirrimizi sənə dedik, sən də sirrini bizə de. Bizim hər ikimizi Əbu Səccad Fatimiyyuna təqdim edib. Güman ki, sən də iranlı olmalısan.

- Mən Əfqanıstan vətəndaşı olduğuma dair sənə on sənəd göstərərəm.

- Yox, doğru demirsən. Düzünü de.

- Seyid nəslindən olduğuma görə üzdən əfqanıstanlılara çox oxşamıram.

- Hə, düz deyirsən, - Seyid İbrahim qane olub dedi. – Sizlər çox fərqlənirsiniz.

Aramızda Seyid İbrahimlə Xeybərdən başqa bir iranlı oğlan da vardı, mən onu da müəyyən etmişdim. Cihad ləqəbi Rəhman idi. Bu yaxınlarda[18] partlayış dalğasından xəsarət aldı.

Bir gün əfqanıstanlı qocalardan birinin Seyid İbrahimlə danışdığını görüb yaxınlaşdım. O, qocanın nə dediyini başa düşmür və tez-tez mənə işarə ilə bunu bildirirdi. Mən də ona

---

[18] Təxminən 2015-ci ildə

kömək edir, dostluğun haqqını verməyə çalışırdım. Kimsə ondan şübhələnəndə də malalayırdım və o, ifşa olmurdu.

Kimliyinin az qala bilinəcəyi zamanlardan biri novruz günləri idi. Qədir-Xum günü Günəş təqvimi ilə novruz bayramına təsadüf etdiyinə görə əfqanıstanlılar novruzda mədhiyyə oxuyurlar. Məddah Seyid İbrahimə demişdi ki, get, mədh çomağını gətir. Seyid İbrahimsə o vaxt mədhiyyə oxumağın nə olduğunu bilmirdi. Bu məclislərdə bir nəfər əlində əsa həzrət Əlinin (ə) şəninə şeirlər oxuyur. O, bayıra çıxıb fikirləşməyə başladı.

- Seyid İbrahim, qalx yuxarı, orada bir əsa var; onu götür, gəl, - dedim.

## *Ondan bir işarə*

**Seyid Səccad Alimi**

Dostu ilə birlikdə Laziqiyyə əməliyyatında iştirak etməyə gəlmişdi. Görkəmləri dəyişmişdi, tanımadım, onlarsa məni tanıyıb yaxınlaşdılar.

- Təlim düşərgəsində problem yaranmadı? – deyə soruşdum.

- Yox, şükür Allaha, özümüzü çox da qabartmadıq və heç kim bilmədi.

Suriyada Fatimiyyunun Rabitə rəisi idim, işlə bağlı əlaqəmiz olmurdu, amma bəzən uşaqlarla oturanda söhbət əsnasında bizə Şəhid Himmətdən və Şəhid Kavədən danışırdı, mən də yazırdım. Xudmani ortamda Rəhbərdən də danışırdı. Onu çox sevirdi. “Səndən bir işarə, bizdən başla qaçmaq” şüarını mən ilk dəfə ondan eşitdim. O deyirdi: “Kaş Rəhbər bir işarə edəydi, elə adamlar tanıyıram ki, dərhal özlərini bura yetirərdilər!”

# *Cəmi bir neçə nəfər*

**Xeybər**

Bir gecə Məlihəyə gedib döyüş xəttini gördük, sübh çağı bizi qaytarıb dedilər ki, gərək Laziqiyyəyə gedəsiniz. Əşyalarımızı hazırladıq. Uşaqları sıraya düzüb komandalara böldülər, mərsiyə oxudular, Quranın altından keçirdilər. Bir yük təyyarəsinə mindik. Fateh Canlı qüvvə rəisi idi, tez-tez gəlib-gedirdi. Təxminən üç-dörd dəfə gəlib-getdi. Deyirdik ki, Xudaya, bu niyə gəlib-gedir? Seyid Müctəba Hüseynini axtarırmış. Onu Canlı qüvvə şöbəsinə təyin etmişdilər, o isə razılaşmır, döyüşə getmək istəyirdi.

Seyid Müctəba uşaqların arasında gizlənmiş, tanınmasın deyə papaq qoymuş, eynək taxmışdı. Nəhayət, onu görüb sıradan çıxardı. Seyid ağlayıb deyirdi ki, qalmaq istəmirəm. Axırda Fatehin ürəyi yumşaldı və bizimlə getməsinə icazə verdi.

Aprelin 1-də Laziqiyyəyə çatdıq. Orada Səldərin yüksəklikləri[19] silahlıların əlindəydi və bizim

[19] Laziqiyyədə 1840 metr hündürlüyündə bir zirvə idi. 2014-cü ilin yazında Həzrət Zeynəb qərargahının komandiri onun azad edilməsini əmr etdi. Fatimiyyundan qabaq iraqlı və suriyalı qüvvələr oranı ələ keçirə bilməmişdilər, Hizbullah da demişdi ki, bu bölgədə əməliyyata başlamaq üçün hazırlıq və kəşfiyyat işlərinə iki ay vaxt lazımdır. Bu bölgənin tez ələ keçirilməsi isə çox vacib idi. Buna görə də Fatimiyyun qüvvələri əməliyyata qoşuldular. Birinci əməliyyat oradakı qüvvələrlə birgə həyata keçirildi və məğlubiyyətlə nəticələndi, Fatimiyyundan beş nəfər şəhid oldu. İkinci dəfə isə Əbu Hamidin göstərişi ilə bölgə dəqiq şəkildə öyrənildi və əməliyyat uğurla başa çatdı. Bu qələbədən sonra Sərdar Qasim Süleymani iranlı müşavirlərdən biri vasitəsilə Fatimiyyun qüvvələrinə mesaj göndərdi. O demişdi ki, mənim tərəfimdən Fatimiyyun uşaqlarına "yorulmayasınız" deyin və uzaqdan əllərini öpdüyümü bildirin. Seyid Həsən Nəsrullah da təbrik müraciəti göndərmişdi.

qüvvələrimizin hərəkətinə mane olurdular. Təpələr sərt yoxuşlu idi və əməliyyat çox çətin oldu. Hizbullah qüvvələri oranı ala bilmədiklərinə görə Fatimiyyunu gətirmişdilər.

Fatimiyyun qüvvələrinin sayı normal hərbi bölgülərə yetəcək qədər olmasa da, bizi üç kiçik bölüyə böldülər. Mən komandiri Əbu Abbas olan ehtiyat manqasına düşdüm. Seyid İbrahimsə əsas zirvəni ələ keçirməli olan birləşmədə - Zülfüqarın[20] bölüyündə idi. Əməliyyata Seyid Həkim[21] rəhbərlik edirdi. Birinci hücum uğursuz oldu və beş şəhid verdik. Onların biri Cavid idi və Seyid İbrahim onun şəhadətinə görə olduqca narahat oldu.

O deyirdi: "Düşmən yuxarıdan bizə doğru əl qumbarası atırdı. Cavid çox soyuqqanlı idi, yanımıza qumbara düşəndə ayağı ilə altından bir zərbə vururdu, uzağa düşüb partlayırdı".

Şəhadətindən öncə ratsiyadan səsini eşidirdik. Çox sakit danışırdı. Güllə ilə vurulmuşdu, amma bildirmirdi.

İlk hücumda şəhid olanlardan biri də Məhəmmədtağı Hüseyni idi. Onu Əmmar ləqəbi ilə tanıyırdıq. Şəhadətindən sonra ratsiya arxasında qiyamət qopdu. Əbu Abbas ortamı sakitləşdirmək üçün dedi: "Axı bir şey olmayıb ki! Əmmar yaralanıb, aşağıya yanımıza gəlir".

Birinci hücumda Əbu Hamid yanımızda deyildi. Seyid İbrahim orada yaralandı. Onu görəndə mənə dedi: "Təpənin başında baldırıma bir qəlpə girdi, çəfiyə şalımla bağlayıb

---

[20] Şəhid Hüseyn Fədayi

[21] Fatimiyyun komandirinin müavini və keçmiş döyüş yoldaşlarından olan Seyid Məhəmmədhəsən Hüseyni 1982-ci ildə Əfqanıstanın Sərpol vilayətində doğulmuşdu. O, müxtəlif illərdə Talibana və təkfirçilərə qarşı döyüşlərdən sonra 2016-cı ilin iyununda hərəm müdafiəsi zamanı Suriyanın Tədmur şəhərində şəhadətə qovuşub böyüdüyü Məşhəd şəhərinin Behişti-Rza məzarlığında torpağa tapşırıldı.

iki gün o vəziyyətdə qarovul çəkdim, axırda əməliyyat bitdi və dağdan endik”.

Birinci məğlubiyyət bizə baha başa gəldi. Bu müddətdə qardaşımız olmuş adamları itirdik. Uşaqlar çox dilxor idilər. Əbu Hamid hamını Aralıq dənizinin sahilinə yaxın bir məktəbə topladı. Məktəbin divarı qısaydı, hamımız divarboyu oturduq. Bizim üzümüz hacıya doğru idi, hacının üzü dənizə doğru. Söhbətə başladı, bir, ya da iki Quran ayəsi oxuyub zarafata dedi: “Mən buradan dənizə baxıb həzz alıram, siz də mənim sözlərimə qulaq asıb həzz alın”.

Sonra çox gözəl bir məsəl çəkdi, uşaqlar təsirləndilər. İmamların dövründə iki nəfər Siffeyn döyüşü barədə mübahisə edir. Biri Əmirəlmömininin tərəfini tutub deyir ki, kaş o dövrdə olub imamın qoşununda döyüşəydim; biri də Müaviyənin tərəfini tutub oxşar sözü deyir. İmam buyurur ki, Əmirəlmömininin qoşununda vuruşmağı arzulayan şəxs həmin döyüşdə iştirak etmiş kimidir. Siz də burada, Laziqiyyədə vuruşursunuzsa, elə bilməyin ki, bura Kərbəladan geri qalır. Siz İmam Hüseynə (ə) kömək niyyəti ilə vuruşursunuzsa, sizin savabınız da Kərbəlada olanların savabı kimidir.

Hacının sözləri uşaqlara çox təsir etdi və iki-üç gündən sonra Səldərin təpələrini ələ keçirdik. Bu təpələrdə əsas bir zirvə vardı, Zülfüqar, Seyid İbrahim və başqa bir neçə nəfər onun üzərinə yerləşdilər. Bir neçə köməkçi zirvə də vardı, onların birinə mən, Fatimiyyundan bir nəfər və üç suriyalı yerləşdik. Düşmən təpələri geri almaq üçün hücum edəndə Seyid İbrahimin və digər döyüşçülərin “Allahu əkbər” və “Ləbbeyk, ya Zeynəb” şüarlarını eşidirdik. Səsləri dağda əks-səda verirdi. Düşmən hücum edəndə ratsiyadan danışıqlarını eşidirdik, deyirdilər ki, bu zirvədə çoxlu canlı

qüvvə var, fəth edə bilmərik. Halbuki cəmi bir neçə nəfər idik.

# *Ramusə küçələri*

**Xeybər**

Bu əməliyyatda qələbədən sonra Seyid Həsən Nəsrullah və Hacı Qasim Fatimiyyuna müraciət göndərib təbrik etdilər. Sonra bizi Suriya ordusuna məxsus bir sahil kompleksinə aparıb bir gün qonaq etdilər. Axırda Əbu Hamid bizi dənizin ortasındakı alaçığa toplayıb dedi: “Artıq cəbhə genişlənib. Fatimiyyun da yaxşı işlər görür. Hələbə gedirik. Kim gəlirsə, Bismillah!”

Əşyalarımızı toplayıb çanta və silahla təyyarəyə mindik. Yük təyyarəsi ilə Laziqiyyə hava limanından Hələbə uçduq. O qədər hərbi təchizatla yoxlanış yerlərindən keçəndə giriş aparatları dayanmadan “bib-bib” səsi çıxarırdı. Seyid İbrahim gülüb dedi: “Matriks filmi kimi oldu!”

O zaman Hələbin adı pis çıxmışdı. Qaranlıqda təyyarədən enəndə öz-özümə dedim: “Ax-ax! Bura artıq dünyanın sonudur!”

Bir avtobus gəldi, mindik. Ətrafda o qədər xarabalığı görəndə təəccüblənirdik. Hərbi düşərgəyə çatdıq. Gecəni yatdıq, səhər bizi böldülər. Seyid İbrahimlə mən ayrı-ayrı taqımlara düşüb sement zavoduna getdik. Axşama qədər oradaq qaldıq, hava qaralandan sonra isə Ramusəyə yola düşdük. Əsas əməliyyat Ramusədə baş tutacaqdı. Əməlli-başlı şəhər döyüşü idi və biz üç küçəni təmizləməli idik.

Dedilər ki, birinci küçəni Suriya ordusu, ikincini iraqlı qüvvələr tutub, Fatimiyyun da üçüncü küçəni təmizləməlidir.

Zirehli maşına mindik. Mən birinci və axırıncı dəfə olaraq BMP-yə mindim. Çox qorxuncdur. Bayırı görmür, daim kuzova dəyən güllələrin taqqıltısını eşidirsən.

Biz çatanda bildik ki, suriyalılar küçələrini yarıya qədər tutublar, iraqlılar isə küçəyə girə bilməyiblər. Buna görə biz də üçüncü küçəyə girə bilmirdik, çünki həmin iki küçədən keçməli idik. Nə illah etdiksə, olmadı ki, olmadı. Uşaqların biri çox çətinliklə keçdi, amma başqa heç kim gedə bilmədiyinə görə o da geri qayıtdı. Əməliyyat ləğv olundu və biz BMP-yə minib mağazaların arası ilə bir küçə geriyə yerləşdik.

Mövqe möhkəmlənənə qədər bir həftə Ramusədə qaldıq. Seyid İbrahim bu müddətdə istirahət yerindən irəli gedir, düşməni rahat buraxmırdı. Elə olmuşdu ki, arabir təmas xəttinə gedib qumbaraatandan atəş açır, sonra qayıdırdı.

Bir gün sübhə yaxın hay-küy qopdu; uşaqlara hücum edib bir nəfəri şəhid etdilər. Uşaqlar bir pillə geri çəkildilər. Bilalla şəxsi heyətinin bir qismi mühasirəyə düşdü, geri qayıda bilmədilər. Bizim istirahət yerimiz olan mağaza öndən düşmənin hədəfindəydi, arxasındakı jalüz qapı da açılmırdı.

Mağazaya yerləşdiyimiz ilk gündən jalüzü açmağı düşünürdük. Giriş-çıxış üçün iki yol lazımdı, amma çox bərk idi, nə etdiksə, açılmadı. Mühasirə zamanı mağazaya giriş-çıxış yolumuz bağlanmışdı, yalnız həmin jalüz qalmışdı. Mağaza da TNT və C4 maddələri ilə doluydu, ən yüngül partlayışla hamımız havaya uçardıq. Bu məsələ əsəblərimizi tamam pozmuşdu.

Bu zaman uşaqlardan biri qorxmuş halda mağazaya girib jalüzə bir təpik vurdu. Jalüz sınıb yuxarı qalxdı. Seyid İbrahim onu saxlayıb dedi: "Hara gedirsən?! Uşaqlar o tərəfdə sıxışıblar; gərək gözləyəsən!" Oradan keçməyə

hazırlaşdıq. Bizdən fərqli olaraq, Seyid Həkim çox soyuqqanlı idi. Hətta yaralananda da davranışlarına tam hakim idi. Ondan başqa bir nəfər də əsla həyəcanlanmadı. O, Zeynəbiyyədə yaşayan Əlişah adlı biri idi. Biz evlərin arasından qaça-qaça keçmək istəyəndə o, snayper üçün divarda bir dəlik açdı, əl qumbarası atan silahlını vurdu və ortalıq bir az sakitləşdi.

Silahlıların hücumunu dəf edəndən sonra mühasirədə qalmış Bilal üçün bir BMP göndərdik ki, yandakı tikilidən şəhid cəsədini gətirsin. Düşmən snayperi şəhidin olduğu yerə fokuslanmışdı. Nəhayət, bir tərəfində mismar olan bir mil tapdıq, mismarı şəhidin kəmərinə ilişdirib özümüzə tərəf çəkdik, sonra da geri göndərdik.

Suriyalı qüvvələr snayper istədilər. Mən oraya gedib küçənin girişini bağladım. Seyid İbrahim də uşaqlara batareya apardı. Rabitə cihazlarının batareyası bitmiş, əlaqə kəsilmişdi. Cihazlar işləyəndən sonra ratsiyadan: "Hər şey qaydasındadır! Mən necə də xoşbəxtəm!" - deyir, uşaqları ruhlandırırdı. Hizbullah qüvvələri də gəlib qarşıdakı küçəni tutdular.

Vəziyyət normallaşandan sonra Əbu Hamid gəlib Həkimi apardı və oradakı uşaqlara rəhbərliyi Seyid İbrahimə tapşırdı. Bir həftədən sonra yenə gəlib Seyid İbrahimi apardı və Zülfüqarı orada komandir təyin etdi. Sonralar bildim ki, Fatimiyyuna yeni qüvvələr gəlib, Həkimlə Əbu Hamid onların komandiri olaraq Həyy əl-Zəhra bölgəsinə gediblər.

Bir gün Əbu Hamid bizə baş çəkməyə gələndə ondan Seyid İbrahimi soruşub:

- Hacı, Seyid İbrahimdən nə xəbər? Şəhid olubsa, deyin, mən buna hazıram, - dedim.

- Yox, əşi! Bir yerdə əməliyyat olacaqdı, Seyid İbrahim öndən getdi, amma digərləri arxasınca getmədilər. İndi gözləyir ki, fürsət yaransın, geri gəlsin. Ona görə bu gün gəlmədi.

## *Bu da bizim ruzimiz deyilmiş*

**Mustafa Sədrzadə**

Hələbdə iki istiqamət vardı: Ramusə və Ləyərmun. Bu iki istiqamət bizdəydi. Mən də Hələbdə Ramusə mövqeyinin komandiri idim. Orada bir neçə dəfə hücuma məruz qaldıq, amma müdafiə olunduq və vəziyyət sakitləşdi. Sonra Əbu Hamid dedi ki, Ləyərmunda əməliyyat olacaq, gəl, Həkimə kömək elə. Mən də oraya Vahə düşərgəsinə getdim.

Orada bildik ki, 16-cı qrupu təlimsiz birbaş Suriyaya göndəriblər. Çox narahat olduq, dedik ki, heç olmasa, burada təlim keçsinlər. Hansı həddə olduqlarını bilmək üçün onları süzdük. Həsən Qasimidananı ilk baxışdan gözüm tutdu. Həm uca boyu vardı, həm də bəsici görkəmi. Müəllimlərin birinin snayper kursunda iştirak edirdi.

Ləyərmunda onlara komandir təyin olunan kimi Həsəni snayperlərin başçısı qoydum; çünki müəllimi ondan çox razı idi. Çox zəhmət çəkir, çox işləyirdi. Qaçıb uşaqlara yer hazırlayır, səngərlərinin düzgün olub-olmadığını yoxlayırdı.

Təminatçı uşaqların bir avtomobili vardı, Həsən onunla gedib uşaqlara yemək gətirirdi. Bir dəfə o maşın qəza keçirdi, maşındakıların hamısı ağır yaralandı: birinin çənəsi çıxdı, birinin qolu sındı, birinin başı əzildi. Çox dəhşətli qəza idi! Həsən arxa oturacaqda oturubmuş, qəza zamanı maşının ön şüşəsindən bayıra düşmüşdü, amma ona heç nə

olmamış, təkcə üst-başı tozlanmışdı. Bu hadisə bizim gülüş mövzumuz və dostluq səbəbimiz oldu. Onu kənara çəkib dedim ki, sən iranlısan? Dedi ki, yox, mən ağa Əhmədinin bacısı oğluyam. Əhmədi məşhur adam idi, buna görə inandım.

Bir dəfə uşaqlara bir əhvalat danışıb dedi:

- Uşaqlarla hərəmə getmişdik. Oyun çıxarmaq istəyirdik. Danışdıq ki, özümü şikəstliyə vurum, məni əlil arabasında aparıb polad pəncərəyə bağlasınlar, bir müddətdən sonra da şəfa tapıb ayağa qalxım. Gedib dedim ki, bir əlil arabası istəyirəm. Dedilər ki, milli kartını ver, mən də verdim...

Söhbətin bu yerində hamının gözü bərəldi. Özü nə dediyini başa düşüb:

- Yəni Əfqanıstan milli kartımı verdim, - dedi və məni gülmək tutdu.

Əhvalatını danışıb qurtarandan sonra onu kənara çəkib dedim ki, artıq iranlı olduğuna şübhəm qalmadı.

- Hə, düzdür, mən bəsiciyəm, - dedi. – Sən Allah, de ki, məni satmasınlar. Neçə aydır səhər-günorta-axşam Əhmədiyə israr edirəm ki, işimi düzəltsin. Sən Allah, bunlar bilməsinlər.

- Uşaqlar bir-birinə dəstək olurlar, narahat olma, amma sən də diqqətli ol.

Mən də əhvalatımı ona danışdım və mənim də iranlı olduğumu bildi.

Bir dəfə cümə axşamı gəlib dedi:

- Hamama getmək istəyirəm; gəl, birlikdə gedək.

- İndi su soyuqdur, sabah gedərik, - dedim.

- Yox, mən indi getmək istəyirəm. Gedirsənsə, gəl.

Cümə axşamı günü günortadan sora hamama getdik. O, birinci hamama girdi, mən də iki-üç hamam aralıdakına.

- Həsən, su soyuqdur, bir az oxu, soyuğu hiss etməyim, - dedim.

O, İmam Əlinin (ə) mədhinə şeirlər oxumağa, bayırdakı uşaqlar da içəri girib əl çalmağa başladılar. Gözəl səslə Quran oxuduğunu bilirdim, amma məddahlığının da belə qəşəng olduğunu bilmirdim.

Hamamdan çıxdıq. Hava qaralmağa başlayanda atəş səsləri gəldi. Dedilər ki, bir mövqeyimizə hücum ediblər. Tez motosikleti işə salıb bir qumbaraatan çantası götürdük. Həsən motosikleti gətirməyə gedəndə 14,5 kalibrli bir güllə başının yanından keçib divara dəydi, qəlpəsi yerə səpələndi. Oturub isti qəlpəni köynəyinin ətəyi ilə götürdü, ona baxıb dedi: “Bu da bizim ruzimiz deyilmiş!”

Necə oldusa, bu söz ürəyimə yatdı. Qəlpəni götürüb cibimə qoydum, sonra Kətibə Cəvvi adlı yerə yola düşdük. Hava qüvvələrimizin müdafiə batalyonuna hücum etmiş, bir neçə zeytun bağı irəliləmişdilər.

Həsən pulemyotun arxasına atıldı. Pulemyotun lüləsi qızarmışdı. Mən də dayanmadan qumbaraatandan atəş açırdım. Digər uşaqlar da gəlib atəş açmağa başladılar və üstünlük bizə keçdi. Ratsiya ilə xəbər verdik, 23 kalibrli top gəlib bütün tarlanı atəşə tutdu. Düşmən məhv edilsə də, Həsən arxayınlaşmayıb dedi:

- Seyid, qalx gedək, benzin aparıb bütün bağı yandıraq.

- Əşi, əl çək daha! – dedim.

Bu haqda danışdığımız yerdə ratsiyadan xəbər verdilər ki, Ləyərmun mövqeyində bizə hücum ediblər.

Ləyərmunda mövqeyin önündəki tikililərə bir neçə snayper yerləşmişdi, iyirmi nəfər də geridə onlara dəstək verirdi. Geridə olanların biri dedi ki, zarafat edir, hücum-zad yoxdur. Dedim ki, Həsən bu snayper yaxşı uşaqdır, öz şagirdimizdir, yalan danışan deyil; yüz faiz, hücum ediblər!

Motosikleti işə salıb getdik. Bir qədər irəliləyəndən sonra birdən ratsiyadan səs gəldi:

- Qırmızıpapağı[22] göndərin, uşaqların biri yaralanıb.

Gedib onlara dəstək verməli olan iyirmi nəfərin yanına çatdım:

- Ay insan, məgər ratsiya ilə sizdən kömək istəmirdi?! Niyə gedib kömək etmədiniz? Snayperlər də yaralanıb qayıdıblar.

- Ağa, xəcalətliyik, daha patronumuz qalmadı, ona görə geri çəkildik, - deyə snayperlər yaşlı gözlərlə bildirdilər.

Dəstək qüvvələrinin başına qışqırıb:

- Niyə bunlara kömək etmədiniz? – dedim, onlarsa hələ də yerlərində donub mat-məəttəl qalmışdılar.

3 Saylı bina işğal olundu və düşmən irəlilədi. Düşmənin önündə doqquz bina vardı, hamısı suriyalıların əlindəydi. Komandirləri çox qorxmuşdu, geri çəkilmək əmri vermək istəyirdi.

- Niyə geri çəkilmək istəyirsən? Cəmi bir binanı tutublar. Sən digərlərini möhkəm saxla, biz gedib onu geri alarıq! – dedik.

- Axı sursatımız yoxdur.

- Sursatın doludur axı; daraqlarımız doludur, niyə sursatımız yoxdur?! Gedin yerlərinizə, biz gedib alacağıq!

Dedik ki, binanı geri almağa könüllü istəyirik. Oradakı iyirmi nəfərdən altısı gəldi, mən və Həsənlə səkkiz olduq. Bu sözü dediyimizə görə çox sevindi. 3 Saylı binaya hücum etdik. İçəri girmək istəyəndə dedim ki, Həsən səkkiz nəfərik ha. Dərhal cavab verdi: "Əməliyyatımızın adı İmam Rzadır!" Hamımız "ya Əli ibn Musa Rza" deyə qışqırıb hücum etdik.

---

[22] Təcili tibbi yardım

Giriş mərtəbəsindən və zirzəmidən təmizləməyə başlayıb birinci mərtəbəyə qalxdıq. Uşaqlar dedilər ki, yuxarı mərtəbələrdə heç kim yoxdur. Binaların birinci mərtəbələrini dəlib bir-birinə birləşdirirdilər. Yavaş-yavaş içəri girdik. Divarın o tərəfində ayaq səslərimizi eşitmişdilər. Düşmənlə məsafəmiz bir divar qədər olmuşdu. Zaldan yataq otağına girdik. Bu otaq dəlik vasitəsilə o biri binaya birləşmişdi.

Divarın arxasında dayandım. Uşaqlar da arxamızca gəldilər. Bir nəfəri bayırda dəstək üçün qoyub dördümüz içəri girdik. Divarın o tərəfindən səs gəldi: "Kimsən? Divarın arxasındakı kimdir?" Elə bilirdilər ki, öz döyüşçüləri o tərəfdən gəliblər.

İşarə ilə Həsəndən əl qumbarası istədim. O isə qumbaranı çəkib məni kənara itələdi və özü qarşıda dayandı. Qumbaranı içəri atanda dedik ki, biz Əli ibn Əbu Talib şiəsiyik. Qumbara partlayandan sonra atışma başlandı və onların ax-uf səsləri ucaldı. Yaralılarını geri aparmağa gələndə bir qumbara da atdıq. Beləcə qumbara atır, atəş açırdıq. Onlar da atəş açıb bizi yarıqdan keçməyə qoymurdular.

Hər bir salamın əleyki olduğu üçün onlar da bizim tərəfə qumbara atdılar, mən və başqa iki-üç nəfər yaralandıq. Həsənə dedim: "Bir otaq geri çəkilək, indi bir neçə qumbara da gələcək!" Qolumdan qan axırdı, ayağıma da qəlpə girmişdi. Ümumiyyətlə, bədənimin bir tərəfi qəlpə doluydu.

Divarın o tərəfindən bizə müşrik, məcus və digər sözlər deyirdilər. Həsən birdən coşub ərəbcə: "Sən Əli ibn Əbu Talib şiəsisən!" – dedi və məni gülmək tutdu. Bu, onunla son zarafatım oldu. Bütün gücümü toplayıb qalxdım, onun arxasında dayandım, yarıcan halda arxasına bir təpik vurub dedim: "Sən yox, biz Əli ibn Əbu Talib şiəsiyik!" Bir anlıq

güldü, sonra yenə çox ciddiləşib dedi: “Biz Fatimeyi-Zəhra övladlarıyıq! Biz Hüseyn övladlarıyıq!”

Sanki sinəsi qəhərlə, gözləri yaşla doluydu. Artıq avanqard olmuşdu. Silahın kəmərini boynuna salıb “taq-taq-taq” atəş açırdı. Əl qumbarasını çəkib içəri girir, atandan sonra geri çəkilib atəş açırdı.

Döyüş çox uzandı. Bəlkə də, 35-40 dəqiqə o otaq uğrunda vuruşduq; gah onlar otağa girirdilər, gah biz. Qumbara mübadiləsi də dayanmırdı. Axırda elə mərhələyə çatdıq ki, döyüş qıfıllandı; nə onlar irəliləyə bildi, nə biz. Gördüm ki, Həsən silahını yerə qoyub iki qumbara çəkdi. Hiss etdi ki, əlində silah olsa, qumbaranı düz istədiyi yerə ata bilməyəcək.

- Seyid, gedirəm, işi bitirəcəyəm, - dedi.

- Həsən, atırsansa, yarıqdan içəri at, - dedim.

Dedi ki, yaxşı. Getməzdən öncə dodaqaltı nəsə deyib geri qayıtdı. Mən qüsurlu beynimlə düşündüm ki, bəlkə, qorxur. Heç demə, son zikrini deyirmiş. O, həyatda son işini görməyə hazırlaşırdı.

- Həsən, ver, mən gedim, sən qal, - dedim.

- Yox!

- Ver mənə!

- Sən yaralısan, mömin!

İçəri girdi. Əvvəl atəş, sonra isə iki partlayış səsi gəldi. Güllə səsi gələndə taqətim çəkildi. Yarığa girib kövrək səslə qışqırdım:

- Həsən! Həsən! Qardaşım, Həsən!

Ağlayıb onu çağırırdım, cavab vermirdi. Əmin oldum ki, başına bir iş gəldi.

Uşaqlardan Cüməxan Əlizadə adlı biri məndən irəli keçib Həsənin bir tərəfindən yapışdı. Mən də çətinliklə yaxasından tutdum, amma gücüm qalmamışdı. Zəhməti

Cüməxan çəkib Həsəni gətirdi. Çox sakitcə danışa bilirdi. Uşaqlara ilk tibbi yardım üsullarını xatırladır, mənə deyirdi ki, seyid, de, qoltuqlarımın altından tutsunlar.

Uşaqların bir-ikisi Həsəni geri apardı. Bir də gördüm ki, Cüməxan qumbaraları çəkdi. "Get" və ya "getmə" deməyə canım qalmamışdı. Cüməxan içəri girdi və partlayış səsi gəldi. İçəri girməyə gücüm yox idi, qapının yanında gözləyirdim. Az sonra Cüməxan gəlib dedi: "Həsənin işini tamamladım".

Qayıtmağa taqətim yox idi, bütün bədənimdən qan axırdı. Uşaqların biri çətinliklə qoltuğuma girib məni aşağı apardı, maşına atdı və xəstəxanaya getdik. Bədənlərimizi aparatlara salanda bildim ki, Həsənin onurğa beyni zədələnib.

Cümə günü səhər saat 10 idi. Gördüm ki, uşaqların birinin gözləri yaşlıdır. Əlindən tutub soruşdum ki, Həsən necədir? Dedi ki, Həsən şəhid oldu.

Əməliyyatımızın adı İmam Rzaydı (ə), sayımız səkkiz nəfərdi, bədənimə səkkiz qəlpə girmiş, İmam Rzanın (ə) aşiqi və xidmətçisi olan adam da şəhadətə qovuşmuşdu.

# *Qürbət hissi*

**Məhəmməd Əliməhəmmədi**

Həsən Qasimidana şəhid olanda Mustafaya da bir neçə qəlpə dəydi və o, İrana qayıdıb xəstəxanada yatmalı oldu. Mən xəstəxanada onun yanında qalırdım. Bir dəfə ata-anası içəri girəndə tez mənə dedi:

- Gəl, məni qaldır.
- Niyə?
- Tez ol!

Onu qaldırıb bir qədər geriyə çəkdim.

- İndi kömək elə, ayaqlarımı yığım, - dedi.
Ona kömək etdim. Anası görüb dedi:
- Mustafa, lazım deyil, rahat uzan.
Yaraları açıq idi, qan və irin gəlirdi. Buna baxmayaraq, deyirdi ki, ata-anama hörmət olaraq ayaqlarımı yığmalıyam.
Xəstəxanada onu yəmənli yaralıların yanına aparmamı istəyirdi. Otaq-otaq gəzib yəmənli və əfqanıstanlı döyüşçülərə baş çəkirdik. Yəmənli yaralıların birinə yaxınlaşanda birdən ayağını öpdü. Bayıra çıxandan sonra soruşdum:
- Mustafa, onun ayağını niyə öpdün?
- Burada özünü qərib hiss edir. Mən ayağını öpdüm, o da iranlıların çox mehriban olduqlarını düşünəcək və qürbət hissi gedəcək.

## *Yaralı üfüqü ilə camaat namazı*

**Xudayar Bəhrami**
Əsla inanmazdım ki, bu cavan elə yaralı vəziyyətdə sübh namazını cəm şəkildə qılmağa bu qədər əhəmiyyətli yanaşa bilər. Bütün camaat namazlarında iştirak edir, mümkün olmayanda da mütləq ilk vaxtda qılırdı. İki-üç dəfə yaralananda qoltuğunda çəlik zöhr və əsr, şam və işa, hətta sübh namazını camaatla qılmağa gəlirdi.

## *Xanımın sıxıntısı*

**Səccad İbrahimpur**
Yaralanmışdı. Xəstəxanaya getdim. Onu qucaqlamadığım yeganə yer oraydı. Bacımızı və uşağını tək qoyub getdiyinə görə ondan narazı idim. Ailəsinə görə

narahat idim; bacımın çətinliklərini görüb əziyyət çəkirdim. Mustafa ilə münasibətimizin başlandığı 1997-ci ildən etibarən yalnız bir dəfə ondan incimişəm, o da bacıma görə.

Xəstəxanadan çıxıb evə gələndən sonra da dörd-beş dəfə onu ziyarət etdim. Onu qucaqlayıb öpmədiyimi özü də hiss etmişdi. Bir-birimizin niyyətini anlayırdıq. O, Suriya xatirələrindən danışmağa başladı:

- Bir əməliyyatda qumbaraatandan atəş açmaq üçün ayağa qalxanda bütün ailə üzvlərim gözlərim önündən keçdi. Oturub yenə qalxdım, "Həzrət Zeynəb daha önəmlidir" deyib tətiyi çəkdim.

Bu xatirə ilə məni qane etdi. Ondan sonra dəfələrlə bacımla söhbət edib dedim ki, çox üstünə getmə, incitmə, əziyyət vermə, gedəndə arxasınca ağlama.

## *Məhşərə kufəli qadınlarla getmək istəyirəm*

**Xanım İbrahimpur**

Mustafanın yaralanmaları Həsən Qasimidananın şəhadətindən sonra başlandı. Birinci dəfə həmin gün ağır yaralandı. Onunla ayrılıqdan həmişə qorxurdum.

- Gərək daha getməyəsən! – dedim.
- Kufəli qadınlar kimi olma! – dedi.
- Sən narahat olma, mən məhşərə kufəli qadınlarla getmək istəyirəm. Ancaq sən getmə!
- Yaxşı, getmərəm.

Günorta yeməyindən sonra dedim:

- Məni Kohənzə apararsan?
- Kohənzdə nə var?
- Heyətin əzadarlığı var.

- Əzadarlığa getməməlisən! – çox ciddi tərzdə dedi. – Demirsən ki, mən daha Suriyaya getməyim?! Getmirəm. Adım da Mustafa deyil, Kuroşdur. Fatimə adını da dəyişdirib Sürəyya qoyuruq. Heyətə və məscidə də getməyəcəyik, yalnız evdə namaz qılacağıq. Heç bir yerə getməyəcəyik, sən də məhşərə kufəli qadınların yanında çıxacaqsan.

- Heç narahat olma, heyətə getmərik.

Axşama qədər gözlədim, amma sonra gördüm ki, heyətə getməmək olmaz.

- Qalx, gedək heyətə, - dedim.

- Danışmadıq ki, heyətə getməyəcəyik?!

Həm də məni "Azita" çağırırdı.

- Niyə belə edirsən? Məni heyətlə təhdid edirsən?! – dedim.

Heyətin əzadarlıqlarında iştirak etməyi nə qədər istədiyimi bilirdi.

Vənək meydanında bir neçə qızıl mağazası olan passaj vardı. Məni bir mağazanın vitrininin önünə aparıb dedi:

- Sənə hədiyyə almaq istəyirəm.

- Bu vəziyyətdə hədiyyə istəmirəm.

O, israr, mənsə imtina edirdim. Mağazadan çıxdıq.

- İstəyirsən, hədiyyə yerinə səni Məşhədə aparım?

Razılaşdım.

- Gərək Şəhid Qasiminin ailəsinə də baş çəkim, - dedi.

Bir neçə gündən sonra Məşhədə getdik. Birinci gün Fatimə ilə mən hərəmə getdik, Mustafa da Şəhid Qasimigilə. Ertəsi gün dedi: "Həsənə məclis keçirirlər. Mənə dedilər ki, gəlin, çıxış edin. Bilirsən nə ediblər? Həsənin valideynlərinə zəng edib deyiblər ki, oğlunuz intihar edib, şəhid sayılmır. Buna görə ailə məclislərinə gedib Həsənin necə şəhid olduğunu söyləməliyəm".

Birlikdə getdik. Mustafa Həsənin şəhadət əhvalatını danışdı, axırda da "Allah yolunda öldürülənləri əsla ölü hesab etmə"[23] ayəsini təfsir edib dedi: "Bu o deməkdir ki, şəhidlərin əlləri açıqdır, düyünləri aça və kömək edə bilirlər. Axşam saat 9-10-da dedilər ki, Həsəni cərrahiyyə əməliyyatına aparıblar. Mən bunu eşidən kimi Ayətül-kürsi oxumağa başladım. Kim məni ziyarət etməyə gəlirdisə, deyirdim ki, Ayətül-kürsi oxu, çünki anası burada olsaydı, Ayətül-kürsi oxuyardı.

Ondan sonra Həsənin adı Mustafanın zikrlərindən birinə çevrildi. Səhər yuxudan qalxıb şeir oxuyur, deyirdi ki, bunu Həsən oxuyurdu; günortadan sonra şeir oxuyur, deyirdi ki, bunu Həsən oxuyurdu; bir iş görəndə deyirdi ki, Həsən belə edirdi.

- Siz Həsənlə nə qədər bir yerdə olmusunuz? – deyə soruşdum.

- Biz iyirmi neçə gün birlikdə olmuşuq.

Sanki iyirmiillik xatirələri, sözləri vardı. Artıq Mustafanın bütün vücudu Həsən olmuşdu. Növbəti səfərlərimizdə Qasimigilə baş çəkəndə mənə deyirdi: "Düzdür, Həsən subay idi, amma sən çalış gəlinləri kimi ol, uşaqlar da nəvələri kimi olsunlar".

## *Bir il, hər cümə səhər saat 10*

**Mehdi Qasimidana**

Qardaşım şəhid olandan sonra Mustafa bir neçə dəfə bizə gəldi. Dəfnin birinci axşamı da evimizdə məclis oldu, dostları da iştirak etdilər. Mustafa da gəlmişdi, uşaqlar üçün

---

[23] Ali-İmran, 169

bir qədər söhbət də etdi. Yaxşı nitqi vardı, dini savadı da çox idi. Mən Mustafa ilə həmin gün tanış oldum.

Mustafa ilə ümumilikdə on dəfə görüşməmişdik, amma çox səmimi olmuşduq. Bəzən Həsən yadına düşdüyünə görə bizim evdə qala bilmir, deyirdi ki, gedək, bir dövrə vuraq. Soruşurdum ki, hara? Onun üçün fərqi yox idi; motosikletlə harasa gedirdik. Mənim səsim və danışıq tərzim Həsənə çox oxşayırdı. Çox danışanda boynumun arxasından möhkəm vurub şirin ləhcəsi ilə deyirdi: "Səsini kəs! Sən Həsən kimi danışırsan, mən pis oluram. Sən daha danışma!"

Mustafa ilə Həsənin dostluq müddəti bir ay olmamışdı, amma bu müddətdə o qədər səmimi dost olmuş, o qədər bir-birinə bağlanmışdılar ki, Həsən cümə günü səhər saat 10-da şəhid olandan sonra bir il bir neçə ay hər həftənin cümə günü həmin saatda mənə internet üzərindən mesaj yazırdı: "Səhər saat 10 – məşhədli qəhrəman bəsici Şəhid Həsən Qasimidananın aşiqlik anı və ruhani yüksəliş saatı".

# *Səadətsizlik*

**Məhəmməd Əliməhəmmədi**

Suriyadan gələndən vəziyyəti dəyişmişdi, tez-tez şəhadətdən danışırdı. Bir dəfə dedi:

"Suriyada güllənin mənə doğru gəldiyini görürdüm, amma mənə dəymirdi. Deyirdim ki, Xudaya, nə etmişəm ki, şəhidlik səadətini məndən almısan? Bunlar niyə mənə dəymir? Təəccüb edirdim ki, görəsən hikməti nədir. Mən iki yerdə, həqiqətən, şəhid olmalıydım, amma hansı səbəbsə bu imkanı məndən aldı: biri 2009 fitnəsində, biri də Suriyada. Mühasirədəydik, snayper məni nişan almışdı, vurmaq istəyirdi. Mən torpağın üstünə uzanmışdım, üzümün

önündə böyük bir daş vardı. Başımı torpağa yapışdırdım. Tərpənən kimi snayper atəş açırdı. Gülləsinin mənə dəymədiyini görəndə incitmək üçün daşı vurur, daş da parçalanıb başıma tökülürdü.

Orada hiss etdim ki, şəhadət zamanım gəlib. Başımı yerə qoyub kəlmeyi-şəhadətimi dedim. Şeytan beynimdə vəsvəsəyə başladı: Kim deyir ki, sən şəhid olacaqsan?! Bu nə cəfəngiyyatdır?! Kim deyir ki, o dünya var?! Bunlar beynimə gələn kimi zikr deməyə və şeytana lənət oxumağa başladım. Bu fikirlərdən sonra ailə mövzusu başladı: Sənin ailən var; şəhid olsan, xanımın nə edəcək? Uşağın nə edəcək? Fatimə böyüyür, sən başının üstə olmalısan. Bütün dostlar, bütün sevgi və bağlılıqlar beynimdən keçdi. Bütün bu hadisələr, bəlkə də, bir neçə saniyədə baş verdi. Sonra uşaqlar köməyə gəlib snayperi vurdular. Orada, həqiqətən, şəhadəti hiss etdim, amma nədənsə buna layiq görülmədim”.

# 9

# Dördüncü səfər

**(12.06.14-31.07.14)**

## *Hərəmdə sıxışmışıq*

**Mustafa Sədrzadə**

İraq vilayətlərinin ildırım sürətilə İŞİD tərəfindən işğal olunduğunu xəbərlərdə eşidən kimi telefonu götürüb Seyid Bəthayiyə zəng etdim:

- Seyid, eşitmişəm, vəziyyət ağırlaşıb, - dedim. – Qalx, ramazan ayına təbliğə bizim evimizə gəl.

- Məgər siz hərəm müdafiəçisi deyilsiniz?! – qəfildən məndən soruşdu.

- Hə, sənə qurban!

- Hərəm buradır. Silahınız ki, var – gəlin bura. İmam Həsən Əsgərinin hərəmində sıxışmışıq. Ailə-uşaqla Samirrada qalmışıq.

Ömrümdə ilk dəfəydi onun kimdənsə kömək istədiyini görürdüm. O vaxta qədər heç kimin ona bir iş görməsini istəməmişdi. Ürəyimə pis fikir gəldi.

- İŞİD hərəmin 200 metrliyindədir, - dedi, - biz də hərəmin içində sıxışmışıq.

Çox narahat oldum, düşündüm ki, işi bitdi. Bilirdim ki, tərs adamdır, əmmaməni başından götürən deyil. Biz onu heç vaxt əmmaməsiz görməmişdik.

Dedim ki, vəhhabilər bu əmmaməyə görə başına bir bəla açacaqlar. Samirrada bir-iki dəfə vəhhabilərlə dalaşmışdı da. Çox narahat oldum və olduqca hirsləndim. Süfrə başındaydım. Süfrəni dağıdıb evdən çıxdım. İraqa getmək istəyirdim. Bizi göndərən ofisə gedib hazır olduğumu bildirdim.

- İraqa göndərirlər? – deyə soruşdum.

- Yox, İraqa aparmırlar.

İşləri görüb ertəsi gün Suriyaya yola düzəldim. Təyyarədə telefonumu söndürmək istəyəndə zəng gəldi. Dostlarımdan biri idi.

- Alo. Salam. Xəbərləri oxudun? – dedi.

- Hansı xəbəri?

- Seyid Bəthayi xanımı və uşağı ilə birlikdə Samirra yolunda İŞİD-in əlinə keçib. Onlar da seyidin başını kəsiblər.

Sanki dünya başıma uçdu.

Bir adəti vardı, dərsə başlamazdan qabaq iki-üç dəqiqə rövzə oxuyardı. Hər gün saat 5-də də evlərində rövzə oxunardı. Bunlardan əlavə, gündə bir-iki dəfə təklikdə özünə rövzə oxuyardı. O qədər rövzə oxudu, oxudu, axırda özü rövzə oldu; arvad-uşağı ilə birlikdə. Sonra filmini İŞİD televiziyası yayımladı. Əmmaməni başından açıb ayağına bağlamışdılar. Əvvəlcə işgəncə verib maşınla sürümüş, sonra başını kəsmiş, axırda da cəsədi yox etmişdilər.

Seyiddən çox xoşum gəlirdi. Yaxşı istedadı vardı və çox yaxşı oxuyurdu. Bütün Quranı da əzbər bilirdi. Bizim yalnız

bir problemimiz vardı: mənə ilişib deyirdi ki, vəzifən dərs oxumaqdır.

Suriyaya gedəndən sonra ona dedim:

- Seyid, dərsi və hövzəni burax, xanımını və uşağını göndər İrana, gəl birlikdə gedək.

- Ağanı gözləyirəm, - dedi. – İstəyirəm ki, dövrün imamı gəlsin, onun yanında vuruşum.

- Ay seyid, gəl gedək Suriyaya. Şəhid olarıq. Seyid, məgər Əhd duası oxumursan?! Gedək, şəhid olaq, ağa məsləhət bilsə, rəcətdə qayıdarıq. Gəl gedək, burax buraları.

Birdən fikrə gedib dedi:

- Hə; heç indiyə qədər ağlıma gəlməyib. Şəhid olarıq, ağa məsləhət bilsə, qayıdarıq.

Axırıncı dəfə Nəcəfdə bu dialoqla bir-birimizdən ayrıldıq. Ali-Məhəmmədin bu yetiminin qəlbinə şəhadət qurdu salmışdım. Allah da onun şəhadətlə getməsini istəyibmiş.

## *Sən razı ol*

**Xanım İbrahimpur**

Yenə Suriyaya getmək istəyirdi. Ona dedim:

- Axı sən hərbçi deyilsən, niyə getmək istəyirsən?

2009 fitnəsi zamanı verdiyi cavabı verdi:

- Düzdür, hərbçi deyiləm, amma axirətdə məndən soruşacaqlar ki, məzlumları müdafiə etdin, ya yox? Sən də getməyimə razı ol.

- İşin özünə razıyam, amma ayrı qalmaq çətindir.

Mustafa getmək üçün çox çətinlik çəkirdi. Suriyada maaş almırdı, sərbəst işlə məşğul olduğuna görə

dolanışığımızı təmin etmək üçün məzuniyyətə gələndə işləməli olurdu.

## *Yaralı ayaqla*

**Əli İbrahimpur**

Yaralı olduğuna görə düşünürdük ki, daha Suriyaya getməz. Bir müddət keçdi. Mən rayondaydım. Oradan qızıma zəng edib hal-əhval tutdum, Mustafanı soruşanda dedi ki, Mustafa getdi. Dedim ki, yaralı ayaqla?!

Sonralar çəkilmiş görüntülərdə onun axsaya-axsaya əməliyyatlarda iştirak etdiyini gördük.

## *Baş verərik, səngər vermərik*

**Seyid Səccad Alimi**

Əməliyyat zamanı həmişə ratsiyadan meydan oxuyurdu. Misal üçün, belə deyirdi: "Ya Zəhra, indi gedib təkfirçiləri məhv edəcəyik"; "Xanım Zeynəb-Kübranın lütfü ilə buranı tutacaq, qalib gələcəyik"; "Baş verərik, səngər vermərik".[24]

## *Naməlum şəhidlərin məzarı*

**Seyid Əlirza Miri**

Suriyadan təzə gəlsə də, evdə çox qalmırdı. Bir dəfə parkda oturmuşduq. Söhbət naməlum şəhidlərdən düşəndə

---

[24] Bu şüarı Fatimiyyun şəhidlərindən Mustafa Cəfəri əməliyyat zamanı, şəhadətindən öncə Əbu Abbasa demişdi. Ondan geri qayıtmasını istəyəndə cavab vermişdi ki, hacı, mən baş verərəm, səngər vermərəm. Ondan sonra bu şüar Fatimiyyunda məşhurlaşdı və onu divarlara yazdılar. Şəhid Mustafa Cəfəri 16.06.84 tarixində dünyaya gəlmişdi, düz otuz ildən sonra ad günündə Hələb şəhərində şəhadətə qovuşdu.

uşaqların biri dedi: "Görəsən burada iki naməlum şəhid dəfn edə bilərik?"

Beynimə batdı. Öncədən, Naməlum şəhidlər hüseyniyyəsini tikməzdən qabaq da bu fikir vardı. Şəhriyar korpusundakı dostlarımızdan birinə dedik:

- Bizim belə bir fikrimiz var. İtkin Şəhidlər Komitəsinin bununla bağlı meyarı nədir?

- Gərək şəhidlərin məzarının yaxınlığında hüseyniyyə olsun və orada mədəni-tərbiyəvi işlər görülsün. Lazımi şərait yaradılandan sonra yeriniz təsdiqlənsə, şəhid gətirərlər.

Biz düşünürdük ki, yəqin, şəhidləri hüseyniyyənin önündə dəfn edərlər. Hüseyniyyənin qapısı da həmişə açıqdır; gələnlər iki rükət namazı qıla bilərlər. O vaxtdan müraciətlərə başladıq.

## *Qərib Kohənz*

**Vəhid Məhdəvi**

Şəhərin vəzifəli şəxslərindən çox adam naməlum şəhidlərin Kohənzə gətirilməsinə etiraz edir, onların qərib qalacağını söyləyirdilər. Hətta biri demişdi ki, şəhidin İraqda qalması sizin əlinizə düşməsindən yaxşıdır. Mustafa çox narahat olmuşdu, amma geri çəkilmir, israrla istəyirdik.

2014-cü ilin oktyabrında İmam Sadiqin (ə) şəhadət günlərində bütün Kohənz – Əmirəlmöminin (ə), Sahibəzzaman (ə) və Əli Əkbər məscidləri, üç Bəsic mərkəzi və heyətlər tərəfindən icra hakimiyyətinə məktub yazdıq. Hüseyniyyə tikmək və mənəvi mühit yaratmaq üçün mədəni-tərbiyəvi fəaliyyətlər göstərmək Mustafaya bildirilmiş şərtlərdən idi.

Bundan ötrü Mustafanın başı çox ağrıdı. Bəzi məsul şəxslər bu işin effektiv olmayacağını düşünüb etiraz edirdilər. Lakin Mustafa hamını qane edə bildi. İclasların birində bəzi rəhbər şəxslər dedilər ki, bura şəhid gətirmək olmaz. Onlar onsuz da naməlum şəhidlərdir, burada qərib qalacaqlar. Mustafa onlara dedi: "Bizim hər həftə mədəni tədbirlərimiz olur, Nüdbə duası və Aşura ziyarətnaməsi oxuyuruq, şəhidlərin qərib qalmasına imkan verməriк!" Lakin növbəti dəfə Suriyaya gedənə qədər məsələ həllini tapmadı.

# 10

# Beşinci səfər

**(16.10.14-10.12.14)**

## *Tapşır Allaha*

**Xanım İbrahimpur**

Sentyabrda analiz verib hamilə olduğumu bildim. Arxayın oldum ki, hamilə olduğumu görüb yanımda qalar. Analizin cavabını həkimə aparıb vəziyyətimi izah edəndə dedi ki, gərək istirahət edəsən. Mustafa oktyabrda gedəndə biraylıq hamiləydim. Çox ağır idi, çox əziyyət çəkdim. Zəng edib dedi ki, çatmışam.

- İndi qalmadın, heç olmasa, üçaylıq yoxlanışda burda ol, - dedim.

- Çalışaram gəlim.

Təkidlə tapşırırdı ki, Fatimə Quran dərsindən qalmasın.

- Mən bu vəziyyətdə onu dərsə apara bilmərəm, - dedim.

- Yox, Quran dərsinə getsin.

Dekabrda yoxlanışa getdim. Mustafa gəlmədi və mən çox narahat oldum. İşim-gücüm ağlamaqdan ibarət olmuşdu.

Mustafanın anası ilə yoxlanışa getdim. Bir həftədən sonra analizlərin cavabını aparanda həkim dedi ki, uşaqda zehni problem yaranma ehtimalı böyükdür. Nə etməli olduğumu bilmirdim. Mustafa zəng edəndə məsələni söylədim. Dedi:

- Özün nə məsləhət görürsənsə, elə et, amma uşağı saldırmağı əsla düşünmə.

- Yəni şikəst bir uşağın mütləq dünyaya gəlib yaşamasına razısan?

Çox maraqlanırdı ki, nə etmək olar. Bir gün yenə zəng edib dedi:

- Tapşır Allaha. Əgər Allah bizi şikəst uşaqla sınamaq istəyirsə, mənim etirazım yoxdur.

Hamı bilirdi, amma hər şeyi öz öhdəmizə buraxmışdılar. Özümüz qərara gəlməli idik. Mən Mustafanın belə danışdığını görəndə daha çox əziyyət çəkirdim, Allahın bizə belə problemli uşaq verəcəyinə dözə bilmirdim. Həmişə deyirdim ki, bizdən çox uşağın özü əzab çəkəcək.

Nəhayət, bir gün yenə həkimə getdim. Yoxlanış üçün başqa bir həkimi tövsiyə edib dedi ki, əgər bu həkim də eyni sözü desə, daha əmin ola bilərsiniz. Yanvara müayinəyə yazıldım.

Bir neçə gündən sonra Mustafa zəng edib dedi:

- Doğrudan, sənə demək istəyirdim ki, uşaq sağlamdır.

- Necə yəni?! Nə olub ki?

- Uşaq sağlamdır, ancaq bir şərti var: gərək Allah üçün verəsən.

- Bu nə deməkdir? – deyə soruşdum, Məhəmmədəli barədə gördüyü yuxunu danışmağa başladı.

# *Yuxu*

**Mustafa Sədrzadə**

Məhəmmədəlinin dünyaya gəlməsinə yaxın yuxuda gördüm ki, ölür. Yuxuda bir nəfər mənə dedi:

- Onun canını almaq istəyirik.

- Axı niyə? Qoyun böyüsün, İmam Hüseyn yolunda şəhid olsun.

- Böyüyəndə buna razı olacaqsan?

- Niyə olmuram ki?!

- Uşağı ağa Əbəlfəz məqamına apar.

Orada bir yol vardı, yuxuda o yolla qaçırdım. Yəqin ki, ağa Əbəlfəz məqamı olan bir yerə çatdım. Dizlərimi yerə qoyub uşağı əllərimdə qaldırdım. Sanki birdən dirilib çabaladı.

# *Zirvəyə qədər*

**Əyyub**

Şeyx Nəccar səhərləri Seyid İbrahimlə bir-birimizi yaxşı görməmiz və çox işlərimizi razılaşdırmamız üçün qızıl fürsət idi. Bəzən iş əsnasında həyatından, hisslərindən, snayper təlimlərindən, livanlı və iraqlı uşaqlarla çoxlu məşqlərindən danışırdı.

Bəlkə də, ilk əməliyyatı Kəsəbdə olmuşdu. Orada əsas iş Hizbullahın idi, amma Fatimiyyundan kömək almışdılar. Seyid İbrahim də o əməliyyatda iştirak edib Kəsəbə baxan birinci təpəyə qalxmışdı.

O deyirdi:

“Bir dəfə hücum edib dağın başına qalxdıq, amma qala bilmədik. Düşmən yüksəkdə olduğuna görə asanlıqla və çox güclü atəş yağdırırdı. Fatimiyyun uşaqlarının bir neçəsi

döyüş əsnasında təpənin başında qalıb şəhid oldu. Başlarını kəsib aşağı tulladılar.

Bir neçə gündən sonra yenə həmin yerdə əməliyyata başladıq. Yenə dağa çıxdıq və gözlənilmədən Fatimiyyun şəhidlərinin pis vəziyyətdə olan kəsilmiş başları ilə rastlaşdıq. Bizi ruhdan salmaq istəyirdilər. Mən daş-daş, qaya-qaya qalxırdım. İlk əməliyyat təcrübəm idi. Bir-birimizi qoruma atəşi ilə təmin edərək yavaş-yavaş hərəkət edir, yuxarı qalxırdıq. Onlar da bizə ağır atəş yağdırırdılar.

O əsnada qəfildən mən bir daşın arxasından çıxdım, düşmən də bir qayanın arxasından. Uzun, açıq rəngli saqqalı vardı. Qəhvəyi gözlü, ağ bənizli, ucaboy və çox yaraşıqlı silahlılardan idi. Qəfildən bir-birimizi görüb yerimizdə quruduq, bir-birimizə baxdıq. İlk saniyədə ikimiz də atəş açmaq qərarına gəldik. Livanlı uşaqlarla məşq etdiyimə görə peşəkar olmuşdum. O, atəş açınca silahımı qaldırıb vurdum. Güllə yanağından girib başının arxasından çıxdı. Zahiri çox gözəl olan üzünü parçaladım. İlk dəfə orada döyüşdə düşmənlə göz-gözə gəlib belə sürətlə atəş açırdım.

Böyük çətinlikdən sonra təpənin başına qalxdıq. Yer dar, get-gəl çox çətin idi; çünki düşmən oranı görürdü. Bütün işləri uzanaraq görür, o vəziyyətdə yeyib-içirdik".

Bir dəfə orada çəkilmiş videonu mənə göstərdi. Daş dolu kiçik təpəydi, daşları ətraflarına düzmüşdülər. Səngər düzəltməyə nə torpaq vardı, nə də yer.

O deyirdi: “Silahlılar hücum edib yaxınlaşır, biz də qumbara və güllə ataraq onları uzaqlaşdırırdıq. Bir neçə dəfə hücum etdilər, amma müqavimət göstərib təpəni əlimizdə saxladıq. Qalib gəlib bir həftə təpənin üstündə qaldıq.

Bir neçə silahlının cəsədi bizdən təxminən 10 metr aralıya düşüb iylənmişdi. O qədər kəskin qoxuları vardı ki, hətta bir an da orada dayanmaq olmurdu”.

## ***İrandan şantaj***

**Əyyub**

O vaxt Suriyada poçt və internet sistemi bərbad idi. Bir gün Seyid İbrahim mənə dedi:

- Hacı, bir yer tapmışam, “ful” anten!

- Harda?

- Şeyx Nəccarın ortasında bir təpənin başında böyük bir çən var, gərək nəfəsin kəsilənə qədər pilləkənlə qalxasan.

Məni onun başına çıxarıb dedi:

- Vayfayı aç.

- Vayfay nədir?

- Ver, mən açım.

Açıb ailəsi ilə danışmağa başladı. Danışıb qurtarandan sonra xanımı ona bir səs göndərdi. Balaca qız uşağı idi, kövrək səslə deyirdi: “Ata, niyə gəlmirsən? Sənin üçün darıxmışam”.

Qəhər dolu bu səs adamın ürəyini parçalayırdı. Mən çox narahat olub dedim:

- Seyid İbrahim, sən nə qədər daşürəklisən! Uşaq kövrəlib!

- Narahat olma, bu, xanımımın planıdır, - gülərək dedi, - şantaj edir. Elə bilir ki, mən ona aldanıb bu uşaq səsi ilə qayıdacağam.

- Yezid atasan! Sən niyə belədən axı!

# *Komandirin israrı*

**Əyyub**

Gecə-gündüz təlim və kəşfiyyatla məşğul idik. Kəşfiyyat işləri yekunlaşdı və əməliyyata az qaldı. Mən iranlı müşavirlərin komandiri Seyid Cavada dedim ki, biz bu nöqtəyə qədər gedib-gəldik.

- Əla! – dedi. – İndi taqım komandirlərini göndərə bilərsən. Taqımlar da yolları görsünlər, axşam hərəkət edəndə gözübağlı və arxayın getsinlər.

- Axırıncı bir-iki axşam göndərəcəyəm görsünlər, - dedim.

Seyid İbrahim dilləndi:

- Mən də getmək istəyirəm.

- Təkcə taqım komandirləri gedəcək, - dedim. - Sən batalyon komandirisən, sabah bunları idarə etməlisən, başına bir iş gəlsə, necə olar?!

Nə dedimsə, qane olmadı, dedi ki, mən də gedəcəyəm. Xahiş-minnət də işə yaramadı. Axırda dedim ki, onda qərargahdan icazə alaram.

- Yox, - dedi, - onlara desən, qoymayacaqlar. Mən sənin icazənlə getmək istəyirəm.

Seyid İshaqın, Şübeyrin, iranlı olmayan taqım komandirlərinin yanında israr edib deyirdi:

- Hacı, bilirsən ki, mən iranlıyam, ona görə qoymursan.

Gördüm ki, uşaqların yanında hey israr edir, mən də razılaşmıram. Bu isə onlara mənfi təsir edər, onları ruhdan salar. Məcbur qalıb razılıq verdim və qrupu böyük həyəcan içində yola saldım.

Əråndəs tarlasından keçib 16 Ev deyilən yerə, oradan da irəliləyib fəlsətinli qaçqınların yaşadığı Həndərat

qəsəbəsinə çatdılar. Orada böyük bir bağ vardı, ora girməli idik.

Planımız beləydi ki, bağın divarını dəlib və binaların arxasından çıxıb müdafiə xətti yaradaq. Ora düşmənin birinci xətdəki deyil, arxadakı qüvvələri olduğuna görə döyüş elə də çətin olmayacaqdı.

Seyid İbrahim kəşfiyyatdan qayıdanda 200 kq ağırlığı qaldırmış adam kimi olmuşdu, böyük enerji ilə deyirdi: "Hacı, əlimizi divara vurduq və plan üzərindən araşdırdıq".

İcazə alıb şəxsi heyətlə çiyin-çiyinə getdiyinə görə çox enerji toplamışdı. Artıq Seyid İshaq da ondan ötrü canını verərdi; digər uşaqlar da həmçinin. Rabitədən tutmuş logistikaya qədər bütün şəxsi heyəti kiçik komandir otağındaydı. Yemək-içməyi və istirahəti onlarla idi. Bir hərəkət etmək, taktiki, texniki və ya təlim işləri görmək lazım olanda özü birinci işə başlayırdı, şəxsi heyət Seyid İbrahimin onlardan biri olduğunu görürdü. Bu da onları tabe olmağa vadar edirdi, özlərindən asılı olmadan əmrinə tam hazır olurdular.

# 11

# Altıncı səfər

**(15.01.15-12.03.15)**

## *Şəhidlər şəhəri azad ediblər*

**Mustafa Sədrzadə**

Deyr əl-ədəs əməliyyatında xüsusi təyinatlı batalyondan qabaq Fatimiyyundan olmayan bir batalyon hücuma keçdi, amma mövqeyi yara bilməyib şəhərin arxasında qaldı. Sonra xüsusi təyinatlı uşaqlar hücum edib mövqeyi aldılar, şəhərə girib təxminən yarısını tutdular.

Canlı qüvvə çatışmazlığımız vardı. Evlərin içinə adam qoymağa məcbur idik. Axırıncı evi təmizləməyə girəndə dörd nəfər qalmışdıq.

Razılaşmaya görə, suriyalı uşaqlar bizim yerimizi tutmalı, bizsə irəliləməli idik. Gecənin yarısına qədər gəlib çıxmadılar. Gələndə də döyüş o qədər qızışdı, işıqlı güllələr, top və tank səsi o qədər çoxaldı ki, çoxu qaçdı. Şəhərə 120 nəfərdən 30-u gəldi, onlar da "gedib yoldaşlarımızı çağıraq" deyib getdilər.

Sonra bizə dedilər ki, filan yerə gəlin. Elə bildik ki, problem yaranıb, istiqamət dəyişdirmək istəyirlər. Dedilər ki, gəlin geriyə, biz də getdik. Orada dedilər ki, geriçəkilmədir. Bütün uşaqları qəhər boğdu, ağlamağa başladılar. Biz orada necə yaxşı uşaqlar itirmişdik; Şəhid Cəfərini əldən vermişdik. Mənim ürəyim kabab oldu.

Əbu Hamidlə bir otaqda yatmışdıq. Birdən Hacı Hüseyn Badpa qaça-qaça gəldi, qapını açıb dedi:

- Seyid İbrahim! Seyid İbrahim! Tez ol, gəl!

Uşaqların birinə dedi ki, Əbu Hamidi də oyatsın.

- Tez gəl yuxarı! – dedi.

- Nə olub axı?

- Heç olmasa, tualetə gedim, üz-başıma su vurum, - çirkli və qarışmış saçımı göstərib dedim.

- Lazım deyil! Tez ol!

O görkəmdə otağa girib gördüm ki, bizim, suriyalıların və iraqlıların baş komandanı olan çox böyük, əzəmətli və nurlu adam oradadır: Hacı Qasim Süleymani. Məni qucaqladı. İki-üç dəqiqədən sonra Əbu Hamid də gəldi. Mənə dedi:

- Seyid İbrahim, xüsusi təyinatlıları götür, Deyr əl-ədəsə gedin.

- Nə olub, hacı? Deyr əl-ədəsdə dünən məğlub olduq.

- Gedin! Şəhidlər şəhəri azad ediblər!

- Hacı, necə yəni? Əminsiniz? Sizə yalan məlumat verməyiblər ki?

- Gedin! Şəhidlər şəhəri azad ediblər! Ancaq tez gedin.

Uşaqları bir-bir yuxudan oyadıb dedim: “Qalxın! Qalxın! Uşaqlar, gedirik! Uşaqlar, gedirik! Tez olun, tez!” Uşaqlar, cəld maşınlara mindilər, heç hara getdiyimizi də soruşmadılar. Öz maşınımızla tez Deyr əl-ədəsə gedib gördük ki, şəhər boşdur. Elə vahimə içində qaçmışdılar ki,

nə cəsədlərini aparmışdılar, nə sənədlərini, nə də GPS və telefonlarını. Oradan çox əhəmiyyətli məlumatlar əldə etdik; bütün İŞİD və əl-Nüsrə cəbhəsinin Dəradakı planlarına və onların müttəfiqlərinə dair informasiyalar. Bütün vilayətdə kimin harada olduğunu yazmışdılar. Hər şeyi qoyub qorxu içində qaçmışdılar. Onlara heç kim hücum etməmişdi, bizim qayıtdığımızı, qaçdığımızı da görmüşdülər. Bu şəhərin necə azad olunduğu hələ də mənə təəccüblüdür. Hacı Qasimin sözləri hələ də qulaqlarımdadır: "Şəhidlər şəhəri azad ediblər!"

Bu möcüzə uşaqların inancının güclənməsinə səbəb oldu və biz qat-qat çətin mərhələ olan Təll-Qərində də qalib gəldik.

## *Nəhəng kimi bir şey*

**Qasim Süleymani**

Deyr əl-ədəsdə çox seçilən bir səsin Tehran lotuları kimi ratsiyadan danışdığını eşitdim. "Bu kimdir? Bu tehranlı gənc haradan gəlib Fatimiyyuna daxil olub?" – deyə öz-özümə düşündüm. O, Hüseyn (Badpa) ilə danışırdı.

Səhər uşaqlar Deyr əl-ədəsdən institutun ərazisinə qayıdanda Hüseynə dedim:

- Bu Seyid İbrahim kimdir? Qalın səslə danışan Seyid İbrahim.

Mənə göstərdi. Gördüm ki, arıq bir gəncdir.

- Seyid İbrahim budur? – deyə soruşdum.

- Hə.

- Mən elə bilirdim bir nəhəngdir; ucaboy, enlikürək, cüssəli!

Cəzbedici cavan idi. Adam ona baxanda həzz alırdı. Mən onu çox sevirdim; həqiqətən, çox sevirdim.

Biz icazə vermədiyimizə görə Məşhədə gedib əfqanıstanlı kimi Fatimiyyuna ad yazdırmışdı. Zirək budur. Zirək mənə və mənim kimilərə demirlər. Zirək mal-mülk toplamaqla məşğul olan, camaatı aldadan deyil. Zirək və zəkalı adam imkanları belə yaradan və onları maksimum dəyərləndirən adamdır. Buna deyirlər imkandan ən yaxşı şəkildə yararlanan və onu əldə edən.

Niyə bu işi gördü? Çünki çox qiymətli idi. "Şübhəsiz ki, Allah Öz yolunda möhkəm divar kimi səf çəkib döyüşənləri sevər!"[25] Allah birini sevsə, onun məhəbbətini, eşqini, hər şeyini qəlblərə salar. Buna görə Seyid İbrahimi sevirdim. Görkəmə qalsa, Tehranın küçələrində Seyid İbrahim kimilər olduqca çoxdur.

## *Sərdar Süleymani ilə*

**Həkimə Əfqəh**

Altıncı dəfəydi Suriyaya getmişdi. Ona yazdım ki, bir mesaj, ya da emoji at, salamat olduğunu bilim. Cavab yazmadı. Saat 2-də atası ilə mən bir az narahat olduq. Atası mesaj yazdı: "Oğul, hardasan?" "Mən yaxşıyam", - yazdı, Sərdar Süleymani ilə şəklini də göndərib altından əlavə etdi: "Elə indicə, birdən-birə Sərdar Süleymani ilə".

Arxayın olduq ki, salamatdır.

[25] Səff, 4

# *Təll-Qərində ilaxır çərşənbəsi*

**Mürtəza Ətayi (Əbu Əli)**[26]

Fatimiyyunla birlikdə Suriyaya getməyimdən çox ötmürdü. Fatimiyyun briqadasının komandiri Əbu Hamid idi. Seyid İbrahim Əmmar batalyonunun komandiri idi, məni də taqımlarının birinə komandir təyin etmişdi. Bu, mənim orada ilk vəzifəm idi.

Bir müddət uşaqlarla təlimlər keçir, əməliyyatda iştirak etmirdik. Nəhayət, Təll-Qərin əməliyyatı başladı. Bu əməliyyatda baş verən bəzi hadisələrə görə seyidin mənə etimadı artdı. Təll-Qərin işğal olunmuş Fələstin torpaqlarından 15 km aralıdadır. Əsas əməliyyat ondan öndə olan əl-Hibariyyə şəhərindəydi. Oranı ələ keçirəndən sonra Seyid İbrahim və digərləri Əbu Hamidə təklif etdilər ki, buraya qədər problemsiz və döyüşsüz gəldiyimizə görə,

---

[26] Mürtəza Ətayi 1977-ci ildə müqəddəs Məşhəd şəhərində dünyaya gəlmiş, 23 yaşında ailə qurub ata peşəsi olan sanitar texnik işində çalışmış, Suriyada müharibə başlayanda isə hərəm müdafiəçilərinə qoşulmaq üçün hər qapıya getmişdi. O, bəsici könüllülərin Suriyaya göndərilməsinin çətinliklərini görüb özünü əfqanıstanlı kimi qələmə vermiş, Fatimiyyun karvanı ilə döyüşə yollanmışdı.
Mürtəza Ətayi Əbu Əli ləqəbi ilə Fatimiyyun döyüşçülərinə qaynayıb-qarışmışdı. Belə ki, bir çox dostları belə onun əfqanıstanlı yox, məşhədli olduğunu bilmirdilər. Təll-Qərin, Tədmur, Deyr əl-ədəs, Busr əl-hərir, əl-Qərasi və Xantumandakı rəşadətləri onun adını təkfirçilər üçün qorxunc bir sözə çevirmişdi. İŞİD əsirliyindən qaçmış döyüşçülərin biri deyirdi: "Onlar Fatimiyyun döyüşçülərinin kollektiv şəkillərini əsirlərə göstərib soruşurdular ki, Əbu Əli hansıdır?"
Mürtəza Ətayi çoxlu qəhrəmanlıqlardan və bir neçə dəfə yaralanandan sonra 2016-cı ilin sentyabrında, Ərəfə günü Laziqiyyə bölgəsində qumbaraatandan atəş açarkən uca şəhadət məqamına nail olub şəhid dostlarına qovuşdu. Onun özünün söylədiyi xatirələrindən ibarət "Əbu Əli haradadır?" kitabı çap olunmuşdur.

məsləhət görürsünüzsə, bəzi döyüşçülərlə Təllə gedək və oranın vəziyyətini araşdıraq.

Təll-Qərin əməliyyat planına daxil deyildi. Bu yüksəkliklər əl-Hibariyyəyə baxırdı, hava işıqlaşanda mövqeyi möhkəmlətmək bizə çətin olacaqdı. Seyid İbrahim deyirdi: "Əgər hava aydınlaşsa, təpənin üstündən bizi atəşə tutub darmadağın edərlər. Gərək gecənin qaranlığından və qəfil yaxalama qaydasından istifadə edək. Amma orada tələ ehtimalı olduğuna görə əvvəlcə kəşfiyyata gedək, uyğun olsa, danışarıq, canlı qüvvə də gələr".

Seyid İbrahim heç vaxt özbaşına iş görmürdü, xırdalıqlara çox fikir verir, ən kiçik məsələlərə də riayət edirdi. O qədər dəqiq idi ki, deyirdi: "Suriyada da yol hərəkəti qaydalarına əməl etməmək adamın boynuna haqq qoyur". Komandirin əmri olmadan özbaşına bir iş görməsi mümkün deyildi.

Təll-Qərinə hücum planını irəli sürəndə də komandirin əmrini gözlədi. Güman ki, Əbu Hamid də Hacı Qasimlə danışmışdı. Hacı Qasimin özü iş başındaydı; çünki əməliyyat həssas idi və işğal olunmuş Fələstin ərazisinin yaxınlığında baş tuturdu.

## Ühüd aşırımı

**Mustafa Sədrzadə**

"Gündüz nə qədər bacarırsınızsa, yatın, gecələr oyaq qalın. İndi də bir qisim gedib istirahət edir, bir qisim qarovuldadır. Hələlik qarovulu bölük komandirləri təyin edirlər. Qarovul zamanı yuxuya gedənin vay halına! Belə birinin şərəfi yoxdur! Yuxun gəlirsə, get bölük komandirinə de ki, bacarmıram, məni yuxu tutur, daha oyaq qala

bilmirəm. Komandir də tez onu dostlarından biri ilə əvəz edər. Utandığına görə dostunun canını təhlükəyə atma.

Hamıdan çevik və cavan olan üçüncü taqım mənimlə və Əbu Əli ilə birlikdə irəlidə gedəcək. Cavan və oyaq olmalarını istəyirik. Çünki ora Ühüd aşırımı kimidir, vəziyyət ağırlaşsa da, süqut etməməlidir!”[27]

## *Səngər düzəldən*

**Mürtəza Ətayi**

Düşərgəmizdən yola düşdük.

- Əbu Əli, könüllü döyüşçü istəyirəm, - deyə Seyid İbrahim bildirdi.

Mən öz taqımıma elan etdim. Hələ sözüm bitməmiş Nəcəfi yay kimi yerindən atılıb dedi:

- Mən gedirəm.

Bizim taqımdan yalnız o qalxdı. Təxminən iyirmi nəfər olub yola düzəldik. Yol uzun, təpənin yamacı geniş idi, tədricən yüksəlirdi. Yamac bir-iki kilometrlik məsafədən başlayırdı, mülayim yoxuşu vardı. Biz partizan əməliyyatına getdiyimizə görə başımıza nə gələcəyini təxmin edə bilmirdik. Buna görə çoxlu sursat götürmüşdük.

Yükümüz ağır olduğuna görə uşaqlar yorulur, bir-birimizə deyinirdik. Nəhayət, əl-ələ verib sursatları apardıq. Hava çox soyuq idi, amma hərəkətimiz çox olduğuna görə hiss etmirdik, hətta gödəkcənin altından geydiyimiz paltarlar tərdən islanmışdı. Təpəyə çatan kimi hərəkətimiz azaldı və titrəməyə başladıq. Külək gödəkcələrin altından girir, soyuqdan dişlərimiz bir-birinə dəyirdi.

---

[27] Bu hissə Mustafa Sədrzadənin şəxsi heyətlə danışığının stenoqramıdır.

- Uşaqlar, nə qədər bacarırsınızsa, səngər qazın, - Seyid İbrahim dedi, - hətta caynaqlarınızla, silah darağı ilə, vintaçanla. Yeri qazın və içinə girin!

Onun "caynaq" sözü məşhurlaşmışdı. Hər əməliyyatda birinci təkidi buydu ki, caynaqlarınızla olsa da, tez səngər qazın.

Seyid İbrahim Təll-Qərində deyirdi: "Hava işıqlaşanda düşmən nə baş verdiyini biləcək və bura cəhənnəmə dönəcək!"

Biz Təll-Qərini problemsiz almışdıq. Uşaqlar yorulmuşdular. Təpənin yeri də bərk idi, 10 sm qazan kimi daşa çatırdı. Ətrafdakı daşlarla özümüzə səngər düzəltməli idik.

Təpə vulkanın ağzı kimi dərin və çox geniş idi. Onun üstünə hətta BMP də çıxa bilərdi.

Səhər açılan kimi eynilə Seyid İbrahimin dediyi kimi oldu. Düşmən nə baş verdiyini anlayıb başımıza o qədər atəş yağdırdı ki, heç kim yerindən tərpənə bilmədi. Əllərində olan hər bir silahla təpəyə doğru atəş açır və yuxarı qalxırdılar. Orada on dörd şəhid verdik, on ikisi mərmi qəlpəsindən şəhid oldu. Seyid İbrahimin tövsiyəsinə qulaq asmayıb yaxşı səngər düzəltməyənlər çox xəsarət aldılar.

Təll-Qərindən 800 metr aralıda Kəfər Nasic adlı qəsəbə vardı. Oradan və qarşıdakı iki təpədən 23 çaplı topla bizi vururdular. İş düyünə düşmüşdü, az qala təpə əlimizdən çıxacaqdı. Bu, baş versəydi, hamımız şəhid olardıq.

Gecə avanqard qüvvələr təpəni asanlıqla ələ keçirmiş, öz qüvvələrimiz yavaş-yavaş təpəyə qalxmışdılar. Suriyalı qüvvələr, Sərdar Kəcbaf və Hacı Hüseyn Badpa oradaydı. Lakin suriyalılar düşmənin hücumuna dözə bilməyib geri çəkildilər.

Seyid İbrahim ratsiyadan dedi: “Kim məni eşidirsə, bütün şəxsi heyətini təpənin başına göndərsin”. Bir qrup döyüşçü gəlib düşmənə müqavimət göstərdi.

Hava işıqlaşandan bütün imkanlarını oranı geri almaq üçün səfərbər etmişdilər. Kəfər Nasic səmtindən çox ağır atəş yağırdı. Elə vururdular ki, başımızı qaldırıb ətrafımıza da baxa bilmirdik. Güclü dəstək atəşi altında piyada qüvvələri də yavaş-yavaş təpənin yamacına gəldilər.

Təpənin başından təxminən 30 metr geri çəkildik. Düşmənin sayı get-gedə artırdı. Hər iki-üç nəfərdən birində pulemyot vardı, nəyin bahasına olursa-olsun, təpəni geri almağa gəlmişdilər.

Düşmən yalnız bir tərəfdən qalxa bilərdi, digər tərəflərdə yoxuş sərt olduğuna görə qalxmaq mümkün deyildi. Həmin bir tərəfdə çoxlu düşmən qüvvəsi toplaşmışdı. Buna baxmayaraq, bizim uşaqlarımız təpənin hər tərəfinə yayılmışdılar ki, düşmən heç yerdən qalxa bilməsin. Bizə çox təzyiq göstərirdilər. Biz təpənin başından gizlicə atəş açırdıq, görən kimi başlarını gizlədirdilər.

Düşmənlə məsafəmiz təxminən 30 metr idi. Açığa çıxan kimi onları vururduq. Biz düşmənin təzyiqinə görə bir qədər geri çəkiləndə Seyid İbrahim uşaqların birinə dedi:

- Vurma! Vurma!

- Vurma nədir, seyid, qalxırlar! – dedik.

- Vurma, ağa, vurma, qoy gəlsin. Hey vuranda yaxşı nişan ala bilmirsən. Atəş açma, güllənin dəyəcəyinə əmin olanda vur. Boşuna sursatı hədər eləmə. Boşuna atəş açanda bilirlər ki, qorxursan. Qoy təpənin döşünə qalxsın.

Həqiqətən də, qorxub dalbadal atəş açırdıq, sursatımız gedirdi, amma heç birinə dəymirdi. Seyid İbrahim bu sözləri o şəraitdə qışqıra-qışqıra və çox sürətlə bizə söylədi. Atəş bir az səngiyən kimi düşmən cəld yuxarı qalxdı, biz də

birdən silahları onlara tuşladıq, yuxarı qalxanlar yerə sərələndilər.

Get-gedə düşmən təşəbbüsü ələ alır, dövrə vurub arxadan qalxmağa çalışırdı. Ağır şəraitdə qalmışdıq, oradan sağ çıxacağımı düşünmürdüm. Bu zaman Fatimiyyun uşaqlarından tanımadığım iki nəfər torpaq sipərdən o tərəfə atılıb düşmənlə üz-üzə vuruşmağa başladı. Döyüşkən və cəsur idilər, hər an vurula bilərdilər, amma qorxmadan irəliləyirdilər.

Təkfirçilərin biri pulemyotla yuxarı qalxıb çox ağır atəş yağdırdı. Uşaqlar onu vurdular, yıxıldı. Çox şiddətli döyüş gedirdi. Mən dərhal hərəkət edib sürünə-sürünə irəlilədim, uşaqların vurduğu pulemyotçunun pulemyotunu götürüb diyirlətdim, beton səngərə tərəf gedib atəş açmağa başladım.

Yuxarı qalxmağa başqa bir yol axtarırdılar. Əl qumbarası atmağa başladılar, amma torpaq sipərimizin bu tayına çatmır, önünə düşürdü. Qollarını geriyə aparan kimi bilib tez torpaq sipərin arxasına sığınırdıq. Bu zaman onlar yeni fəndə əl atdılar. İki-üç qumbara atırdılar, biz aşağı düşürdük, sonra partlayış səsi gəlirdi. Bu dəfə əllərini qaldıranda biz yenə aşağı sürüşüb gözlədik, amma partlayış səsi gəlmədi, onlar da bu müddətdə təpəyə qalxmaq imkanı qazandılar. Pulemyot da əllərindəydi, atəş yağdırırdılar ki, başımızı qaldıra bilməyək.

Düşmənin hücumu hər an güclənirdi. Pulemyotu uşaqların birinə verib dedim ki, gedirəm, məni qoru. Yeddi-səkkiz ədəd qumbara götürüb sipərin arxasına keçdim, müqavimət döyüşçülərinin dəstək atəşi ilə irəlilədim, qumbaraların bir neçəsini sipərlərinin arxasına atdım. Fatimiyyun döyüşçüləri əllərindən gələni edib güclü atəş yağdırdılar, silahlıların heç biri qalxmağa cürət etmədi.

Onmetrlik məsafələrlə atdığım qumbaralar da öz işini gördü; uşaqlar ruhlandılar və biz bir qədər də irəlilədik.

Təll-Qərin əməliyyatı Əbu Hamidin, Fatehin və Mehdi Sabirinin qəhrəmanlıqlarına şahid oldu. Onlar bu əməliyyatda şəhid oldular və Seyid İbrahim onların şəhadətindən sonra psixoloji baxımdan çox sarsıldı.

Əbu Hamidlə Fateh işğal olunmuş Fələstindən, yəni israillilər tərəfindən atılan raketlə vuruldular. Biz bir neçə nəfər onlarla birlikdə məsləhətləşmək istəyirdik. Təpənin üstündə oturan kimi birdən yanımıza bir raket düşdü. Partlayış dalğası məni geri tulladı, heç nə görmədim, yalnız Fatehin "ya Zəhra" və "ya Əli" səsini eşidirdim. Əbu Hamid isə "ax" da demədən şəhadətə qovuşmuşdu.

## *İsraillə müharibə üçün*

**Mustafa Sədrzadə**

Təll-Qərin sərhədində olanda birdən beynimə gəldi ki, İsrailin sərhəd zastavasını vurum, iki nəfərini də əsir tutum. Lakin Hacı Qasim icazə vermirdi, deyirdi ki, hələ vaxtı deyil. Hətta bir dəfə mənə dedi: "Mustafa, özündən muğayat ol, İsraillə müharibədə lazım olacaqsan".

## *Utancaq, arıq və uzun saqqallı*

**General Rəfii**

Qərara alınmışdı ki, Seyid İbrahim təcrübələrini bizimlə bölüşsün. Axşam namazlardan sonra iclas yerinə toplaşdıq. Utancaq, arıq və uzun saqqallı gənc bir küncdə, böyüklərdən birinin yanında çox ədəb-ərkanla oturmuşdu. Minimum yer tutsun deyə çox büzüşmüşdü. İclasdakı

böyüklərə çox hörmət edirdi. Başıaşağı halda gözəl səsi ilə oxudu:

Ey dünya, daha dolanmayasan,
Əgər Heydərin başına dolanmayacaqsan!
Ey nəfəs, Heydəri xatırlamadan
Sinəyə getdinsə, qayıtmayasan!

Bu şeirlə bütün məclisi əlinə aldı. Tanıyanlar ona tabe idilər, ilk dəfə görən önəmli şəxslər də mənəvi-psixoloji baxımdan onun ixtiyarına keçdilər. Hacı Qasim də daxil olmaqla böyük şəxsiyyətlər diqqətlə ona qulaq asırdılar. Bir şəxs iclası idarə edib öz təcrübələrindən danışanda və ya sahə işini açıqlayanda xəritə önündə dayanmalı, hərbi nişanlarla danışmalıdır. O isə bəzisi yeni olan 79 hərbi taktika və modeli birnəfəsə izah etdi. Sonralar bildik ki, bu tərz danışıq və bölgülər onun özünə məxsusdur, bizim hərbi və təlim əsaslarımızda yoxdur.

Biz ilk dəfə rastlaşanda hamı onu barmaqla göstərib deyirdi ki, bu uşaq Fatimiyyun komandirlərindəndir və əfqanıstanlı uşaqlarla işləyir. Bir baxışla adamı cəzb edirdi.

Deyirdi ki, müxalif qüvvələr divarları dəlib bir evdən o birinə, bir həyətdən o biri həyətə keçirlər. Düşünürdü ki, bu döyüşlərdə son sözü snayper deyir. Onun ilk cümləsi beləydi: "Özünü və düşmənini tanımayınca döyüşə getmə. Gərək özünün bütün potensiallarına bələd olasan".

Onun müharibədə mühüm rol oynayanlar barədə bir ifadəsi vardı: "Biz müqəddəs müdafiə zamanı kiçikləri böyütdük. Biz – yəni inqilab, imam və s. Müqavimət cəbhəsində isə böyükləri kiçiltdik. Yenə də biz – yəni imam, inqilab və həzrət Zeynəb".

Əvvəl elə bilirdik ki, komandirlərin bacarıqsızlığına eyham vurur. Sonrakı izahından anladıq ki, belə demək istəyir: İraq-İran müharibəsi zamanı qarşımızda Səddam

adlı düşmən vardı. Orada ortalama 22 yaşlı gənclər müharibənin yüksək rütbəli komandirləri oldular. Burada isə ən böyüyümüz də özünü komandir hesab edə bilməz. Zərif təbirlə açıqlayanda qəbul etdik: "Burada keşikçi həzrət Əbəlfəz və həzrət Əli Əkbərdir. Həzrət Zeynəb-Kübranın belə müdafiəçiləri və komandirləri varsa, hər hansı səviyyədən kim gəlsə, onların yanında heç kimdir".

Onun söhbətlərindən sonra Suriyaya getmək istəyən birində zərrə qədər dünya sevgisi vardısa da, yox olurdu, o, hər şeyi ürəyindən çıxarırdı. Çünki orada nə titul işləyirdi, nə rütbə, nə vəzifə.

Kadrların idarəsi ilə bağlı insanları üç yerə bölüb deyirdi: "İnsanlar ya qorxaqdırlar, ya qorxusuz, ya da cəsur. Döyüşdə bunların hər üçü ilə rastlaşmışam. Qorxaqlara və qorxusuzlara maya qoymayın. Onlara hörmətsizlik etməməlisiniz, amma maya da qoymayın, ağır şəraitdə sizi tək qoyarlar".

O, qorxusuz ifadəsini izah edərək deyirdi: "Döyüşdə hamını bir-bir ehtiyatla yoldan keçirdim. Bir döyüşçü qalxıb dedi: "Bu hoqqalar nədir çıxarırsan?! Mən buradan keçəcəyəm!" Belə adamlar elə bilirlər ki, cəsurdurlar, amma ağılları yoxdur. Yolun başqa tərəfindən keçmək istəyəndə onu vurdular. Beləsi işə yaramır. Qorxaq adam da qorxur. Orada beləlari də var. Biz cəmiyyətə bu baxışla baxmalıyıq. Hamı Malik Əjdər və Əmmar deyil axı! Adi adamlardan da istədiyiniz sahədə ehtiyatla istifadə etmək olar".

Mustafa cəsur insan barədə deyirdi: "Güllə gəlsə, uzanır. Cəsur adam hücumun həcmini görəndə dayanır, amma Allahın razılığı üçün hər döyüşə girir. Belə adamlara cəsur deyirlər. Elə adamları irəli çəkin ki, başı üstə güllə olanda Allahın razılığından ötrü ona dözəcəyini söyləsin".

Söhbətinin bir yerində Şəhid Avininin Kərbəla şəhidləri, ağıl və eşq barədə məqaləsini xatırladım. O deyirdi: "Mən adam tanıyırdım ki, gedib-getməmək barədə tərəddüd edirdi. Döyüşün ortasında mənə yaxınlaşıb dedi ki, qorxuram, məni bir yolla buradan çıxar. Mən dərhal bir vasitə tapıb onu oradan uzaqlaşdırdım, düşündüm ki, qorxubsa, yeri bura deyil. Getdi, amma tez də qayıtdı. Gedəndə tərəddüdlə getmişdi, qayıdanda isə tez özünü döyüşə yetirdi və orada şəhid oldu. Sıxışmadan öncə Allahla arandakı əlaqəni həll etməlisən. Gərək özünü Allaha tapşırasan və Allahın razılığı naminə hadisələrə hakim olasan".

Mustafa bizə müraciətlə deyirdi: "Siz şəxsi heyətinizə etimad etməyə və bədbin ola bilməzsiniz. Həm özünə, həm döyüşçünə, həm də silahına inanmalısan. Bunların hər hansı birinə etimadsızlıq döyüşdə səni axsadar".

O deyirdi: "Bütün qüvvələrinə tapşırıq verəndə öz yanın boşalır. Gərək ən azı dörd-beş nəfərlik hazır bir birləşmə döyüşün ilk anından sol tərəfində olsun. Sağ tərəfin əsas birləşmədir, başına bir iş gəlsə, komandirin sol tərəfində bir birləşmə olmalıdır ki, onunla əsas hücumu xilas edə bilsin".

Onun bu təlimləri və sahə bacarıqlarını yuxarılara ötürdük, onlar da təlim qaynağı kimi onun adından korpusun bütün səviyyələrinə göndərdilər.

Çətin işləri çox sevirdi. Bir əməliyyat zamanı komandirlərin biri ona dedi:

- Sizin əməliyyatdakı yeriniz ən çətin yerdir.

- Allaha şükür, - başını qaldırıb üç dəfə dedi. – Hara daha çətindirsə, mənə verin.

# Birinci müavin

**Mürtəza Ətayi**

Təll-Qərin əməliyyatından bir müddət ötürdü. Seyid İbrahim məzuniyyətə getmək istəyirdi, həyat yoldaşı hamiləliyin son ayındaydı. Lakin briqada yerinə birini təyin etmədən getməsinə icazə vermirdi. Buna görə komandirlərlə iclaslara gedəndə məni də aparırdı. Yavaş-yavaş məni özünə birinci müavin təyin etdi və Əmmar batalyonunun işlərini mənə tapşırdı.

# Allaha şükür ki, oğru apardı

**Xanım İbrahimpur**

Mustafa gələcəkdi. Qayınanam bizə gəlib gecə saat 3-ün yarısına qədər oturdu, axırda onun gəlmədiyini görüb getdi.

Qapı zənginin monitorundan baxırdım. Gəlib çatanda zəngi basmadan qapını açdım. Yuxarı qalxdı. Yeni çantası vardı, yerə qoyanda dedim:

- Axır ki, bir dəfə evə gələndə mənə hədiyyə aldın.

- Ona əl vurma, Şəhid Sadiqinindir, - dedi. – Mən çox acam, gəl səhər yeməyi yeyək.

- Saat 4-də kim səhər yeməyi yeyir?!

Süfrə sərə-sərə dedim:

- Vay! Mənim erkən səhər yeməklərindən əsla yaxşı xatirəm yoxdur. Sənə sübh saat 5-də səhər yeməyi hazırladığım iki dəfə yeyib bayıra çıxmış, oradan da Suriyaya getmisən! Amma bu gün sevinirəm; çünki təzə gəlmisən və indi səni Suriyaya aparmazlar.

- Sən də hər şeyi yadında saxlayırsan. Mən heç vaxt bir şeyi belə yadımda saxlaya bilmərəm.

Səhər yeməyini yedik, Fatiməni məktəbə yola salıb yatdım.

Yuxudan oyananda anam zəng edib dedi ki, Baharə sərgisinə gedirəm. Axırıncı gün idi. “Birlikdə gedəkmi?” – deyə soruşanda cavab verdim: “Hə, mən də bu il Mustafaya heç nə almamışam”. Mustafa sobanın yanında uzanmışdı.

- Mustafa, anam zəng edib, deyir Baharə sərgisinə gedirsənmi? – dedim.

- Yaxşı.

Sərgiyə getdik. Nə qədər israr etdimsə, özünə heç nə almadı, dedi ki, bu dəfə bir şey almaq istəmirəm. İsrar etdim ki, nəsə alsın. Dedi ki, təkcə səndəl alaram. Bir ayağı sınıb şişmiş, ayağı bir ölçü böyümüşdü.

Qayınanamgilə gedəndən sonra Mustafa dedi:

- Mənim yadımdan çıxdı; sən bayrama nəsə almaq istəmirdin?

- Yox, çox tez yadına düşdü! - dedim.

Evimizin önünə çatanda dostunun maşında onu gözlədiyini gördük. Dedi ki, siz gedin evə, mən dostumla danışım. Fatimə ilə mən pilləkənlə evə qalxdıq. Qapını açanda gördüm ki, ev dağınıqdır. Otağa girib gördüm ki, yataqları alt-üst ediblər. Bütün siyirmələr açılıb, içindəkilər yerə tökülüb. Bütün paltarlar otağın yerinə səpələnmişdi. Baxıb gördüm ki, nə qədər qızıl və pul varsa, hamısını aparıblar. Tez Fatimənin əlindən tutub bayıra çıxdım, qapının yanından Mustafanı çağırdım, gələndə yerə oturub dedim: “Evə oğru girib!”

Fatimə ilə birlikdə qayınatamgilə qayıdıb dedim: “Evimizə oğru girib, gedin ora!” Əvvəl pul və qızıllara görə çox narahat idim. Qayınanamgildən çıxanda Mustafa da polisə zəng eləmişdi.

Qonşumuz gəlib dedi: “Mən səs-küyü eşitdim, amma elə bildim ki, Fatimədir”. Qonşu qadın mənim Allaha şükür etdiyimi görüb dedi:

- Yeni nəsə olub?

- Allaha şükür, bütün qızılları oğru aparıb, bütün pulları oğru aparıb, amma Mustafa var.

- Bəs sən niyə Allaha şükür edirsən? – deyə bu dəfə Mustafadan soruşdu.

- Allaha şükür ki, oğru bizim evi yarıb. Başqa birinin evini yarsaydı, dövlətə qarşı çox bədbin olardı.

- Gör mən nə düşünürəm, sən nə düşünürsən, - dedim.

Evə girib Şəhid Sadiqinin çantasını yerdə görəndə dedi:

- Allaha şükür ki, çantaya əl vurmayıblar. Şəhidin anasının ümidi bu çantayadır, oğlunun əşyalarını gözləyir.

Ertəsi gün birlikdə Quma gedib şəhidin çantasını təhvil verdik.

## *2015-in Mustafası*

**Xanım İbrahimpur**

Barmaq izlərini götürmək üçün polisdən qara maddə gətirmişdilər, çox çətin təmizlənirdi. Çətinliklə hər yeri təmizlədim.

Şəhid Sadiqigildən qayıdanda dedim:

- Mustafa, bayrama üç gün qalıb. Bu hamamı təmizləmirsənsə, özüm başlayım.

- Yox! Qoy bir az istirahət edim, oyanandan sonra mütləq təmizləyəcəyəm.

Saat 5-də onu çağırıb dedim:

- Mustafa, qalx, hamamı qurtar.

- Bir çay süz, indi gedib yuyuram.

Çayı boş verməyə ürəyim gəlmirdi. Un, halva və keks ətirlərindən çox xoşu gəldiyi üçün qalxıb bir az halva bişirdim. Çayı halva ilə içəndən sonra dedi:

- İndi azan vaxtıdır. İcazə ver, namazdan sonra təmizləyim.

Əvvəl bunu yuyursan, sonra gedirsən, - deyə onu itələyib hamama saldım, qapını da bağlayıb əlavə etdim: - Yu, sonra çıx!

Həqiqətən də, təmiz yudu. Düşünməzdim ki, güzgünü çıxarıb arxasını da yuya bilər.

- Təşəkkür edirəm! Çox təmiz və qəşəng olub, - dedim.

- Mükafatım budur ki, namaza gedim.

- Get, - dedim, sonra isə divarın yuxarısını qara dəsmalla sildiyini və çirkli suyun axıb divarı zebr kimi zolaq-zolaq etdiyini gördüm.

Namazdan gələndən sonra dedim:

- Mustafa, aşağılara mənim də əlim çatırdı, sənə dedim ki, yuxarıları yuyasan.

Həmin axşam hamamı yudu, qərara gəldik ki, sabah da tualeti yusun.

Ertəsi gün Fatimə məktəbə gedəndən sonra dedim:

- Mustafa, gəl bu tualeti də yu, qurtarsın.

- Yuyaram.

- Mustafa, bitir daha.

- Dostumla Quma gedirəm.

- Yu, sonra get.

Onu məcbur etdim, özüm də yanında dayanıb necə silməli olduğunu söylədim. Unitaza başlamaq istəyəndə dostu zəng etdi.

- Bunlar gözləyirlər, gərək gedim, - dedi.

- İndi getmək vaxtıdır?!

- Qoy belə qalsın, qayıdıb bitirərəm.

- Elə bilirsən ki, sən qayıdana qədər bu çirkaba dözə bilərəm?!

- Gedib Şəhid Sabirinin ailəsinə baş çəkməliyik.

Mustafa getdi, özüm ağlaya-ağlaya yuyub təmizlədim. Divarlar qaldı, hamilə olduğuma görə davam edə bilmədim. Mustafa gələndən sonra divarları yudu.

Mustafa, bəlkə də, işdən qaçırdı, amma hirslənmirdi. 2015-ci ilin Mustafası 2007-ci ilin Mustafasından çox fərqli idi. 2007-ci ildə ilk dəfə bayram təmizliyində dedim ki, gəl kömək elə, evi təmizləyək. Xəyal aləmindəydim, elə bilirdim ki, həyat filmlərdəki kimidir, mən deyən kimi o da gəlib kömək edəcək. Amma çox açıq şəkildə dedi:

- İşim var, Bəsicə getməliyəm.

O getdi və mən evi tək təmizlədim. 2015-də isə çox dəyişmişdi, onda əsəb adlı bir şey yox idi.

## *Yat, komandir*

**Xanım İbrahimpur**

Yatmaq istəyirdi. Başının üstündə oturub göz qapaqlarını barmaqlarımla qaldırdım:

- Sualıma cavab verməyincə səni yatmağa qoymayacam, - dedim.

- Sən Allah, qoy yatım, yuxusuzluqdan gözlərim ağrıyır.

- De görüm, orada vəzifən nədir?

- Bir vəzifədir də! Yaxşı, deyirəm, amma söz ver ki, heç kimə deməyəcəksən.

- Məsələn, kimə? Hafiz Şiraziyə deyə bilmərəm, amma başqalarına deyərəm.

- Yox, doğru deyirəm. Ata-anama, öz ata-anana, bacı-qardaşa – heç kimə deməməlisən. Mən batalyon komandiriyəm.

- Doğrudan?! Mən də elə bilirdim briqada komandirisən! Batalyon komandiri nədir ki?! Əsas odur ki, sən bu evin kişisisən, Fatimənin atasısan. Evin atası olmaq batalyon komandiri olmaqdan çox üstündür.

- Xanım, iki yüz adamı idarə etməliyəm. Bir yerdə işimi düzgün görməsəm, həyatları təhlükəyə düşə bilər.

- Nə olsun?! Bir neçə nəfərin canı təhlükəyə düşər; üstəlik, təhlükəyə düşsə, şəhid olarlar. Amma uşağının taleyi bu dünyada məhv olsa, o dünyada cəzalanarsan!

- Mən nə desəm, bir cavabın var, - Mustafa bezib dedi. – İndi qoy yatım.

- Yat, komandir, - dedim.

Artıq Mustafanın komandir olduğunu bilirdim. “Şəhidlərin xatirəsi” qrupunda Fatimiyyun komandirlərindən birinin şəhid olduğunu oxuyanda dünya başıma uçdu. Xörəyimi yeyə bilməyib kənara qoydum, özümdən asılı olmadan bütün bədənim titrəməyə başladı.

Sonralar eşitdim ki, Şəhid Əbu Hamid vəzifəsinin ağırlığına görə altı aydan bir evinə gedirmiş. Buna görə onun şəhadətindən sonra Mustafaya yalvarıb deyirdim:

- Birdən sənə briqada komandirliyini təklif etsələr, razılaşmayasan ha!

- Bu ki yaxşıdır. Sənə də briqada komandirinin xanımı deyəcəklər.

- İkiaylıq ayrılığa dözə bilmirəm, sən altı ay qalmaq istəyirsən?

## *Fətva*

**Xanım İbrahimpur**

Məşhəddə məqbərənin həyətində oturmuşduq. Hacı ağa Pənahian danışırdı.

- Gedək ağa Pənahianın yanına, o nə desə, qəbuldur, - dedim. – Görürsən ki, o, Suriyadan nə qədər danışır. O, "get" desə, mən də razı olacağam.

- Mən gəlmirəm, özün get, - dedi.

Zorla onu da apardım. Qapının önündə dayanmışdım. Məni görən kimi dedi: "Sən buradasan. Mən bir salam verib gəlirəm". Fatiməni də apardı.

Bir qədər gözlədim. Hacı söhbətini bitirib gedirdi, ətrafı adamla doluydu. Yerimdən qışqırdım:

- Hacı, bir saniyə! Həzrət ağa indi Suriyaya getməyə icazə verib?

- Həzrət ağa hələ icazə verməyib, - dedi.

- Bəs gedənlər nə olacaq?

- Əllərindən bir iş gəlirsə, niyə getməsinlər?!

- Bəs bizim həyatımız nə olsun?

- Kimin həyatı pozulursa, getməsin.

İkibaşlı danışdı, mən də başımı aşağı salıb getdim.

## *Şəhid anasının vasitəçiliyi*

**Seyid Əlirza Miri**

Mustafa ilə birlikdə Dəbbağzadə şəhidlərinin anasına baş çəkməyə getmişdik. Üç şəhid anası idi, doxsanıncı illərdə həzrət ağa evlərinə getmişdi. Mustafa ondan belə bir xahiş etdi: "Əgər mümkünsə, xanımımla danışın, Suriyaya getməyimə razı olsun".

## *Getməyimin yaxşı təsirləri*

**Məhəmməd Sədrzadə**

Bir gün Mustafaya dedim:

- Nə qədər şəhadətdən danışırsan?! Bir az da həyatın barədə düşün. Hey deyirsən şəhid, şəhid, şəhid!

- Qorxuram ki, dünya məni aldadar. Amma əminəm ki, getməyimin və şəhadətimin həm özümə, həm də məhəlləyə çox yaxşı təsirləri olacaq.

## *Şəhid olmaması üçün salavat*

**Vəhid Məhdəvi**

Şəhid olmağı çox istədiyini bildiyimiz üçün hər gələndə onu incidib deyirdik: "Ağa Mustafanın şəhid olmaması üçün salavat!" Sonra hamı salavat deyirdi.

Bir dəfə dedi: "Belə deməyin! Mən gedib o dünyadan sizə "okey" göndərəcəyəm." Baş barmağını yuxarı qaldırıb deyirdi: "Bu, Suriyada "okey" deməkdir. Əgər göydə buludların bu şəklə düşdüyünü görsəniz, bilin ki, mənəm, yuxarıdan sizə "okey" göndərirəm".

## *Niyə şəhid olmursan?*

**Əli Yari**

Xanımı ilə birlikdə şəhidləri ziyarət etməyə gəlmişdi. Onu ələ salıb deyirdik:

- Mustafa, sənə nə qədər güllə dəyir, niyə şəhid olmursan?

- Əli, əgər şəhid olsam, məni burada, naməlum şəhidlərin ayaqları altında dəfn edin.

# 12

# Yeddinci səfər

**(08.04.15-21.04.15)**

## *Sabitqədəm*

**Mustafa Sədrzadə**

Busr əl-hərir əməliyyatından öncə şəxsi heyətin önündə:

“Əməliyyata getdiyimiz bölgə daş-qaya dolu bir düzənlikdir. Ehtimal var ki, orada heç kim olmasın. Əgər sürətlə getsək, ələ keçirmək təxminən asan olar, amma uzatsaq, şəhid verməli olacağıq. Ümidvaram ki, bu düzü, inşallah, şəhidsiz, itkisiz alarıq.

Qalacaq onu saxlamaq. Sizdən xahiş edirəm, əl-ayaqlarınızdan öpürəm... Uşaqlar, mən həmişə Allahdan istəmişəm ki, Fatimiyyun uşaqlarının ayaqları altında şəhid kimi yox, qoyundan da dəyərsiz biri kimi qurban olum. Məhəmmədin Allahı şahiddir ki, sizin qalmanızı istəyirəm. İndi Yəmən məsələsi də qarşıya çıxıb, kral Abdullah da ölüb. İmam Sadiqin (ə) İmam Mehdinin (ə) zühuru üçün

dediyi hər şey baş verir. Kim kimədir! Bəlkə, qalıb bir gün ağanın yanında vuruşduq, bəlkə!

İndi şiələrin sayı çox azdır. İnşallah, hamımız şəhid olarıq, heç birimiz yataqda ölmərik. Yataqda ölüm arzulamaq ayıbdır! Allahı Fatimeyi-Zəhranın hörmətinə and verirəm ki, inşallah, Allah evinə çatanda, Kəbəni vəhhabilərdən alanda, Fatimeyi-Zəhra hörmətinə, orada şəhid olaq!

Allahın evi vəhhabilərin əlindədir; bir neçə imamın məzarı vəhhabilərin əlindədir. Bəhreyndə altı yüz min məzlum şiəyə zülm edilir. İndinin özündə İdlibdə altmış min on iki imamçı şiə mühasirədədir. Nübl və əl-Zəhra rayonlarında əlli min Əmirəlmöminin şiəsi üç ildir mühasirədədir. Bütün ümidləri bizədir. Biz gərək ruh yüksəkliyi ilə vuruşaq, qalib gələk, təcrübə toplayaq. Bu asan əməliyyatlarda şəhid verməməliyik. İtki verməyə bildiyimiz əməliyyatlarda itki verməməliyik.

Uşaqlar, ərazini ələ keçirən kimi, əvvəla, kimə nə desək, etməlidir. Əməliyyatda döyüşən taqımlardır. Döyüş vaxtı ümumi rəhbərliklərdən birini Əbu Əliyə tapşıracağıq. Mən öncədən döyüşdə olmuş qədim uşaqlardan ibarət bir taqımla hamınızdan öndə gedəcəyəm.

Bir neçə məsələyə mütləq diqqət yetirin: Əgər biz döyüşə girib dayanmalı olsaq, arxamızdakı batalyon və ya taqım oturmasın, şəxsi heyət ətrafa yayılıb bizdən önə keçsin, irəlidə mövqe seçib düşmənə atəş açsın (biz də istifadə edib irəliləyək). Çünki bir-birimizin arxasında dayanıb irəliləsək, önümüzü bağlayarlar. Əgər kolonda qısılıb bir-birimizə yapışsaq, Hələbdəki kimi olar; təəssüf ki, 25 nəfər bir yerdə şəhid oldu. Bəlkə də, iki otağa yığışmışdılar. Amma hamınız səpələnsəniz, kim sizinlə vuruşmağa cürət edər?!

Allaha təvəkkül edin! Onlara o qədər yaxınlaşmayın ki, güllələri sizə təsir etsin. Biz çalışacağıq ki, ərəbdilli qardaşlarla onlara təhlükədə olmadıqlarını bildirək. Deyəcəyik ki, bizim sizinlə işimiz yoxdur, sizin də bizimlə işiniz olmasın. Amma sizə hansı evdən atəş açsalar, o evi vurun. Sizə atəş açmasalar, əsir tutsanız, vurmayın. Kişi və qadını bir-birindən ayırmayın, elə bilər ki, qadını başqa yerə aparıb, Allah eləməmiş, nəsə etmək istəyirsiz. Sizi tanımır axı. Bizim əleyhimizə də əks-təbliğat aparılıb. Çox hörmətlə, çox ləyaqətlə. Əgər evdə qoca kişi olsa, əyil, əlindən öp. Mən olsam, belə edərəm. Biz onlarla ərəbcə danışa bilmiriksə, belə işlərlə biləcəklər ki, onlara hörmət edirik və onlarla işimiz yoxdur.

Əməliyyatda silahlıların xəttini ortadan yarıb o tərəfdəki qüvvələrimizlə əlaqə yaratmalıyıq. Bununla bir neçə min silahlı mühasirəyə düşəcək. Bu, çox böyük işdir, inşallah, birlikdə görərik. İstəyirəm ki, əlidolu gedək, möhkəm gedək, güclü gedək və Fatimeyi-Zəhra hörmətinə, qələbə ilə qayıdaq.

Bir söz də deyim. Döyüşə başlayanda ürək döyüntüsü istər-istəməz yüksəlir. Kimsə elə bilməsin ki, təkcə onda belədir; yox, hamıda belə olur. Mən də eləyəm. Ürək döyüntüsü yüksəlir, nəfəs daralır, dodaqlar göyərir. Hamı qorxur, təbiidir. Cəsur adam da qorxmayan deyil. Bəziləri bunu yanlış anlayırlar.

Uşaqlar, insanlar üç qisimdir: qorxaq, qorxusuz və cəsur. Qorxaq kimdir? Gecə tualetə də getmək istəyəndə qorxan adam. Bu adam işə yaramır, öz kölgəsindən də qorxur. Kim belədirsə, gəlib mənə desin, tapşırım ki, gəlməsin.

Bəzi adamlar da qorxusuzdurlar: iki binanın arasından ip çəkib üstündə yeriyir, dağdan qorxunc şəkildə atılır, ya da yerə az qalana qədər paraşütünü açmır. Bu adam

qorxusuzdur və bizim işimizə yaramır. Mən qorxusuz adam da istəmirəm. Heç nədən qorxmayanın psixoloji problemi var və bizim işimizə yaramaz; həm öz canını təhlükəyə atar, həm də digərlərinin.

Mən cəsur adam istəyirəm. Cəsur adam kimdir? Cəsur adam qorxur, deyir ki, Xudaya, ürəyim bərk döyünür, qorxuram, amma Sənə görə qorxularıma üstün gəlirəm; getməyə qorxuram, amma Sənə görə gedirəm; öndən güllə yağır, qalxıb atəş açmağa qorxuram, amma Sənə görə atəş açıram. Çünki Sən mənim eşqimsən; çünki Sən mənim Allahımsan. Çünki bütün vücudum Sənin üçündür, qalxıb vuracağam, qorxuma qalib gələcəyəm. Mən belə adam istəyirəm. Kim ilk iki qrupdandırsa, qalxıb getsin, əməliyyatda iştirak etməsin.

İkinci məsələ budur ki, bizim batalyonumuz digər batalyonlardan fərqlidir. Kim qorxursa, gələ bilmirsə, gizlicə mənə desin, mən onu aparmaram. Kim gəlmək istəmirsə, desin. Buracan gəlmisiniz, Allah qəbul eləsin! Buracan gəlmisinizsə, çox kişi adamsınız. Amma, həqiqətən, ölçüb-biçsəniz və döyüşkən olmadığınızı görsəniz, mənə deyin, mən də heç kimə bildirmərəm. On-on beş nəfərlə getsəm də, tək getsəm də, getmək istəməyəni aparmaram.

## *Hacı Hüseynin hekayəsi*

**Mustafa Sədrzadə**

Yola düzəlmək istəyəndə Hacı Hüseyn Badpa dedi: “Hiss edirəm ki, bu əməliyyat digər əməliyyatlardan fərqli olacaq. Nədənsə ürəyim işıqlıdır”.

Rəcəbin birinci axşamı əməliyyat zonasına daxil olanda ona dedim:

- Hacı can, bizim zonamız çətindir, dağdan keçəcəyik. Sən komandirsən, bir batalyonun mənəm, başqa batalyonların da var, onlarla gəl.

- Yox, mən sizinlə gedəcəyəm. Mən daha əziyyətli yerə getmək istəyirəm. Möminin əlaməti budur ki, digərlərinin rahatlığı üçün daha əziyyətli işi üzərinə götürür.

Zonaya daxil olduq. Mənə tez-tez tapşırırdı ki, ehtiyatlı ol, camaatın mal-mülkü tələf olmasın, evləri dağılmasın, yolumuzun üstündəki köçərilərin inək və qoyunlarına bir şey olmasın, uşaqları qorxmasın.

- Çox muğayat olun, - deyirdi.

- Baş üstə, hacı, necə deyirsənsə, elə də olacaq, - deyə cavab verirdim.

Ələ keçirməli olduğumuz yeri hacının tədbirləri ilə ələ keçirdik. Bəzi dostlar bizə çatmalı idilər, amma çata bilmədilər və biz orada qaldıq.

Gələsi qüvvələr gec gəldilər. Artıq hava işıqlanmışdı və düşmən bizi görürdü. Bizə köməyə gələn avtomobil karvanı düşmənin hədəfindəydi. Bütün maşınları vurdular, döyüşçülərin çoxu şəhid oldu, qalanı bir divarın arxasına sığındı. Uşaqların çoxu yaralananda hacı mənə dedi:

- Uşaqları geriyə apara bilərsən?

- Hacı, təhlükəlidir, düşmən vurur, - dedim.

- Heç nə olmaz! Allaha tapşır!

Bir maşını işə saldım. Uşaqlar da kömək etdilər, bir neçə yaralını mindirib geri apardıq. Köməyə gəlmiş uşaqların birinə dedim ki, keç sükanın arxasına. Hacıya tərəf getdim. Aramızda 15 metrlik bir yol vardı, düşmən oranı vururdu, keçmək olmurdu.

- İbrahim, qalx, gəl bura, - hacı dedi.

- Hacı, vururlar.

- Heç nə olmaz! – gülüb dedi. – “Ufəvvizu əmri iləllah” de, işini Allaha tapşır, gəl!

Qaçdım. Nə qədər atəş açdılarsa, mənə dəymədi.

- Bu uşaqlar mənə qulaq asmırlar, - dedi.

- Hacı, bunlar mənim batalyonumun uşaqları deyillər, mənə də qulaq asmırlar.

- Burda qalsalar, vurulacaqlar. Onlara de, buradan getsinlər.

Bunu uşaqlara söylədiyim yerdə bir güllə gəlib böyrümə dəydi. Yaralanıb yerə yıxıldım. Hacı ratsiyadan dedi: “Əgər İbrahimi sevirsinizsə, zirehli maşın göndərin”.

Bir zirehli maşın gəldi, amma mindirə bilməyib getdi, sonra ikincisi gəldi. Bu hadisələr 40-60 dəqiqə ərzində baş verdi. Düşmən irəliləyirdi. Ona dedim:

- Hacı, qoy qalım, barmağım işləyir, atəş aça bilərəm.

- Yox, mən şadam ki, sənə güllə dəydi.

- Niyə belə deyirsiz?

- Ailən səni gözləyir, uşağın olacaq. Mən şadam, ailənin yanına getməni istəyirəm.

Dostu qayıtdığına görə sevinirdi. Hacı Hüseyn və digərləri zirehli maşına minmək üçün mənə kömək etdilər. Minəndən sonra geri baxıb gördüm ki, hamı yıxılıb. Hacı vurulub yerə yıxılanda “ax” demədi, “mənə kömək edin” demədi. Üzünün rənginin qaçmasından bildim ki, vurulub. Əlimi uzadıb dedim: “Hacı, əlini qoy əlimə, bir “ya Əli” de, qalx!” Yalnız otura bildi. Əlini əlimə qoyanda mənə bir güllə dəydi, mən maşının içinə düşdüm. Mən yıxılanda baş barmağı ilə əlimi ayırdığını hiss etdim. Sürücü hacının minib-minmədiyini bilmədi, ona doğru atəş açıldıqda yola düşdü və hacı orada qaldı.

# Susuz dodaqlar

**Mürtəza Ətayi**

Təxminən iyirmi yeddi nəfər bir kolon şəklində geri çəkildik. Düşmən sürüyə cuman qurd kimi bizi təqib edir, yan-yörəmizdən keçən güllələrin vıyıltısı eşidilirdi.

Bu əməliyyatda şəhid və yaralımız çox oldu. Düşərgəmizi də əldən vermişdik. Geridəki mövqeyimizə çatanda Əbu Meysəm[28] mənə dedi: "Qalan qüvvələri nizama sal, mövqeyi saxlayın!"

Şəxsi heyəti topladım, amma düşmənlə vuruşmağa həvəsləri və gücləri qalmamışdı. Digər batalyonlar da geri çəkilmiş, bizi tək qoymuşdular.

Susuzluqdan damaq və dodaqlarımız yara olmuşdu. Bayıra atdığımız ağız suyumuz da qanlı olurdu. O əməliyyatda şəhid olan hər kəs susuz şəhid oldu.

Busr əl-hərir əməliyyatının ən pis və ən çətin döyüşü bizim yerləşdiyimiz yerdə baş verdi, ən çox şəhidi də biz verdik. Təəssüf ki, bu əməliyyatdan sonra bəziləri bilərəkdən, ya da bilmədən Seyid İbrahimə qarşı şayiələr yaydılar və onu günahkar göstərdilər.

Bu məğlubiyyət sonralar Seyid İbrahimlə mənim arxamca danışmaq üçün bəzi məclislərin mövzusuna döndü. Əməliyyatda məğlubiyyətə və uşaqların çoxu şəhid olduğuna görə Seyid İbrahimə hər tərəfdən təzyiqlər olurdu. Biz o əməliyyatda 120 nəfərdik, onların cəmi 27-si sağ qayıtmışdı. Şəhid cəsədləri bir yana, heç yaralılarımızı da gətirə bilməmişdik. Doqquz nəfər də əsir düşmüşdü. Onların beşini öldürdülər, dördü də ramazan ayında onlardan dörd əsirlə dəyişdirildi.

---

[28] Bu əməliyyatda Fatimiyyunun komandiri

## *Sən necə rəhimsizsən*

**Xanım İbrahimpur**

Çərşənbə axşamı idi. Səhər tezdən xanım Badpa zəng edib dedi:

- Yeni bir xəbər varmı?

- Heç kimdən xəbərim yoxdur. Etibarlı bir xəbər söyləyən də yoxdur. Sizdə necə?

- Yox... amma çox həyəcanlıyam.

Onunla sağollaşanda göz yaşlarım yanaqlarıma süzülürdü. Anamla qayınanam gəldi. Dedim: "Mustafa yaralanıb. Bu gün İrana gətirəcəklər". Bütün qəm-qüssə və göz yaşlarıma rəğmən, Mustafanın İrana qaytarılacağına sevinirdim. "Allaha şükür, - dedim, - nə olsa da, Mustafanı qaytarsınlar. Mən razıyam ki, şikəst olub evdə otursun, amma evdə olsun!"

Bunu deyən kimi qayınanam üzünü turşutdu və sağollaşıb getdi. Anam məni danlayıb dedi:

- Niyə elə dedin? Yazığın qəlbi sındı.

- Onun burda olması yadımdan çıxdı, fikir vermədim.

Anamla danışdığım yerdə ev sahibimizin xanımı gəldi. Onda Kohənzdə Hacınəsirinin evində kirayəçi idik. O danışdığı yerdə də Şəhid Qasiminin anası zəng etdi, salamlaşandan sonra dedi:

- Ağa Mustafadan nə xəbər var?

- Yaralanıb.

- Mən axşamdan bilirəm, amma sənin narahat olacağından qorxurdum.

- Bilmirsiz, harasından yaralanıb?

- Ayağından.

Onunla danışır, ucadan gülürdüm. Mustafanın qayıtdığına görə sevinirdim. Danışıb qurtarandan sonra ev sahibəsi dedi:

- Necə sevinirsən!

- Razıyam ki, qolu kəsilsin, ayağı kəsilsin, şikəst olsun, amma evdə otursun, daha gedə bilməsin.

- Sən necə rəhimsizsən!

- Mənimçün heç bir fərqi yoxdur, ancaq istəyirəm ki, evdə olsun.

## *Nə az, nə çox*

**Mürtəza Ətayi**

Seyid İbrahim bu əməliyyatda ağır yaralandı və onu Tehranın Bəqiyyətullah xəstəxanasına göndərdilər. Bir güllə döş qəfəsinə, biri də onurğasının yanına dəymişdi. O olmayanda bir neçə nəfər şayiə yaymışdı ki, Seyid İbrahim ona tapşırılandan çox irəliləyib, razılaşdırmadan düşmənin içinə giribmiş. Halbuki elə deyildi. Mən əməliyyatdan qabaqkı iclaslarda iştirak etmişəm. O, məhz əməliyyatdan öncə ona tapşırılan işi görmüşdü; nə az, nə çox. Lakin iki cinah bizə çata bilməmişdi. Özləri zəiflik göstərmişdilər, yoxsa iş düyünə düşmüşdü – bunun səbəbi bizə aydın olmadı. Bizim arxadan xəbərimiz yox idi, ətrafımızda nə baş verdiyini, arxanın nə vaxt boşaldığını bilmədik. Əməliyyatda iştirak edən üç istiqamətdən biri yuxarıdan, biri ortadan, biri də aşağıdan irəliləyəcək, hamısı bizə tərəf gələcəkdi. Amma gəlmədilər, ehtiyat batalyonumuz olacaq batalyon da praktik olaraq bizə əl vermədi.

## *Yardım xətti*

**Mustafa Ağaməhəmmədlu**

Biz İdlibdə mühasirədə olanda Rza Müəllim zəng edib dedi: “Mustafa şəxsi heyəti ilə Şərqi Quta ilə Qərbi Qutanın əlaqəsini kəsməyə gedib”. Bu, olduqca riskli bir əməliyyat idi. Bu əməliyyatda səksəndən çox şəhid verdik, bir qədər əsir düşdü, Mustafa da yaralandı. Ərihada olanda bildik ki, Mustafagil bu əlaqəni kəsməkdən ötrü düşmən mövqelərində 7 km irəliləməlidirlər.

## *Ölüm avanqardı*

**Məhəmməd Sədrzadə**

Axır zamanlar Mustafanın taqəti tükənmişdi, deyirdi ki, şəhid ailələrindən xəcalət çəkirəm, hər halda, onların uşaqları mənimlə Suriyaya getmişdilər. Anasına da deyirmiş ki, dua elə, şəhidlərin yanında xəcalətli olmayım. Buna görə özü şəxsi heyətin önündən gedirmiş, dostlarının şəhid olmasına dözə bilmirmiş.

## *Beynəlmiləl komandir*

**Mürtəza Ətayi**

Hər dəfə məzuniyyətdən sonra Mühafizə xidməti iranlı olduğumuza ilişir, getməyimizə mane olmağa çalışır, deyirdi ki, öz pasportunuzla getməlisiniz; yəni korpusdan məktub alıb təşkilatın xətti ilə getmək.

Ezamiyyət rəhbərinə mesaj yazıb əfqanıstanlı uşaqlarla birlikdə Məşhəddən avtobusla Tehrana imamın məqbərəsinə getdik. Nə baş vermişdisə, hansı Allahdan xəbərsiz ayağımın altını qazmışdısa, mənə dedilər ki, sən

iranlısan, gərək Məşhədə qayıdasan. Yenə eyni macəra! Nə qədər xahiş-minnət etdimsə, xeyri olmadı, mühafizə nəzarətçisi dedi ki, gərək Məşhədə qayıdasan. O, iki həftə öncə də Seyid İbrahimi təyyarənin yanından qaytarmışdı.

Hamı avtobusa minib hava limanına getdi, mənsə həsrətlə baxa-baxa qaldım. Getməyə qoymayan adam məni bir maşına mindirib yola düzəldi. Şəhərə girdik. Tehranı yaxşı tanımadığıma görə hara getdiyimizi bilmirdim. Ancaq çatdığımız bina Mühafizə xidmətinə oxşayırdı.

Təxminim düz çıxdı. Əvvəl mobil telefonumu alıb parolunu istədilər. Açıb onlara verdim. Nə axtardıqlarını bilmirdim. Telefonu alt-üst etdilər. Dörd-beş nəfər telefonun üstünə çöküb danışırdı. Təxminən həm iranlı, həm də bəsici olduğumu öyrənmişdilər. Ancaq sübutları olmadığına görə boynuma almır, deyirdim ki, əfqanıstanlıyam.

Divarın yanında oturmuş adam telefonu notbuka birləşdirib yoxlamağa başladı. Çox həyəcanlı idim, iranlı olduğumu sübut edəcək bir şeyin tapılacağından qorxurdum.

Birdən təəccüblənib məni çağırdı. Gedib yanında oturdum. Xidmətçi paltarında çəkdirdiyim şəkilləri göstərdi. İmam Rzanın (ə) məqbərəsinin xidmətçisi olduğuma görə xidmətçi geyimində qızımla bir neçə şəklim vardı. Məni tər basdı. Bir mənə, bir də şəkillərə baxdı, dili-ağzı bağlandı. Əsla üz vurmayıb yoldaşlarına dedi: "Yox, ağa, telefonunda heç nə yoxdur!" Deyəsən İmam Rzanın (ə) mənim arxamda olduğunu düşünmüşdü.

Orada məndən yazılı öhdəlik aldılar ki, Məşhədə qayıdım və bir də oralarda görünməyim; əks təqdirdə mənə qarşı tədbir görəcəkdilər. Vərəqi imzaladım. Məni imamın məqbərəsindən gətirmiş adam yenə maşına mindirdi,

Əfsəriyyə üçyoluna yaxın bir yerdə düşürtdü. "Məşhəd maşınları buradan gedirlər, – dedi, sonra əlini cibinə salıb beş ədəd onminlik çıxardı, mənə verib əlavə etdi: - Al, bu da yolpulun. Burda maşına min, get Məşhədə".

O qədər hirsli və narahat idim ki, içim-içimi yeyirdi. Artıq kimliyim bəlli olmuş, itirəcək bir şeyim qalmamışdı. Bütün hikkəmi getməməyimin əsas səbəbkarı bildiyim bu adama boşaltdım, pulu üstünə tullayıb maşından endim.

- Bu pulu al, get maşına min! – dedi.

- Pulun başına dəysin! – qəhər içində dilləndim. – Sənin puluna qalmışam?! Get işinin dalınca! Məni buraya qədər gətirən özü də qaytarar! – deyə yola düzəlib getdim.

- Hey! Hey! – deyə yenə məni səslədi. – Sənə deyirəm bura gəl. Səninlə deyiləm?!

Məhəl qoymayıb yoluma davam etdim. Bir neçə addımdan sonra məni ağlamaq tutdu, üzüm islandı. Qəlbim çox sındı. Orada qərara gəldim ki, Məşhədə qədər piyada gedib İmam Rzaya (ə) ondan şikayət edim. Narahat halda, çiynimdə çanta yola düzəldim. Çox qərarlı idim. On-on beş dəfə piyada Kərbəlaya getdiyimə görə alışmışdım, ağlaya-ağlaya gedirdim.

Hələ 1 km getməmiş telefonumun zəngi çalındı. Həmin adamın nömrəsindən idi. Çox çətin adam idi. Seyid İbrahim bir müddət qabaq onun nömrəsini vermişdi, telefonuma qeyd etmişdim.

O qədər incimişdim ki, zənginə cavab vermədim. Üç dəfə, dörd dəfə... iyirmi dəfə zəng etdi. Əl çəkmək bilmirdi. Hələ də boğazımda qəhər vardı. Fikirləşdim ki, cavab verim, bir neçə yaxşı söyüş də söyüm. Zəngi açan kimi ona imkan verməyib dedim:

- Bizim vuruşduğumuz İŞİD-çilərə bir oxşarlığın var, bilirsən?

- Danışığına fikir ver! Danışığına fikir ver! Bərk getmə!
- Oxşarlığın budur ki, onlar kimi həzrət Zeynəbin yoluna daş diyirlədirsən!

Bunu deyib əlaqəni kəsmək istəyəndə dedi:

- Dayan! Sənə demək istəyirdim ki, işin düzəlib!
- Necə yəni? – fərqli və sakit səs tonu ilə soruşdum.
- Zəng etdim deyim ki, işin düzəldi. Düşərgəyə get, mən qarovulla danışacağam. Get, orada yat.

Çərşənbə axşamı idi. Dedi ki, cümə axşamı günü iranlılarla göndərəcəyəm, gedərsən.

Mat-məəttəl qaldım. Bu qədər hadisədən sonra nə baş verdi? Görəsən Seyid İbrahim zəng edib? Yoxsa İmam Rza (ə) bunun boynunun arxasından şapalaqmı vurub? Nə idisə, anlamadım.

- Necə yəni? – inanmayıb bir də soruşdum.
- Yəni get düşərgəyə, birisi gün iranlılarla gedəcəksən.

Fatimiyyun qüvvələrini heç vaxt iranlılarla göndərməmişdilər. Onlar yalnız çərşənbə axşamı günləri uçurdular, iranlılar da cümə axşamı günləri. Maşınla düşərgəyə getmək üçün yolumu Əfsəriyyə üçyoluna tərəf döndərdim.

Təxminən 10 dəqiqədən sonra yenə zəng edib dedi:

- Cümə axşamının reysi doludur, gərək elə çərşənbə axşamı öz reysinizlə uçasan; yəni bir həftədən sonra.
- Necə yəni? - deyə yenə hirsləndim və səs tonum dəyişdi.
- Çərşənbə axşamı səni göndərəcəm. Amma bu bir həftəni get Məşhədə, oradakı uşaqlarla birlikdə gələrsən.
- Çərşənbə axşamı da deməyəcəksən ki, olmur, mümkün deyil? – gözüm qorxduğuna görə soruşdum.
- Yox; sənə gedəcəksən deyirəmsə, gedəcəksən.

Fikirləşdim ki, bir həftədən sonra gələcəyəmsə, bu ağır çantanı aparıb-gətirməyim. Seyid İbrahimə zəng etdim, Zantiya avtomobili ilə gəldi.

- Səni kim qaytardı? Həmin adam?

- Hə, özüydü.

- Bu, çox mərifətsiz adamdır! Məni iki-üç dəfə düşərgədən qaytarıb.

Bu müddətdə Seyid İbrahimlə çox səmimi olmuşduq, bir-birimizin cik-bikindən xəbərimiz vardı. Mən onun Hacı Qasimlə yaxşı və yaxın münasibətindən xəbərdar idim.

- Sənin ki Hacı Qasimlə münasibətin var, telefon nömrəsini də bilirsən. Bir zəng elə, de ki, məsələ belədir. Hacı tapşırsa, ömür boyu heç kimin səninlə işi olmaz, sənə problem yaratmazlar.

Dediyi sözə heç bir cavab tapa bilmədim:

- Bilirsən nə var, Əbu Əli?! Hacı beynəlmiləl şəxsiyyətdir, başı çox qarışıqdır. İraq var, Suriya var, Livan var... Beyni hər yerdə məşğuldur. İndi mən bu boyda bir komandirə şəxsi işdən ötrü zəng edim?! Onun beynini məşğul edim ki, ağa, məni getməyə qoymurlar?! Heç vaxt bunu etmərəm. Düzəlməli olsa, özüm düzəldərəm, Hacı Qasimə demərəm.

## *Hər işi görən*

**Mürtəza Ətayi**

Həmin gün məni Şəhriyara evinə apardı. Çox israr etdi ki, gecəni qalım, amma razılaşmadım, Məşhəddə bir neçə işim vardı, getməli idim. Çantamı onun evinə qoydum.

Yenə maşını ilə yola düşüb Şəhriyarın yaxınlığında omlet yedik, bir neçə foto və video çəkdik. Seyid İbrahim

kameraya baxıb dedi: “Ay camaat! Əbu Əli gedir, işi düzəlib!”

Çay içəndən sonra məni Məşhəd magistralına apardı və onunla sağollaşdıq.

Şən və sevincək Məşhədə qayıtdım, yenidən adımı yazdırıb bir həftədən sonra əfqanıstanlı uşaqlarla Tehrana ezam qüvvələrinin düşərgəsinə getdim. Mühafizə xidmətinin işçiləri məni görən kimi dedilər:

- Aa... sən yenə gəldin?! Nə üzlü adamsan sən!

Sanki məni elektrik cərəyanı vurdu, yenə qaytarılmaq qorxusu bütün vücudumu bürüdü. Mənə söz vermiş adamı görüb tez yaxınlaşdım:

- Bunlar nə deyirlər?! – deyə soruşdum.

- Problem yoxdur. Sənin işin olmasın.

Döyüş nişanımı alandan sonra rahatlaşdım. Zəng etdim, Seyid İbrahim çantamı gətirdi. Həmin adama dedim:

- Keçən həftə çantamı uşaqların birinin evinə qoymuşdum; indi gətirib, düşərgənin önündədir. Gedib ala bilərəmmi?

Mənə qarşı həssas olduqlarına görə hətta düşərgənin önünə də icazəsiz getmək istəmirdim. Digər tərəfdən, Seyid İbrahimlə araları pis olduğuna görə onunla rastlaşmalarını istəmirdim. Amma özü başa düşüb mənə dedi:

- Kim gətirib? Həmin gədə, Seyid İbrahim? Çantanı ona vermişdin?

Seyid İbrahimə gədə dediyinə görə çox narahat oldum, amma qorxumdan bir söz demədim.

- Sən getmə, birini göndərərəm gedib alar, - dedi, amma birinin yerinə özü getdi.

Mən də getməyə cürət etmədim. Bəhanə axtarırdı, hər an tərsliyi tuta və getməmə mane ola bilərdi.

Düşərgənin qapısı dəmir millərdən idi, o tərəfi görünürdü. Bir az uzaqdan göz qoydum. O nə dedisə, İbrahimin səs-küyü qalxdı, dalaşan adam kimi ona yaxınlaşdı. İş vurhavura gedib çıxmadı, amma səslərindən bir-biri ilə sərt danışdıqları bilinirdi. Vicdan əzabı çəkdim. Seyid İbrahim mənə görə gəlib nalayiq sözlər eşidirdi. Bu, onun Suriyaya getməsini gecikdirə də bilərdi.

Seyid İbrahimin adəti buydu. O, təkcə mənə yox, bütün uşaqlara xidmət edir, hamının işini düzəldir, hamının işini görürdü; özündən başqa.

Səslər o qədər yüksəlmişdi ki, aydın eşidirdim:

- Yaramaz, deməmişəm ki, səni buralarda görməyim?! - Seyid İbrahimə dedi.

- Sənə dəxli yoxdur! Sən kimsən ki?! Məni kimsə göndərəcəksə də, o adam sən deyilsən ki, səndən xahiş edim. Elə bilirdin ki, gəlib sənə yalvaracağam? Mənim yalvaracağım adam həzrət Zeynəbdir, sən yox!

Mən işimə görə bir söz deməyə qorxurdum, Seyid İbrahimsə çox möhkəm şəkildə sözlərini dedi. Hər halda, həmin adam çantanı ondan alıb mənə gətirdi. Mən gedəndən bir-iki həftə sonraya qədər Seyid İbrahim hələ də İrandaydı və Suriyaya getmək işi ilə məşğul olurdu.

## Unutqan adam

**Sübhan İbrahimpur**

Çox unutqan adam idi, tez-tez təsbeh itirirdi. Məscidin möhürləri bitəndə biz evdən aparırdıq. Çünki fikirli olub namazdan sonra cibinə qoyurdu!

Salam verməyə qarşı çox həssas olsa da, beyni məşğul olanda salam vermək yadından çıxırdı. Uşaqlar onu ələ salıb deyirdilər: “Mustafa, niyə özünü bu qədər dartırsan?”

## *Sən haradasan?*

**Məhəmməd Əliməhəmmədi**

Beyni getmək barədə o qədər fikirli olurdu ki, çox şeyi unudurdu. Bir dəfə xanımı və qızı ilə Tehrana Səid Həddadianın rövzə məclisinə gedibmiş. Məclis qurtarandan sonra maşına minib Şəhriyara yola düşüb. Xadimabada yaxınlaşanda xanımı zəng edib soruşub ki, sən haradasan?

## *Tanış ayaqqabı*

**Sübhan İbrahimpur**

Özü də, xanımı da yol yeriyəndə başlarını qaldırmır, kimsəyə baxmırdılar. Bəzən bir-birinin yanından keçirdilər, amma heç biri görmürdü.

Bir dəfə bacım dedi: “Bir-birimizin önündən keçirdik; nə o, mənə baxdı, nə də mən ona. Mən bir anlığa ayaqqabısından onu tanıdım, çünki özüm almışdım. Dönüb arxadan çiyninə vurdum və “ağa” dedim. Çevrilib gördü ki, mənəm”.

# 13

# Səkkizinci səfər

**(30.06.15-28.07.15)**

## *Ana haqqı*

**Həkimə Əfqəh**

Getdiyinə görə ailəsi əziyyət çəkirdi, qızı da tez-tez atasını istəyirdi. Xanımına haqq verirdim. Amma Mustafa da, həqiqətən, insanları qane etməyi yaxşı bacarırdı, elə gözəl dəlillər gətirirdi ki, mənim başqa sözüm qalmırdı, ona deyirdim: "Oğul, mən öz haqqımdan keçdim, amma xanımını razı sal".

## *Can dostu*

**Mürtəza Ətayi**

Busr əl-hərir əməliyyatından bir ay yarım ötürdü. Mustafa, nəhayət, ramazan ayında Suriyaya gələ bildi. Lakin biz görüşə bilmirdik; mən Tədmurdaydım, oysa Həmada.

Tez-tez vəziyyətini öyrənir, telefonda ona deyirdim: “Səndən ötrü darıxırıq. Burada tək ləzzəti olmur. Danış, ya mən Həmaya gəlim, ya da sən bura gəl, birlikdə işləyək”.

Bir gün maşınla Həmadan Tədmura gəldi. Uşaqlar deyirdilər ki, başımın üstünə gəlib, yatdığımı görüb məni öpüb və gedib. Uşaqlar demişdilər ki, qoy oyadaq, üç-dörd gündür səni soruşur, gəlib-getdiyini bilsə, çox narahat olacaq. O isə demişdi ki, yox, yorğundur. Görüşək deyə o qədər yol gəlmiş, amma məni öpərək 200 km-lik yolu geri qayıtmışdı.

Seyid İbrahim Tədmur əməliyyatından qabaq yeni diviziya komandirimiz Hacı Heydərlə görüşdü, mən, hacının birinci müavini və digərləri də görüşdə iştirak etdik. Görüş təxminən bir saat yarım çəkdi, Seyid İbrahim bütün Busr əl-hərir əhvalatlarını Hacı Heydərə danışdı. Ondan sonra hacının fikri 180 dərəcə dəyişdi, hətta ayağa qalxıb Seyid İbrahimi qucaqladı.

Seyid İbrahimin sözünün və mənəviyyatının gücü hamını təsirləndirirdi, dinləyici danışanın Allah adamı olduğunu bilirdi. Hacı Heydərlə görüşdə də bu nurluluq öz işini gördü.

Seyid İbrahim Həmada briqada komandirinin birinci müavini oldu. Vəzifədən çox da xoşu gəlmirdi, ona bir vəzifə təklif edəndə deyirdi: “İstəyirəm ki, bir komandamız olsun; mən olum, silahım olsun və bir neçə can dostum – hücum edib düşməni darmadağın edək”. O, xüsusi təyinatlı Nasirin birləşməsini məhz bu məqsədlə yaratdı.

Tədmur əməliyyatının vaxtı gələndə Seyid İbrahimi və şəxsi heyətini çağırdılar.

Seyid mənə dedi:

- Sən hara getmək istəyirsən?

- Sən hardasansa, biz də ordayıq. Bizi diviziyanın Təbliğat xidmətinin əlindən azad elə![29]

- Yaxşı, əziz insan, biz birlikdəyik!

Hacı Heydər hələ mənim yerdəyişməm barədə qərarını verməmişdi. O vaxta qədər onu görməmişdim, o da məni tanımırdı. Seyid İbrahim hacı ilə danışandan sonra o da mənimlə danışıb dedi:

- Əbu Əli, sənə bir batalyon vermək istəyirəm.

- Nə istəyirsiniz, edin, amma məni Seyid İbrahimdən ayırmayın, qoyun bir batalyonda olaq.

Bizim bir-birimizə çox bağlı olduğumuzu görüb razılaşdı və dedi:

- Diviziyanın Təbliğat xidməti, Kəşfiyyat xidməti və Seyid İbrahim səni istəyirlər. Qərar sənindir; hara istəyirsən, get.

Mən Seyid İbrahimi seçib yeni batalyonda onun birinci müavini oldum.

## *Tədmur təpələri*

**Mürtəza Ətayi**

Yavaş-yavaş əməliyyat vaxtı yaxınlaşır, Seyid İbrahim batalyonun işlərini yerbəyer edirdi. Mədəni-tərbiyəvi işlər üçün bir maşın vardı, təbliğatla yanaşı, Seyid İbrahimin batalyonunun işlərini də onunla görürdük. Onun sürücüsü çox ürəkli adam idi, iri cüssəsi də vardı. Əvvəllər Seyid İbrahimin özünə siqaret çəkən və bizim laqeyd hesab etdiyimiz bir adamı özünə sürücü götürdüyünə çox təəccüblənirdim, sürücüsünün də mənəviyyatlı, namazqılan

---

[29] Şeyx Məhəmmədin Əbu Əliyə ehtiyacı vardı, onun Təbliğat xidmətindən getməsinə icazə vermirdi.

və hizbullahçı olmasını gözləyirdim, daha həmişə musiqiyə qulaq asan yox.

Bir dəfə Seyid İbrahimə dedim: "Seyid, maşından bu qədər siqaret iyi gəlir, sənin ürəyin bulanmır?" Başını yelləyib bir söz demədi. Sonra bildim ki, o adamı yaxşıya doğru dəyişmək üçün gətirib.

Qərara alınmışdı ki, əməliyyat Tədmur magistralının şəhərdən təxminən 15 km-lik məsafəsindən üç istiqamətdə başlasın. Zonanın genişliyinə görə bu əməliyyatda Fatimiyyun, Hizbullah və Suriya ordusu iştirak edəcəkdi. Suriya könüllüləri Livan Hizbullahının rəhbərliyi altında orta istiqamətə və yolun ətrafına yerləşmişdi. Düzənlikdən ibarət olan sol istiqamət Suriya ordusuna, təpəlik zona olan sağ istiqamət də Fatimiyyuna tapşırılmışdı. Fatimiyyunun yeni batalyonu təxminən 150 yeni və köhnə döyüşçüdən yaradılmışdı.

Əməliyyat zamanı gəldi. Bir yerə toplaşıb əməliyyat əmrinin verilməsini gözləyirdik. Sübh azanına təxminən bir saat qalırdı. Zülmət qaranlıqdaydıq. Briqadanın Təbliğat rəisi Şeyx Məhəmməd söhbət etdi, sonra uşaqların bir-ikisi rövzə oxudu. Hamı həzrət Zeynəb mərsiyəsinin nəqəratını oxuyur, ağlayırdı.

Uşaqlarda yaxşı mənəvi hal yarandı. Məddahlıqdan sonra hər yerə sükut çökdü. Birdən Seyid İbrahim dedi:

- Gecənin bu vaxtı bu mənəvi ortamda cəbhənin mənəviyyat dolu ab-havasını məhv etməkdən ləzzətli nə ola bilər?!

- Allah səni öldürməsin! Bu nə söz idi dedin, - dedim və hamımız gülüşdük.

Sübh azanından sonra düşmənin başına minaatan, katyuşa və digər artilleriya atəşləri yağmağa başladı. Atəş dayanandan sonra əziz Hacı Qasim irəliləmək əmri verdi.

Əvvəllərdə çox yaxşı irəliləyirdik. Bir neçə kilometr problemsiz getdik. Ən çətin istiqamət olan orta istiqamət Hizbullaha tapşırılmışdı. Düşmən daha çox oraya mərkəzləşmişdi. Bu baxımdan, orada bir qədər problem yarandı və bizim sürətimiz də azaldı. Təlimat beləydi ki, hansı istiqamət ləngisəydi, digər iki istiqamət də onu gözləməli idi. Lakin çoxlu partlayış tələlərinə, düşmənin canlı qüvvəsinin çoxluğuna və yer maneələrinə görə Hizbullah qüvvələri irəliləyə bilmədilər və biz yoldakı "Üç qaş" adlı yerdə üç-dörd gün qalmalı olduq. Hizbullah uşaqları gələnə qədər müdafiə mövqeyində olduq.

Əməliyyat uzanır, fitr bayramı yaxınlaşırdı. Bu bayram Suriya könüllüləri üçün böyük bayram sayılır və bir neçə gün tətil edilirdi. Bu səbəbdən yeni döyüşçülər bölgəyə gec gəldilər və əməliyyat bir qədər də uzandı.

Fatimiyyunun əməliyyat zonası təpəlikdən ibarət idi. Sağ tərəfimizdə hündür təpələr vardı, düşmən oradan maşınla gələ bilmirdi, yalnız piyada qüvvələr gələ bilirdilər. Buna görə təpələrə döyüşçü yerləşdirdik. Oraya get-gəl o qədər çətindi ki, su və yeməyi də bir neçə gündən bir aparırdıq. Dayandığımız yerin hər tərəfi təpəlik idi, yerləşmək üçün təhlükəsiz zona sayılırdı. Biz də orada çadır qurduq.

## *Doktor Dərviş mövqeyi*

**Mürtəza Ətayi**

Seyid İbrahimlə mən əməliyyatlarda adətən gecələr yatmırdıq. Bir gecə seyid dedi: "Əbu Əli, biz səhərə qədər oyaq qalıb şəxsi heyətə baş çəkirik. Amma belədə enerjimiz hədər gedir və elə də effektiv olmur. Gəl işləri bölək".

Qərara gəldik ki, bir gecə mən oyaq qalım, bir gecə o. Seyidin geridə istirahət növbəsi olanda şəxsi heyətin yanında olmamağa ürəyi gəlmirdi, bir-iki saat istirahət edib qayıdırdı. Mən də eləydim.

Tərəf-müqabilimiz İŞİD olduğuna görə onunla işi zarafat saymaq olmazdı. Onlar digər silahlı qruplaşmalardan daha peşəkar idilər və daha güclü inancla vuruşurdular. İşə çox ciddi yanaşırdıq ki, problem yaranmasın.

Mövqeyi bərkitmək üçün qaldığımız dörd gecənin dördündə də düşmən bizə hücum etdi. Bizə yaxınlaşıb itki alır və qayıdırdılar. Mustafa və Müctəba Bəxtilər[30] də həmin gecələrin birində birlikdə şəhid oldular. O dörd gecədə üçü suriyalı və beşi Fatimiyyundan olmaqla səkkiz şəhid verdik.

İŞİD vahimə və ruh düşkünlüyü yaratmaqdan ötrü hər gecə pusqu patrulu çıxarırdı. Əlbəttə, bizim uşaqlarımız sayıq idilər, hücumlarını dəf edir və onlardan can alırdılar.

Bu əməliyyatda çox dəhşətli bir gecə yaşadıq. İşi bitirməyə və mövqeyi bizdən almağa gəlmişdilər. Maşınlarımızın ikisini vurdular. "Düşmən hücum edib", - deyə bir nəfər bildirdi, amma başqa biri dərhal cavab verdi: "Yox, bizimkilərdir, bizi düşmənlə səhv salıblar". Ratsiyalarla söhbət başladı və hay-küy düşdü. Biri deyirdi bizimkilərdir, vurmayın, biri deyirdi ki, düşməndir, vurun.

---

30 Mustafa ilə Müctəba hərəm müdafiəsinin ilk şəhid qardaşlarıdır. Müctəba 1988-ci ildən idi və subaydı, Mustafa isə 1982-ci ildən və iki qız atası idi. Onlar əfqanıstanlı pasportu ilə Məşhəddən Suriyaya getmişdilər. Pasportlarının saxta olduğu bilinəndə isə Qumdan iki xalaoğlu kimi ezam olundular. Onların getməsinə kömək etmək üçün anaları da əfqanıstanlı ləhcəsini öyrənmişdi. Onlar 2015-ci ildə Tədmurun azadlığı zamanı, bir suriyalı ilə birgə səngərdə olarkən düşmənin atdığı əl qumbarasından şəhid oldular.

Biz də qaranlıqda heç kimi görmədən qalmışdıq, nə edəcəyimizi bilmirdik. Təxminən 15 dəqiqə keçəndən sonra Seyid İbrahimə dedim:

- Seyid, nə edək? Belə olmaz! Əgər düşmən mövqeyimizə giribsə, gərək qarşısını alaq.

Hərə bir söz deyirdi. Seyid İbrahim hirslənib ratsiyadan dedi:

- Ağzınızı yumun! Heç kim danışmasın, görüm nə məsələdir.

Pis yolayrıcında qalmışdıq. Bir qədər sonra Seyid İbrahim gözəl bir tədbir düşünüb:

- Əbu Əli, səs pikapını işə sal, gedək! – dedi.

- Seyid, nə etmək istəyirsən? – deyə soruşdum.

- Buradan maşınlarımızın vurulduğu yerə qədər 2-3 km yol var. Ora getməliyik!

Səsucaldandan Ahəngəranın səsini buraxdı, "ey Sahibəzzaman ordusu" marşı gecənin ortasında hər tərəfi bürüdü. Danışdıq ki, pulemyot yüklü bir pikap da bizim arxamızca gəlsin. İbrahim onlara dedi: "Biz öndən gedirik, siz də yavaşca arxamızca gəlin. Kim bizə atəş açsa, siz də ona atəş açın!"

Sonra ratsiyadan elan etdi: "Biz səs maşını ilə təhdidə doğru gedirik. Heç kim bircə güllə də atmasın. Kim bizə tərəf bir güllə atsa, onu dəlik-deşik edəcəyik!" Pulemyot pikapına təkidlə tapşırdı ki, bizə tərəf bircə güllə də atılsa, həmin nöqtəni dərhal atəşə tut və heç kimə rəhm eləmə!"

Çox yavaşca yola düzəldik. Heç kim atəş açmırdı. Dedim ki, seyid, deyəsən bizimkilər imişlər, səhvən vurublar. Vurulmuş iki maşının əlli addımlığına çatdıq. Qapıları açıq idi, uşaqlarımız içində şəhid olmuşdular. Düşmən olmadıqlarını bir də seyidə söyləmək istəyəndə birdən maşınımıza doğru atəş yağmağa başladı. Nə baş

verdiyini anlamadan qapıları açıb bayıra atıldıq, geriyə doğru diyirləndik. Maşın uzaq işıqları yanan halda İŞİD güllələrinə hədəf olmuşdu.

O zülmətdə Seyid İbrahimin ratsiyasının işığı yandı. “Seyid, ratsiyanı söndür, indi dəlik-deşik olacağıq”, - dedim. Silahını bizə atəş açanlara doğru çevirəndə qoymadım, bildirdim ki, düşmən yerimizi bilməməlidir. Diyirlənə-diyirlənə güllələrin yan-yörəmizdən keçdiyini görürdüm, amma heç biri bizə dəymirdi. Daş və torpaq qırıqları üzümüzə sıçrayırdı. Əlli metr diyirlənəndən sonra çay yatağı kimi bir kanal görüb özümüzü onun içinə atdıq. Seyid İbrahim ratsiyadan:

- Mövqeyi möhkəm saxlayın! Düşmən hücum edib! – dedi, sonra üzünü mənə tutub soruşdu: - Pikap hanı?

- Seyid, bilmirəm. Namərd qorxub qaçıb.

Həmin kanalla təxminən 500-600 metr gedib pikapın sürücüsünü və pulemyotçunu gördük.

- Namərdlər! – deyə seyid onları görüb hirsləndi. – Məgər siz arxamızca gəlib bizi qorumayacaqdınız?! Hara yoxa çıxdınız?

- Maşın torpağa ilişmişdi, - dedilər.

- Ardımızca gəlin, - seyid onlara baş qoşmayıb dedi.

Qaça-qaça özümüzü uşaqlara yetirdik. Maşınla getdiyimiz 2 km yolu piyada qayıtdıq.

- Zirvədən hücuma keçmək istəyirlər, - deyə uşaqların biri ratsiyadan bildirdi.

Elə bilirdik ki, mövqeyi yarıblar. O qaranlıqda fəaliyyətlərindən xəbər tutmaq olmurdu.

- Əbu Əli, get zirvəyə, mən də buraya yapışıram, - Seyid İbrahim dedi və mən hərəkət etməmiş əlavə etdi: - Yox-yox, ora mən özüm gedəcəyəm.

Başa düşdüm ki, orada vəziyyət daha təhlükəli olduğuna görə özü getdi.

Düşmənlə aramızdakı kanalların arasında U şəkilli bir səngər düzəltmişdik. Orada pikapla ağır pulemyot hazır vəziyyətdə olurdu. Oraya getdiyim yerdə birdən yuxarıdan bir əl qumbarasının endiyini gördüm. Partlayışdan sonra bir vurhavur başladı ki, gəl görəsən. Qəfil yaxalanmışdıq. Partlayışlardan hava gündüz kimi işıqlandı. Həmin gecə düşmənin fəndlərindən biri işıqlı güllələrdən istifadə etmək idi. Bu güllə yalnız işarə vermək və ya güllənin istiqamətini göstərmək üçün idi, düşmənsə bütün pulemyotlarına işıqlı patronlar qoyub bundan vahimə yaratmaq üçün istifadə edirdi.

İŞİD hücumdan qabaq maşınlarımızı vuraraq hamımızın diqqətini qarşı tərəfə yönəltmiş, bu fürsətdən istifadə edib təpələrin başına bir neçə pulemyot yerləşdirmişdi. Əl qumbaraları partlayandan sonra düşmən pulemyotları dərhal atəşə başladılar. Təxminən 10-20 dəqiqə hətta nəfəs də ala bilmədik. İşıqlı güllələr uşaqların üz-başlarının yanından keçir, pulemyotlar yerlə göyü bir-birinə tikirdi. Başımızı qaldırsaydıq, dərhal vurulardıq. Şəhid Zülfüqar da həmin əməliyyatda vurulub şəhadətə qovuşdu.

Seyid İbrahim döyüşə girib düşmənlə üz-üzə vuruşurdu. Mən uşaqların bir qismi ilə birgə təpələrin arasında, pikap səngərinin yanındaydım. Mustafa bizim qarşımızda, zirvədə idi, bir az o tərəfdə də düşmən.

Uşaqlarımızın heç biri hara atəş açmalı olduqlarını bilmirdilər. Düşmən öz uşaqlarımızın arasına girdiyinə görə hamı qorxmuşdu, özümüzünküləri vurmaq ehtimalı da vardı.

Ratsiyadan Seyid İbrahimə dedim:

- Sənə qurban, bir hərəkət elə.

- Sizin önünüzdəki kanalın içi Doktor Dərviş mövqeyidir, - qısa pauzadan sonra dedi. – Aydındır?

- Hə.

- İşıqlı patronunuz var?

- Nə qədər istəsən!

- Düşmənin nüfuz yolu məhz o kanalın içindəndir. Doktor Dərviş mövqeyinə doğru bir daraq boşalt!

Yanımdakı uşaqlar Seyid İbrahimin səsini eşidib dedilər:

- Əbu Əli, oraya atəş açmayasan ha, özü də işıqlı güllələrlə! Hamımızı ölümə verərsən!

- Batalyon komandiri Seyid İbrahim deyir ki, atəş açın.

Mən israr, onlarsa etiraz edirdilər. Seyid İbrahim də ratsiya arxasında hirslənirdi:

- Əbu Əli, niyə vurmursan?

- Seyid can, bir dəqiqə gözlə.

Uşaqlardan aralandım, torpaq sipərin arxasından U şəkilli pulemyot səngərinə atıldım. Hündürlüyü təxminən 40 sm idi. Ratsiyadan dedim:

- Seyid can, hazırsınız?

- Hə, tez vur, gözləmə!

Silahı kanala tərəf döndərdim, əlimi tətiyə qoyub işıqlı patron dolu bir darağı kanalın ağzına boşaltdım. Birdən-birə bütün pulemyotlar mənə doğru çevrildi. Yerə yapışdım, güllələr başımın üstündən keçməyə başladı.

- Ay sağ ol! Bunu təkrarlayın, - deyə Seyid İbrahim ratsiyadan bildirdi.

- Seyid, deyəsən sənə ləzzət elədi, amma indicə məni vurub kəlləmayallaq edəcəklər.

Seyid bu əmrlə düşmən pulemyotlarını mənə doğru yönəltmişdi. Beləliklə, uşaqlara doğru atəş azaldı və onlar nəfəslərini dərə bildilər. Düşmən pulemyotlarının yeri də bilindi və bizimkilərin atəşi onlara yönəldi.

İkinci darağı hazırladım, iki dövrə diyirlənib yerimi dəyişdim və yenə kanalın girişini nişan aldım. İki-üç dəfə bunu təkrarladım və hər dəfə pulemyotlar mənə doğru çevrildi. Seyidin bu tədbiri effektiv oldu. Bəlkə də, o ağır şəraitdə seyiddən başqa biri olsaydı, məğlub olar və çoxlu itki verərdik.

Döyüş sübhə bir az qalana qədər davam etdi. Xoşbəxtlikdən, Seyid İbrahimin idarəçiliyi ilə hücumu uğurla dəf etdik, halbuki 70-dən çox şəhid verə bilərdik. Düşmən məğlub olub geri çəkildi. Mən fikirləşirdim ki, yəqin, uşaqların çoxu şəhid olub. Ancaq məlum oldu ki, iki-üç şəhidimiz və bir neçə yaralımız var. İŞİD isə çoxlu itki vermiş, döyüşçülərindən birinin cəsədini də orada qoyub getmişdi.

İŞİD qüvvələri cəsədləri aparmağa çox israrlı idilər, bundan ötrü canlarını da verirdilər. Bu əməliyyatda da həmin bir cəsəddən başqa hamısını aparmışdılar.

Dörd gündən sonra Hizbullah güclü hücumla irəliləyib özünü bizə yetirdi. Biz ehtiyat batalyonla yerlərimizi dəyişdik və uşaqlar istirahət üçün geriyə getdilər.

# 14

# Doqquzuncu səfər

**(12.08.15-23.10.15 – Şəhadət günü)**

Şəhidlərin həyatını oxuyur, onlar kimi olmağa çalışırdı. Suriyada olduğu təxminən üçillik müddətdə insanı hansı amillərin şəhadət məqamına ucaltdığını öyrənməyə və özünü o məqama yaxınlaşdırmağa çalışdı. Mustafa arzusuna çatsın deyə şəhidlərin həyatında oxuduqlarını üç il yaşadı, hər an onların izi ilə getdi. O, bu nəticəyə gəlmişdi ki, insan aşiq olmayınca şəhadət məqamına nail ola bilməz.

O deyirdi: "Allaha aşiq olmaqdan ötrü çox kiçik məsələlərə fikir verməli, onları yan-yana qoymalıyıq".

Bir dəfə məktəblilərlə söhbət edərkən dedi:

- Uşaqlar fikir vermisinizmi ki, hizbullahçı uşaqların bəzi xüsusiyyətləri var?

- Hansı xüsusiyyətləri? – uşaqlar soruşdular.

- Məsələn, məktəbdə hamı bayıra qaçanda hizbullahçı uşaq dayanıb axırda çıxır ki, heç kimə dəyməsin, üzərində kiminsə haqqı qalmasın. İnsan Allaha aşiq olanda belə xırda məsələlərə fikir verir. Bunlara görə insanı alırlar, insan ucalır. İnsan aşiq olmayınca şəhadətə də nail ola bilmir!

# *Beşinci çanta*

**Xanım İbrahimpur**

İmam Sadiqin (ə) şəhadət günü idi. Dəfn üçün iki naməlum şəhid gətirəcəkdilər. Səhər yuxudan oynan kimi atam zəng edib dedi:

- Şəhidlərin dəfninə gedirik. Getmək istəyirsən?

- Hə, amma qoy Mustafaya zəng edim, görüm nə deyir.

Mustafadan soruşanda dedi: "Getmək istəyirdim, amma çatıb-çatmayacağımı bilmirəm. Sən mütləq get, mən də çatsam, gələcəm".

Dəfndən sonra Mustafaya zəng etdim, dedi ki, evdəyəm.

Evə gedib gördüm ki, süfrə yerdədir, Mustafa da mətbəxdə oturub.

- Burada niyə oturmusan? – deyə soruşdum.

- Səhər yeməyi yeyirdim.

- Bəs süfrəni niyə yığışdırmamısan?

- Elə-belə.

Otağa paltarımı dəyişməyə gedəndə şkafın qapısının səhv bağlandığını görüb dərhal bildim ki, nəsə xəbər var. Şkafa baxdım ki, görüm paltarları azalıbmı.

Həmişə getməzdən öncə mənə deyirdi ki, bəlkə, getdim. O, çox yaralanmışdı. Hər dəfə xəstəxanadan çıxanda üstünə VIP yazılmış qara çanta verirdilər. Beş belə çantası vardı, yəni beş dəfə xəstəxanada yatmışdı. Bir dəfə də yaralanmış, amma xəstəxanada yatmamışdı.

Gördüm ki, xəstəxana çantalarının dördü yerindədir, biri isə yoxdur. Mətbəxin qapısının ağzında dayandım, silah götürürmüş kimi əlimi belimə aparıb dedim:

- Çanta hazırlamısan!

Adətən bir şeyi inkar edəndə gülümsəyirdi. Təbəssümlə dedi:

- Kim deyir çanta hazırlamışam?

- Mustafa, sən çanta hazırlamısan!

- Yox! Hanı? Mən çantaya əl vurmamışam.

- Mustafa, sən çanta hazırlamısan! – yenə dedim.

- Vallah, gərək adını Təhlükəsizlik nazirliyinə verib deyim ki, bundan istifadə edin, istedadı hədər gedir. Sən Allah, hardan bildin?

- Çantaların biri yoxdur.

- Sən hər dəfə şkafı açanda əşyaları sayırsan? – deyə təəccüblə soruşdu.

Xahişlə soruşdum ki, çanta haradadır? Dedi ki, göndərdim, getdi.

- Mustafa, düzünü de, çanta hanı?

- Uşaqlar apardılar düşərgəyə.

- Heç eybi yoxdur!

Söhbət gülüş və zarafatla bitdi.

Həmin gün günorta yeməyinə anamgilə getdik. Yolda ona dedim:

- Mustafa, sən bu qədər getmək istəyirsən, heç məni düşünmürsən? Bilirsən o dəfə nələr çəkdim?!

- Allah böyükdür! Sən əsla fikir eləmə, narahat olma.

- Narahatlıq məsələsi deyil; istəyirəm ki, yanımda olasan, - deyə ağlamağa başladım, sonra əlavə etdim: - Evin həm kişisi, həm qadını olmaqdan yorulmuşam. İstəyirəm həyatımda elə gün olsun ki, birdən gedərsən deyə fikir və stresim olmasın. Evin yalnız qadını olmaq, qadın işləri görmək istəyirəm, kişi işlərini sevmirəm.

- Gərək gedim. Orda mənə ehtiyac var!

Həmin gün birlikdə gəzməyə də getdik. Suriyada tanış olduğu şimallı bir dostu ona zəng elədi. Nə dediyini soruşanda dedi: “Gələn həftənin cümə axşamı günü

dostumun toyudur, bizi şimala dəvət etdi. Hazırlaş, birlikdə gedəcəyik".

İki gündən sonra səhər dedi ki, saat 4-də gələrəm, həkimə gedərik. Bir neçə gün idi həkimə getmək istəyirdim. Günorta zəng edib dedim ki, haradasan, axı həkimə getməliyik.

- Mənim bir işim çıxdı, gələ bilməyəcəyəm, - dedi.

- Mən həkimdən vaxt almışam.

- Mən gedirəm.

- Hara? Bəs bizi toya çağırmışdılar!

- Heç nə olmaz.

Qışqırıb dedim ki, mən həkimə getməliyəm. Dedi ki, gəl "Azadlıq"a, mən də gəlim, birlikdə gedək.

Kohənzdən Şəhriyara getdim, oradan "Azadlıq"a gedən marşrut taksi dayanacağına getmək istəyəndə zəng edib dedi:

- Əzizim, hardasan?

- Şəhriyardayam, "Azadlıq" maşınlarına minirəm.

- Bağışla, mən gələ bilmirəm. Mümkünsə, özün get.

- Getmirəm. Mənə həkim lazım deyil!

- Sən Allah, tərslik eləmə.

- Yox, getmirəm, - deyib evə qayıtdım.

Yenə zəng edib dedi:

- Sən Allah, bağışla, səndən xəcalətliyəm.

- Olmaması gərəkən şey oldu. Mənim sağlamlığım sənin üçün mühüm deyilmiş!

- Vallah, sənin sağlamlığın mənimçün birinci dərəcəli məsəlidir, amma burda mənə çox ehtiyacları var.

Qısası, anamgilə gedib dedim ki, Mustafa getdi; Məhəmmədəlini götürüb evimizə gəldim.

## Əmanət olsun

**Xanım İbrahimpur**

Mustafa deyirdi ki, çəkdiyin bütün əziyyətlərə görə bir dəfə gəlib Suriyanı görməni istəyirəm. Həmişə deyirdi ki, Zeynəbiyyə çox qəşəngdir; xüsusən də döyüşçülər gecələr hərbi formada və əllərində silah xanımlarıyla əl-ələ tutub orada gəzişirlər. İstəyirdi ki, mən də gedim və Zeynəbiyyədə birlikdə gəzişək.

Məhəmmədəlinin pasportuna görə çox çətinlik çəkdim. Avqustun istisində səhər saat 8-dən idarələrə gedirdim.

Suriyada təyyarədən enəndən sonra ona dedim:

- Kaş bu pasportu özün alaydın! Mən çox əziyyət çəkdim.

- Mən həzrət Zeynəbin hərəminə gəlmək üçün çox çətinlik çəkmişdim, gərək sən də çəkəydin.

Mən şəhid ailələri ilə bir qrupda Suriyaya getdim. Yolboyu fikirləşirdim ki, Mustafaya yaxınlaşsam, ya Mustafa Fatimənin əlini tutsa, şəhid xanımları hansı hissləri keçirərlər?!

Yoxlanış çıxışından çıxanda Mustafa salam verdi, mən çox adi şəkildə salamını aldım. Fatimənin əlindən tutmaq istəyəndə əlinin üstündən vurub onları ayırdım.

- Niyə belə edirsən? – dedi.

- O uşağı görürsən? Atası yoxdur. Sizi görsə, qəlbi sınar.

- Düz deyirsən. Mən niyə fikir vermədim?!

Aramızda bir itkin anası vardı, oğlunun şəhid olduğunu, yoxsa əsir düşdüyünü bilmirdi. Mustafa adını soruşdu, sonra telefonunda əsirlərin görüntülərini göstərdi. Evə gələndə çox sevinirdi.

- Nə oldu? – deyə soruşdum.

- Oğlunu əsirlərin arasında görüb sevindi, bildi ki, əsir düşüb.

Dörd gün Suriyada qaldıq. Mustafa əvvəldən axıra qədər yanımızda oldu. Zeynəbiyyəyə ziyarətə gedirdik. Bazara alış-verişə də getdik.

## *Yetmiş gün*

**Xanım İbrahimpur**

Tasuaya iki gün qalırdı. Sürücülük kursuna getdiyim yerdə Mustafa zəng edib dedi ki, mənə zəng elə. Zəng edəndə soruşdu:

- Hardasan?

İstədim deməyəm, amma yalan söyləyə bilmirdim. Dedim ki, bayırdayam.

- Harda? Nə edirsən?

- Sürücülük kursuna gəlmişəm.

- Afərin! Sağ ol.

- Sənin əlindən buna da məcbur oldum.

- Mən haçandır deyirəm ki, get, amma qulaq asmırsan.

Mustafa çoxdandı deyirdi ki, get sürücülüyü öyrən, mənsə düşünürdüm ki, bunu öyrənməsəm, o, yanımda daha çox qalar.

- Sən hardasan? – deyə soruşdum.

- Düşərgədə. Uşaqlara təlim keçirik. Narahat olma, bura təhlükəsizdir, - dedi, az sonra isə əlavə etdi: - Uşaqların biri yuxuda həzrət Zəhranı (ə) görüb. Xanım ona deyib ki, birinci mərhələni idarə edin, sonrakılarda özüm komandiriniz olacağam. Enerjimiz çox yüksəldi.

- Birinci mərhələni bitirdiniz?

- Hə, bitib, bundan sonrasını bibinin özü həll edəcək.

- Sən altmış gün demişdin, amma yetmiş gün oldu. Daha bəsdir, Mustafa, gəl!

- Fuə və Kəfəriyanı azad edək, gələcəyəm.

## *Tasua qanadlanması*

**Mürtəza Ətayi**

Təxminən 45 nəfərlə Sabiqiyyə şəhərindən yola düşüb əl-Qərasini azad etməli idik. Şəhərdən 2 km aralıda Üçbucaq bağ adlı bir zeytun bağı vardı. Uşaqlar oradakı bir neçə səngərə yerləşdilər.

Bir-iki gün idi Seyid İbrahimin sistemi tamam qarışmışdı. Xüsusi haldaydı. Uşaqların biri deyirdi ki, şəhid olmağa ləyaqəti olanların halı fərqli olur. Seyid İbrahim son zamanlar çox fikirli idi. Hücuma keçəndə ona dedim: “Seyid İbrahim, beynin məşğuldur, nə olub?” Bir söz demədi.

## *Günəş altında qəribcəsinə*

**Mürtəza Ətayi**

Əl-Qərasidə vəziyyət ağırlaşdı və düşmənin hansı tərəfdən atəş açdığı bilinmədi. İki-üç istiqamətdən başımıza güllə yağırdı. Uşaqlar səngərlərdə qalmışdılar, irəli getmək üçün hücum əmrini gözləyirdilər. Hava təzə işıqlaşmışdı.

Mustafa o vaxta qədər dua və zikrlərini təklikdə deyərdi, həmin gün isə cibindən vərəq çıxarıb dedi: “Uşaqlar, gəlin Aşura ziyarətnaməsi oxuyaq!” Birlikdə olduğumuz bir ildən artıq müddətdə heç vaxt ümumi yerdə Aşura ziyarətnaməsi oxumamışdı.

Tasua səhərində, güclü partlayışlar və onun ziyarətnamə səsi altında video çəkdim. Üzərinə “ya Seyyidəş-şühəda”

yazılmış mavi alın lenti də başındaydı. Onu mən hədiyyə vermişdim. Orada olmayan xüsusi şeyləri ona hədiyyə edirdim. Hələ ziyarətnamənin ortasına çatmamış halı dəyişdi, ağladı və vərəqi başqasına oxumağa verdi.

Aşura ziyarətnaməsini oxuyandan sonra atəş də bir qədər səngidi və biz əl-Qərasiyə doğru yola düşdük. Bu əməliyyat çox böyük əməliyyat idi, Hacı Qasimin özü də daxil olmaqla böyük komandirlər ona nəzarət edirdilər.

Düşmən qarşımızdakı əkin sahələrini sanki ot biçirmiş kimi alçaqdan atəşə tuturdu və biz irəliləyə bilmirdik.

Əl-Qərasi şəhəri çökəkdə yerləşirdi, bütün ətrafı təpələrdən ibarət idi. Həmin təpələrin birinin başında şəhərə baxan bir ev vardı. Biz o evi təmizləyib içinə yerləşdik. Təxminən iyirmi nəfər evin həyətindəydik, qalanı onun ətrafına səpələnmişdi. Şəhərə girmək üçün yol axtarırdıq.

- Gəl geri çəkilib düşmənin aşağısındakı kanalla şəhərə girək, - deyə Seyid İbrahimə bildirdim.

- Gec tərpənsəniz, düşmən təşəbbüsü ələ alacaq. Gərək onu düşünməyə qoymayasınız. Tez yola düşüb şəhərin divarlarına yapışın.

Şəhərin birinci evlərinə qədər təxminən 200 metr məsafəmiz vardı. Seyid İbrahim o evlərə getmək istəyəndə çağırıb dedim:

- Seyid İbrahim, hara gedirsən? Görmürsən atəş açırlar?!

Bir-iki dəfə beləcə getmək istədi. Ona dedim:

- Seyid, belə hərəkət edə bilmərik; xeyri yoxdur. Sən batalyon komandirisən, uşaqları idarə etməlisən.

Ondan sonra uşaqların bir-ikisi yola düzəldi. Güclü atəşə görə girə bilmədik. Yer düz və düşmənin atış məsafəsindəydi, getmək olmurdu. Birdən uşaqların biri Seyid İbrahimə demədən getdi. Bilirdi ki, desə, icazə verməyəcək. Sürətlə getdi, düşmən də pulemyotu ona

tuşladı. Amma problem yaranmadı, ətrafına bir neçə güllə dəydi və o, özünü evlərin divarına yetirdi.

Seyid İbrahim onun tək getdiyinə çox həyəcanlanıb dedi:

- Əgər indi ona kömək etməsək, ya əsir düşər, ya da vurarlar.

Dözə bilmir, özünü evlərə yetirmək istəyirdi.

- Sən komandirsən, - dedim, - əgər başına bir iş gəlsə, uşaqlar ruhdan düşərlər.

Nəhayət, su borularının yanından bir cığır tapdıq, oradan gedib iki evi ələ keçirdik. Bir-biri ilə məsafələri 20 metr idi, düşmən də qarşımızdaydı, evlərin arasındakı yola nəzarət edir, bizə doğru atəş açırdı. Şəhər təmizlənməmişdi, düşmənin hansı evlərdə olduğunu bilmir, ehtiyatla hərəkət edirdik.

Təxminən 15 dəqiqə orada gecikib yol axtardıq. Təpənin başından, şəhərin arxasından yola düşdük. Uşaqları çuğundur və badımcan sahələrindən və çay yatağından keçirib şəhərə girdik, birinci divarı ələ keçirdik. Təxminən 20 ev təmizləndi. Seyid İbrahimlə və uşaqların bir qismi ilə birlikdə bir evin arxasına yerləşdik. Uşaqların beş-altısı da bizdən 15 metr aralıda başqa bir evin arxasına yerləşdi. Düşmən qarşıdan atəş açırdı və biz irəliləyə bilmirdik.

Seyid İbrahim yol tapmaq üçün bir neçə dəfə evin arxasına gedib-gəldi. İki ev arasında get-gəl mümkün deyildi; ya gərək sürətlə qaçaydıq, ya da əvvəlcə təpəyə qalxıb oradan o biri evə enəydik.

Evlərin birinin pəncərəsindən gizlicə içəri girib düşmən pulemyotunun yerini öyrənmək üçün ətrafı yoxladım, amma heç nə tapmayıb məyus halda qayıtdım. Seyid İbrahimin olduğu yerə getmək istəyəndə Kumeyl[31] qışqırıb:

---

[31] Üç güllədən yaralanmış və gözləri çıxmış Fatimiyyun döyüşçüsü

- Getmə! Getmə! – dedi, sözünə qulaq asmadığımı görüb əlavə etdi: - Seyid İbrahimi vurdular!

- Nə deyirsən? – heç nə anlamadan, belə bir şey barədə düşünə bilmədən təəccüblə dedim.

- Seyid İbrahim ordadır, güllə ilə vurdular!

İnana bilmirdim. Baxıb gördüm ki, yerə uzanıb, üzündə də bir çəfiyə şalı var. Qeyri-ixtiyari olaraq ona doğru qaçdım, şalı götürəndə sanki dünya başıma uçdu.

Tasua günü günorta çağı idi. İmam Hüseynin (ə) "indi belim sındı" sözünün nə demək olduğunu orada anladım. Həqiqətən, belim sındı, dizlərimin taqəti çəkildi. O, mənə qardaş kimi idi. Başımı yaxınlaşdırıb üzünü öpməyə başladım.

Vəziyyət ağır idi, uşaqlar ruhdan düşmüşdülər. Düşmənin təzyiqi də anbaan artırdı. Seyid İbrahimin cəsədi qəribcəsinə günəşin altında qalmışdı, onu geri aparmaq olmurdu. Uşaqları necə geri çəkmək barədə düşünürdüm. İş ağırlaşmışdı. Əgər geri çəkilsəydik, Seyid İbrahimin cəsədinin düşmənin əlinə keçmə ehtimalı yüksəkdi.

Mən özümü toparlaya bilmirdim. Şeyx Məhəmməd yaxınlaşıb dedi:

- Əbu Əli, qalx! İndi uşaqlar sənə baxırlar. Seyid İbrahim vəsiyyət edib ki, ondan sonra işi sən üzərinə götürəsən.

Nə qədər dedisə, xeyri olmadı. Dizlərimdə qalxmağa taqət qalmamışdı.

Şeyx Məhəmməd qışqırdı:

- Uşaqları ruhdan salırsan! Özünü toparla! Seyid də belə olmana razı deyil!

Çətinliklə olsa da, seyidi qaldırıb geriyə apardım, əl-Qərasidə ilk ələ keçirdiyimiz ev olan logistika mərkəzinə yetirdim. Uşaqlar gəlib kömək etdilər, rövzə oxuyub ağladılar. Axşama qədər gözlədik, çünki gündüz onu apara

bilməzdik. Uşaqlar Seyid İbrahimin cəsədi olan evə çox gedib-gəldiklərinə görə düşmən oranı vurmağa başladı. 23 çaplı mərmilərlə dəli kimi atəş açırdı. Evin divarlarında beş-altı dəlik açdılar. Dama yerləşdirdiyimiz pulemyotçuların üz-başlarına o qədər parçalanmış daş qırıqları dəydi ki, dözə bilməyib aşağı atıldılar. Tez evdən çıxıb mövqe seçdik, axşam düşəndə Seyid İbrahimi ədyala büküb geriyə göndərdik, özümüzsə orada qaldıq.

## *Həsəni görürəm*

**Məryəm Tərəbi**[32]

Ağa Mustafanın şəhid olduğu günün videosunu gördüm. Komandirlərinin biri göndərmişdi. O deyirdi ki, həmin gün səhər təxminən saat 9-da birdən mənə dedi: "Həsəni görürəm". Elə bildim ki, zarafat edir. Dedi: "Həsəni görürəm; qarşımda dayanıb deyir ki, günortaya qədər yanımdasan. Hacı, Həsənin anasıgil üçün çox darıxmışam!" Döyüş yoldaşı telefonuyla çəkdi, ağa Mustafa oradan bizə salam göndərdi, dua etməmizi istədi. Hacı ilə və uşaqlarla bir-bir danışdı. O videonu göndərib dedilər ki, şəhadətindən iki saat qabaq çəkilib.

## *Mustafasız*

**Mürtəza Ətayi**

Seyid İbrahimin şəhadətindən sonra əl-ayağımızı yığdıq. Şeyx Məhəmmədin sözləri də uşaqlara çox yaxşı təsir etdi. Namazdan sonra hücuma keçdik, düşmən təzyiqimizi görüb geri çəkildi. Sağ cinahımızdan da kömək gəldi və əl-

[32] Hərəm müdafiəsi zamanı şəhid olmuş Həsən Qasimidananın anası

Qərasini azad etdik. Sonra bölgəni əvəzedici qüvvələrə təhvil verib qayıtdıq.

Öz birləşməmizə getdim. Daha ağlamağımın qarşısını ala bilmirdim. Uşaqlar qanlı üst-başımı görüb nə baş verdiyini soruşdular. Mən bir neçə gün qabaq onlarla söhbət etmiş Seyid İbrahimin şəhid olduğunu söylədim. Uşaqlar onu çox sevmişdilər. Mənə təskinlik verib deyirdilər: "Ay kişi, Tasua günü şəhid olmaq hər adama qismət olmur! O, buna layiq görülüb".

Seyidin şəhadətindən sonra ona danışdığım yuxu yadıma düşdü. Bir dəfə Şeyx Məhəmmədlə və Seyid İbrahimlə birlikdə oturanda dedim:

- Yuxuda gördüm ki, birlikdə Kərbəladan qayıdırıq.

- Mən gördüm ki, piyada gedirəm, sən də qayıtdığınızı görmüsən, - Seyid İbrahim dedi. - Güman ki, məni orada qoymusunuz.

Fikirləşdim ki, necə biz ikimiz qayıtdıq, Seyid İbrahimsə qaldı?

- Bəs belə! – ona dedim. – Deməli, həzrət Zeynəbdən icazəni almısan, eləmi?

- Mənim antişəhadətim var, arxayın ol, - dedi, sonra zarafata başlayıb əlavə etdi: - Mən çox pis adamam, kimi daha çox sevirəmsə, güllə qabağına göndərirəm. Bu Əbu Əlini çox istədiyimə görə deyirəm ki, qoy gedib şəhid olsun.

Sonra uşaqlar gəldilər və hərə bir söz dedi. Bu hadisə yadıma düşəndə seyidin yuxusunun yozumunu çox gözləyirdim, ümidim vardı ki, şəhadət mənə də qismət olar.[33]

---

[33] Şəhid Ətayi şəhadətindən bir neçə gün öncə Seyid İbrahimə müraciətlə bir mətn paylaşmış, həsrətlə ondan vədinə əməl etməyi və özünün də şəhidlərə qovuşmasını istəmişdi. Onun bu istəyinin həyata

# *Şəhid olsa, bütün Suriya bilər*

**Əmirhüseyn Hacınəsiri**

Tasua günü idi. Mənə tapşırıq verilməmişdi, Fatimiyyunun Qərasini almağa getdiyini də bilmirdim. Artilleriya səsini eşidəndə bildim ki, əməliyyat başlayıb. Bir dövrə vurub nə baş verdiyini görmək üçün motosikletə mindim. Yolda dostum Məhəmməd Nəddafı gördüm.

- Seyid İbrahimə nəsə olub? – deyə soruşdu.

- Yox.

- Eşitdim şəhid olub.

- Yox, əşi, Seyid İbrahim şəhid olsa, bütün Suriya bilər; onu hamı tanıyır.

Tibb məntəqəsinə getdim. Tez-tez şəhid və yaralı gətirirdilər. Həyəcanlandım, bildim ki, haradasa problem yaranıb. Uşaqların biri ağlaya-ağlaya mənə and verib dedi: "Sənin motosikletin var; Höccət Əsğəri qalıb, gedək cəsədini gətirək".

Motosikletə minib getdik və Höccəti gətirdik.

Bizim qüvvələrimiz geri çəkilirdi. Düşmən hər nəfərimiz üçün bir zireh əleyhinə raket atırdı. Tasua günü çox ağır gün idi.

---

keçməsi çox çəkmədi. Ərəfə günü günorta saat 13:30-da onun qisməti də yazıldı. O, Laziqiyyədə boğazından vurularaq şəhadətə qovuşdu. Əbu Əlinin döyüş yoldaşı onun şəhadət tərzi barədə deyir:

"Biz düşmənə o qədər yaxındıq ki, qumbaralarını çəkəndə səsini eşidirdik. Düşmən nəyin bahasına olursa-olsun, mövqeyimizi ələ keçirmək istəyirdi. Əbu Əli özünü bizə yetirib qumbaraatan götürdü və yarımmetrlik bir hündürlüyün arxasından atəş açmağa başladı".

O, üçüncü atəşi açmağa hazırlaşanda düşmən snayperi ona doğru atəş açır və o, özünün öncədən dediyi tərzdə, yəni boğazından vurularaq şəhid olur.

Aşura günü Əmmarla birgə komandirlərin iclasına getdim. Axşam namazlarının arasında komandirindən Mustafanı soruşdum, şəhid olduğunu eşidəndən sonra isə heç nə eşitmədim. Dizlərim boşalmışdı, Əmmarla Kumeyl qoltuqlarımdan tutmuşdular. Mənə deyirdilər ki, İsmayıl, bunun üçün bura gəlmişik; bu gün Seyid İbrahim, sabah sən, birisi gün mən.

Heç olmasa, gedib onu görmək istədim. Məzarlıqda dedilər ki, olmaz. Zorla morqa – böyük konteynerə girdim. Dedilər ki, Seyid İbrahim konteynerin axırındadır, çıxarmaq üçün gərək şəhidlərin üstündən keçib hörmətsizlik edək. Beləliklə, onu görə də bilmədim. Fikirləşdim ki, daha Kohənzə qayıda bilmərəm. Axı hansı üzlə qayıdım; Mustafa şəhid olub, bizsə yaşayırıq. Həmin günlərdə dalbadal əməliyyatlar keçirilirdi. İşimiz o qədər çox idi ki, fikrimiz yayınırdı.

## *Şəhadət xəbəri*

**Məhəmməd Sədrzadə**

Mesajda yazılmışdı: "Seyid İbrahim güclü qanaxmadan Allahla görüşə nail oldu!"

Gəlinimin ata-anasına və gələnlərə bir-bir deyirdim, amma xanımına necə deyəcəyimizi bilmirdik. Gecə saat 12 və hava soyuq idi. Gəlinin anası dedi ki, mən naməlum şəhidləri ziyarət etməyə gedirəm. Gəlin dedi ki, mən də gəlirəm.

Bilirdilər ki, bu qədər get-gəl olduğuna görə nəsə baş verib, amma inanmaq istəmirdilər. Birlikdə naməlum şəhidlərin məzarı başına getdik. Qardaşı Səccad dedi ki, mən deyə bilmərəm. Atası dedi ki, mən də deyə bilmərəm.

Dedim ki, yaxşı, mən deyərəm. Şəhidlərdən də kömək istədim. Əvvəl onu hazırlayıb dedim:

- Bu şəhidlərin də hər birinin ata-anası, həyat yoldaşı vardı. Onlar da arzu edirdilər ki, şəhidlərinin məzarını görsünlər, onlarla dərdləşsinlər. Amma təəssüf ki, bunların cəsədləri itkin düşdü. Çox çətindir ki, kiminsə övladının və ya həyat yoldaşının cəsədi gəlməyə. Sən bu baxımdan bəxtəvərsən!

Sonra şəhadət mesajını mobil telefonumdan ona göstərdim, ağlamağa başladı.

## *Hara getsən, atan oradadır*

**Xanım İbrahimpur**

Hamımız düşünür, amma bu xəbəri Fatiməyə necə deyəcəyimizi bilmirdik. Dedim ki, heç nə deməyin, özüm deyəcəyəm.

Onu otağa aparıb qucaqladım və dedim:

- Qızım, bu iki il yarımda atana sözün olanda necə deyirdin?

- Ya mən zəng vururdum, ya sən zəng vururdun, ya atam zəng vururdu, ya da mesaj yazırdım.

- İndi sənə yaxşı bir xəbər vermək istəyirəm. Bundan sonra atana zəng vurmana ehtiyac yoxdur. Bundan sonra nə baş versə, hamıdan qabaq atan biləcək. Hara getsən, atan yanında olacaq, heç vaxt səndən ayrılmayacaq.

Bir qədər mənə baxdı, sonra kövrəldi, məni qucaqlayıb dedi:

- Yəni atam şəhid olub?

- Hə, şəhid olub, ölməyib.

Məhəmmədəli doğulandan sonra həmişə Mustafaya deyirdim: "Allah məni niyə belə imtahan edib,

Məhəmmədəlini mənə həzrət Əli Əsğərin doğum günündə verib?! Mən Aşura günü Məhəmmədəli ilə nə edəcəyəm?! Ona necə süd verəcək, onu necə qucağıma götürəcəyəm?!”

Allahın istəyi elə oldu ki, Aşura günü Məhəmmədəlini nə qucağıma götürdüm, nə də ona süd vermək haqda düşündüm. O, Aşura günündən quru süd içməyə başladı.

## *Ağlayış və gülüş*

**Sübhan İbrahimpur**

Əsla ağlaya bilmirdik. Adətən bir müddət keçəndən sonra məsələ adiləşir, Mustafada isə elə olmadı, dəfn olunduğu axşam Əbu Zəhra ilə gülürdük. Atam, bacım və Mustafanın bacısı da gülürdülər. Şəhid Rzayinin xanımı bacıma demişdi ki, ağla, o isə ağlamağı gəlmədiyini bildirmişdi.

## *Yaxşı hal*

**Məhəmməd Sədrzadə**

Mustafanın şəhadətindən iki gün sonra cümə imamı dedi ki, oğlun şəhid olub, halın necədir? Dedim ki, halım çox yaxşıdır. “Doğrudan?” – deyə soruşanda cavab verdim: “Hə, çox yaxşıyam. Mustafa getməli idi, Allaha şükür ki, şəhadətlə getdi”.

# *Şükür namazı*

**Həkimə Əfqəh**

Aşura axşamı halım yaxşı deyildi. Sübh azanına yaxın iki rükət namaz qılıb dedim: "Xudaya, Sənə minnətdaram! Onu 28 il mənə bağışladın! O vaxt gedəcəkdi, amma... Minnətdaram!"

İyirmi neçə il qabaq Tasua günü atamgildə rövzə məclisi vardı. Onda Mustafanı motosiklet vuranda nəzir elədim ki, ya həzrət Abbas, Mustafanı qoru, onu sənə əsgər edərəm. Söz verdim ki, onu Ələmdar Əbəlfəzə yaxşı əsgər edərəm. O da Tasua günü şəhid olub həzrət Abbasın yanına getdi.

# Son söz

“Əziz Mustafanı həzrət Zeynəbə hədiyyə etdik, əziz İslama hədiyyə etdik! Məktəb və məzhəbə, canımızdan əziz rəhbərə hədiyyə etdik! Məgər Xomeyni ardıcıllarının taleyi şəhadətdən başqa bir şeydir?! Mehriban Allahın razı olduğuna biz də razıyıq!

Sonda Allah-taaladan İmam Mehdinin (ə) zühurunu və əziz rəhbərimizin salamatlığını diləyir, əziz Mustafanın və bütün şəhidlərin pak ruhlarından istəyirik ki, bizi vilayəti-fəqih yolunda və Seyid Əli Xameneiyə itaətdə möhkəm saxlasınlar, bizi şəhidlərin qanını uca tutanlardan eləsinlər!

Vəssalamu ələykum və rəhmətullahi və bərəkatuh”.

Şəhid Sədrzadənin həyat yoldaşının şəhidin dəfnində çıxışından

# Vəsiyyətnamə

**Şəhid və siddiqlərin Rəbbinin adıyla**

Xudaya! Məhəmmədə və onun ailəsinə salam göndər! Lütfkarlıq edib bu qədər məxluq arasında bizi insan yaratmış Allaha şükür olsun!

Bu qədər insan arasında bizi İran adlı müqəddəs torpaqda yaratmış Allaha şükür olsun!

Mənə saleh ata, ana və həyat yoldaşı nəsib etdiyinə görə Allaha şükür olsun!

Şəhidlərin və şəhidlər imamının sevgisini qəlbimə salan və mənə Bəsicdə xidmət səadəti nəsib edən Allaha sonsuz şükürlər olsun!

Xudaya! Sənə hədsiz minnətdaram ki, Seyid Əli Xameneinin sevgisini qəlbimizə salmısan ki, müqavimət dərsini, dövrün yezidlərini tanıyıb onların önündə baş əyməmək dərsini öyrənək!

Vəsiyyətnamənin əvvəlində bütün dost-tanışlardan xahiş edirəm ki, yollarını azmamaq üçün Böyük Rəhbərin əmrlərinə qulaq assınlar; çünki o, dost və düşməni ən yaxşı tanıyan şəxsdir.

Əziz ailəmdən və atamdan istəyirəm ki, məndən ötrü dözümsüzlük etməsinlər və həddən artıq narahatlıq keçirməsinlər, göz yaşlarını İmam Hüseynə (ə) və o cənabın övladlarına təqdim etsinlər.

Atam, anam, həyat yoldaşım və qızım! Xahiş edirəm məni bağışlayın və Allahdan da məni bağışlamasını istəyin. Ata-anamın hüququna dair çox nöqsana yol vermiş, sizi çox əziyyətə salmışam. Sizin müharibə vaxtı məni hansı çətinliklə saxladığınızı, müharibədən sonra da təhsilim üçün nə qədər zəhmət çəkdiyinizi yalnız Allah bilir! Sizi nə qədər narahat etdiyimi, incitdiyimi yalnız Allah bilir! Siz də dözmüş, övladınızın aqibətinin xeyirli olmasına çalışmısınız. Həmişə seçimi özümə həvalə etdiyinizə görə sizə minnətdaram. Hətta yeniyetməlikdə təhsil üçün Nəcəfə getmək istəyəndə də etiraz etmədiyinizə, fikrimə həmişə hörmətlə yanaşdığınıza görə sizə minnətdaram. İndi sizdən xahiş edirəm ki, son olaraq bir daha fikrimə hörmət edin, heç kimdən və heç bir qurumdan inciməyin. Allah düşmənləri ilə vuruşmaq həmişə arzum olub. Yalnız Allah bilir ki, bu arzumu Ondan istəyərkən nə qədər fəryad etmiş, yalvarmışam. Sizə tənə vuranlara əhəmiyyət verməyin. Mənim getdiyim yola yəqinim var.

Əziz həyat yoldaşımdan istəyirəm ki, ona yaxşı həyat yoldaşı ola bilmədiyimə görə məni bağışlasın. Əziz həyat yoldaşıma demək istəyirəm: Bilirəm ki, qızım məndən sonra yetim qalacaq, siz əziyyət çəkəcəksiniz, amma yadında qalsın ki, Allah rəsulu (s) buyurub: “Kim yetim olsa, qəyyumu Allahdır”. İnan ki, Allah həmişə səninlədir. Arzum budur ki, qızım Fatimə fatiməçi kimi tərbiyə olunsun; yəni vilayətin mübariz müdafiəçisi olsun!

Dostlardan, tanışlardan, qohumlardan, boynumda haqqı olan hər kəsdən bu dəyərsiz bəndəni bağışlamasını

istəyirəm. Bilirəm, əxlaq və davranışım o həddə yaxşı olmayıb ki, şəhadət səadətinə nail olum. Nəsib olmuş bu şəhadət isə Allahın lütfü, mərhəməti və hədiyyəsidir.

Əziz İran xalqı! Yadımızda qalsın ki, bu ölkənin hər qarışı və İslam dini üçün nə qədər qan vermişik, nə qədər uşağımız yetim, qadınımız dul qalıb, nə qədər ananın qəlbi parçalanıb, nə qədər atanın gözü ağlayıb. Bunlar yalnız və yalnız Allahdan ötrü olmuşdur. Bu mübarək ramazan ayında bizim qəlbimiz sındı; İmam Mehdinin (ə) qəlbi isə daha çox sındı. Çünki şəhidlər ölkəsində bəziləri Allah ayının hörmətini saxlamadılar!

Mənim qardaş və bacılarım! Peyk anteni və çirkin Qərb mədəniyyəti insanı cəhənnəm alovundan başqa bir yerə aparmır. Bizdən deməkdi! Biz ki getdik!

Səni tanıyan canı neyləyir?!
Ailəni, uşağı, evi neyləyir?!
Dəli edib iki dünyanı verirsən,
Sənin divanən olan iki dünyanı neyləyir?!

Həzrət Zeynəb, Şamda qərib olduğun dövr bitdi. Daha heç kimə icazə vermərik ki, sizə və Hüseyn (ə) sülaləsinə hörmətsizlik etsin. Şiənin məzlumluq dövrü bitmişdir. Ya Zeynəb, “mən sizinlə sülh edənlərlə sülh edir, sizə qarşı vuruşanlarla vuruşuram”.

Səadət Allahdandır!
Mustafa Sədrzadə
26.07.13

# Mündəricat


Səni əsgər edəcəyəm ....................3
Otağı yandıraram ....................3
Daha narahat deyildim ....................5
Ziyanlı çərşənbə axşamı....................6
Bayram axşamının sürprizi....................7
Luçu güləşi....................7
Möhkəm sillə....................8
Tüklü bala itlər ....................8
Şimaldan köçmək....................9
Aktyor olmaq istəyirəm....................9
Meydan tələbəsi ....................11
Xarici dil....................11
Ləyaqətli 10 bal....................12
Olduqca istedadlı ....................12
Hövzə ....................12
Sınıq qulaqlar və əmmamə....................13
Hacı Mənsurun moizəsi....................13
Mədəni-tərbiyəvi iş ....................14
Mədrəsə otağı, şahmat, Şəcərian ....................15
Onun əvəzinə....................15
Çəkələklə Bəmə doğru ....................16
Bəm zəlzələsi ....................17
Nəsrullahın bağından oğurluq ....................17
Oğru qardaş....................19
Dinarabadlılar ....................20
Taekvondo ödənişi ....................21
Azançı, mükəbbir, məddah ....................22
Atadan mehriban ....................23
Yuvasını tanıyan göyərçin ....................25
Əliaçıq valideyn....................25
Yarılmış baş....................26
Saxta müqavilə....................27
Səngər yoldaşı....................30

Evlənmək istəyirəm ........ 30
Sənə nə?! ........ 31
Bəqərə surəsini oxuyun ........ 32
İki qızıl pul ........ 34
İlk çay ........ 34
Göydən gəlir ........ 35
Səngər yoldaşı ........ 36
İrfan qapılarını təpiklə açmaq ........ 37
Çənin dəliyi ........ 37
Nişandan sonra camaat namazı ........ 38
Mövlud Bayramı ........ 40
Salam, əzizim ........ 40
Bir ruh, üç bədən ........ 42
Yemək oğrusu ........ 43
Tələbə həyatı ........ 44
Oturmağa yer yox idi ........ 45
Toyda gözbağlayıcı ........ 45
Ruhullah yolunda ........ 46
Cizgi filmi, dondurma və Quran ........ 46
Burada vaxt keçirin ........ 47
Digər bayraqlar ........ 47
Mustafanın əziyyəti ........ 48
Ucadan ağlayırdı ........ 48
Praktik ideyalar ........ 49
Mustafanın görünən yeri ........ 50
Aşura ziyarətnaməsi ........ 50
Ov tüfəngi ........ 51
Mütaliə ........ 52
Ata kimi ........ 52
İqtisadi fəaliyyətlər ........ 54
Düyüsatan ........ 54
Böyük gəlir ........ 55
İmam kimi ........ 56
Ruzi vasitəsi ........ 56
Ürəkli və cəsarətli tacir ........ 57
Çörək verən idi ........ 57
Boşuna yatır ........ 58

Dağ kimi ....................................................................................59
Dəyirmanın yanında namaz .........................................................59
Abbas yolunda ...........................................................................60
Ezam yoxdur ..............................................................................60
İşimizi düzəltmirlər.....................................................................61
Aşpazlıq həvəsi ..........................................................................61
Yalnız pasport .............................................................................64
Qədr gecəsi.................................................................................65
Höccət tamamlamaq...................................................................65
Təkcə çantası keçdi ....................................................................66
Tilsim sındı..................................................................................69
Yatıb qaldım................................................................................71
Ürəkdə qalan həsrət....................................................................71
Təyyarəyə zəng ..........................................................................72
Aşpazxana məsələsi ...................................................................74
Sənə minnətdaram......................................................................76
Ehtiyat qapı.................................................................................77
Qocaların təyyarəsi ....................................................................78
Mustafadan xəbərsizlik...............................................................78
Qaçış əhvalatı .............................................................................78
Kumeyl batalyonunun döyüşçüsü ...............................................79
Komaya düşdüm .........................................................................80
Açar.............................................................................................80
Ey qapıları açan...........................................................................81
Cəmi min lirə ..............................................................................81
Damda yatmaq ...........................................................................82
Ağıl və eşq ..................................................................................83
Snayperin baxış bucağı ...............................................................86
Birdən qorxu................................................................................87
Sınaq ...........................................................................................88
Mühafizə mikroskopu..................................................................89
Sözəbaxan...................................................................................90
Sursat dolu bir villa .....................................................................91
Ruh düşkünlüyü...........................................................................92
Yaralı Məsud ...............................................................................92
İranlı iyi.......................................................................................92
Döyüş və barıt qoxusu ................................................................93

Hansı birləşmədənsiniz?....................................................94
Paltarların arasında hədiyyə ..............................................96
İkinci səfər ....................................................................97
Səfər krediti ...................................................................97
Hərə bir bəhanə ilə ..........................................................98
Mən və borcum ................................................................99
Qərb avtovağzalı .............................................................100
Birdən söyləmək ..............................................................100
Nəcəf-əşrəf, Seyidin evi ....................................................101
Əl-Rəsul küçəsində süpürgəçilik..........................................102
Okeanın ortasında ada .....................................................103
Yağ və badımcan .............................................................105
Dünyanın mərkəzi ............................................................106
Hizbullah mövqeyi............................................................107
Müdafiəçilərin Feysbuk hesabı ...........................................107
Meydan izni ....................................................................109
Şəhid olmaq istəmirəm .....................................................109
Mədəni-ideoloji problem ...................................................110
Hazır göz yaşları .............................................................111
Şəriət hökmü ..................................................................111
Məhərrəmə yaxın.............................................................112
İrani la mövcud ...............................................................113
İranlı olmaz.....................................................................115
Ey, ağa bəsici..................................................................116
Hərbçilik lovğalığı ............................................................119
Ayparanın üzü.................................................................120
Yalnız iki-üç iranlı.............................................................122
Hüceyrə Tasuası ..............................................................123
Mustafa kulliş muşkil.........................................................123
Zərihin yanındakı gecə .....................................................125
Hacı Qasim Mustafanı axtarır ............................................125
Yenə gələcəyəm ..............................................................126
27-ci xütbə......................................................................126
Dövləti rüsvay edirsiniz......................................................127
Bir neçə səhifə əfqanca .....................................................128
Başına dönüm, ana ..........................................................128
“Salehlər” konteyneri ........................................................129

Biz kimik ki?! ........ 129
Hüseyniyyə açaq ........ 130
Mustafanın qazancı ........ 131
Avtomat sürət qutusu ........ 131
Saxtakarlıq ........ 132
Üçüncü səfər ........ 134
Həzrət Zeynəbə görə ........ 134
Dəri dili ........ 135
Sən dua elə ........ 136
Bizim verdiyimiz icazə ........ 138
Səkkizaylıq ........ 138
Şolgərə ........ 139
Seyid İbrahimin adı ........ 140
Mustafanın döyüşçü nişanı ........ 141
Tələyə yaxın getmirdi ........ 142
Kimsə əlimi tutdu ........ 145
56 nəfər ........ 147
İki sünni ........ 148
Seyidin sirri ........ 148
Ondan bir işarə ........ 150
Cəmi bir neçə nəfər ........ 151
Ramusə küçələri ........ 154
Bu da bizim ruzimiz deyilmiş ........ 157
Qürbət hissi ........ 163
Yaralı üfüqü ilə camaat namazı ........ 164
Xanımın sıxıntısı ........ 164
Məhşərə kufəli qadınlarla getmək istəyirəm ........ 165
Bir il, hər cümə səhər saat 10 ........ 167
Səadətsizlik ........ 168
Dördüncü səfər ........ 170
Hərəmdə sıxışmışıq ........ 170
Sən razı ol ........ 172
Yaralı ayaqla ........ 173
Baş verərik, səngər vermərik ........ 173
Naməlum şəhidlərin məzarı ........ 173
Qərib Kohənz ........ 174
Beşinci səfər ........ 176

Tapşır Allaha ........................................................................ 176
Yuxu ........................................................................ 178
Zirvəyə qədər ........................................................................ 178
İrandan şantaj ........................................................................ 180
Komandirin israrı ........................................................................ 181
Altıncı səfər ........................................................................ 183
Şəhidlər şəhəri azad ediblər ........................................................................ 183
Nəhəng kimi bir şey ........................................................................ 185
Sərdar Süleymani ilə ........................................................................ 186
Təll-Qərində ilaxır çərşənbəsi ........................................................................ 187
Ühüd aşırımı ........................................................................ 188
Səngər düzəldən ........................................................................ 189
İsraillə müharibə üçün ........................................................................ 193
Utancaq, arıq və uzun saqqallı ........................................................................ 193
Birinci müavin ........................................................................ 197
Allaha şükür ki, oğru apardı ........................................................................ 197
2015-in Mustafası ........................................................................ 199
Yat, komandir ........................................................................ 201
Fətva ........................................................................ 202
Şəhid anasının vasitəçiliyi ........................................................................ 203
Getməyimin yaxşı təsirləri ........................................................................ 204
Şəhid olmaması üçün salavat ........................................................................ 204
Niyə şəhid olmursan? ........................................................................ 204
Yeddinci səfər ........................................................................ 205
Sabitqədəm ........................................................................ 205
Hacı Hüseynin hekayəsi ........................................................................ 208
Susuz dodaqlar ........................................................................ 211
Sən necə rəhimsizsən ........................................................................ 212
Nə az, nə çox ........................................................................ 213
Yardım xətti ........................................................................ 214
Ölüm avanqardı ........................................................................ 214
Beynəlmiləl komandir ........................................................................ 214
Hər işi görən ........................................................................ 218
Unutqan adam ........................................................................ 220
Sən haradasan? ........................................................................ 221
Tanış ayaqqabı ........................................................................ 221
Səkkizinci səfər ........................................................................ 222

Ana haqqı ........................................................................ 222
Can dostu ........................................................................ 222
Tədmur təpələri ........................................................................ 224
Doktor Dərviş mövqeyi ........................................................................ 226
Doqquzuncu səfər ........................................................................ 233
Beşinci çanta ........................................................................ 234
Əmanət olsun ........................................................................ 237
Yetmiş gün ........................................................................ 238
Tasua qanadlanması ........................................................................ 239
Günəş altında qəribcəsinə ........................................................................ 239
Həsəni görürəm ........................................................................ 243
Mustafasız ........................................................................ 243
Şəhid olsa, bütün Suriya bilər ........................................................................ 245
Şəhadət xəbəri ........................................................................ 246
Hara getsən, atan oradadır ........................................................................ 247
Ağlayış və gülüş ........................................................................ 248
Yaxşı hal ........................................................................ 248
Şükür namazı ........................................................................ 249
Son söz ........................................................................ 250
Vəsiyyətnamə ........................................................................ 251